AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ

# KMM

KONSTİTUSİYA MƏHKƏMƏSİNİN MƏLUMATI

**Bakı – 2025**

**AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI AZƏRBAYCAN RESPUBLİKASINDA ƏN YÜKSƏK HÜQUQİ QÜVVƏYƏ MALİKDİR**

**Azərbaycan Respublikası Konstitusiyasının
147-ci maddəsinin I hissəsi**


**TƏSİSÇİ:**

Azərbaycan Respublikasının
Konstitusiya Məhkəməsi

**1999-cu ildən nəşr olunur**

**Doxsan altıncı buraxılış**



**REDAKSİYA HEYƏTİ:**

Fərhad Abdullayev (Sədr),
Anar Babayev,
Nəzrin Paşayeva,
Tural Aslanov
Anar Hacızadə
İntiqam Eyvazov
Fidan Əlixanova

**BAŞ REDAKTOR**

Aynur Burcayeva

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN
Q Ə R A R I

**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 17, 18.2 və 18.3-cü maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair**

**12 yanvar 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Gəncə Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 17, 18.2 və 18.3-cü maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlərin nümayəndələri Gəncə Apellyasiya Məhkəməsinin hakimi E.Xasməmmədovun və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini S.Sultanovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının və Aparatının Hüquqi Təminat şöbəsinin, Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin, Bakı Apellyasiya Məhkəməsinin hakimi E.Rəhimovun və Azərbaycan Respublikası Baş Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəisi A.Osmanovanın mülahizələrini, ekspert Bakı

Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru G.Cəbinin rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N  E T D İ :**

Gəncə Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 17, 18.2 və 18.3-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 149-cu maddəsinin I hissəsinin və “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun 25.1-ci maddəsinin tələbləri baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, məhkəmənin icraatında olan inzibati xəta haqqında işin materiallarına görə, N.Əzizi şikayət ərizəsi ilə Gəncə şəhər Prokurorluğuna müraciət edərək bildirmişdir ki, Y.Səfərov ilə aralarında olan şifahi razılaşma əsasında 5 ay ərzində Gəncə şəhərində inşa edilən sosial binalara qaz xətlərinin çəkilişində çilingər işləmiş, lakin müəssisənin rəhbəri Y.Səfərov tərəfindən əmək haqqının bir hissəsi verilmədiyindən, barəsində qanunamüvafiq tədbir görülməsini xahiş etmişdir.

Ərizəçinin şikayəti üzrə Gəncə şəhər Prokurorluğunun 16 aprel 2022-ci il tarixli qərarı ilə Y.Səfərov barəsində cinayət işinin başlanması rədd edilmişdir. 25 aprel 2022-ci il tarixində isə Gəncə şəhər prokuroru tərəfindən “Yunisoğlu” Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – “Yunisoğlu” MMC) barəsində inzibati xəta haqqında iş üzrə icraatın başlanmasına dair qərar qəbul edilmiş və baxılması üçün Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsinə göndərilmişdir. Həmin Məhkəmənin 23 may 2022-ci il tarixli qərarı ilə “Yunisoğlu” MMC İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsi ilə nəzərdə tutulmuş inzibati xətanı törətməkdə təqsirli bilinərək 20 000 manat məbləğində inzibati qaydada cərimə edilmişdir. Həmin qərardan “Yunisoğlu” MMC tərəfindən Gəncə Apellyasiya Məhkəməsinə şikayət verilmişdir.

İşə apellyasiya qaydasında baxılarkən müəyyən olunmuşdur ki, Y.Səfərov “Yunisoğlu” MMC-nin təsisçisi və rəhbəridir, həmin müəs-

sisə Azərbaycan Respublikası Mənzil İnşaatı üzrə Dövlət Agentliyinin sifarişi əsasında Gəncə şəhərində inşa edilməkdə olan sosial profilli binalara qaz xətlərinin çəkilişini öz öhdəsinə götürmüşdür. Y.Səfərov işlərin görülməsi məqsədi ilə bir sıra işçiləri müqavilə əsasında əmək fəaliyyətinə cəlb etsə də, N.Əzizi ilə əmək müqaviləsi bağlamadan onu əmək fəaliyyətinə cəlb etmişdir. N.Əzizi "Yunisoğlu" MMC üçün çalışdığını bilməmiş, Y.Səfərov ilə şifahi razılaşaraq onun tapşırdığı işləri yerinə yetirmiş və bu səbəbdən o müəssisə barəsində deyil, fiziki şəxs olan Y.Səfərov haqqında prokurorluğa şikayət etmişdir.

Müraciətedən onu da qeyd edir ki, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Gəncə-Daşkəsən regional şöbəsinin 31 may 2022-ci il tarixli qərarı ilə Y.Səfərov vəzifəli şəxs olaraq İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsi ilə təqsirli bilinərək 3 500 manat məbləğində inzibati cərimə edilmişdir. İnzibati Xətalar Məcəlləsinin həmin maddəsinə əsasən, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə – fiziki şəxslər min manatdan iki min manatadək, vəzifəli şəxslər üç min manatdan beş min manatadək, hüquqi şəxslər iyirmi min manatdan iyirmi beş min manatadək məbləğdə cərimə edilir.

Müraciətedən hesab edir ki, təqsirkarın həm vəzifəli şəxs olaraq, həm də hüquqi şəxsin təmsilçisi olaraq eyni vaxtda, eyni məkanda və eyni hərəkətlərlə vahid inzibati xəta törətməsi halında hər iki şəxsin inzibati məsuliyyətə cəlb edilməsi ədalətsiz inzibati-hüquqi tədbir kimi qiymətləndirilə bilər. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 9.1-ci maddəsinə görə, inzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalı, yəni inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına və inzibati xətanı törətməkdə təqsirli bilinənin şəxsiyyətinə uyğun olmalıdır.

Eyni zamanda bu hal Konstitusiyanın 149-cu maddəsinin normativ hüquqi aktların hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı olması barədə tələbi ilə də ziddiyyət təşkil edir.

Müraciətedənin qənaətinə görə, hazırkı mübahisəyə tətbiq edilməli olan İnzibati Xətalar Məcəlləsinin 17 və 18-ci maddələrində nəzərdə tutulan vəzifəli şəxslərlə hüquqi şəxslərin inzibati məsuliyyətə cəlb

edilməsinin əsasları arasında qeyri-müəyyənlik, habelə 18.3-cü maddəsinə əsasən, bir əmələ görə həm hüquqi şəxsin, həm də vəzifəli şəxsin inzibati məsuliyyətə cəlb edilməsinə hansı hallarda yol verilməsi ilə bağlı fikir ayrılığı olduğundan, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən yuxarıda sadalanan normaların şərh edilməsi zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

İnzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir (İnzibati Xətalar Məcəlləsinin 2-ci maddəsi).

İnzibati Xətalar Məcəlləsinin 4-cü maddəsində inzibati xətalar qanunvericiliyinin prinsiplərindən bəhs olunur. Belə ki, Məcəllə insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır.

Həmin Məcəllənin 6.1-ci maddəsinə müvafiq olaraq, inzibati xətaya görə inzibati tənbeh bu Məcəlləyə uyğun olaraq tətbiq edilir.

İnzibati məsuliyyətin subyektləri inzibati xəta törədərkən on altı yaşı tamam olmuş anlaqlı fiziki şəxslər, vəzifəli şəxslər və hüquqi şəxslərdir.

İnzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalıdır, yəni inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına və inzibati xətanı törətməkdə təqsirli bilinənin şəxsiyyətinə uyğun olmalıdır. Bir inzibati xətaya görə heç kim iki dəfə inzibati məsuliyyətə cəlb oluna bilməz (İnzibati Xətalar Məcəlləsinin 9-cu maddəsi).

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsinin həmin Məcəllənin 9.2 və 35-ci maddələri baxımından şərh edilməsinə dair" 2018-ci il 4 sentyabr tarixli Qərarında İnzibati Xətalar Məcəlləsinin 9-cu maddəsi ilə bağlı formalaşdırdığı hüquqi mövqeyi ondan ibarət olmuşdur ki, ədalətlilik prinsipi özünün fərqləndirici meyarı ilə inzibati xəta sayılan əməl və başqa hüquq pozuntuları arasında sərhəd müəyyən edir. Bu prinsip inzibati xəta sayılan əmələ görə qanun qarşısında xəta törətmiş



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

hər bir şəxsin məsuliyyətini müəyyən etməklə, inzibati məsuliyyətin həcminin mütənasibliyini müəyyənləşdirir. İnzibati xətanın növlərinə görə tənbeh nəzərdə tutan maddələr isə ədalətlilik prinsipini rəhbər tutaraq fərdiləşdirici ölçüləri müəyyən edir.

İnzibati Xətalar Məcəlləsinin 3-cü maddəsinə müvafiq olaraq, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş inzibati xətanın törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur.

Göründüyü kimi, şəxsin inzibati məsuliyyətə cəlb olunması və tənbeh edilməsi üçün bu maddədə sadalanan şərtlərin (inzibati xətanı nəzərdə tutan normanın, təqsirin və inzibati xəta tərkibinin digər əlamətlərinin) mövcudluğu mütləq zərurətdir.

İnzibati Xətalar Məcəlləsinin 12-ci maddəsinin tələbinə əsasən, bu Məcəllə ilə qorunan ictimai münasibətlərə qəsd edən, hüquqazidd olan, təqsirli sayılan (qəsdən və ya ehtiyatsızlıqdan törədilən) və inzibati məsuliyyətə səbəb olan əməl (hərəkət və ya hərəkətsizlik) inzibati xəta hesab olunur.

Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin təqsiri bu Məcəllədə nəzərdə tutulmuş qaydada sübuta yetmədikdə və bu, inzibati xəta haqqında iş üzrə icraata baxmış hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qüvvəyə minmiş qərarı ilə müəyyən edilmədikdə o, təqsirsiz hesab edilir. İnzibati məsuliyyətə cəlb olunmuş şəxs öz təqsirsizliyini sübut etməyə borclu deyildir. İnzibati məsuliyyətə cəlb olunan şəxsin təqsirli olması barəsində şübhələr onun xeyrinə həll edilir (İnzibati Xətalar Məcəlləsinin 8-ci maddəsi).

Nəzəriyyədə təqsir dedikdə, şəxsin törətdiyi ictimai təhlükəli əmələ və onun nəticələrinə qəsd və ya ehtiyatsızlıq formasında psixi münasibəti nəzərdə tutulur. Təqsir şüur və iradə kimi psixoloji elementlərin məcmusudur və bu elementlər müvafiq olaraq ictimai təhlükəli davranışın əqli və iradəvi tərəflərini təşkil edir.

Bununla belə, inzibati xətanın subyektləri fərqli, yəni fiziki, vəzifəli və hüquqi şəxslər olduğundan, bu sahədə qanunvericiliyin ümumi prinsipləri həmin subyektlərin özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla realizə olunur.

Belə ki, hüquqi şəxs müvafiq psixoloji elementlərə malik olmadığından, onun təqsiri fiziki və vəzifəli şəxslərin təqsirindən fərqlənir.

İnzibati Xətalar Məcəlləsinin müvafiq normalarının əlaqəli təhlili belə nəticəyə gəlməyə əsas verir ki, hüquqi şəxsin təqsiri inzibati xətanın törədilməsinin səbəbkarı olan nümayəndəsinin təqsiri ilə eyniləşdirilməsə də, onunla sıx əlaqədardır.

Burada onu da nəzərə almaq lazımdır ki, subyektləri həmçinin hüquqi şəxslər olan İnzibati Xətalar Məcəlləsinin Xüsusi Hissəsi ilə nəzərdə tutulmuş əməllərin bəziləri (məsələn, Məcəllənin 388.0.4, 492-ci maddələri ilə nəzərdə tutulmuş əməllər) yalnız qəsdən törədildikdə inzibati xətanın tərkibi yaranır.

Həmin Məcəllənin 13-cü maddəsinə əsasən, inzibati xəta törətmiş şəxs öz əməlinin (hərəkətinin və ya hərəkətsizliyinin) hüquqazidd xarakterini dərk etmiş, onun zərərli nəticələrini qabaqcadan görmüş və bunları arzu etmişdirsə, yaxud belə nəticələrin baş verməsinə şüurlu surətdə yol vermişdirsə, bu xəta qəsdən törədilmiş xəta hesab olunur.

"Arzu etmək", "şüurlu" kimi kateqoriyalar hüquqi şəxs üçün səciyyəvi olmadığından, inzibati xətanın subyektiv cəhətinin zəruri əlaməti kimi hüquqi şəxsin təqsiri onun vəzifəli şəxslərinin təqsiri ilə əlaqədə müəyyən edilir.

Beləliklə, hüquqi şəxsin inzibati xəta üzrə məsuliyyətinin yaranması hər bir halda onun vəzifəli şəxslərinin və ya işçilərinin hüquqazidd davranışı nəticəsində baş verir, təqsiri isə İnzibati Xətalar Məcəlləsinin 18.2-ci maddəsində sadalanan şəxslərin təqsirinin törəməsidir.

İnzibati Xətalar Məcəlləsinin 18.2-ci maddəsinə əsasən, hüquqi şəxs inzibati məsuliyyətə həmin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün aşağıdakı şəxslər tərəfindən törədilən inzibati xətalara görə cəlb edilir:

– hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;

– hüquqi şəxsin adından qərarlar qəbul etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;

– hüquqi şəxsin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;

– bu Məcəllənin 18.2.1-18.2.3-cü maddələrində nəzərdə tutulmuş vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi.

İnzibati Xətalar Məcəlləsinin 17-ci maddəsinə müvafiq olaraq, vəzifəli şəxslər öz vəzifələrinin yerinə yetirilməməsi və ya lazımınca yerinə yetirilməməsi ilə bağlı inzibati xətalara görə inzibati məsuliyyətə cəlb olunurlar.

Göründüyü kimi, vəzifəli şəxs öz vəzifələrini yerinə yetirməməsi və ya lazımınca yerinə yetirməməsi nəticəsində, hüquqi şəxs isə məhz onun xeyrinə və ya maraqlarının qorunması üçün onu təmsil etmək, adından qərarlar qəbul etmək və fəaliyyətinə nəzarət etmək səlahiyyətlərinə malik olan vəzifəli şəxslərinin və ya sonuncular tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində işçisinin törətdiyi inzibati xətalara görə məsuliyyətə cəlb olunur.

İnzibati Xətalar Məcəlləsinin 17-ci maddəsinin Qeyd hissəsinə müvafiq olaraq, dövlət hakimiyyətinin nümayəndəsi funksiyasını həyata keçirən şəxslər, dövlət orqanlarında, bələdiyyələrdə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə, dövlət və qeyri-dövlət təşkilatlarında, idarə və müəssisələrində, o cümlədən publik hüquqi şəxslərdə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat vəzifələrində daimi və ya müvəqqəti işləyən şəxslər və ya həmin vəzifələri xüsusi səlahiyyət əsasında həyata keçirən şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq belə səlahiyyətləri yerinə yetirən fiziki şəxslər vəzifəli şəxs hesab edilirlər.

İnzibati Xətalar Məcəlləsinin 18.3-cü maddəsinə əsasən, hüquqi şəxsin inzibati məsuliyyətə cəlb edilməsi həmin əməli törətmiş və ya onun törədilməsində hər hansı şəkildə iştirak etmiş vəzifəli şəxsin inzibati məsuliyyətini istisna etmir.

Qanunvericinin bu mövqeyi onunla bağlıdır ki, hüquqi şəxsin bir işçisinin, vəzifəli şəxsinin hüquqazidd əməllərinin qarşısı digər vəzifəli şəxsləri tərəfindən alına bilər. Belə ki, hüquqi şəxsin məsuliyyəti İnzibati Xətalar Məcəlləsinin 17-ci maddəsi ilə ehtiva edilən vəzifəli şəxslər tərəfindən inzibati xətanın törədilməsi zamanı həmin Məcəllənin 18.2.1-18.2.4-cü maddələrində qeyd edilən şəxslərin buna yol verməsi, qarşısını almaması, təqsirkarın fəaliyyətinə lazımi nəzarəti aparmaması nəticəsində yaranır.

Beləliklə, bir xətaya görə iki subyektin, yəni həm hüquqi şəxsin, həm də onun vəzifəli şəxsinin məsuliyyətə cəlb edilməsi ondan irəli gəlir ki, inzibati xətanı törətmiş vəzifəli şəxs hüquqi şəxsin xeyrinə və ya maraqlarının qorunması üçün və məhz onun nəzarətsizliyi nəticəsində hüquqazidd hərəkət (hərəkətsizlik) edir. Bu zaman öz vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən, yəni İnzibati Xətalar Məcəlləsinin 17-ci maddəsi ilə nəzərdə tutulan vəzifəli

şəxslə Məcəllənin 18.2-ci maddəsi ilə müəyyən edilən, hüquqi şəxsin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan şəxsin eyni şəxs (fərd) olması müstəqil hüquqi məna kəsb etmir. Belə ki, faktiki məzmun baxımından hər iki subyektin törətdiyi inzibati xətanın eyni xəta olmasına baxmayaraq, onların inzibati xətaya görə məsuliyyətə cəlb edilməsinin əsasları fərqlidir.

Lakin o da nəzərə alınmalıdır ki, İnzibati Xətalar Məcəlləsinin 18.3-cü maddəsi imperativ norma kimi ifadə edilməmişdir. Bu baxımdan, vəzifəli şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən, xətanın xarakteri, inzibati xəta törədən şəxsin şəxsiyyətini xarakterizə edən hallar, onun təqsirinin dərəcəsi, əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar, hüquqi şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən inzibati xətanın xarakteri, inzibati xəta nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakteri və dərəcəsi, hüquqi şəxsi xarakterizə edən hallar, o cümlədən onun maliyyə və əmlak vəziyyəti, xeyriyyəçilik və ya digər ictimai faydalı fəaliyyətlə məşğul olması, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınmalıdır (İnzibati Xətalar Məcəlləsinin 31.2 və 31.3-cü maddələri).

Həmçinin, həmin Məcəllənin 75-ci maddəsinə müvafiq olaraq, inzibati xəta haqqında iş üzrə aşağıdakılar müəyyən edilməlidir: inzibati xəta hadisəsi; inzibati xəta törətmiş şəxs; inzibati xəta törətməkdə şəxsin təqsiri; inzibati məsuliyyəti ağırlaşdıran və yüngülləşdirən hallar; inzibati xəta nəticəsində vurulan zərərin xarakteri və miqdarı; inzibati xətalar haqqında işlər üzrə icraatı rədd edən hallar; işin düzgün həlli üçün əhəmiyyətli olan digər hallar, habelə inzibati xətanın törədilməsinə kömək edən səbəblər və şərait. İnzibati xətalar haqqında işlərə baxan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) işin bütün hallarının məcmusunun hərtərəfli, tam və obyektiv surətdə baxılmasına əsaslanan öz daxili inamı ilə sübutları qiymətləndirir (Məcəllənin 84.1-ci maddəsi).

Bu baxımdan, məhkəmələr inzibati xəta haqqında işin mühüm əhəmiyyət kəsb edən bütün hallarını hərtərəfli, tam və obyektiv araşdırmaqla müvafiq xətaya görə həm hüquqi, həm də vəzifəli şəxsin inzibati tənbeh edilməsinin məqsədəmüvafiqliyi məsələsini inzibati xətalar qanunvericiliyinin vəzifələri və prinsipləri, həmçinin inzibati tənbehin məqsədləri baxımından həll etməlidir.

Eyni zamanda Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, hüquqi şəxslərin inzibati xətaya görə məsuliyyətə cəlb edilib-edilməməsi məsələsinin həlli zamanı məhkəmələr tərəfindən hüquqi şəxsin baş vermiş inzibati xətanın qarşısının alınması üçün imkanlarının olub-olmaması, onun tərəfindən nəzarətin lazımi qaydada həyata keçirilib-keçirilməməsi müəyyən edilməlidir. Əks yanaşma hüquqi şəxslərə münasibətdə obyektiv təqsirləndirmə halı yaratmış olar.

Göstərilənlərə əsasən, eləcə də İnzibati Xətalar Məcəlləsinin ədalətlilik prinsipini rəhbər tutaraq Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

- İnzibati Xətalar Məcəlləsinin 18.3-cü maddəsinin mənasına görə, hüquqi şəxsin xeyrinə və ya maraqlarının qorunması üçün həmin Məcəllənin 18.2-ci maddəsi ilə ehtiva edilən vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində Məcəllənin 17-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxs tərəfindən törədilən inzibati xətaya görə hər iki subyekt (hüquqi və vəzifəli şəxs) məsuliyyətə cəlb edilə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**Q Ə R A R A  A L D I :**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 18.3-cü maddəsinin mənasına görə, hüquqi şəxsin xeyrinə və ya maraqlarının qorunması üçün həmin Məcəllənin 18.2-ci maddəsi ilə ehtiva edilən vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində Məcəllənin 17-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxs tərəfindən törədilən inzibati xətaya görə hər iki subyekt (hüquqi və vəzifəli şəxs) məsuliyyətə cəlb edilə bilər.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Qərar "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Bakinski raboçi" qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**ИМЕНЕМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

П О С Т А Н О В Л Е Н И Е
ПЛЕНУМА КОНСТИТУЦИОННОГО СУДА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## О толковании статей 17, 18.2 и 18.3 Кодекса Азербайджанской Республики об административных проступках в их взаимосвязи

**12 января 2023 года** **город Баку**

Пленум Конституционного Суда Азербайджанской Республики в составе Фархада Абдуллаева (председатель), Соны Салмановой, Умай Эфендиевой (судья-докладчик), Ровшана Исмаилова, Джейхуна Гараджаева, Рафаэля Гваладзе, Исы Наджафова и Кямрана Шафиева,

с участием секретаря суда Фараида Алиева,

в соответствии с частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 27.2 и 33 Закона Азербайджанской Республики “О Конституционном Суде” и статьей 39 Внутреннего устава Конституционного Суда Азербайджанской Республики, рассмотрел в судебном заседании в порядке письменной процедуры особого конституционного судопроизводства конституционное дело на основании обращения Гянджинского апелляционного суда о толковании статей 17, 18.2 и 18.3 Кодекса Азербайджанской Республики об административных проступках в их взаимосвязи.

Изучив и обсудив доклад судьи У.Эфендиевой по делу, суждения представителей заинтересованных субъектов − судьи Гянджинского апелляционного суда Э.Хасмамедова и заместителя заведующего отделом государственного строительства, административного и военного законодательства Аппарата Милли Меджлиса Азербайджанской Республики С.Султанова, специалистов Уголовной коллегии и отдела правового обеспечения Аппарата Верховного Суда Азербайджанской Республики, Президиума Коллегии адвокатов Азербайджанской

Республики, судьи Бакинского апелляционного суда Э.Рагимова и начальника Управления по правовому обеспечению и вопросам прав человека Генеральной прокуратуры Азербайджанской Республики А.Османовой, заключение эксперта − преподавателя кафедры конституционного права юридического факультета Бакинского государственного университета, доктора философии по праву Г.Джаби и материалы дела, Пленум Конституционного Суда Азербайджанской Республики

**У С Т А Н О В И Л :**

Гянджинский апелляционный суд, обратился в Конституционный Суд Азербайджанской Республики (далее – Конституционный Суд), с просьбой дать толкование статей 17, 18.2 и 18.3 Кодекса Азербайджанской Республики об административных проступках (далее – Кодекс об административных проступках) с точки зрения части I статьи 149 Конституции Азербайджанской Республики (далее − Конституция) и требований статьи 25.1 Конституционного закона Азербайджанской Республики "О нормативных правовых актах".

В обращении отмечается, что, согласно материалам дела об административном проступке, находящегося в производстве суда, Н.Азизи обратился с жалобой в прокуратуру города Гянджа, заявив, что на основании устной договоренности с Ю.Сафаровым он в течение 5 месяцев работал слесарем при прокладке газовых линий к социальным зданиям, строящимся в Гяндже, но, поскольку руководителем предприятия Ю.Сафаровым ему не была выплачена часть заработной платы, он просил принять меры в соответствии с законом.

Решением Гянджинской городской прокуратуры от 16 апреля 2022 года по жалобе заявителя в возбуждении уголовного дела в отношении Ю.Сафарова было отказано. 25 апреля 2022 года прокурором города Гянджа было принято решение о начале производства по делу об административном проступке в отношении общества с ограниченной ответственностью "Юнисоглу" (далее – ООО "Юнисоглу") и направлено для рассмотрения в Кяпазский районный суд города Гянджа. Решением того же суда от 23 мая 2022 года ООО "Юнисоглу" было признано виновным в соверше-

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

нии административного проступка, предусмотренного статьей 192.1 Кодекса об административных проступках, и оштрафовано в административном порядке на сумму 20 000 манатов. Это решение было обжаловано ООО “Юнисоглу” в Гянджинском апелляционном суде.

При рассмотрении дела в апелляционном порядке было установлено, что Ю.Сафаров является учредителем и руководителем ООО "Юнисоглу", которое по заказу Государственного агентства жилищного строительства Азербайджанской Республики взяло на себя обязательство по прокладке газовых линий к зданиям социального профиля, строящимся в Гяндже. Хотя Ю.Сафаров с целью выполнения работ привлек к трудовой деятельности на контрактной основе ряд работников, Н.Азизи был привлечен к трудовой деятельности без заключения с ним трудового договора. Н.Азизи не был проинформирован о том, что работает на ООО “Юнисоглу”, он выполнял порученную ему работу на основании устной договоренности с Ю.Сафаровым, и по этой причине подал жалобу в прокуратуру в отношении физического лица Ю.Сафарова, а не указанного предприятия.

В обращении также отмечается, что решением Гянджа-Дашкесанского регионального отделения Государственной службы трудовой инспекции при Министерстве труда и социальной защиты населения Азербайджанской Республики от 31 мая 2022 года Ю.Сафаров как должностное лицо был признан виновным по статье 192.1 Кодекса об административных проступках и наложен административный штраф на сумму 3 500 манатов. Согласно данной статье Кодекса об административных проступках, привлечение работодателем физических лиц к выполнению каких-либо работ (оказанию услуг) без вступления в юридическую силу трудового договора (контракта) в порядке, предусмотренном Трудовым кодексом Азербайджанской Республики − влечет наложение штрафа на физических лиц в размере от тысячи до двух тысяч манатов, на должностных лиц в размере от трех тысяч до пяти тысяч манатов, на юридических лиц в размере от двадцати тысяч до двадцати пяти тысяч манатов.

Заявитель считает, что в случае, когда виновное лицо одновременно, в одном и том же месте и одними и теми же действиями совершает единый административный проступок как в качестве

должностного лица, так и в качестве представителя юридического лица, привлечение к административной ответственности обоих лиц может быть оценено как несправедливая административно-правовая мера. Так, согласно статье 9.1 Кодекса об административных проступках, взыскание, применяемое в отношении лица, совершившего административный проступок, должно быть справедливым, то есть соответствовать характеру административного проступка, обстоятельствам его совершения и личности лица, признанного виновным в совершении административного проступка.

В то же время это обстоятельство противоречит требованию статьи 149 Конституции о том, что нормативные правовые акты должны основываться на праве и справедливости (равное отношение к равным интересам).

По мнению заявителя, в связи с наличием неопределенности между основаниями привлечения к административной ответственности должностных лиц и юридических лиц, предусмотренными статьями 17 и 18 Кодекса об административных проступках, которые должны быть применены к настоящему спору, а также в связи с существованием разногласий относительно того, в каких случаях допускается привлечение к административной ответственности за одно и то же деяние как юридического лица, так и должностного лица в соответствии со статьей 18.3 Кодекса об административных проступках, возникла необходимость толкования Пленумом Конституционного Суда перечисленных выше норм.

В связи с обращением Пленум Конституционного Суда считает важным отметить следующее.

Законодательство об административных проступках имеет задачей охрану прав и свобод человека и гражданина, их здоровья, санитарно-эпидемиологического благополучия населения, общественной морали, собственности, экономических интересов лиц, общественного порядка и общественной безопасности, окружающей среды, защиты правил управления, укрепление законности и предупреждение административных проступков (ст. 2 Кодекса об административных проступках).

В статье 4 Кодекса об административных проступках говорится о принципах законодательства об административных проступках. Так, Кодекс основывается на принципах уважения прав и свобод человека и гражданина, законности, равенства перед законом, пре-

зумпции невиновности, справедливости и предупреждения административных проступков.

В соответствии со статьей 6.1 данного Кодекса, административные взыскания за административные проступки применяются в соответствии с настоящим Кодексом.

Субъектами административной ответственности являются вменяемые физические лица, достигшие шестнадцатилетнего возраста на момент совершения административного проступка, должностные лица и юридические лица.

Взыскание, применяемое в отношении лица, совершившего административный проступок, должно быть справедливым, то есть соответствовать характеру административного проступка, обстоятельствам его совершения и личности лица, признанного виновным в совершении административного проступка. Никто не может быть привлечен к административной ответственности за один и тот же административный проступок дважды (ст. 9 Кодекса об административных проступках).

В Постановлении Пленума Конституционного Суда от 4 сентября 2018 года “О толковании статьи 528.1 Кодекса Азербайджанской Республики об административных проступках с точки зрения статей 9.2 и 35 данного Кодекса” правовая позиция, сформулированная в связи со статьей 9 Кодекса об административных проступках, заключалась в том, что принцип справедливости устанавливает границу между деянием, которое в силу своего отличительного критерия считается административным проступком, и другими правонарушениями. Данный принцип, устанавливая ответственность перед законом каждого совершившего проступок лица за деяние, признанное административным проступком, определяет соразмерность объема административной ответственности. Статьи же, предусматривающие взыскание за виды административного проступка, руководствуясь принципом справедливости, определяют дифференцированный подход.

В соответствии со статьей 3 Кодекса об административных проступках к административной ответственности привлекается и наказывается только такое лицо, которое признано виновным в совершении административных проступков, предусмотренных настоящим Кодексом, и совершило деяние (действие или бездействие), имеющее все иные признаки состава административного проступка.



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

Как видно, для привлечения лица к административной ответственности и наложения взыскания наличие перечисленных в настоящей статье условий (нормы, предусматривающей административный проступок, вины и других признаков состава административного проступка) является абсолютной необходимостью.

В соответствии с требованием статьи 12 Кодекса об административных проступках, административным проступком признается посягающее на охраняемые настоящим Кодексом общественные отношения противоправное, виновное (умышленное или неосторожное) деяние (действие либо бездействие), которое влечет административную ответственность.

Лицо, в отношении которого ведется производство по делу об административном проступке, признается невиновным, если его вина не доказана в порядке, предусмотренном настоящим Кодексом, и не установлена вступившим в силу решением судьи, полномочного органа (должностного лица), рассмотревшего производство по делу об административном проступке. Лицо, привлеченное к административной ответственности, не обязано доказывать свою невиновность. Сомнения по поводу виновности лица, привлекаемого к административной ответственности, разрешаются в его пользу (ст. 8 Кодекса об административных проступках).

В теории под виной понимается психическое отношение лица к совершаемому им общественно опасному деянию и его последствиям, выраженное в форме умысла или неосторожности. Вина – это совокупность таких психологических элементов, как сознание и воля, и эти элементы составляют соответственно психическую и волевую стороны общественно опасного поведения.

Наряду с этим, поскольку субъекты административного проступка разные, то есть физические, должностные и юридические лица, общие принципы законодательства в этой области реализуются с учетом специфических характеристик этих субъектов.

Так, поскольку юридическое лицо не обладает соответствующими психологическими элементами, его вина отличается от вины физических и должностных лиц.

Взаимосвязанный анализ соответствующих норм Кодекса об административных проступках дает основания сделать вывод о том, что вина юридического лица, хотя и не отождествляется с виной

его представителя, совершившего административный проступок, но тесно связана с ним.

Здесь также необходимо учитывать, что некоторые деяния, предусмотренные Особенной частью Кодекса об административных проступках, субъектами которых являются также юридические лица, образуют состав административного проступка только при умышленном совершении (например, деяния, предусмотренные статьями 388.0.4, 492 Кодекса).

Согласно статье 13 данного Кодекса, административный проступок признается совершенным умышленно, если лицо, его совершившее, сознавало противоправный характер своего деяния (действия либо бездействия), предвидело его вредные последствия и желало их или сознательно допускало наступление этих последствий.

Поскольку юридическое лицо не обладает такими характеристиками как "сознание" и "желание", его вина как обязательный признак субъективной стороны административного проступка определяется во взаимосвязи с виной его должностных лиц.

Таким образом, ответственность юридического лица за административный проступок в любом случае возникает в результате противоправного поведения его должностных лиц или работников, а его вина является производной от вины лиц, перечисленных в статье 18.2 Кодекса об административных проступках.

Согласно статье 18.2 Кодекса, юридическое лицо привлекается к административной ответственности за административные проступки, совершенные в пользу этого юридического лица или для защиты его интересов следующими лицами:

– должностное лицо, обладающее полномочиями представлять юридическое лицо;

– должностное лицо, обладающее полномочиями принимать решения от имени юридического лица;

– должностное лицо, обладающее полномочиями контролировать деятельность юридического лица;

– работник юридического лица, в результате неосуществления контроля со стороны должностных лиц, предусмотренных статьями 18.2.1-18.2.3 настоящего Кодекса.

В соответствии со статьей 17 Кодекса об административных проступках, должностные лица подлежат административной от-



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

ветственности за административные проступки, связанные с неисполнением или ненадлежащим исполнением ими своих обязанностей.

Как видно, за административный проступок, привлекается к ответственности должностное лицо в результате неисполнения или ненадлежащего исполнения своих обязанностей, а юридическое лицо именно в случае совершения в его пользу или для защиты его интересов административных проступков должностными лицами, наделенных полномочиями представлять его, принимать решения от его имени и осуществлять надзор за его деятельностью, либо совершенные его работником в результате неосуществления контроля со стороны должностных лиц.

В соответствии с Примечанием к статье 17 Кодекса об административных проступках, должностными лицами признаются лица, которые осуществляют функцию представителя государственной власти, лица, работающие постоянно или временно на организационно-распорядительных или административно-хозяйственных должностях в государственных органах, муниципалитетах, Вооруженных Силах Азербайджанской Республики, иных войсковых соединениях, созданных в соответствии с законодательством Азербайджанской Республики, в государственных и негосударственных организациях, учреждениях и предприятиях, в том числе в юридических лицах публичного права, либо лица, выполняющие подобные обязанности в силу особых полномочий, а также физические лица, которые осуществляют такие полномочия, занимаясь предпринимательской деятельностью без образования юридического лица.

Согласно статье 18.3 Кодекса об административных проступках, привлечение юридического лица к административной ответственности не исключает административную ответственность должностного лица, совершившего это деяние или в каком-либо виде принявшего участие в его совершении.

Такая позиция законодателя обусловлена тем, что противоправные действия одного работника, должностного лица юридического лица могут быть пресечены другими его должностными лицами. Таким образом, ответственность юридического лица возникает в результате совершения административного проступка должностными лицами, определяемыми статьей 17 Кодекса об администра-

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

тивных проступках, вследствие допуска, непринятия мер по предотвращению, либо ненадлежащего контроля за деятельностью виновного лица со стороны лиц, указанных в статьях 18.2.1-18.2.4 данного Кодекса.

Таким образом, привлечение к ответственности за один проступок двух субъектов, то есть как юридического лица, так и его должностного лица, обусловлено тем, что должностное лицо, совершившее административный проступок, совершает противоправные действия (бездействие) в пользу юридического лица или для защиты его интересов, и именно в результате необеспечения им надлежащего контроля. В этом случае то, что должностное лицо, определяемое статьей 17 Кодекса об административных проступках, не исполняющее или ненадлежащим образом исполняющее свои обязанности, и лицо, уполномоченное контролировать деятельность юридического лица, определяемого статьей 18.2 Кодекса, являются одним и тем же лицом (физическим лицом), не имеет самостоятельного юридического значения. Несмотря на то, что по своему фактическому содержанию административный проступок, совершенный обоими субъектами, является одним и тем же проступком, основания привлечения их к административной ответственности различаются.

Однако следует также учитывать, что статья 18.3 Кодекса об административных проступках не сформулирована как императивная норма. В этом отношении при применении административного взыскания в отношении должностных лиц должны учитываться характер проступка, обстоятельства, характеризующие личность лица, совершившего административный проступок, степень его вины, имущественное положение, а также обстоятельства, смягчающие и отягчающие ответственность, а при применении административного взыскания в отношении юридических лиц – характер административного проступка, объем выгоды, полученной юридическим лицом в результате административного проступка, или характер и степень обеспечения его интересов, обстоятельства, характеризующие юридическое лицо, в том числе его финансовое и имущественное положение, занятие благотворительной или иной общественно-полезной деятельностью, а также обстоятельства, смягчающие и отягчающие ответственность (статьи 31.2 и 31.3 Кодекса об административных проступках).

Также, согласно статье 75 данного Кодекса, по делу об административном проступке должны быть установлены следующие обстоятельства: событие административного проступка (имел ли место административный проступок); лицо, совершившее административный проступок; виновность лица в совершении административного проступка; обстоятельства, отягчающие и смягчающие административную ответственность; характер и размер ущерба, причиненного административным проступком; обстоятельства, исключающие производство по делам об административных проступках; иные обстоятельства, имеющие значение для правильного разрешения дела, а также причины и условия, способствовавшие совершению административного проступка. Судья, полномочный орган (должностное лицо), рассматривающие дело об административном проступке, оценивают доказательства по своему внутреннему убеждению, основанному на всестороннем, полном и объективном рассмотрении всех обстоятельств дела в их совокупности (статья 84.1 Кодекса).

В этой связи суды должны решать вопрос о целесообразности привлечения к административной ответственности как юридического, так и должностного лица за соответствующий административный проступок, с точки зрения задач и принципов законодательства об административных проступках, а также целей административного взыскания, всесторонне, полно и объективно исследуя все существенные обстоятельства дела об административном проступке.

Одновременно Пленум Конституционного Суда отмечает, что при решении вопроса о привлечении или непривлечении юридических лиц к административной ответственности судами должно быть установлено наличие или отсутствие у юридического лица возможности предотвратить административный проступок, а также осуществления или неосуществления надлежащего надзора с его стороны. Противоположный подход создавал бы ситуацию объективного вменения вины в отношении юридических лиц.

Исходя из вышеуказанного, а также руководствуясь принципом справедливости Кодекса об административных проступках, Пленум Конституционного Суда приходит к следующему выводу:

– По смыслу статьи 18.3 Кодекса об административных проступках, за административный проступок, совершенный долж-

ностным лицом, предусмотренным статьей 17 данного Кодекса, вследствие неосуществления контроля должностными лицами, указанными в статье 18.2 того же Кодекса, в пользу или для защиты интересов юридического лица, оба субъекта (юридическое и должностное лицо) могут быть привлечены к ответственности.

Руководствуясь частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 60, 62, 63, 65-67 и 69 Закона Азербайджанской Республики "О Конституционном Суде", Пленум Конституционного Суда Азербайджанской Республики

**ПОСТАНОВИЛ:**

1. По смыслу статьи 18.3 Кодекса Азербайджанской Республики об административных проступках, за административный проступок, совершенный должностным лицом, предусмотренным статьей 17 данного Кодекса, вследствие неосуществления контроля должностными лицами, указанными в статье 18.2 того же Кодекса, в пользу или для защиты интересов юридического лица, оба субъекта (юридическое и должностное лицо) могут быть привлечены к ответственности.
2. Постановление вступает в силу со дня опубликования.
3. Постановление опубликовать в газетах "Азербайджан", "Республика", "Халг газети", "Бакинский рабочий" и "Вестнике Конституционного Суда Азербайджанской Республики".
4. Постановление является окончательным и не может быть отменено, изменено или официально истолковано ни одним органом или лицом.

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN
Q Ə R A R I

**Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 və 553.1.1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından şərh olunmasına dair**

**15 fevral 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva (məruzəçi-hakim), Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Sumqayıt Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 və 553.1.1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından şərh olunmasına dair konstitusiya işinə baxdı.

İş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlərin nümayəndələri Sumqayıt Apellyasiya Məhkəməsinin hakimi S.Qafari və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri M.Bazıqovun, mütəxəssislər Azərbaycan Respublikası Ali Məhkəməsinin, Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının hakimi M.Məmmədovun, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri D.Novruzov və N.Əhmədovanın, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı

direktoru S.Mahmudovun mülahizələrini, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Mülki Hüquq kafedrasının dosentləri, hüquq üzrə fəlsəfə doktoru S.Süleymanlının və F.Mirzəyevanın rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N  E T D İ :**

Sumqayıt Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 və 553.1.1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 60-cı maddəsi baxımından şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, “Azərsu” Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – “Azərsu” ASC) M.Şükürova qarşı su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə görə yaranmış borcun ödənilməsi tələbi ilə Sumqayıt Şəhər Məhkəməsinə müraciət etmişdir.

Sumqayıt Şəhər Məhkəməsinin 20 iyun 2022-ci il tarixli qətnaməsi ilə iddia qismən təmin edilmiş, M.Şükürovdan su və kanalizasiya xidmətlərinə görə yaranmış borcun 362 manat məbləğinin “Azərsu” ASC-nin xeyrinə tutulması qət edilmişdir.

“Azərsu” ASC həmin qətnamədən apellyasiya şikayəti verərək göstərmişdir ki, Mülki Məcəllənin 551-ci maddəsi birinci instansiya məhkəməsi tərəfindən düzgün tətbiq edilməmiş, həmin Məcəllənin öhdəliklərin xitamı üçün müddət axımının kəsilməsi və kəsilmiş müddətin yenidən hesablanması qaydasını tənzimləyən 553.1.1-ci maddəsinin tələbləri nəzərə alınmamışdır.

Müraciətdə göstərilir ki, Mülki Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafında və xüsusi olaraq 551-ci maddəsində nəzərdə tutulan müddətlərin keçməsinin öhdəliyin xitamının bir əsası olduğu qeyd olunmuşdur. Həmin Məcəllənin 550-ci maddəsində nəzərdə tutulmuşdur ki, tələbə, yəni digər şəxsdən hərəkətin edilməsini və ya edilməməsini tələb etmək hüququna müddətin keçməsinə görə xitam verilə bilər. Lakin nəzərə alınmalıdır ki, tələb hüququnun xitamı onun daşıyıcısı olan kreditorun mövcudluğuna son qoyur və bu halda öhdəlik xitam edilir. Belə ki, Mülki Məcəllənin 385-ci maddəsinə əsasən,



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

öhdəliyin məzmununu kreditorun xeyrinə borclunun müəyyən hərəkəti etmək və ya müəyyən hərəkətdən çəkinmək vəzifəsi, kreditorun həmin vəzifənin icrasını tələb etmək hüququ təşkil edir. Əgər borclunun vəzifəsi və ya kreditorun tələb hüququ yoxdursa, öhdəlik mövcud ola bilməz.

Digər tərəfdən, Mülki Məcəllənin 551-ci maddəsində nəzərdə tutulan müddətlərin keçməsinin hüquqi nəticələri və bu müddətlərin axımının dayanması və kəsilməsinə dair sonrakı maddələrdəki müddəalar həmin müddətlərin kəsici müddət deyil, iddia müddətləri mahiyyətində olduğunu deməyə əsas verir.

Müraciətedənin qənaətinə görə, bu müddətlərin mülki hüquqların müdafiəsi üçün nəzərdə tutulan iddia müddətlərinə və ya mülki hüquqların həyata keçirilməsi (kəsici) müddətinə aid olması birmənalı olmadığından, bu cür tələblər üzrə mübahisələrə baxılarkən hüquq tətbiqetmədə qeyri-müəyyənlik yaranır.

Müraciətdə o da qeyd edilir ki, kirayə haqqı, icarə haqqı, kapital üçün faizlər və digər vaxtaşırı ödənişlər haqqında tələblər üçün Mülki Məcəllənin 551.2.1-ci maddəsində 5 illik müddət nəzərdə tutulduğu halda, vaxtaşırı icra edilməli öhdəliklərdən irəli gələn tələblər üzrə iddia müddətləri Mülki Məcəllənin 373.3-cü maddəsində 3 il müəyyən edilmişdir.

Müraciətedən hesab edir ki, mübahisəli məqamlara aydınlıq gətirilməsi vahid məhkəmə təcrübəsinin formalaşması üçün əhəmiyyət kəsb etdiyindən, məsələ ilə əlaqədar Konstitusiya Məhkəməsinə müraciət etmək zərurəti yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd olunmasını vacib hesab edir.

Konstitusiyanın 60-cı maddəsinin I hissəsinə müvafiq olaraq, hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

Bu hüquq əsas insan və vətəndaş hüquqları və azadlıqları sırasında olmaqla yanaşı, eyni zamanda digər hüquq və azadlıqların təminatı qismində çıxış edir. Məhkəmə müdafiəsi hüququ pozulmuş hüquqları və azadlıqları səmərəli bərpa etmək iqtidarında olan ədalət mühakiməsini də nəzərdə tutur ("Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 231.1-ci maddəsinin şərh edilməsinə dair" 2015-ci il 22 may tarixli Qərar).

Bununla belə, Konstitusiya Məhkəməsinin Plenumu L.İ.Binnətovanın şikayəti üzrə 2008-ci il 8 may tarixli Qərarında qeyd etmişdir ki, məhkəmə müdafiəsi hüququ mütləq hüquq olmadığına görə müəyyən şərtlərin mövcudluğunda konkret məhdudiyyətlərə məruz qala bilər. Lakin yalnız qanunvericilik səviyyəsində müəyyən oluna biləcək belə məhdudiyyətlər Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqları ləğv edə bilməz. Bu məhdudiyyətlər məhkəmələr tərəfindən özbaşına deyil, hüququn təbiətinə uyğunlaşa bilən, müvafiq hüquqa mütənasib şəkildə və eyni zamanda, bu hüququn hüdudları kimi düzgün tətbiq edilməlidir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) hüquqi mövqeyinə əsasən, "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində təsbit edilmiş "məhkəmə hüququ" məhkəmənin əlçatan olmasını, o cümlədən məhkəmədə mülki işlər üzrə iddia qaldırmaq imkanını ehtiva edir. Bununla belə, bu hüquq mütləq deyil və məhdudiyyətlərə məruz qala bilər (Ashingdane Birləşmiş Krallığa qarşı iş üzrə 1985-ci il 28 may tarixli, Bellet Fransaya qarşı iş üzrə 1995-ci il 4 dekabr tarixli Qərarlar).

Məhkəmə müdafiəsi hüququ ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlərdən biri də iddia müddətidir.

İddia müddəti ilə bağlı məhdudiyyətlər bir neçə vacib məqsədə xidmət edir. Yəni hüquqi müəyyənliyi və qətiliyi təmin edir, cavabdehi "köhnəlmiş" tələblərdən müdafiə edir və məhkəmənin uzaq keçmişdə baş verən hadisələr ilə bağlı, zaman keçdiyindən natamam və etibar doğurmayan sübutlar əsasında qərar qəbul edəcəyi təqdirdə yarana bilən ədalətsizliyin qarşısını alır (Avropa Məhkəməsinin Stubbings və başqaları Birləşmiş Krallığa qarşı iş üzrə 1996-cı il 22 oktyabr tarixli Qərarı).

İddia müddətinin əhəmiyyəti aşağıdakılardan ibarətdir: birinci, o, hüquq münasibətləri iştirakçılarını intizamlandırır, onları öz hüquqlarını vaxtında müdafiə etməyə məcbur edir, müqavilə və maliyyə intizamının nizamlanmasına kömək edir; ikinci, iddia müddəti institutu mülki hüquq münasibətlərində qeyri-müəyyənliyin, qeyri-sabitliyin aradan qaldırılmasına xidmət göstərir; üçüncü, iddia müddəti tərəflərə üzərindən çox vaxt ötmüş, mötəbərliyinin yoxlanılması çətin və ya qeyri-mümkün olan sübutlara istinad etməsini aradan qaldıraraq ədalət mühakiməsi orqanlarına mübahisələri obyektiv əsaslarla həll etmək

imkanı yaradır (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsinin şərh edilməsinə dair" 2001-ci il 27 dekabr tarixli Qərarı).

Eyni zamanda, qanunvericilikdə, tənzimlənməsi xüsusi maraq kəsb edən, iddia müddəti şamil edilməyən tələblər müəyyən edilmişdir. Həmin tələblərin irəli gəldiyi hüquq münasibətlərinin təbiəti və xüsusi əhəmiyyətini nəzərə alaraq dövlət belə tələblərin "müddətsiz" müdafiə edilməsinə təminat verir.

Qeyd edilməlidir ki, iddia müddəti öhdəliklərin icrası ilə bağlı tələblərə şamil olunmaqla, kreditorun öz tələbini məhkəmə qaydasında məcburi icra etdirmək imkanına qoyulmuş bir məhdudiyyətdir. Belə ki, Mülki Məcəllənin 372.1-ci maddəsinə uyğun olaraq, başqa şəxsdən hər hansı hərəkəti yerinə yetirməyi və ya yerinə yetirməkdən çəkinməyi tələb etmək hüququna müddət şamil edilir. Həmin Məcəllənin 385.1-ci maddəsinə görə, öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmətlər göstərməli və i.a. və ya müəyyən hərəkətdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 375.2-ci və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 48.1.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2022-ci il 11 fevral tarixli Qərarında da göstərilmişdir ki, iddia müddəti öhdəliyin aradan qalxması üçün hüquqi əsas deyildir, iddia müddətinin keçməsi öz-özlüyündə kreditorun tələb hüququnu aradan qaldırmır. Odur ki, iddia müddəti keçmiş olsa da, tələb məhkəmədə baxılmağa qəbul edilir və məhkəmənin öz təşəbbüsü ilə deyil, yalnız mübahisə tərəfinin məhkəmə qərarı çıxarılanadək verdiyi ərizə əsasında tətbiq edilir. Mübahisə tərəfinin tətbiq edilməsi barədə ərizə verdiyi iddia müddətinin keçməsi məhkəmənin iddiadan imtina barəsində qərar çıxarması üçün əsasdır (Mülki Məcəllənin 375.1 və 375.2-ci maddələri).

Bu baxımdan, iddia müddəti subyektiv hüququn mövcudluğunu şərtləndirən kəsici (preklyuziv) müddətlərdən fərqləndirilməlidir.

Müraciətdə qaldırılan məsələ, məhz Mülki Məcəllənin 551-ci maddəsi ilə nəzərdə tutulan müddətlərin iddia və ya kəsici müddətlər olması ilə əlaqədardır.

İddia müddətləri və kəsici müddətlərin mahiyyəti və fərqləndirici xüsusiyyətləri ilə bağlı Konstitusiya Məhkəməsi Plenumunun artıq formalaşmış hüquqi mövqeyi mövcuddur. B.Mürsəlovun şikayəti üzrə 2020-ci il 12 mart tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakıları qeyd etmişdir:

– iddia müddəti tələb hüququ üçün xarakterikdir, lakin burada bəzi istisnalar mövcuddur. Kəsici müddət isə əqdi mübahisələndirmək hüququna və iddialara aiddir;

– iddia müddətinin keçməsi tələb hüququnun özünün deyil, bu hüququn səlahiyyətli orqan vasitəsi ilə məcburi qaydada həyata keçirilməsi imkanının xitamına səbəb olur. Bu hal Mülki Məcəllənin 375.2 və 383-cü maddələrində öz əksini tapmışdır. Kəsici müddətlər isə hüququn özünün xitamı ilə nəticələnir;

– iddia müddəti cavabdehin verdiyi ərizə əsasında tətbiq edilir (Mülki Məcəllənin 375.2-ci maddəsi). Kəsici müddət isə cavabdehin ərizə verib-verməməsindən asılı olmayaraq, məhkəmənin öz təşəbbüsü ilə nəzərə alınır;

– iddia müddəti dayandırıla (Mülki Məcəllənin 379-cu maddəsi), kəsilə (Mülki Məcəllənin 380-ci maddəsi) və müəyyən hallarda bərpa edilə (Mülki Məcəllənin 382-ci maddəsi) bilər. Kəsici müddətlər isə qanunda birbaşa nəzərdə tutulan hallar istisna olmaqla, dayandırıla və kəsilə bilməz.

Göstərilənlərlə yanaşı iddia müddətləri kəsici müddətlərdən digər xüsusiyyətlərinə görə də fərqlənir. Belə ki, iddia müddəti pozulmuş hüququn müdafiə edilməsi üçün xarakterikdir. Kəsici müddət isə hüququn pozulub-pozulmamasından asılı olmayaraq ona xitam verir.

Digər tərəfdən, iddia müddəti konkret borclunun konkret tələb üzrə müdafiə vasitələrindən biridir (bu səbəbdən də cavabdehin ərizəsi ilə tətbiq edilir), kəsici müddət isə üçüncü şəxslərin və ümumiyyətlə mülki dövriyyənin maraqları naminə müəyyən edilir (bu səbəbdən də məhkəmənin öz təşəbbüsü ilə (ex officio) tətbiq edilir).

Mülki Məcəllənin 527.1-ci maddəsinə əsasən, öhdəliyə icra, depozitə qoyma, qarşılıqlı əvəzləşdirmə, borcu bağışlama, müddətin keçməsi nəticəsində və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan digər əsaslar üzrə tamamilə və ya qismən xitam verilir.

Həmin Məcəllənin 550-ci maddəsinə uyğun olaraq, tələbə, yəni digər şəxsdən hərəkətin edilməsini və ya edilməməsini tələb etmək hüququna müddətin keçməsinə görə xitam verilə bilər. Göründüyü

kimi, bu maddə ilə müddətin keçməsinə görə tələb etmək hüququna xitam verilməsi imperativ qaydada müəyyən edilməmişdir, yəni müvafiq müddət keçdikdə öhdəlik avtomatik olaraq öz-özlüyündə xitam olmur, onun icrasını tələb etmək hüququna müəyyən şərtlərlə xitam verilir. Eyni zamanda, Məcəllənin 554.1-ci maddəsinə əsasən, müddət keçdikdən sonra mükəlləfiyyətli şəxsin öhdəliyin icrasından imtina etmək hüququ vardır. Beləliklə, müddətin keçməsinin hüquqi nəticəsi olaraq mükəlləfiyyətli, yəni öhdəlik yükü daşıyan borclu öhdəliyin icrasından imtina etmək hüququ əldə edir ki, bu hüququ realizə edib-etməmək də onun öz ixtiyarına buraxılır. Burada o da nəzərə alınmalıdır ki, yalnız mövcud olan öhdəliyin icrasından imtina etmək mümkündür.

Həmçinin, Mülki Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafı ilə nəzərdə tutulan müddətlərin keçməsi öhdəliyə xitam vermədiyindəndir ki, həmin Məcəllənin 554.2-ci maddəsinə əsasən, öhdəlik müddətin keçdiyini bilmədən icra olunduqda belə, müddətin keçməsinə görə qüvvəsini itirmiş tələbin ödənilməsi üçün icra olunmuşları geri istəmək olmaz. Halbuki, öhdəlik mövcud olmadığı halda bir şəxs tərəfindən başqa şəxsin əmlak mənafeyi xeyrinə etdiyi hərəkətlər bağışlama və ya əsassız varlanma halı yaradır ki, onların hər ikisinin geri istənilməsi mümkündür.

Qeyd edilməlidir ki, Mülki Məcəllənin 554.2-ci maddəsi həmin Məcəllənin iddia müddəti bitdikdən sonra vəzifənin icrası adlanan 383-cü maddəsi ilə mahiyyətcə eynilik təşkil edir. Belə ki, həmin maddəyə əsasən, borclu və ya digər mükəlləfiyyətli şəxs vəzifəsini iddia müddəti bitdikdən sonra icra etmişsə, icra zamanı icra müddətinin bitdiyini bilməmiş olsa da, icra etdiyini geri tələb edə bilməz.

Bu ondan irəli gəlir ki, iddia müddətinin ötürülməsi öhdəliyə xitam vermir, onu mahiyyətcə fərqli hüquq təbiətli öhdəliyə çevirir. Belə ki, hüquq nəzəriyyəsində öhdəliklərin bir növü kimi Roma hüququndan qaynaqlanan, məhkəmə müdafiəsi ilə təmin olunmayan, yəni icrası məcburi qaydada tələb edilə bilməyən natural öhdəliklər növü fərqləndirilir. Natural öhdəliklər pozitiv hüquqa deyil, təbii hüquqa (lex naturalis) əsaslanır. Bu cür öhdəliklərin icra edilməsi vicdanlılıq, ədalət və əxlaq tələblərindən irəli gəlir. Hüquq ədəbiyyatında belə öhdəliklər üzrə borc bəzən "şərəf borcu" da adlandırılır. Natural öhdəliklər üzrə icranı qəbul etmiş kreditor əsassız varlanmış hesab olunmur və müvafiq icranı özündə saxlamağa haqlıdır. Belə icra borclu

tərəfindən hətta icranın təqdim edildiyi zaman kreditorun iddia hüququna malik olmadığını bilməsə belə geri tələb edilə bilməz. Mülki hüquq nəzəriyyəsində məhz iddia müddəti ötürülmüş və mərc oyunları ilə bağlı yaranan öhdəliklər natural öhdəliklərin nümunələri kimi göstərilir.

Göründüyü kimi, natural öhdəliklərin iki əsas əlaməti mövcuddur:

– borclu tərəfindən öhdəliklərin icra edilməməsi halında kreditorun tələbinin məhkəmə müdafiəsi (iddia qaldırmaq hüququ) ilə təmin edilməməsi;

– borclu tərəfindən icra edilmişlərin geri tələb edilməsinin yolverilməzliyi.

Beləliklə, natural öhdəliyin icrası öhdəliyin mövcudluğu, etibarlılığı və icra edən tərəfin onu tanıması prezumpsiyasını yaradır ki, borclunun həmin öhdəliyin hüquqi təbiətini (artıq iddia ilə təmin olunmamasını) bilmədiyi təqdirdə də icra edilənləri geri istəyə bilməməsi məhz bundan irəli gəlir. Bu hüquq münasibətlərinin məhkəmə tərəfindən araşdırılması qeyri-mümkün olduğundan, həmin prezumpsiya təkzibedilməz xarakter daşıyır.

Göstərilənlər baxımından Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlir ki, Mülki Məcəllənin 551-ci maddəsi ilə nəzərdə tutulan müddətlərin keçməsindən sonra öhdəliklər xitam olunmur. Belə öhdəliklər mövcud, lakin iddia ilə təmin edilməyən (natural) öhdəlik xarakteri almış olurlar.

Burada o da nəzərə alınmalıdır ki, müddətin keçməsi halından fərqli olaraq, Mülki Məcəllənin 27-ci fəsli ilə nəzərdə tutulmuş bütün digər əsaslarla (məsələn, borcun bağışlanması halında) öhdəliyə xitam verildikdən sonra təqdim edilmiş icranın geri alınması mümkündür. Xitam verildiyi halda öhdəlik artıq mövcud olmadığından, bu halda verilənlər heç bir hüquqi əsas olmadan qarşı tərəfin sahibliyinə keçmiş hesab edilir və onların geri tələb edilməsi mümkündür. Belə ki, Mülki Məcəllənin 439.4-cü maddəsinə əsasən, öhdəlikdən kənar ödənilmiş pul əsassız varlanma qaydalarına uyğun olaraq geri tələb edilə bilər.

Mülki Məcəllənin öhdəliklərin xitamı üçün müddətlər adlanan 551-ci maddəsinə əsasən, əgər bu Məcəllə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bütün tələblər on il (adi müddət) keçdikdən sonra qüvvəsini itirir. Aşağıdakı tələblər beş il keçdikdən sonra qüvvəsini itirir:

– kirayə haqqı, icarə haqqı, kapital üçün faizlər və digər vaxtaşırı ödənişlər haqqında tələblər;



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

– ərzaq məhsulları, qida və içki satışı və ya gələnlərə yaşayış yeri verilməsi üzrə tələblər;

– zavod tikintisi, mallar satışı, daşımalar üzrə tələblər, sərbəst peşə adamlarının (məsələn, həkimlərin, vəkillərin və ya məsləhətçilərin) tələbləri, habelə işçilərin əmək münasibətləri üzrə tələbləri;

– məhkəmə qərarına əsasən əmələ gələn tələb otuz il keçdikdən sonra qüvvəsini itirir. Bu qayda tələbin daha qısa müddətlə bağlı olduğu halda da tətbiq edilir.

Nəzərə alınmalıdır ki, Mülki Məcəllənin 551-ci maddəsi ilə nəzərdə tutulan 10 illik müddətə, maddənin məzmununun hərfi mənasından çıxış edərək, öhdəliklərin xitam olunma müddəti kimi yanaşıldıqda borclunun yuxarıda qeyd edilən "öhdəliyin icrasından imtina etmək hüququ" mövcud ola bilməz. Belə ki, öhdəlik olmadığı üçün imtinanın predmeti də olmur. Həmçinin, belə olan halda, iddiaçı qismində çıxış edən şəxsin pozulmuş və təmin edilməli olan subyektiv hüququ da mövcud olmayacaqdır. Halbuki, Mülki Məcəllənin 373.1-ci maddəsinə əsasən, ümumi iddia müddəti 10 il təşkil edir və bu müddət keçdikdən sonra tələb ilə bağlı iddia qaldırıldıqda, cavabdeh isə iddia müddətinin tətbiqi ilə bağlı ərizə vermədikdə məhkəmə iddia tələbini təmin edə bilər (Mülki Məcəllənin 375.2-ci maddəsi).

Eyni zamanda, bəzi hallarda Mülki Məcəllənin 551-ci maddəsi ilə nəzərdə tutulan müddətlər öhdəliklərin xitamı müddəti hesab olunarsa, ümumiyyətlə eyni hüquq münasibətləri üzrə həm iddia müddətlərinin, həm də öhdəliyin xitamı müddətlərinin tətbiq edilməsi sual doğurur. Məsələn, Mülki Məcəllənin 373.2-ci maddəsi ilə daşınmaz əşyalarla bağlı müqavilə tələbləri üzrə iddia müddətinin 6 il, həmin Məcəllənin 551.2.3-cü maddəsi ilə isə zavod tikintisi üzrə tələblərin qüvvəsini itirməsi müddəti 5 il müəyyən edilmişdir. Belə olan halda, 5 illik müddətin keçməsi öhdəliyə xitam müddəti kimi qiymətləndirilərsə, öhdəliyin icrası ilə bağlı iddia müddətinin 6 il olmaqla hələ də axması hüquqi məntiqə və tənzimetməyə uyğun hesab edilə bilməz.

O da nəzərə alınmalıdır ki, Mülki Məcəllənin 384.0.2-ci maddəsinə əsasən, əmanətlərin verilməsi haqqında əmanətçilərin banka tələblərinə iddia müddəti şamil edilmir. Dövlətin maliyyə-kredit sisteminə etimadın, həmçinin onun sabitliyinin təmin edilməsi məqsədi ilə qanunverici bu cür öhdəliklərdən irəli gələn tələblərin müddətsiz olaraq iddia ilə təmin edilməsinə zəmanət verir. Mülki Məcəllənin 551-ci maddəsi ilə müəyyən edilən müddətlər bütün tələblər üçün nəzərdə tutulduğun-

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

dan, onların öhdəliyə xitam verilməsi müddəti kimi qiymətləndirilməsi, qeyd edilən 384.0.2-ci maddə ilə uyğunsuzluq yaradıb-yaratmaması ilə bağlı qeyri-müəyyənliyə səbəb ola bilər.

Qeyd edilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunvericinin müəyyən etdiyi bu müddətlərin, ötürülməsi ilə öhdəliyin və ya onu tələb etmək hüququnun xitamına səbəb olan müddətlər (kəsici müddət) kimi qiymətləndirilməsi yolverilməzdir.

Eyni zamanda, mükəlləfiyyətli şəxsin bu müddətlər bitdikdən sonra öhdəlik üzrə icra etdiklərini geri tələb edə bilməməsi, belə öhdəliklərin iddia ilə təmin edilməyən natural öhdəlik olmasına dəlalət edir ki, bu da öz növbəsində iddia müddəti institutu üçün xas olan haldır. Belə ki, yuxarıda qeyd edildiyi kimi, iddia müddətini kəsici müddətlərdən fərqləndirən əsas meyarlardan biri odur ki, onun keçməsi tələb hüququnun özünün deyil, bu hüququn səlahiyyətli orqan vasitəsi ilə məcburi qaydada həyata keçirilməsi imkanının xitamına səbəb olur.

Təsadüfi deyil ki, tələblərin əvəzləşdirilməsinin yolverilməzliyindən bəhs edərkən, qanunverici məhz "iddia müddəti" anlayışından istifadə etmişdir. Mülki Məcəllənin 545.0.4-cü maddəsinə görə, digər tərəfin ərizəsi ilə tələbə iddia müddəti tətbiq edilməli olduqda və bu müddət keçdikdə öhdəliklərin əvəzləşdirilməsinə yol verilmir.

O da nəzərə alınmalıdır ki, Mülki Məcəllənin 377-ci və 552.1-ci maddələri ilə müəyyən edilən müddətlərin axımının başlanması, 380-ci və 553-cü maddələri ilə nəzərdə tutulan müddətlərin kəsilməsi, habelə onların dayandırılması (379-cu və 552.2-ci maddələr) qaydaları eynilik təşkil edir.

Həmçinin, Mülki Məcəllənin 554.4-cü maddəsinə görə, müddətin keçməsi tərəflərin razılaşması ilə istisna edilə və ya çətinləşdirilə bilməz. Tərəflər müddətin keçməsinin sadələşdirilməsi, o cümlədən onun qısaldılması barədə razılaşa bilərlər. Həmin Məcəllənin 374.1-ci maddəsinə əsasən, əgər müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, iddia müddətləri və onların hesablanması qaydası bu Məcəllə ilə müəyyənləşdirilir. Göründüyü kimi, qanunverici həm Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafında, həm də 18-ci fəslində nəzərdə tutulan müddətlərin, tərəflərin razılaşması ilə dəyişdirilməsinin mümkünlüyünü təsbit etmişdir.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Mülki Məcəllənin 551-ci maddəsi ilə nəzərdə tutulan

"bütün tələblər on il (adi müddət) keçdikdən sonra qüvvəsini itirir" və "aşağıdakı tələblər beş il keçdikdən sonra qüvvəsini itirir" ifadələrində tələb dedikdə, məhz cavabdeh üçün tanınan prosessual müdafiə vasitəsi olaraq öhdəliklərin məhkəmə qaydasında məcburi icrası ilə bağlı tələblər nəzərdə tutulur. Odur ki, bu müddətlər (551.2.4-cü maddə ilə nəzərdə tutulmuş müddət istisna olmaqla) iddia müddətləri olaraq qəbul edilməlidir. Ümumiyyətlə isə Mülki Məcəllənin 551.2.4-cü maddəsi xaricində, Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafı ilə nəzərdə tutulan müddətlər iddia müddətləridir.

Mülki Məcəllənin 551.2.4-cü maddəsinə gəldikdə isə burada nəzərdə tutulan 30 illik müddətin keçməsi öhdəliyin xitamına deyil (o, natural öhdəlik olaraq mövcudluğunu davam etdirir), məhkəmə qərarı ilə müəyyən edilmiş öhdəliyin məcburi icrası imkanının aradan qalxmasına səbəb olur və bu səbəbdən də qeyd edilən norma mahiyyət etibarı ilə məhkəmə qərarlarının icrası ilə bağlı olan hüquq normasıdır.

Vurğulanmalıdır ki, Mülki Məcəllənin 527.1-ci maddəsində öhdəliklərin xitamı əsasları sırasında "müddətin keçməsi" halı sırf hüquqi xarakterinə və ya tərəflərin razılaşmasına əsasən müddətə bağlı öhdəliklərə münasibətdə yaranır. Yəni, bir öhdəlik məhz müəyyən bir müddət üçün əmələ gətirilibsə (məsələn, konkret bir müddətə bağlı xidmətin göstərilməsinə dair öhdəliklər), həmin müddətin keçməsi öhdəliyin xitam olunması nəticəsini yarada bilər.

Göstərilənləri nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, Mülki Məcəllədə iddia müddətləri ilə bağlı müddəaların həm Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafı, həm də həmin Məcəllənin 18-ci fəsli ilə nəzərdə tutulması hüquqi baxımdan qeyri-müəyyənliyin yaranmasına, məhkəmə mübahisələrinin çoxalmasına səbəb olmaqla yanaşı, məhkəmə müdafiəsi hüququna dair Konstitusiya təminatına da xələl yetirmiş olur.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, qanunverici orqan tərəfindən Mülki Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafı ilə nəzərdə tutulmuş normaların bu Qərarda əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi məqsədəmüvafiq olardı.

Konstitusiya Məhkəməsinin Plenumu onu da qeyd edir ki, Konstitusiyanın 60-cı maddəsinin I hissəsi ilə nəzərdə tutulan məhkəmə müdafiəsi hüququnun təmin edilməsi məqsədilə, məsələ qanunvericilik qaydasında həll edilənədək, qanunverici tərəfindən Mülki Məcəlləyə

iddia müddətlərinə dair ayrıca fəslin məqsədli şəkildə salınması nəzərə alınaraq, öhdəliklərdən irəli gələn tələblərə, o cümlədən vaxtaşırı ödəmələrdən irəli gələn tələblərə həmin Məcəllənin 18-ci fəsli ilə nəzərdə tutulan iddia müddətləri tətbiq edilməlidir.

Qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Mülki Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafı ilə müəyyən edilmiş müddətlər hüquqi təbiəti baxımından iddia müddətləridir;

– Mülki Məcəllənin 27-ci fəslinin 5-ci paraqrafı qanunverici orqan tərəfindən təkmilləşdirilənədək, öhdəliklərdən, o cümlədən vaxtaşırı ödəmələrdən irəli gələn tələblərə münasibətdə həmin Məcəllənin 18-ci fəsli ilə nəzərdə tutulmuş iddia müddətləri tətbiq edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**Q Ə R A R A  A L D I :**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 27-ci fəslinin 5-ci paraqrafı ilə müəyyən edilmiş müddətlər hüquqi təbiəti baxımından iddia müddətləridir.

2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 27-ci fəslinin 5-ci paraqrafı qanunverici orqan tərəfindən təkmilləşdirilənədək, öhdəliklərdən, o cümlədən vaxtaşırı ödəmələrdən irəli gələn tələblərə münasibətdə həmin Məcəllənin 18-ci fəsli ilə nəzərdə tutulmuş iddia müddətləri tətbiq edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**ИМЕНЕМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

# П О С Т А Н О В Л Е Н И Е
# ПЛЕНУМА КОНСТИТУЦИОННОГО СУДА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## О толковании статей 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 и 553.1.1 Гражданского кодекса Азербайджанской Республики с точки зрения статьи 60 Конституции Азербайджанской Республики

**15 февраля 2023 года** **город Баку**

Пленум Конституционного Суда Азербайджанской Республики в составе Фархада Абдуллаева (председатель), Соны Салмановой, Умай Эфендиевой (судья-докладчик), Ровшана Исмаилова, Джейхуна Гараджаева, Рафаэля Гваладзе, Исы Наджафова и Кямрана Шафиева,

с участием секретаря суда Фараида Алиева,

в соответствии с частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 27.2 и 33 Закона Азербайджанской Республики "О Конституционном Суде" и статьей 39 Внутреннего устава Конституционного Суда Азербайджанской Республики, рассмотрел в судебном заседании в порядке письменной процедуры особого конституционного судопроизводства конституционное дело на основании обращения Сумгайытского апелляционного суда о толковании статей 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 и 553.1.1 Гражданского кодекса Азербайджанской Республики с точки зрения статьи 60 Конституции Азербайджанской Республики.

Изучив и обсудив доклад судьи У.Эфендиевой, суждения представителей заинтересованных субъектов − судьи Сумгайытского апелляционного суда С.Гафари и начальника отдела экономического законодательства Аппарата Милли Меджлиса Азербайджанской Республики М.Базыгова, специалистов − Верховного суда Азербайджанской Республики, судьи Гражданской коллегии Ба-



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

кинского апелляционного суда М.Мамедова, членов Коллегии адвокатов Азербайджанской Республики Д.Новрузова и Н.Ахмедовой, исполнительного директора Центра правовой экспертизы и законодательных инициатив С.Махмудова, заключения экспертов – доцентов кафедры гражданского права юридического факультета Бакинского государственного университета, докторов философии по праву С.Сулейманлы и Ф.Мирзоевой и материалы дела, Пленум Конституционного Суда Азербайджанской Республики

**У С Т А Н О В И Л :**

Сумгайытский апелляционный суд обратился в Конституционный Суд Азербайджанской Республики (далее – Конституционный Суд), с просьбой дать толкование статей 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 и 553.1.1 Гражданского кодекса Азербайджанской Республики (далее – Гражданский кодекс) с точки зрения статьи 60 Конституции Азербайджанской Республики (далее – Конституция).

В обращении отмечается, что открытое акционерное общество “Азерсу” (далее – ОАО “Азерсу”) подало иск против М.Шукюрова в Сумгайытский городской суд с требованием взыскания возникшей задолженности за услуги водоснабжения и отвода сточных вод.

Решением Сумгайытского городского суда от 20 июня 2022 года иск был удовлетворен частично, было решено взыскать с М.Шукюрова в пользу ОАО “Азерсу” сумму задолженности в размере 362 манатов за услуги водоснабжения и канализации.

ОАО ”Азерсу", подав апелляционную жалобу на это решение, указало, что статья 551 Гражданского кодекса была неверно применена судом первой инстанции, не были учтены требования статьи 553.1.1 данного Кодекса, регулирующей порядок прерывания течения срока для прекращения обязательств и возобновления исчисления прерванного срока.

В обращении указывается, что истечение сроков, предусмотренных в параграфе 5 главы 27 Гражданского кодекса, в частности, в статье 551, является одним из оснований прекращения обязательства. Статья 550 того же Кодекса предусматривает, что требование, то есть право требовать от другого лица совершения или воздержания от совершения действия, может быть прекращено в связи с

истечением срока. Однако следует учитывать, что прекращение права требования прекращает существование его носителя – кредитора, и в этом случае обязательство прекращается. Согласно статье 385 Гражданского кодекса, содержание обязательства составляет обязанность должника совершить определенное действие или уклониться от определенного действия в пользу кредитора, и право кредитора требовать исполнения этой обязанности. Если обязанность должника или право требования кредитора отсутствуют, обязательство не может существовать.

С другой стороны, правовые последствия истечения сроков, предусмотренных статьей 551 Гражданского кодекса, и положения последующих статей о приостановлении и прерывании этих сроков дают основание утверждать, что эти сроки по своей сути являются не пресекательными, а сроками исковой давности.

По мнению заявителя, поскольку принадлежность этих сроков к срокам исковой давности, предусмотренным для защиты гражданских прав, или к срокам осуществления гражданских прав (пресекательным) неоднозначно, при рассмотрении споров по таким требованиям в правоприменении возникает неопределенность.

В обращении также отмечается, что хотя статья 551.2.1 Гражданского кодекса предусматривает пятилетний срок для требований по наемной плате, об арендной плате, о процентах за капитал и о других периодических платежах, сроки исковой давности по требованиям, которые возникают из обязательств, подлежащих периодическому исполнению, установлены статьей 373.3 Гражданского кодекса в три года.

Заявитель считает, что возникла необходимость обращения в Конституционный Суд по данному вопросу, поскольку прояснение спорных моментов имеет значение для формирования единой судебной практики.

В связи с обращением Пленум Конституционного Суда считает важным отметить следующее.

В соответствии с частью I статьи 60 Конституции, каждому гарантируется защита его прав и свобод в административном порядке и суде.

Это право, находясь в числе основных прав и свобод человека и гражданина, одновременно выступает в качестве гарантии дру-

гих прав и свобод. Право на судебную защиту предусматривает также правосудие, способное эффективно восстанавливать нарушенные права и свободы (Постановление "О толковании статьи 231.1 Гражданского процессуального кодекса Азербайджанской Республики" от 22 мая 2015 года).

Однако Пленум Конституционного Суда в своем Постановлении от 8 мая 2008 года по жалобе Л.И.Биннатовой отметил, что, поскольку право на доступ к суду не является абсолютным правом, оно может подлежать конкретным ограничениям при наличии определенных условий. Однако такие ограничения, которые могут быть установлены только на законодательном уровне, не могут отменить закрепленные в Конституции права и свободы. Данные ограничения должны применяться судами не произвольно, а в соответствии с природой права, соразмерно соответствующему праву и, в то же время, как пределы этого права.

Согласно правовой позиции Европейского суда по правам человека (далее – Европейский суд), “право на суд”, закрепленное в пункте 1 статьи 6 Конвенции “О защите прав человека и основных свобод”, предполагает право на доступ к суду, в том числе возможность предъявления иска по гражданским делам в суде. Однако это право не является абсолютным и может подвергаться ограничениям (Постановления по делу Ашингдан против Соединенного Королевства от 28 мая 1985 г., по делу Белле против Франции от 4 декабря 1995 г.).

Одним из ограничений, предусмотренных в законодательстве в отношении права на судебную защиту, является срок исковой давности.

Ограничения, связанные со сроком исковой давности, служат нескольким важным целям. А именно, обеспечивают правовую определенность и категоричность, защищают ответчика от "устаревших" требований и исключают несправедливость, которая может возникнуть, если суд будет принимать решения по событиям далекого прошлого на основании неполных и ненадежных доказательств из-за истечения времени (Постановление Европейского Суда по делу Стаббингс и другие против Соединенного Королевства от 22 октября 1996 года).

Значение срока исковой давности заключается в следующем: во-первых, он дисциплинирует участников правоотношений, принуж-

дая их к своевременной защите своих прав, содействует регулированию договорной и финансовой дисциплины; во-вторых, институт исковой давности служит устранению неопределенности и неустойчивости в гражданских правовых отношениях; в-третьих, исковая давность обеспечивает органам правосудия возможность разрешения споров на объективных основаниях, устраняя возможность обращения сторон к доказательствам, имеющим большой срок давности, проверка достоверности которых невозможна или же слишком затруднена (Постановление Пленума Конституционного Суда "О толковании статьи 373 Гражданского кодекса Азербайджанской Республики" от 27 декабря 2001 года).

В то же время, в законодательстве определены требования, представляющие особый интерес для регулирования, на которые не распространяется исковая давность. Учитывая природу и особую значимость правоотношений, из которых вытекают эти требования, государство гарантирует "бессрочную" защиту таких требований.

Следует отметить, что исковая давность, распространяясь на требования, связанные с исполнением обязательств, ограничивает возможность кредитора принудительно осуществить свое требование в судебном порядке. Так, в соответствии со статьей 372.1 Гражданского кодекса, срок распространяется на право требовать от другого лица совершения или уклонения от совершения какого-либо действия. Согласно статье 385.1 того же Кодекса, по обязательству одно лицо (должник) обязано в пользу другого лица (кредитора) совершить определенное действие, такое, как уплата денег, передача имущества, выполнение работ, оказание услуг и т.д., либо уклониться от определенного действия, а кредитор имеет право требовать от должника исполнения обязанностей.

В Постановлении Пленума Конституционного Суда "О толковании статьи 375.2 Гражданского кодекса Азербайджанской Республики и статьи 48.1.2 Закона Азербайджанской Республики "Об ипотеке" в их взаимосвязи” от 11 февраля 2022 года также указано, что исковая давность не является правовым основанием для прекращения обязательства, с истечением срока исковой давности само по себе право требования кредитора не прекращается. Поэтому, даже если срок исковой давности истек, требование принимается к рассмотрению судом, независимо от истечения

срока исковой давности и применяется судом не по собственной инициативе, а только по заявлению стороны в споре, сделанному до вынесения судом решения. Истечение срока исковой давности, о применении которой заявлено стороной в споре, является основанием к вынесению судом решения об отказе в иске (статьи 375.1 и 375.2 Гражданского кодекса).

В связи с этим срок исковой давности следует отличать от пресекательных (преклюзивных) сроков, которые обусловливают наличие субъективного права.

Вопрос, поднятый в обращении, связан именно с тем, что сроки, предусмотренные статьей 551 Гражданского кодекса, являются исковой давностью или пресекательными сроками.

Существует уже сформированная правовая позиция Пленума Конституционного Суда относительно сущности и отличительных особенностей сроков давности и пресекательных сроков. В Постановлении по жалобе Б.Мурсалова от 12 марта 2020 года Пленум Конституционного Суда отметил следующее:

– срок исковой давности соответствует праву требования, однако здесь существуют некоторые исключения. Пресекательный срок относится к праву оспаривания сделки и искам;

– истечение срока исковой давности приводит к прекращению не самого права требования, а возможности его принудительного осуществления через компетентный орган. Это отражено в статьях 375.2 и 383 Гражданского кодекса. Пресекательные сроки же приводят к прекращению самого права;

– срок исковой давности применяется на основании заявления ответчика (статья 375.2 Гражданского кодекса). Пресекательный срок учитывается судом по собственной инициативе независимо от того, подал ответчик заявление или нет;

– течение срока исковой давности может быть приостановлено (статья 379 Гражданского кодекса), прервано (статья 380 Гражданского кодекса) и в определенных случаях восстановлено (статья 382 Гражданского кодекса). Пресекательные сроки же не могут быть приостановлены и прерваны, за исключением случаев, прямо предусмотренных законом.

Помимо указанного, сроки исковой давности отличаются от пресекательных сроков и по другим характеристикам. Так, срок исковой давности характерен для защиты нарушенного права.

Пресекательный срок же прекращает право независимо от того, было ли оно нарушено или нет.

С другой стороны, срок исковой давности является одним из средств защиты конкретного должника по конкретному требованию (поэтому применяется по заявлению ответчика), а пресекательный срок устанавливается в интересах третьих лиц и гражданского оборота в целом (поэтому применяется судом по собственной инициативе (ex officio)).

Согласно статье 527.1 Гражданского кодекса, обязательство прекращается полностью или частично исполнением, вложением в депозит, взаимозачетом, прощением долга, истечением срока и по иным основаниям, предусмотренным настоящим Кодексом или договором.

В соответствии со статьей 550 того же Кодекса, требование, то есть право требовать от другого лица совершения или несовершения действия, может быть прекращено истечением срока. Как видно, данная статья не устанавливает в императивном порядке прекращение права требования в связи с истечением срока, то есть обязательство не прекращается автоматически по истечении соответствующего срока, право требовать его исполнения прекращается при определенных условиях. В то же время, согласно статье 554.1 Кодекса, после истечения срока обязанное лицо имеет право отказаться от исполнения обязательства. Таким образом, в качестве правового последствия истечения срока обязанное лицо, то есть должник, несущий бремя обязательства, получает право отказаться от исполнения обязательства, реализация которого остается на его усмотрение. При этом следует учитывать, что отказаться можно только от исполнения существующего обязательства.

Кроме того, поскольку истечение сроков, предусмотренное параграфом 5 главы 27 Гражданского кодекса, не прекращает обязательства, согласно статье 554.2 данного Кодекса, нельзя отзывать исполненное для удовлетворения требования, утратившего силу истечением срока, хотя бы обязательство и было исполнено без знания об истечении срока. Однако, если обязательство не существует, действия, совершенные одним лицом в пользу имущественных интересов другого лица, создают случай дарения или

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

неосновательного обогащения, и оба могут быть истребованы обратно.

Следует отметить, что статья 554.2 Гражданского кодекса по существу идентична статье 383 того же Кодекса, которая называется "исполнение обязанности по истечении срока исковой давности". Согласно этой статье, должник или иное обязанное лицо, исполнившее обязанность по истечении срока исковой давности, не вправе требовать исполненное обратно, хотя бы в момент исполнения указанное лицо и не знало об истечении давности.

Это исходит из того, что с истечением срока исковой давности обязательство не прекращается, а переходит в обязательство с иной правовой природой. Так, в теории права выделяется особый вид обязательств, пришедший из римского права, – натуральные обязательства, которые не обеспечены судебной защитой, то есть их исполнение не может быть принудительно истребовано. Натуральные обязательства опираются не на позитивное право, а на естественное право (lex naturalis). Исполнение таких обязательств вытекает из требований добросовестности, справедливости и морали. В юридической литературе долг по таким обязательствам иногда называют "долгом чести". Кредитор, принявший исполнение по натуральным обязательствам, не считается неосновательно обогатившимся и вправе удерживать соответствующее исполнение. Должник не вправе требовать исполненное обратно, хотя бы в момент исполнения и не знал, что кредитор не имеет права на иск. В теории гражданского права именно обязательства с истекшим сроком исковой давности и обязательства, возникающие из азартных игр, приводятся как примеры натуральных обязательств.

Как видно, натуральные обязательства имеют два основных признака:

– отказ кредитору в судебной защите (праве на иск) в случае неисполнения должником его обязанности по обязательству;

– недопустимость истребования исполненного должником.

Таким образом, исполнение натурального обязательства создает презумпцию существования, действительности обязательства и признания его исполняющей стороной, именно из этого вытекает, что даже при незнании должником юридической природы данного обязательства (которое больше не обеспечивается иском) он не может истребовать обратно исполненное. При этом, поскольку, су-

дебная проверка данного правоотношения невозможна, указанная презумпция, по сути, приобретает характер неопровержимой.

С учетом вышеизложенного Пленум Конституционного Суда приходит к выводу, что обязательства не прекращаются после истечения сроков, определяемых статьей 551 Гражданского кодекса. Такие обязательства продолжают существовать, но приобретают характер необеспеченных иском (натуральных) обязательств.

При этом следует учитывать, что в отличие от случая истечения срока, исполнение, предоставленное после прекращения обязательства по всем другим основаниям, предусмотренным главой 27 Гражданского кодекса (например, в случае прощения долга), может быть истребовано обратно. Поскольку в случае прекращения обязательство уже не существует, предоставленное в этом случае считается перешедшим во владение противоположной стороны без какого-либо правового основания, и его можно истребовать обратно. Так, согласно статье 439.4 Гражданского кодекса, деньги, уплаченные вне обязательства, могут быть истребованы в соответствии с правилами неосновательного обогащения.

Согласно статье 551 Гражданского кодекса о сроках для прекращения обязательств, все требования по истечении десяти лет (обычный срок) теряют силу, если иное не установлено настоящим Кодексом.

По истечении пяти лет теряют силу следующие требования:

– по наемной плате, об арендной плате, о процентах за капитал и о других периодических платежах;

– по реализации продовольственных продуктов, продуктов питания и напитков либо по предоставлению жилья прибывающим;

– по строительству заводов, по реализации товаров, по перевозкам, требования людей свободных профессий (например, врачей, адвокатов или консультантов), а также требования по трудовым отношениям работников;

– требование, возникшее на основании судебного решения, по истечении тридцати лет теряет силу. Данное правило применяется и в том случае, если требование связано с более коротким сроком.

Следует учитывать, что если рассматривать 10-летний срок, предусмотренный статьей 551 Гражданского кодекса, буквально как срок для прекращения обязательств, то "право должника отказаться от исполнения обязательства", упомянутое выше, не может

существовать. Поскольку при отсутствии обязательства не может быть и предмета отказа. Также, в таком случае не будет существовать и субъективного права лица, выступающего в качестве истца, которое было нарушено и подлежит обеспечению. Однако согласно статье 373.1 Гражданского кодекса, общий срок исковой давности составляет 10 лет, и, если иск подается после истечения этого срока, а ответчик не подает заявление о применении срока исковой давности, суд может удовлетворить исковое требование (статья 375.2 Гражданского кодекса).

В то же время, в некоторых случаях, когда сроки, предусмотренные статьей 551 Гражданского кодекса, считаются сроками прекращения обязательств, возникает вопрос о применении как исковой давности, так и сроков прекращения обязательств по одним и тем же правоотношениям. Например, статья 373.2 Гражданского кодекса устанавливает срок исковой давности по договорным требованиям, связанным с недвижимым имуществом, в 6 лет, а статья 551.2.3 того же Кодекса устанавливает 5-летний срок утраты силы требований по строительству заводов. В такой ситуации, если истечение 5-летнего срока рассматривается как срок прекращения обязательства, то продолжение течения 6-летнего срока исковой давности по исполнению обязательства нельзя считать соответствующим правовой логике и регулированию.

Следует также учитывать, что согласно статье 384.0.2 Гражданского кодекса, исковая давность не распространяется на требования вкладчиков к банку о выдаче вкладов. В целях обеспечения доверия к государственной финансово-кредитной системе, а также ее стабильности законодатель гарантирует бессрочное обеспечение иском требований, вытекающих из таких обязательств. Поскольку сроки, установленные статьей 551 Гражданского кодекса, предусмотрены для всех требований, их оценка как срока прекращения обязательства может вызвать неопределенность в отношении того, создает ли это несоответствие с вышеупомянутой статьей 384.0.2.

Учитывая вышеизложенное, Пленум Конституционного Суда считает недопустимым рассматривать эти установленные законодателем сроки как сроки, истечение которых влечет прекращение обязательства или права требовать его исполнения (пресекательный срок).

В то же время, тот факт, что обязанное лицо не может требовать возврата, исполненного по обязательству после истечения этих сроков, указывает на то, что такие обязательства являются натуральными обязательствами, не обеспеченными иском, что в свою очередь характерно для института исковой давности. Как было отмечено выше, один из основных критериев, отличающих исковую давность от пресекательных сроков, заключается в том, что ее истечение влечет прекращение не самого права требования, а возможности его принудительного осуществления через компетентный орган.

Не случайно, говоря о недопустимости зачета требований, законодатель использовал именно понятие "исковая давность". Согласно статье 545.0.4 Гражданского кодекса, зачет требований не допускается, если по заявлению другой стороны к требованию подлежит применение срока исковой давности и этот срок истек.

Следует также учитывать, что правила начала течения сроков, предусмотренные статьями 377 и 552.1 Гражданского кодекса, прерывания сроков, предусмотренных статьями 380 и 553, а также их приостановления (статьи 379 и 552.2) идентичны.

Кроме того, согласно статье 554.4 Гражданского кодекса, истечение срока не может быть исключено или усложнено соглашением сторон. Стороны вправе договориться об упрощении истечения срока, в частности о его сокращении. В соответствии со статьей 374.1 того же Кодекса, если в договоре не предусмотрено иное, сроки исковой давности и порядок их исчисления определяются настоящим Кодексом. Как видно, законодатель закрепил возможность изменения сроков, предусмотренных как в параграфе 5 главы 27, так и в главе 18 Кодекса, по соглашению сторон.

Принимая во внимание вышеизложенное, Пленум Конституционного Суда считает, что в положениях "все требования утрачивают силу по истечении десяти лет (обычный срок)" и "следующие требования утрачивают силу по истечении пяти лет", предусмотренных статьей 551 Гражданского кодекса, под требованиями подразумевают именно требования, связанные с принудительным исполнением обязательств в судебном порядке как процессуального средства защиты интересов ответчика. Поэтому эти сроки (за исключением срока, предусмотренного статьей 551.2.4) должны рассматриваться как сроки исковой давности. В целом, сроки,

предусмотренные параграфом 5 главы 27 Гражданского кодекса, за исключением статьи 551.2.4, являются сроками исковой давности.

Что касается статьи 551.2.4 Гражданского кодекса, истечение предусмотренного ею 30-летнего срока влечет не прекращение обязательства (оно продолжает существовать как натуральное обязательство), а к утрате возможности принудительного исполнения обязательства, установленного судебным решением, и поэтому данная норма по своей сути является правовой нормой, связанной с исполнением судебных решений.

Следует подчеркнуть, что в статье 527.1 Гражданского кодекса среди оснований прекращения обязательств понятие “истечение срока” в отношении обязательств, определяемых конкретными сроками, возникает из правового характера или соглашения сторон. То есть, если обязательство было сформировано именно на определенный срок (например, обязательства по оказанию услуг, имеющие конкретные сроки), то истечение этого срока может повлечь за собой прекращение обязательства.

Учитывая вышеизложенное, Пленум Конституционного Суда отмечает, что наличие в Гражданском кодексе положений об исковой давности как в параграфе 5 главы 27, так и в главе 18 Гражданского кодекса не только создает правовую неопределенность и приводит к увеличению судебных споров, но и нарушает конституционные гарантии права на судебную защиту.

В связи с этим Пленум Конституционного Суда считает, что было бы целесообразным усовершенствование законодательным органом норм, предусмотренных параграфом 5 главы 27 Гражданского кодекса, с учетом правовых позиций, отраженных в настоящем Постановлении.

Пленум Конституционного Суда также отмечает, что в целях обеспечения права на судебную защиту, предусмотренного частью I статьи 60 Конституции, до решения вопроса в законодательном порядке, учитывая целенаправленное включение законодателем в Гражданский кодекс отдельной главы о сроках исковой давности, к требованиям, возникающим из обязательств, в том числе к требованиям, которые возникают из обязательств, подлежащих периодическому исполнению, должны применяться сроки исковой давности, предусмотренные главой 18 данного Кодекса.

На основании вышеизложенного Пленум Конституционного Суда приходит к следующим выводам:

– Сроки, установленные параграфом 5 главы 27 Гражданского кодекса, по своей правовой природе являются сроками исковой давности;

– До усовершенствования законодательным органом параграфа 5 главы 27 Гражданского кодекса, к требованиям, возникающим из обязательств, в том числе к требованиям, которые возникают из обязательств, подлежащих периодическому исполнению, должны применяться сроки исковой давности, предусмотренные главой 18 данного Кодекса.

Руководствуясь частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 60, 62, 63, 65-67 и 69 Закона Азербайджанской Республики “О Конституционном суде”, Пленум Конституционного Суда Азербайджанской Республики

**П О С Т А Н О В И Л :**

1. Сроки, предусмотренные параграфом 5 главы 27 Гражданского кодекса Азербайджанской Республики, по своей правовой природе считать сроками исковой давности.
2. До усовершенствования законодательным органом параграфа 5 главы 27 Гражданского кодекса Азербайджанской Республики, к требованиям, возникающим из обязательств, в том числе к требованиям, которые возникают из обязательств, подлежащих периодическому исполнению, следует применять сроки исковой давности, предусмотренные главой 18 данного Кодекса.
3. Постановление вступает в силу со дня опубликования.
4. Постановление опубликовать в официальных государственных газетах Азербайджанской Республики и “Вестнике Конституционного Суда Азербайджанской Республики”, а также разместить на официальном сайте Конституционного Суда Азербайджанской Республики.
5. Постановление является окончательным и не может быть отменено, изменено или официально истолковано ни одним органом или лицом.

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN
Q Ə R A R I

---

## Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150.9-cu maddəsinin həmin Məcəllənin 38, 145.1.6 və 146.1-1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**28 mart 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev (məruzəçi-hakim), Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Şəki Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150.9-cu maddəsinin həmin Məcəllənin 38, 145.1.6 və 146.1-1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim C.Qaracayevin məruzəsini, maraqlı subyekt Azərbaycan Respublikası Milli Məclisi Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin, mütəxəssis Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq elmləri doktoru S.Əliyevin rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## M Ü Ə Y Y Ə N  E T D İ :

Şəki Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 150.9-cu maddəsinin həmin Məcəllənin 38.1, 145.1.6 və 146.1-1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Müraciətdən görünür ki, S.Qadaşov Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyinin 27 aprel 2021-ci il tarixli inzibati tənbeh tətbiq etmə haqqında qərarına əsasən, İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsi ilə təqsirli bilinərək 3 000 manat məbləğində inzibati cərimə edilmişdir.

Həmin qərar icraya yönəldildikdən sonra Qax rayon İcra və probasiya şöbəsinin icra məmuru tərəfindən icraata başlamaq haqqında 27 iyul 2021-ci il tarixli qərar qəbul edilmişdir. S.Qadaşov cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) məcburi icraya yönəldilmiş qərarını icra etmədiyinə görə onun barəsində 27 aprel 2022-ci il tarixində İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsi ilə inzibati xəta haqqında protokol tərtib olunaraq məhkəməyə göndərilmişdir.

Qax Rayon Məhkəməsinin 10 may 2022-ci il tarixli qərarı ilə o, İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsi ilə təqsirli bilinərək barəsində 240 saat müddətində ictimai işlər inzibati tənbehi tətbiq edilmişdir.

Həmin qərardan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin Şəki-Zaqatala regional şöbəsinin rəisi apellyasiya şikayəti vermişdir.

Şəki Apellyasiya Məhkəməsi işə baxarkən müəyyən etmişdir ki, barəsində icraat aparılan şəxs tərəfindən inzibati cərimə növündə tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) məcburi icraya yönəldilmiş qərarının 2 ay müddətində icra olunmadığı və həmin 2 aylıq müddətin 27 sentyabr 2021-ci il tarixində başa çatdığı və icra məmuru tərəfindən İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsi ilə inzibati xəta haqqında protokol inzibati xətanın törədilməsi faktı aşkar edildikdən dərhal sonra tərtib edilərək məhkəməyə göndərilməli olduğu halda, 6 ay sonra tərtib edilərək göndərilmiş və müvafiq tənbeh tətbiq edilmişdir.

Müraciətedənin qənaətinə görə, bu hal İnzibati Xətalar Məcəlləsinin 38.1-ci maddəsinin tələbləri ilə ziddiyyət təşkil edir.

Müraciətdə o da qeyd edilir ki, İnzibati Xətalar Məcəlləsinin 145.1.6-cı maddəsinə görə, barəsində inzibati xəta haqqında iş üzrə qərar çıxarılmış şəxs həmin qərarı icra etməməyə görə bu Məcəllənin 529.1, 529.2 və ya 529.4-cü maddələrinə əsasən inzibati məsuliyyətə cəlb edildikdə, inzibati tənbeh tətbiq etmə haqqında qərarı qəbul etmiş hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) qərarın icrasına xitam verir.

Lakin inzibati cərimə növündə tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarının qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra edilməməsinə görə icra məmuru tərəfindən inzibati xəta haqqında protokol tərtib olunaraq məhkəməyə göndərilsə də, məhkəmə tərəfindən həmin Məcəllənin 38-ci maddəsinə əsasən müddətin keçməsi əsası ilə iş üzrə icraata xitam verildikdə və beləliklə də şəxs İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilmədikdə, inzibati cərimə növündə tənbehin tətbiq edilməsi haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarının icra edilib-edilməməsi məsələsi qeyri-müəyyən qalır.

Eyni zamanda müraciətedən hesab edir ki, İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsində müəyyən edilmiş müddətin keçməsi əsası ilə şəxs İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilmədiyi halda, icra məmurunun eyni əsaslarla həmin şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsi ilə protokol tərtib edərək yenidən məhkəməyə göndərməsinin qanunvericiliyin tələbləri baxımından mümkün olub-olmamasının müəyyən edilməsi də mühüm əhəmiyyət kəsb edir.

Göstərilənlərə əsasən Şəki Apellyasiya Məhkəməsi barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxslərin mənafeyi baxımından qeyd olunan məsələlərə aydınlıq gətirilməsi, qanunvericiliyin hüquq tətbiqedənlər tərəfindən eyni qaydada tətbiqinin və hüquqi müəyyənlik prinsipinin təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinə müraciət edilməsinin zəruriliyi qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə əlaqədar aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

Azərbaycan Respublikası Konstitusiyasının (bundan sonra – Konstitusiya) 12-ci maddəsinin I hissəsinə, 71-ci maddəsinin I və X hissələrinə görə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Konstitusiyada təsbit edilmiş

insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcudur. Dövlət orqanları yalnız bu Konstitusiya əsasında, qanunla müəyyən edilmiş qaydada və hüdudlarda fəaliyyət göstərə bilərlər. Konstitusiyanın qeyd olunan normaları insan hüquq və azadlıqlarının müdafiə vasitələri ilə yanaşı, həmin hüquqların təminatı kimi cinayət, inzibati-delikt və digər repressiv və preventiv hüquq sahələrinin qoruyucu normalarının mövcudluğunu da nəzərdə tutur. Hər bir dövlət orqanı öz səlahiyyətləri çərçivəsində insan hüquq və azadlıqlarını qorumaq şərti ilə qanunçuluğu təmin etməlidir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 135.1.5 və 135.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2021-ci il 16 noyabr tarixli Qərarı).

İnzibati xətalar qanunvericiliyinin vəzifələri insan və vətəndaş hüquqlarını və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitariya-epidemioloji salamatlığını, ictimai mənəviyyatı, mülkiyyəti, şəxslərin iqtisadi maraqlarını, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, idarəçilik qaydalarını qorumaqdan, qanunçuluğu möhkəmləndirməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir (İnzibati Xətalar Məcəlləsinin 2-ci maddəsi).

Bu Məcəllə insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır. Bu Məcəllə insan və vətəndaş hüquqlarının və azadlıqlarının dövlət orqanları, qurumları və vəzifəli şəxslər tərəfindən pozulmasının qarşısının alınmasını və onlara hörmət olunmasını təmin edir (İnzibati Xətalar Məcəlləsinin 4 və 5.2-ci maddələri).

İnzibati xətalar qanunvericiliyinin göstərilən vəzifələrinin həyata keçirilməsi müvafiq səlahiyyətli dövlət orqanlarının (vəzifəli şəxslərin) üzərinə qoyulmuşdur.

İnzibati xətaların qarşısının alınması prinsipini nəzərdə tutan İnzibati Xətalar Məcəlləsinin 10-cu maddəsinə əsasən, dövlət orqanları (qurumları) və bələdiyyələr inzibati xətaların qarşısının alınması, inzibati xətaların törədilməsinə kömək edən səbəblərin və şəraitin aşkar edilməsi və aradan qaldırılması, vətəndaşların hüquq şüurunun və mədəniyyətinin yüksəldilməsi və Azərbaycan Respublikasının qanunlarına ciddi əməl etmək ruhunda tərbiyə olunması sahəsində tədbirlər hazırlayır və həyata keçirirlər.

İnzibati Xətalar Məcəlləsinin qanunçuluq prinsipindən bəhs edən 6-cı maddəsinə görə, inzibati xətaya görə inzibati tənbeh bu Məcəlləyə uyğun olaraq tətbiq edilir. İnzibati xəta haqqında iş üzrə icraatın təmin olunması tədbirləri tətbiq edilərkən qanunvericiliyin tələblərinə əməl olunması yuxarı orqanların və vəzifəli şəxslərin idarə nəzarəti ilə, məhkəmə və prokuror nəzarəti ilə və şikayət etmək hüququ ilə təmin edilir.

Qanunçuluq prinsipinin əsasını hüquq prinsiplərini, ümuminsani dəyərləri, sosial inkişafın obyektiv tendensiyalarını müvafiq şəkildə əks etdirən qanunvericilik təşkil edir. Bu prinsip inzibati icraatın bütün iştirakçılarının hərəkətlərinin müstəsna olaraq qanunvericiliyin maddi və prosessual normalarına müvafiq olmasını şərtləndirir.

İnzibati Xətalar Məcəlləsi inzibati xətalar haqqında işin həllini təmin edən bir neçə müstəqil prosessual mərhələni nəzərdə tutur ki, bunlardan biri də inzibati xətalar haqqında işlər üzrə qərarların icra olunmasıdır.

İnzibati Xətalar Məcəlləsinin 139-cu maddəsinə əsasən, inzibati xəta haqqında iş üzrə qərarın icrası bütün dövlət orqanları, bələdiyyələr, vəzifəli şəxslər, fiziki şəxslər, hüquqi şəxslər üçün məcburidir. İnzibati xəta haqqında iş üzrə qərar qanuni qüvvəyə mindiyi vaxtdan dərhal icra olunmalıdır.

Məhz qərarların effektiv icrası nəticəsində hüquqların səmərəli bərpa olunması təmin edilir. Bu mövqedən çıxış edərək qanunverici öz səlahiyyətləri çərçivəsində hər kəsin hüquq və azadlıqlarının qorunması məqsədilə inzibati xətalar haqqında işlər üzrə qanuni qüvvəyə minmiş qərarların icrası mərhələsində həmin qərarın icra olunmasının təmin edilməsinə yönəlmiş qaydaları müəyyən edir və onları mütəmadi təkmilləşdirir.

İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsinə əsasən, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların və bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan inzibati xətanın törədilməsinə görə inzibati cərimə istisna olmaqla, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarının qanuni qüvvəyə mindiyi gündən 3 ay müddətində qanunla müəyyən edilmiş əsaslar olmadan icra edilməməsinə görə müvafiq inzibati tənbeh tədbirinin (ictimai işlərin) tətbiq edilməsi nəzərdə tutulmuşdur.

İnzibati Xətalar Məcəlləsinin 150.1-ci maddəsinin tələbinə görə, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı qanuni qüvvəyə mindikdən və ya bu Məcəllənin 143-cü maddəsində nəzərdə tutulmuş möhlət verilmənin, təxirəsalmanın müddəti bitdikdən otuz gündən gec olmayaraq, inzibati xəta törətmiş şəxs inzibati cəriməni ödəməlidir. Həmin Məcəllənin 150.9-cu maddəsinə müvafiq olaraq, fiziki və ya vəzifəli şəxs barəsində inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında səlahiyyətli orqanın (vəzifəli şəxsin) məcburi icraya yönəldilmiş qərarı 2 ay müddətində, məhkəmənin məcburi icraya yönəldilmiş qərarı isə 15 gün müddətində icra olunmadıqda, icra məmuru bu Məcəllənin 529.1 və ya 529.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xəta haqqında protokol tərtib edir.

Müraciətə səbəb olan inzibati xəta haqqında işdə olduğu kimi, inzibati xəta haqqında protokolun gec tərtib edilərək baxılmağa göndərilməsi və bu halda şəxsin məhkəmə tərəfindən inzibati tənbehə məruz qalması ilə bağlı qeyd olunmalıdır ki, İnzibati Xətalar Məcəlləsində inzibati xəta haqqında protokol ciddi hesabat sənədi kimi müəyyən edilərək tərtib olunmasının qaydası, müddəti və əks etdirməli olduğu məlumatlar dəqiq göstərilmişdir. İnzibati Xətalar Məcəlləsinin 101.1-ci maddəsi bir qayda olaraq inzibati xəta haqqında protokolun inzibati xətanın törədilməsi faktı aşkar edildikdən dərhal sonra tərtib edilməsini tələb edir. İşin hallarının, eləcə də barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxsin şəxsiyyətinin və ya hüquqi şəxs barəsində məlumatların əlavə aydınlaşdırılması tələb olunduğu hallarda, inzibati xəta haqqında protokol inzibati xətanın aşkar edildiyi vaxtdan iki gün müddətində tərtib edilir. İnzibati araşdırma aparıldığı hallarda isə inzibati xəta haqqında protokol bu Məcəllənin 102.5-ci maddəsində göstərilən müddətdə tərtib edilir (İnzibati Xətalar Məcəlləsinin 101.2 və 101.3-cü maddələri).

Həmçinin inzibati xəta haqqında işin baxılmağa hazırlanması zamanı hakimin və ya səlahiyyətli orqanın həll etməli olduğu məsələlərin dairəsini müəyyən edən İnzibati Xətalar Məcəlləsinin 106.0.3-cü maddəsinə müvafiq olaraq, hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) inzibati xətalar haqqında işlərə baxarkən inzibati xəta haqqında protokol və işin digər materiallarının bu Məcəllənin tələblərinə uyğun tərtib edilməsini yoxlayır.

Göstərilən maddələrin tələblərindən çıxış edərək Konstitusiya Məhkəməsinin Plenumu bir daha qeyd edir ki, inzibati xəta haqqında protokol əsasən inzibati xətalar haqqında iş üzrə icraatın başlanmasını təsdiqləyən sənəd olmaqla, özündə işin həlli üçün zəruri olan məlumat-

ları əks etdirməli və inzibati xətalar qanunvericiliyinin tələblərinə müvafiq qaydada və müddətdə tərtib edilməlidir.

İnzibati Xətalar Məcəlləsinin müddətin keçməsinə görə məsuliyyətdən azad etməni nəzərdə tutan 38.1-ci maddəsinə əsasən, inzibati tənbeh inzibati xətanın törədildiyi gündən ən geci dörd ay keçənədək verilə bilər. Dairəsi həmin maddədə müəyyən edilmiş bəzi inzibati xətaların törədilməsinə görə isə bu müddət bir il təşkil edir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, inzibati məsuliyyətə cəlbetmə müddəti elə bir müddətdir ki, məhz həmin müddət ərzində şəxs, hüquqpozmaya yol verdiyinə görə inzibati tənbehə məruz qala bilər. Həmçinin İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsinə müvafiq olaraq inzibati məsuliyyətə cəlbetmə müddətinin bitməsi inzibati xətalar haqqında işlər üzrə icraatın başlanılmasını istisna edən, başlanmış icraata isə xitam verilməsinə səbəb olan hallardan biridir.

Göründüyü kimi, inzibati tənbehin tətbiq edilməsi qanunvericilikdə nəzərdə tutulmuş inzibati məsuliyyətə cəlbetmə müddəti ilə şərtləndirilmişdir.

Bu cür müddətləri nəzərdə tutarkən və onların hesablanması qaydalarını müəyyən edərkən qanunverici Konstitusiyanın 71-ci maddəsinin II hissəsindən irəli gələn insan və vətəndaş hüquq və azadlıqlarının hüquqi tənzimlənməsi zamanı şəxsi və publik maraqlar arasındakı tarazlığın gözlənilməsi tələbini rəhbər tutaraq inzibati məsuliyyətin qaçılmazlığının təmin olunması üçün şərait yaratmaqla yanaşı, eyni zamanda inzibati xəta törətmiş şəxslərin əsassız olaraq uzun müddətə inzibati təqib və inzibati tənbehin tətbiqi təhlükəsi altında qalmasının qarşısını almaq məqsədini güdmüşdür ("Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263-cü maddəsinin Qeyd hissəsinin və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 38-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 2022-ci il 9 mart tarixli Qərar).

İnzibati cərimə növündə tənbeh tətbiq etmə haqqında qərarın icrası ilə bağlı məsələlərə gəldikdə o da nəzərə alınmalıdır ki, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs tərəfindən həmin qərarın icrasının müəyyən edilmiş müddətdə həyata keçirilməsini qeyri-mümkün edən hallar mövcud olduqda və ya şəxsin maddi vəziyyəti nəzərə alınmaqla, inzibati xətalar qanunvericiliyi həmin qərarı qəbul etmiş hakim və ya səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında qərarın icrasının təxirə salınması və ya ona möhlət verilməsi barədə qərardadın qəbul edilməsinin mümkünlüyünü müəyyən

etməklə, inzibati cərimənin müəyyən olunmuş müddətdə ödənilməsinin təmin edilməsi üçün müxtəlif hüquqi imkanlar nəzərdə tutmuşdur (İnzibati Xətalar Məcəlləsinin 143-cü maddəsi).

Lakin İnzibati Xətalar Məcəlləsinin 150.7-ci maddəsinə müvafiq olaraq, barəsində inzibati cərimə növündə tənbeh tətbiq edilən fiziki şəxs işləmirsə, yaxud onun əməkhaqqından və ya digər gəlirlərindən inzibati cərimənin ödənilməsi mümkün deyildirsə, eləcə də hüquqi şəxsin banklarda və digər kredit təşkilatlarında hesabları barədə məlumat və ya hüquqi şəxsin hesabında pul vəsaiti olmadıqda, yaxud cərimə könüllü qaydada ödənilmədikdə inzibati cərimə tətbiq etmə haqqında qərar "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda (bundan sonra – "İcra haqqında" Qanun) nəzərdə tutulmuş qaydada məcburi icraya yönəldilir.

Azərbaycan Respublikasında məhkəmə və digər orqanların qərarlarının məcburi icrası qaydaları və şərtləri "İcra haqqında" Qanun ilə tənzimlənir.

İcra haqqında qanunvericilikdə məhkəmə və digər orqanların qərarlarının məcburi icrası vəzifəsi icra məmurunun üzərinə qoyulmuş və sonuncunun bununla əlaqədar tələblərinin Azərbaycan Respublikasının ərazisində bütün orqanlar, hüquqi şəxslər, onların vəzifəli şəxsləri və fiziki şəxslər üçün məcburi olduğu təsbit edilmişdir.

"İcra haqqında" Qanunun 3.2-ci maddəsinə əsasən, məhkəmə və digər orqanların qərarlarının icrası ilə əlaqədar icra məmurlarının tələblərini yerinə yetirməyən, onlara həvalə edilmiş vəzifələrin icrasına mane olan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Qeyd edilən Qanunda, həmçinin məhkəmə və digər orqanların qərarlarının icrası ilə bağlı icra məmurları tərəfindən edilməli olan hərəkətlərin, görülə biləcək tədbirlərin, o cümlədən məcburi icra tədbirlərinin dairəsi və müddətləri müəyyən edilmişdir.

"İcra haqqında" Qanunun 43-cü maddəsində icra məmurları tərəfindən görülə bilən məcburi icra tədbirləri kimi borclunun əmlakı üzərinə həbs qoymaq və onu satmaq yolu ilə tələbin əmlaka yönəldilməsi, tələbin borclunun əmək haqqına, pensiyasına, təqaüdünə və sair gəlirlərinə yönəldilməsi, tələbin borclunun üçüncü şəxslərdə olan pul vəsaitlərinə və digər əmlakına yönəldilməsi, icra sənədində göstərilmiş müəyyən əşyaların borcludan götürülüb tələbkara verilməsi, bu Qanuna və Azərbaycan Respublikasının digər qanunvericilik

aktlarına uyğun olaraq icra sənədinin icrasını təmin edən başqa tədbirlər nəzərdə tutulmuşdur.

"İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun 7-ci maddəsinə müvafiq olaraq isə icraata daxil olmuş icra sənədlərinin vaxtında, tam və düzgün icra edilməsi üçün tədbirlər görmək icra məmurunun bilavasitə vəzifəsidir.

Həmin Qanunun 11-ci maddəsinə müvafiq olaraq isə icra məmurları öz hərəkətlərinə (hərəkətsizliyinə) və törətdiyi hüquq pozuntularına görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Qanunla müəyyən olunmuş icra müddətlərinin əhəmiyyəti nəzərə alınaraq İnzibati Xətalar Məcəlləsinin 528.1-ci maddəsində icra sənədindəki tələbin üzrsüz səbəbdən icra məmuru tərəfindən müəyyən olunmuş müddətdə icra edilməməsinə və ya icra məmurunun məhkəmə və ya başqa dövlət orqanlarının qərarlarının icrası ilə əlaqədar digər qanuni tələblərinin yerinə yetirilməməsinə görə məsuliyyət müəyyən edilmişdir.

Qeyd olunduğu kimi, inzibati cərimə növündə tənbeh tətbiq etmə barədə səlahiyyətli orqanın (vəzifəli şəxsin) və ya məhkəmənin məcburi icraya yönəldilmiş qərarı müvafiq olaraq 2 ay və ya 15 gün müddətində icra edilmədikdə, icra məmuru bu Məcəllənin 529.1 və ya 529.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xəta haqqında protokolu tərtib edir. İnzibati Xətalar Məcəlləsinin 150.10-cu maddəsinə görə isə inzibati məsuliyyətə cəlb olunan şəxsin inzibati tənbehə yönəldilə bilən həcmdə əmlakı və ya gəlirləri bu Məcəllənin 150.9-cu maddəsində göstərilən müddətlərdə, yəni məcburi icra üçün müəyyən edilmiş müddətlərdə aşkar edildikdə, bu Məcəllənin 529.1 və ya 529.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xəta haqqında protokol tərtib edilmir və məcburi icra tədbirləri davam etdirilir.

Sadalanan maddələrdən göründüyü kimi, qanunverici inzibati cərimənin tətbiqi haqqında qərarın icrasını təmin etmək üçün müxtəlif qanuni vasitələr nəzərdə tutmuş və icra məmurlarının üzərinə bu vasitələrdən istifadə etməklə qərarların vaxtında icrasının təmin edilməsi vəzifəsini qoymuşdur. Dövlət orqanlarının üzərinə qoyulmuş vəzifələrin vaxtında və layiqincə icrası isə cəmiyyətin hər bir üzvünün maraqlarının qorunmasına xidmət etməklə yanaşı, ictimai qaydanın mühafizəsini də təmin etmiş olur. Əks hal barəsində inzibati tənbeh tətbiq edilmiş şəxslərdə tənbehin icrasından yayınmağın mümkünlüyü

düşüncəsini yaratmaqla, inzibati xətalar qanunvericiliyinin qarşısında duran vəzifələrin həyata keçirilməsinə xələl gətirmiş olar.

Odur ki, Konstitusiya Məhkəməsinin Plenumu vurğulayır ki, inzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbeh tərbiyəvi xarakter daşıdığından, həmçinin vətəndaşların hüquq şüurunun və mədəniyyətinin, qanunlara hörmət və əməl edilməli olması ilə bağlı vərdişlərinin formalaşmasında mühüm rol oynadığından, məhkəmə və digər orqanların inzibati tənbeh tətbiq etmə haqqında qərarlarının icrası zamanı icra məmurları müxtəlif qanuni vasitələrdən istifadə edərək qərarların icrasının təmin edilməsi üçün şərait yaratmalı, bunu qanunvericiliklə nəzərdə tutulmuş müddətlər daxilində etməli və yalnız bütün imkanlar tükəndikdən sonra sərt inzibati təsir tədbirlərindən istifadə etməlidirlər.

Bununla bağlı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi zəruri hesab edir ki, qanunverici məhkəmə və digər orqanların qərarlarının icrası ilə bağlı məsələləri tənzimləyərkən icra məmurlarına müvafiq qərarın icrasının təmin olunması ilə bağlı hərəkətlərin həyata keçirilməsində mülahizə sərbəstliyi verməkdən çəkinməklə, icra məmurları tərəfindən görülə biləcək tədbirlərin dairəsini, icra müddətlərini, o cümlədən digər prosessual məsələləri dəqiq müəyyən etmişdir.

Müraciətdə qaldırılan digər məsələyə gəldikdə, İnzibati Xətalar Məcəlləsinin 145.1.6-cı maddəsinə müvafiq olaraq barəsində inzibati xəta haqqında iş üzrə qərar çıxarılmış şəxs həmin qərarı icra etməməyə görə bu Məcəllənin 529.1, 529.2 və ya 529.4-cü maddələrinə əsasən inzibati məsuliyyətə cəlb edildikdə inzibati tənbeh tətbiq etmə haqqında qərarı qəbul etmiş hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) qərarın icrasına xitam verir.

Bu cür hüquqi tənzimetmə hüququn hamılıqla qəbul edilmiş eyni hüquq pozuntusuna görə iki dəfə cəza ola bilməz (non bis in idem) prinsipindən irəli gəlir. Eyni əmələ görə təkrarən məsuliyyətə cəlb edilməyə yol verilməməsinə dair prinsip inzibati xətalar qanunvericiliyində də əks olunmuşdur. Belə ki, İnzibati Xətalar Məcəlləsinin 9.2-ci maddəsinə müvafiq olaraq, bir inzibati xətaya görə heç kim iki dəfə inzibati məsuliyyətə cəlb oluna bilməz.

Məhz bu prinsipdən çıxış edərək qanunverici barəsində inzibati xəta haqqında iş üzrə qərar çıxarılmış şəxsin həmin qərarı icra etməməyə görə İnzibati Xətalar Məcəlləsinin 529.1, 529.2 və ya 529.4-cü maddələrinə əsasən inzibati məsuliyyətə cəlb edildiyi halda onun barəsində

əvvəlki inzibati tənbeh tətbiq etmə haqqında qərarın icrasına xitam verilməsini nəzərdə tutmuşdur.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, cərimə növündə inzibati tənbeh tətbiq edilməsi barədə qərarın qanunla müəyyən edilmiş əsaslar olmadan icra edilməməsinə görə İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsində nəzərdə tutulmuş xətanın törədilməsinə dair protokol icra məmuru tərəfindən qanunvericiliklə müəyyən edilmiş müddətdə tərtib edilmədikdə və nəticədə həmin xətaya görə inzibati məsuliyyətə cəlb etmə müddəti keçdiyi halda, məhkəmə tərəfindən İnzibati Xətalar Məcəlləsinin 38.1, 53 və 109.2-ci maddələrinə müvafiq olaraq iş üzrə icraata xitam verilməlidir.

Bununla da, şəxsi cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarı icra etmədiyinə görə inzibati məsuliyyətə cəlb etmək mümkün olmadığından, onun barəsində əvvəlki (cərimə növündə) inzibati tənbeh tətbiq etmə haqqında qərar üzrə məcburi icra tədbirləri davam etdirilir.

İnzibati Xətalar Məcəlləsinin 146.1-1-ci maddəsinin tələbinə uyğun olaraq, inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindiyi gündən 5 il müddətində icra edilməmişdirsə, daha icra edilmir.

Belə olan halda inzibati cərimə tənbeh tədbirini icra etməməyə davam edən şəxs barəsində icra məmuru tərəfindən İnzibati Xətalar Məcəlləsinin 529.1-ci maddəsilə protokolun təkrarən tərtib edilib məhkəməyə göndərilməsinin mümkünlüyü barədə Konstitusiya Məhkəməsi Plenumunun qənaəti ondan ibarətdir ki, inzibati cəriməni qanunla müəyyən edilmiş müddət ərzində ödəməyərək müvafiq inzibati xətanı törətmiş şəxs barəsində artıq bir dəfə protokol tərtib olunaraq məhkəməyə göndərilsə də, protokolun tərtib olunması müddətlərinə əməl edilməməsi səbəbindən inzibati məsuliyyətə cəlb etmə müddətlərinin ötürülməsi əsası ilə iş üzrə icraata xitam verildiyindən, şəxs həmin xətaya görə yenidən inzibati məsuliyyətə cəlb oluna bilməz.

Qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticəyə gəlir:

İnzibati Xətalar Məcəlləsinin 150.9 və 529.1-ci maddələrinə uyğun olaraq, müvafiq inzibati xəta haqqında protokol qanunvericiliklə müəyyən edilmiş müddətdə tərtib edilmədikdə və nəticədə inzibati məsuliyyətə cəlb etmə müddəti keçdikdə, həmin Məcəllənin 38.1, 53 və 109.2-ci maddələrinə əsasən iş üzrə icraata xitam verilir. Şəxs İnzibati

Xətalar Məcəlləsinin 529.1 və ya 529.2-ci maddələrinə əsasən inzibati məsuliyyətə cəlb edilə bilmədikdə onun barəsində qəbul edilmiş inzibati cərimə növündə tənbeh tətbiq etmə haqqında qərar üzrə məcburi icra tədbirləri davam etdirilir. Şəxsin inzibati cərimə növündə tənbeh tətbiq etmə haqqında qərarın icra edilməməsinə görə təkrarən inzibati məsuliyyətə cəlb edilməsi istisna olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150.9 və 529.1-ci maddələrinə uyğun olaraq, müvafiq inzibati xəta haqqında protokol qanunvericiliklə müəyyən edilmiş müddətdə tərtib edilmədikdə və nəticədə inzibati məsuliyyətə cəlb etmə müddəti keçdikdə, həmin Məcəllənin 38.1, 53 və 109.2-ci maddələrinə əsasən iş üzrə icraata xitam verilir. Şəxs Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 529.1 və ya 529.2-ci maddələrinə əsasən inzibati məsuliyyətə cəlb edilə bilmədikdə onun barəsində qəbul edilmiş inzibati cərimə növündə tənbeh tətbiq etmə haqqında qərar üzrə məcburi icra tədbirləri davam etdirilir. Şəxsin inzibati cərimə növündə tənbeh tətbiq etmə haqqında qərarın icra edilməməsinə görə təkrarən inzibati məsuliyyətə cəlb edilməsi istisna olunur.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
3. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.
4. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**ИМЕНЕМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

П О С Т А Н О В Л Е Н И Е
ПЛЕНУМА КОНСТИТУЦИОННОГО СУДА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**О толковании статьи 150.9 Кодекса Азербайджанской Республики об административных проступках во взаимосвязи со статьями 38, 145.1.6 и 146.1-1 того же Кодекса**

**28 марта 2023 года** **город Баку**

Пленум Конституционного Суда Азербайджанской Республики в составе Фархада Абдуллаева (председатель), Соны Салмановой, Умай Эфендиевой, Ровшана Исмаилова, Джейхуна Гараджаева (судья-докладчик), Рафаэля Гваладзе, Исы Наджафова и Кямрана Шафиева,

с участием секретаря суда Фараида Алиева,

в соответствии с частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 27.2 и 33 Закона Азербайджанской Республики "О Конституционном Суде" и статьей 39 Внутреннего устава Конституционного Суда Азербайджанской Республики рассмотрел в судебном заседании в порядке письменной процедуры особого конституционного судопроизводства конституционное дело на основании обращения Шекинского апелляционного суда о толковании статьи 150.9 Кодекса Азербайджанской Республики об административных проступках во взаимосвязи со статьями 38, 145.1.6 и 146.1-1 того же Кодекса.

Изучив и обсудив доклад судьи Дж.Гараджаева по делу, суждения заинтересованного субъекта – отдела государственного строительства, административного и военного законодательства Аппарата Милли Меджлиса Азербайджанской Республики, специалиста Уголовной коллегии Бакинского апелляционного суда, заключение эксперта – доктора юридических наук, доцента кафедры Конституционного права юридического факультета Бакин-

ского государственного университета С.Алиева и материалы дела, Пленум Конституционного Суда Азербайджанской Республики

**У С Т А Н О В И Л :**

Шекинский апелляционный суд обратился в Конституционный Суд Азербайджанской Республики (далее − Конституционный Суд) с просьбой дать толкование статье 150.9 Кодекса Азербайджанской Республики об административных проступках (далее − Кодекс об административных проступках) во взаимосвязи со статьями 38.1, 145.1.6 и 146.1-1 того же Кодекса.

Из обращения следует, что С.Гадашов на основании постановления о наложении административного взыскания Государственной инспекции труда при Министерстве труда и социальной защиты населения Азербайджанской Республики от 27 апреля 2021 года был признан виновным по статье 192.1 Кодекса об административных проступках и подвергнут административному штрафу на сумму 3 000 манатов.

После направления этого постановления на исполнение, исполнительным чиновником Отдела исполнения наказаний и пробации Гахского района было принято постановление от 27 июля 2021 года о начале исполнительного производства. Поскольку С.Гадашов не исполнил направленное на принудительное исполнение постановление уполномоченного органа (должностного лица) о наложении административного взыскания в виде штрафа, в отношении него 27 апреля 2022 года был составлен протокол об административном проступке по статье 529.1 Кодекса об административных проступках и направлен в суд.

Постановлением Гахского районного суда от 10 мая 2022 года он был признан виновным по статье 529.1 Кодекса об административных проступках и к нему было применено административное взыскание в виде общественных работ сроком на 240 часов.

На данное постановление начальником Шеки-Загатальского регионального отдела Государственной службы инспекции труда при Министерстве труда и социальной защиты населения была подана апелляционная жалоба.

Шекинский апелляционный суд при рассмотрении дела установил, что лицом, в отношении которого ведется производство, не было исполнено в течение 2 месяцев постановление уполномочен-

ного органа (должностного лица) о наложении административного штрафа, направленное на принудительное исполнение, и этот двухмесячный срок истек 27 сентября 2021 года, и хотя в соответствии со статьей 529.1 Кодекса об административных проступках исполнительный чиновник должен был составить протокол об административном проступке немедленно после выявления факта административного проступка и направить его в суд, он был составлен и направлен спустя 6 месяцев, и было наложено соответствующее взыскание.

По мнению заявителя, это обстоятельство противоречит требованиям статьи 38.1 Кодекса об административных проступках.

В обращении также отмечается, что согласно статье 145.1.6 Кодекса об административных проступках, если лицо, в отношении которого вынесено постановление по делу об административном проступке, привлекается к административной ответственности за его неисполнение на основании статей 529.1, 529.2 или 529.4 данного Кодекса, судья, уполномоченный орган (должностное лицо), вынесший постановление о наложении административного взыскания, прекращает исполнение постановления.

Однако, если исполнительный чиновник составляет и направляет в суд протокол об административном проступке за неисполнение без установленных законом оснований постановления уполномоченного органа (должностного лица) о наложении административного взыскания в виде штрафа в течение 3 месяцев со дня его вступления в законную силу, суд прекращает производство по делу на основании истечения срока, предусмотренного статьей 38 указанного Кодекса, и, таким образом, при непривлечении лица к административной ответственности по статье 529.1 Кодекса об административных проступках, остается неопределенным вопрос об исполнении или неисполнении постановления уполномоченного органа (должностного лица) о наложении административного взыскания в виде штрафа.

В то же время заявитель считает, что в случае, если лицо не было привлечено к ответственности по статье 529.1 Кодекса об административных проступках на основании истечения срока, установленного статьей 38 указанного Кодекса, также имеет важное значение определение возможности или невозможности допуска с точки зрения требований законодательства, повторного составления исполнительным чиновником протокола по статье 529.1 Ко-

декса об административных проступках в отношении этого же лица по тем же основаниям и повторное направление его в суд.

На основании изложенного Шекинский апелляционный суд пришел к выводу о необходимости обращения в Конституционный Суд для внесения ясности в указанные вопросы с точки зрения интересов лиц, в отношении которых ведется производство по делу об административном проступке, с целью обеспечения единообразного применения законодательства и принципа правовой определенности правоприменителями.

В связи с обращением Пленум Конституционного Суда считает важным отметить следующее.

Согласно части I статьи 12, частям I и X статьи 71 Конституции Азербайджанской Республики (далее – Конституция), обеспечение прав и свобод человека и гражданина является высшей целью государства. Соблюдать и защищать права и свободы человека и гражданина, закрепленные в Конституции, является обязанностью органов законодательной, исполнительной и судебной властей. Государственные органы могут осуществлять деятельность лишь на основании настоящей Конституции, в порядке и пределах, установленных законом. Указанные нормы Конституции наряду со средствами защиты прав и свобод человека предусматривают также наличие охранительных норм уголовного, административно-деликтного и иных репрессивных и превентивных отраслей права как гарантию этих прав. Каждый государственный орган в рамках своих полномочий должен обеспечивать законность при условии защиты прав и свобод человека (Постановление Пленума Конституционного Суда "О толковании во взаимосвязи статей 135.1.5 и 135.2 Кодекса Азербайджанской Республики об административных проступках" от 16 ноября 2021 года).

Законодательство об административных проступках имеет задачей охрану прав и свобод человека и гражданина, их здоровья, санитарно-эпидемиологического благополучия населения, общественной морали, собственности, экономических интересов лиц, общественного порядка и общественной безопасности, окружающей среды, правил управления, укрепление законности и предупреждение административных проступков (статья 2 Кодекса об административных проступках).

Этот Кодекс основывается на принципах уважения прав и свобод человека и гражданина, законности, равенства перед законом,

презумпции невиновности, справедливости и предупреждения административных проступков. Настоящий Кодекс обеспечивает предупреждение государственными органами, структурами и должностными лицами нарушения прав и свобод человека и гражданина и уважение к этим правам и свободам (статьи 4 и 5.2 Кодекса об административных проступках).

Реализация указанных задач законодательства об административных проступках возложена на соответствующие уполномоченные государственные органы (должностных лиц).

Согласно статье 10 Кодекса об административных проступках, предусматривающей принцип предупреждения административных проступков, государственные органы (структуры) и муниципалитеты вырабатывают и осуществляют мероприятия в области предупреждения административных проступков, выявления и устранения причин и условий, способствующих совершению административных проступков, повышения правосознания и культуры граждан и их воспитания в духе строгого соблюдения законов Азербайджанской Республики.

Согласно статье 6 Кодекса об административных проступках, касающейся принципа законности, административное взыскание за административный проступок применяется в соответствии с настоящим Кодексом. Соблюдение требований законодательства при применении мер обеспечения производства по делам об административных проступках обеспечивается управленческим надзором вышестоящих органов и должностных лиц, судебным и прокурорским надзором и правом обжалования.

Основу принципа законности составляет законодательство, которое соответствующим образом отражает правовые принципы, общечеловеческие ценности, объективные тенденции социального развития. Этот принцип обусловливает соответствие действий всех участников административного производства исключительно материальным и процессуальным нормам законодательства.

Кодекс об административных проступках предусматривает несколько самостоятельных процессуальных этапов, обеспечивающих разрешение дела об административных проступках, одним из которых является исполнение постановлений по делам об административных проступках.

Согласно статье 139 Кодекса об административных проступках, исполнение постановления по делу об административном про-



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

ступке обязательно для всех государственных органов, муниципалитетов, должностных лиц, физических лиц, юридических лиц. Постановление по делу об административном проступке подлежит исполнению немедленно по его вступлении в законную силу.

Именно в результате эффективного исполнения постановлений обеспечивается действенное восстановление прав. Исходя из этой позиции, законодатель в пределах своих полномочий устанавливает и постоянно совершенствует правила, направленные на обеспечение исполнения вступивших в законную силу постановлений по делам об административных проступках на стадии их исполнения с целью защиты прав и свобод каждого.

Согласно статье 529.1 Кодекса об административных проступках, неисполнение без установленных законом оснований постановления уполномоченного органа (должностного лица) о наложении административного взыскания в виде административного штрафа в течение 3 месяцев со дня вступления его в силу, за исключением административного штрафа за совершение административных проступков против правил дорожного движения и административных проступков, предусмотренных статьей 353.2 настоящего Кодекса, влечет применение соответствующей меры административного взыскания (общественных работ).

Согласно требованию статьи 150.1 Кодекса об административных проступках, административный штраф подлежит уплате лицом, совершившим административный проступок, не позднее тридцати дней от вступления в законную силу постановления уполномоченного органа (должностного лица) о наложении административного взыскания в виде административного штрафа или от предусмотренного статьей 143 этого Кодекса срока отложения или отсрочки. В соответствии со статьей 150.9 того же Кодекса, в случае неисполнения направленного на принудительное исполнение постановления уполномоченного органа (должностного лица) о наложении административного взыскания в виде административного штрафа в отношении физического или должностного лица в течение 2 месяцев, а также неисполнения постановления суда, направленного на принудительное исполнение в течение 15 дней, исполнительный чиновник составляет протокол об административном проступке, предусмотренном в статьях 529.1 и 529.2 настоящего Кодекса.

Как и в деле об административном проступке, послужившим основанием для обращения, в этом случае следует отметить, что направление на рассмотрение протокола об административном проступке, составленного с опозданием и привлечение лица к административной ответственности судом в таком случае противоречат требованиям, поскольку в Кодексе об административных поступках протокол об административном проступке определен как документ строгой отчетности, и порядок его составления, сроки, а также сведения, которые должны быть в нем отражены, установлены точно и однозначно.

Согласно требованию статьи 101.1 Кодекса об административных проступках, протокол об административном проступке составляется немедленно после выявления факта совершения административного проступка. При необходимости дополнительного выяснения обстоятельств дела, а также личности физического лица или сведений о юридическом лице, в отношении которых ведется производство по делу об административном проступке, протокол об административном проступке составляется в течение двух дней с момента выявления административного проступка. При проведении административного расследования протокол об административном проступке составляется в срок, указанный в статье 102.5 этого Кодекса (статьи 101.2 и 101.3 Кодекса об административных проступках).

Также в соответствии со статьей 106.0.3 Кодекса об административных проступках, определяющей круг вопросов, которые должны быть разрешены судьей или уполномоченным органом при подготовке дела об административном проступке к рассмотрению, судья, уполномоченный орган (должностное лицо) при рассмотрении дел об административных проступках проверяет соответствие протокола об административном проступке и других материалов дела требованиям настоящего Кодекса.

Исходя из требований указанных статей, Пленум Конституционного Суда еще раз отмечает, что протокол об административном проступке, являясь в основном документом, подтверждающим начало производства по делу об административном проступке, должен отражать сведения, необходимые для разрешения дела и должен быть составлен в порядке и сроки, соответствующие требованиям законодательства об административных проступках.

Согласно статье 38.1 Кодекса об административных проступках, предусматривающей освобождение от ответственности в связи с истечением срока, административное взыскание может быть наложено не позднее четырех месяцев со дня совершения административного проступка. В отношении отдельных административных проступков, предусмотренных данной статьей, этот срок составляет один год.

Пленум Конституционного Суда отмечает, что срок привлечения к административной ответственности – это такой период, в течение которого лицо может быть подвергнуто административному взысканию за совершение правонарушения. Также в соответствии со статьей 53 Кодекса об административных проступках истечение срока привлечения к административной ответственности является одним из обстоятельств, исключающих возбуждение производства по делам об административных проступках, а в случае начатого производства – влекущих его прекращение.

Как видно, наложение административного взыскания обусловлено сроком привлечения к административной ответственности, предусмотренным законодательством.

Предусматривая такие сроки и устанавливая правила их исчисления, законодатель, руководствуясь требованием соблюдения баланса между частными и публичными интересами при правовом регулировании прав и свобод человека и гражданина, вытекающим из части II статьи 71 Конституции, наряду с созданием условий для обеспечения неотвратимости административной ответственности, также преследовал цель предотвращения необоснованно длительного нахождения лиц, совершивших административный проступок, под угрозой административного преследования и наложения административного взыскания (Постановление "О толковании некоторых положений Примечания к статье 263 Уголовного кодекса Азербайджанской Республики и статьи 38 Кодекса Азербайджанской Республики об административных проступках " от 9 марта 2022 года).

Что касается вопросов, связанных с исполнением постановления о наложении взыскания в виде административного штрафа, следует также учитывать, что законодательство об административных проступках предусматривает различные правовые возможности для обеспечения уплаты административного штрафа в установленный срок, определяя возможность принятия определе-

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

ния об отложении или отсрочке исполнения постановления об административном проступке судьей или уполномоченным органом (должностным лицом), вынесшим данное постановление, при наличии обстоятельств, делающих невозможным исполнение данного постановления лицом, в отношении которого ведется производство по делу об административном проступке, в установленные сроки, или с учетом материального положения лица (статья 143 Кодекса об административных проступках).

Однако в соответствии со статьей 150.7 Кодекса об административных проступках, если физическое лицо, в отношении которого применено взыскание в виде административного штрафа, не работает, либо невозможно взыскание административного штрафа с его заработной платы или других доходов, а также при отсутствии информации о счетах юридического лица в банках и других кредитных организациях или при отсутствии денежных средств на счете юридического лица, либо если штраф не уплачен в добровольном порядке, постановление о наложении административного штрафа направляется на принудительное исполнение в порядке, предусмотренном Законом Азербайджанской Республики "Об исполнении" (далее – Закон "Об исполнении").

Порядок и условия принудительного исполнения постановлений судов и других органов в Азербайджанской Республике регулируются Законом "Об исполнении".

В законодательстве об исполнении обязанность принудительного исполнения постановлений судов и других органов возложена на исполнительного чиновника, и установлено, что его требования в связи с этим являются обязательными для всех органов, юридических лиц, их должностных лиц и физических лиц на территории Азербайджанской Республики.

В соответствии со статьей 3.2 Закона "Об исполнении", лица, не выполняющие требования исполнительных чиновников, связанные с исполнением постановлений судов и других органов, препятствующие исполнению возложенных на них обязанностей, несут ответственность в порядке, предусмотренном законодательством Азербайджанской Республики.

В указанном Законе также определены действия, которые должны быть совершены исполнительными чиновниками в связи с исполнением постановлений судов и других органов, меры, ко-

торые могут быть приняты, в том числе включая перечень мер принудительного исполнения и сроки их осуществления.

В статье 43 Закона "Об исполнении" в качестве обязательных исполнительных мер, которые могут быть приняты исполнительными чиновниками, предусмотрены обращение взыскания на имущество должника путем наложения ареста на имущество и его продажи; обращение взыскания на заработную плату, пенсию, стипендию и иные доходы должника; обращение взыскания на находящиеся у третьих лиц денежные средства и иное имущество должника, изъятие у должника указанных в исполнительном документе определенных предметов и передача их взыскателю, а также иные меры, обеспечивающие исполнение исполнительного документа в соответствии с настоящим Законом и другими законодательными актами Азербайджанской Республики.

В соответствии со статьей 7 Закона Азербайджанской Республики "Об исполнительных чиновниках", непосредственной обязанностью исполнительного чиновника является принятие мер для своевременного, полного и правильного исполнения исполнительных документов, поступивших в производство.

В соответствии со статьей 11 данного Закона, исполнительные чиновники несут ответственность за свои действия (бездействие) и совершенные правонарушения в порядке, предусмотренном законодательством Азербайджанской Республики.

С учетом значимости установленных законом сроков исполнения, статьей 528.1 Кодекса об административных проступках предусмотрена ответственность за неисполнение без уважительных причин требования, содержащегося в исполнительном документе, в срок, установленный исполнительным чиновником, либо за невыполнение иных законных требований исполнительного чиновника в связи с исполнением постановлений суда или других государственных органов.

Как отмечено, в случае неисполнения направленного на принудительное исполнение постановления уполномоченного органа (должностного лица) или суда о наложении административного взыскания в виде административного штрафа в течение 2 месяцев или 15 дней соответственно, исполнительный чиновник составляет протокол об административном проступке, предусмотренном статьями 529.1 и 529.2 настоящего Кодекса. Согласно статье 150.10 Кодекса об административных проступках, при выявлении

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

в сроки, указанные в статье 150.9 настоящего Кодекса, то есть установленные для принудительного исполнения, имущества или доходов лица, привлеченного к административной ответственности, в объеме, достаточном для погашения административного взыскания, протокол об административном проступке, предусмотренном в статьях 529.1 или 529.2 указанного Кодекса, не составляется и осуществление меры принудительного исполнения продолжается.

Как следует из перечисленных статей, законодатель предусмотрел различные законные средства для обеспечения исполнения постановлений о наложении административного штрафа и возложил на исполнительных чиновников обязанность обеспечивать своевременное исполнение постановлений с использованием этих средств. Своевременное и надлежащее исполнение обязанностей, возложенных на государственные органы, не только служит защите интересов каждого члена общества, но и обеспечивает охрану общественного порядка. В противном случае это может создать у лиц, подвергнутых административному взысканию, представление о возможности уклонения от исполнения взыскания, что помешает реализации задач, стоящих перед законодательством об административных проступках.

В связи с этим Пленум Конституционного Суда подчеркивает, что поскольку взыскание, применяемое к лицу, совершившему административный проступок, носит воспитательный характер, а также играет важную роль в формировании правового сознания и культуры граждан, привычек уважения и соблюдения законов, исполнительные чиновники при исполнении постановлений судов и других органов о наложении административного взыскания должны создавать условия для обеспечения исполнения постановлений, используя различные законные средства, осуществлять это в предусмотренные законодательством сроки и только после исчерпания всех возможностей применять жесткие меры административного воздействия.

В связи с этим Пленум Конституционного Суда считает необходимым отметить, что законодатель при регулировании вопросов исполнения постановлений судов и других органов, воздерживаясь от предоставления исполнительным чиновникам свободы усмотрения при осуществлении действий по обеспечению исполнения соответствующего постановления, четко определил круг мер, ко-

торые могут быть приняты исполнительными чиновниками, сроки исполнения, в том числе иные процессуальные вопросы.

Что касается другого вопроса, поднятого в обращении, согласно статье 145.1.6 Кодекса об административных проступках судья, уполномоченный орган (должностное лицо), вынесший постановление о наложении административного взыскания, прекращает его исполнение в случае привлечения по статьям 529.1, 529.2 или 529.4 настоящего Кодекса к административной ответственности лица, в отношении которого принято постановление по делу об административном проступке, за неисполнение этого постановления.

Такое правовое регулирование исходит из общепризнанного принципа права о недопустимости назначения наказания дважды за одно и то же правонарушение (non bis in idem). В законодательстве об административных проступках также отражен принцип недопустимости повторного привлечения к ответственности за одно и то же деяние. Так, согласно статье 9.2 Кодекса об административных проступках, никто не может быть привлечен к административной ответственности за один и тот же административный проступок дважды.

Законодатель, исходя именно из этого принципа, предусмотрел, что исполнение предыдущего постановления о применении административного взыскания прекращается в отношении лица, которое привлечено к административной ответственности на основании статей 529.1, 529.2 или 529.4 Кодекса об административных проступках за неисполнение постановления по делу об административном проступке.

Пленум Конституционного Суда также отмечает, что в случае, если исполнительным чиновником не составлен в срок, установленный законодательством протокол о совершении административного проступка, предусмотренного статьей 529.1 Кодекса об административных проступках, за неисполнение без законных оснований постановления о наложении административного взыскания в виде штрафа, и в результате истек срок привлечения к административной ответственности за данный проступок, производство по делу должно быть прекращено судом в соответствии со статьями 38.1, 53 и 109.2 Кодекса об административных проступках.

Таким образом, поскольку невозможно привлечь лицо к административной ответственности за неисполнение постановления о наложении административного взыскания в виде штрафа, в отношении него продолжаются меры принудительного исполнения по предыдущему постановлению о наложении административного взыскания (в виде штрафа).

В соответствии с требованиями статьи 146.1-1 Кодекса об административных проступках, постановление о наложении административного взыскания в виде административного штрафа более не подлежит исполнению, если оно не исполнено в течение 5 лет со дня вступления в законную силу.

В таком случае вывод Пленума Конституционного Суда относительно возможности повторного составления исполнительным чиновником протокола по статье 529.1 Кодекса об административных проступках и направления его в суд в отношении лица, продолжавшего уклоняться от исполнения взыскания в виде административного штрафа, заключается в том, что если в отношении лица, совершившего соответствующий административный проступок путем неуплаты административного штрафа в установленный законом срок, уже был однажды составлен и направлен в суд протокол, но производство по делу было прекращено вследствие истечения сроков привлечения к административной ответственности по причине несоблюдения сроков составления протокола, то такое лицо не может быть повторно привлечено к административной ответственности за этот проступок.

На основании изложенного Пленум Конституционного Суда приходит к следующему выводу:

в соответствии со статьями 150.9 и 529.1 Кодекса об административных проступках, если протокол о соответствующем административном проступке не составлен в установленный законодательством срок и в результате истек срок привлечения к административной ответственности, производство по делу прекращается на основании статей 38.1, 53 и 109.2 настоящего Кодекса. В случае если лицо не может быть привлечено к административной ответственности на основании статей 529.1 или 529.2 Кодекса об административных проступках, меры принудительного исполнения по постановлению о наложении взыскания в виде административного штрафа в отношении него продолжаются. Повторное привлечение лица к административной ответственности за неис-



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

полнение постановления о наложении взыскания в виде административного штрафа исключается.

Руководствуясь частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 60, 62, 63, 65-67 и 69 Закона Азербайджанской Республики "О Конституционном Суде", Пленум Конституционного Суда Азербайджанской Республики

## П О С Т А Н О В И Л :

1. В соответствии со статьями 150.9 и 529.1 Кодекса Азербайджанской Республики об административных проступках, если протокол о соответствующем административном проступке не составлен в установленный законодательством срок и в результате истек срок привлечения к административной ответственности, производство по делу прекращается на основании статей 38.1, 53 и 109.2 настоящего Кодекса. В случае если лицо не может быть привлечено к административной ответственности на основании статей 529.1 или 529.2 Кодекса Азербайджанской Республики об административных проступках, меры принудительного исполнения по постановлению о наложении взыскания в виде административного штрафа в отношении него продолжаются. Повторное привлечение лица к административной ответственности за неисполнение постановления о наложении взыскания в виде административного штрафа исключается.

2. Постановление вступает в силу со дня опубликования.

3. Постановление опубликовать в официальных государственных газетах Азербайджанской Республики и "Вестнике Конституционного Суда Азербайджанской Республики", а также разместить на официальном сайте Конституционного Суда Азербайджанской Республики.

4. Постановление является окончательным и не может быть отменено, изменено или официально истолковано ни одним органом или лицом.

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN
Q Ə R A R I

## Azərbaycan Respublikası Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin şərh edilməsinə dair

**11 aprel 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsi və Azərbaycan Respublikası Milli Məclisi Aparatının Sosial qanunvericilik şöbəsinin mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası Vəkillər Kollegiyasının mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru A.Qasımovun rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N   E T D İ :**

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək Azərbaycan Respublikası Əmək Məcəlləsinin (bundan sonra – Əmək Məcəlləsi) 172-ci maddəsinin 5-ci hissəsinin şərh edilməsini xahiş etmişdir.

Müraciətdə qeyd olunur ki, Ə.Həsənov "PROLINE" Məhdud Məsuliyyətli Cəmiyyətinə (bundan sonra – "PROLINE" MMC) qarşı son haqq-hesabın düzgün hesablanaraq ödənilməsi tələbinə dair iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, ödənilməmiş əmək haqqının, istifadə edilməyən əmək məzuniyyəti günlərinə, vurulmuş mənəvi zərərə və əmək haqqının gecikdirilməsinə görə kompensasiyanın hesablanaraq cavabdehdən tutulması barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 3 avqust 2022-ci il tarixli qətnaməsi ilə iddia qismən təmin edilmiş, "PROLINE" MMC-dən 12 404,34 manat məbləğində pulun tutularaq Ə.Həsənova ödənilməsi qət edilmişdir.

"PROLINE" MMC apellyasiya şikayətində birinci instansiya məhkəməsi tərəfindən Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinə istinadən bir faiz məbləğində ödəncin tutulmasının qət edilməsinin qeyri-qanuni olduğunu, həmin normanın hazırkı mübahisəyə tətbiq edilməməli olduğunu göstərmişdir.

Bakı Apellyasiya Məhkəməsində işə baxılarkən Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin tətbiqi ilə bağlı məhkəmə təcrübəsində müxtəlif yanaşmaların olduğu müəyyən edilmişdir.

Yanaşmalardan birinə görə, məhkəmənin icraatında analoji işin olması artıq qeyd edilən normanın dispozitiv şərtləri baxımından fərdi əmək mübahisəsi anlamına gəlir və bu zaman faizlə müəyyən edilən ödəncin verilməsi istisna olunur.

Digər yanaşmaya əsasən isə hər bir halda əmək haqqının verilməsi işəgötürənin təqsiri üzündən gecikdirildikdə, hər gecikdirilmiş gün üçün işçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməlidir.

Müraciətdə qeyd olunur ki, fərdi əmək mübahisəsi yaratmadığı halda əmək haqqının verilməsinin işəgötürənin təqsiri üzündən gecikdirilməsi zamanı müvafiq ödəncin hansı qaydada verilməsi, bunun işəgötürənin özünün təşəbbüsü, yoxsa işçinin tələbi üzrə həyata

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

keçirilməsi, gecikdirilmiş əmək haqqına görə ödəncin işçi tərəfindən hansı müddətdə tələb edilməli olması, ödəncin verilməsindən imtina olunması halının öz-özlüyündə fərdi əmək mübahisəsinə səbəb olub-olmaması, həmçinin bu istiqamətdə işçinin hansı tələblərinin fərdi əmək mübahisəsinə səbəb olması, eyni zamanda "bu hal əmək mübahisəsi yaratdıqda həmin mübahisə bu Məcəllənin "Əmək mübahisələri bölməsində nəzərdə tutulan qaydada həll edilir" cümləsi baxımından Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin mübahisəyə tətbiqinin mümkünlüyü (yəni, məhkəmə tərəfindən fərdi əmək mübahisəsinə baxılan zaman normada nəzərdə tutulmuş 1 faizlik ödəncin işəgötürəndən tutulmasının mümkünlüyü) və s. bu kimi hallara aydınlıq gətirilməsi zərurəti yaranmışdır.

Bakı Apellyasiya Məhkəməsi hüquq tətbiqetmə təcrübəsində qeyri-müəyyənliyin aradan qaldırılması, işçilərin əmək hüquqlarının təmin olunması və vahid təcrübənin formalaşdırılması məqsədi ilə Konstitusiya Məhkəməsinə müraciət etmək qərarına gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

"İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın 7-ci maddəsinin "a" yarımbəndinə əsasən, hər bir üzv dövlət bütün zəhmətkeşlər üçün ədalətli əmək haqqını tanıyır və təmin edir.

Beynəlxalq Əmək Təşkilatının "Əmək haqqının mühafizəsi haqqında" Konvensiyasının 12-ci maddəsində nəzərdə tutulur ki, əmək haqqı müntəzəm surətdə ödənilməlidir.

Əmək Məcəlləsinin 154-cü maddəsinin 1-ci hissəsinə əsasən, əmək haqqı – müvafiq iş vaxtı ərzində əmək funksiyasını yerinə yetirmək üçün əmək müqaviləsi ilə müəyyən edilmiş, işçinin gördüyü işə (göstərdiyi xidmətlərə) görə işəgötürən tərəfindən pul və ya natura formasında ödənilən gündəlik və ya aylıq məbləğ, habelə ona edilən əlavələrin, mükafatların və digər ödənclərin məcmusudur.

Aylıq əmək haqqı işçilərə, bir qayda olaraq, iki hissəyə bölünərək (avans olaraq və qalan hissəsi məbləğində) on altı gündən çox olmayan vaxt fasiləsi ilə ayda iki dəfə verilməlidir. Əmək haqqı illik dövr üçün hesablanan işçilərə isə ayda bir dəfədən az olmayan müddətdə verilməlidir. Kollektiv müqavilədə, yaxud əmək müqaviləsində əmək haqqının verilməsinin başqa müddətləri də müəyyən edilə bilər. İşçi işdən çıxarkən ona düşən bütün ödənclər tam məbləğdə işdən çıxdığı gün verilir (Əmək Məcəlləsinin 172-ci maddəsinin 1, 2 və 4-cü hissələri).

Həmin Məcəllənin 178-ci maddəsinin 1-ci hissəsinə müvafiq olaraq, işəgötürən maliyyə vəziyyətindən asılı olmayaraq işçiyə onun gördüyü işin müqabilində müəyyən edilmiş əmək haqqını bu Məcəllənin 172-ci maddəsi ilə müəyyən edilmiş müddətlərdə ödəməyə borcludur. İşçiyə aylıq əmək haqqının ödənilməməsində təqsirkar olan işəgötürən qanunvericilikdə nəzərdə tutulan qaydada müvafiq məsuliyyətə cəlb edilməlidir.

Beləliklə, işçinin əmək müqaviləsi üzrə əsas hüququ qanunvericiliklə müəyyən edilmiş minimum məbləğdən aşağı olmayan əmək haqqı almaqdır. Odur ki, işçilərin vaxtında, tam məbləğdə və ədalətli əmək haqqı alması təmin edilməlidir. Əmək müqaviləsinin şərtlərindən biri vaxtında işçiyə əmək haqqının ödənilməsidir. Bu şərt əmək müqaviləsinin əvəzli xarakterindən irəli gəlir, əmək müqaviləsi bağlanarkən tərəflər işçinin müəyyən növdən və ixtisasdan asılı olan əməyi hansı miqdarda yerinə yetirməli olduğu və işgötürənin bu əməyə görə hansı miqdarda əmək haqqını ödəməli olduğu barədə razılığa gəlirlər.

Şəxs öz əmək haqqını vaxtında aldıqda əvvəlcədən planlaşdırdığı və ya yaranmış öhdəliklərini (aldığı borc və s.) vaxtında ödəmək imkanı əldə edir. Öz öhdəliyini vaxtında yerinə yetirə bilməmək isə şəxs üçün əlavə zərərə gətirib çıxara bilər (məsələn, gecikmiş kredit borcuna görə dəbbə pulu və s.).

Buna görə işçinin əmək haqqının vaxtında ödənilməsi ilə bağlı məsələlər qanunvericiliklə tənzimlənir və bu öhdəliyin icra edilməməsinə və ya layiqincə icra edilməməsinə görə məsuliyyət nəzərdə tutulur.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsində əməyin ödənilməsi ilə bağlı mübahisələrə baxılarkən mülkiyyət hüququnun müdafiəsini təmin edən "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın" 1 saylı Protokolunun 1-ci maddəsinə istinad edilir. Məhkəmə tərəfindən işə baxılması ona əsaslanır ki, əmək haqqının ödənilməsi mülkiyyətin əldə edilməsinin "qanuni gözlənti"sini təşkil edir. Bununla bağlı mübahisələndirilən ödəmə müqavilə və ya normativ aktla müəyyən edilməli və işəgötürənin müvafiq öhdəlikləri yaranmış olmalıdır.

Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinə əsasən, əmək haqqının verilməsi işəgötürənin təqsiri üzündən gecikdirildikdə və bu hal fərdi əmək mübahisəsi yaratmayıbsa, hər gecikdirilmiş gün üçün işçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməlidir. Bu

hal əmək mübahisəsi yaratdıqda həmin mübahisə bu Məcəllənin "Əmək mübahisələri" bölməsində nəzərdə tutulan qaydada həll edilir.

Həmin maddənin "Qeyd" hissəsinə görə, "işəgötürənin təqsiri üzündən gecikdirildikdə" dedikdə, əmək haqqının müəyyən edilmiş vaxt ərzində hesablanmaması, onun müvəkkil bankdan alınmaması, maliyyə və mühasibat uçotu əməliyyatlarının vaxtında aparılmaması nəticəsində, habelə bilavasitə işəgötürənin iradəsindən və imkanlarından asılı olan hallarda müəyyən edilən müddətdə işçilərə əmək haqqının ödənilməməsi başa düşülməlidir.

Göstərilən normada əlavə ödəncin verilməsi müəyyən edilməklə, işçinin Əmək Məcəlləsinin 9-cu maddəsinin "d" bəndində və 54-cü maddəsində təsbit edilən əmək haqqı hüququnun müdafiəsinə əlavə təminat verilmişdir. Göstərilən qayda işəgötürənin əmək haqqının vaxtında verilməsi məsələsində intizamlı olmağa məcbur etdiyi kimi, həm də işçinin pozulmuş hüququnun əvəzində kompensasiya mahiyyəti daşıyır.

Qeyd olunan normaların məzmunundan göründüyü kimi, qanunverici işçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməsinin iki şərtini müəyyən etmişdir. İlk növbədə əmək haqqının verilməsi gecikdirilməli və bu gecikdirilmə işəgötürənin təqsiri üzündən baş verməlidir.

Maddənin tətbiqində qeyri-müəyyənlik yaradan məsələ isə əmək haqqının gecikdirilməsinin fərdi əmək mübahisəsinə səbəb olduğu halda ödəncin verilib-verilməməsi ilə bağlıdır.

Əmək Məcəlləsinin 3-cü maddəsinin 16-cı hissəsində və 287-ci maddəsində fərdi əmək mübahisələri, işəgötürənlə işçi arasında əmək müqaviləsinin, kollektiv müqavilənin şərtlərinin, habelə əmək qanunvericiliyinin və digər normativ hüquqi aktların tətbiqi zamanı yaranan və bu Məcəllə ilə müəyyən edilmiş qaydada, üsullarla və şərtlərlə tərəflərin hüquq bərabərliyi və qanunun aliliyi prinsipləri əsasında həll edilən fikir ayrılığı kimi müəyyən edilmişdir.

Həmin Məcəllənin 288-ci maddəsinin d) bəndinə görə, əmək haqqının, habelə digər ödəmələrin müəyyən edilməsi və hesablanması, yaxud ödənilməsi fərdi əmək mübahisəsinin predmetinə daxildir.

Əmək Məcəlləsinin 294-cü maddəsinin 1-ci hissəsinə uyğun olaraq, bu maddənin 2-ci hissəsində nəzərdə tutulmuş hallar istisna olmaqla bütün fərdi əmək mübahisələrinə bilavasitə məhkəmələr tərəfindən baxılır.



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

Əmək Məcəlləsinin 292-ci maddəsinin 1-ci hissəsinə əsasən, işçi bu Məcəllənin 288-ci maddəsində göstərilmiş məsələlərlə bağlı hüquqlarının və ya qanunla qorunan mənafeyinin pozulduğunu aşkar etdikdə, bu Məcəllədə nəzərdə tutulmuş qaydada fərdi əmək mübahisələrini həll edən orqanlara müraciət edərək pozulmuş hüquqlarının bərpa edilməsini tələb edə bilər.

Qeyd edildiyi kimi, əmək münasibətləri çərçivəsində əmək haqqının gecikdirilməsinə görə ödənilməsi nəzərdə tutulan kompensasiya işəgötürən tərəfindən vəzifələrin lazımi qaydada icra edilməsi üçün tətbiq olunan təsir tədbiri kimi çıxış edir.

Digər tərəfdən, bu ödənc bərpaedici funksiya daşımaqla işəgötürənin işçi qarşısında maddi məsuliyyətinin növü kimi çıxış edir. Həmçinin, əmək qanunvericiliyinin tələblərindən irəli gələrək bu ödənc işçinin əmək hüquqlarının əlavə müdafiə təminatı kimi çıxış edir və bu hüquq heç bir halda tərəflər arasında mübahisənin olub-olmaması ilə əlaqələndirilməməlidir.

Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsinin tələbinə görə, işəgötürən ödəncin verilməsindən imtina etdiyi halda işçi yaranmış mübahisəni məhkəmə qaydasında həll etməyə məcbur olur. Bu baxımdan normanın məzmununun fərqli şərhi, yəni ödəncin yalnız fərdi əmək mübahisəsinin yaranmadığı halda ödənilməli olması kimi şərhi hüquqi məntiqə uyğun olmamaqla yanaşı, işçinin əmək münasibətlərinə daxil olmasının əsasını təşkil edən əmək haqqı hüququnun pozulmasına görə işəgötürənin məsuliyyətdən kənar qalmasına gətirib çıxarar. Eyni zamanda bu işçinin əmək haqqı hüququnun pozulması səbəbindən qanunvericiliklə tanınan ödəncin verilməsi tələbinin təmin edilməsi üçün məhkəməyə müraciət etməsini də mənasız edər. Bu halda həmin maddənin tətbiqi mümkünsüz olur və o, əhəmiyyətsiz normaya çevrilməklə faktiki olaraq işçini müvafiq ödənci tələb etmək hüququndan məhrum edir.

Halbuki, qanunverici Əmək Məcəlləsinin 178-ci maddəsinin 1-ci hissəsində işəgötürənin maliyyə vəziyyətindən asılı olmayaraq işçiyə onun gördüyü işin müqabilində müəyyən edilmiş əmək haqqının bu Məcəllənin 172-ci maddəsi ilə müəyyən edilmiş müddətlərdə ödəməyə borclu olduğunu təsbit etmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, fərdi əmək mübahisəsi olduğu halda ödəncin verilməməsi işçilər arasında qeyri-bərabər vəziyyət yaradar. Belə ki, bu halda eyni hüquqi

vəziyyətdə olan şəxslərə, yəni işəgötürən tərəfindən əmək haqları gecikdirilmiş və bu səbəbdən ödəncin verilməsi üçün məhkəməyə müraciət etmiş işçilərə münasibətdə fərqli yanaşma sərgilənmiş olar ki, bu da əmək qanunvericiliyinin prinsipləri ilə ziddiyyət təşkil edər.

Konstitusiya prinsipi olan bərabərlik prinsipi bərabər şərtlər daxilində hüquq subyektlərinin bərabər vəziyyətdə olmalarını nəzərdə tutur və ən əsası eyni kateqoriyaya aid şəxslərə hər hansı obyektiv və ağlabatan izah olmadan ayrıseçkiliyin tətbiq olunmasını qadağan edir (Konstitusiya Məhkəməsi Plenumunun "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun bəzi müddəalarının şərh olunmasına dair" 2014-cü il 28 yanvar tarixli Qərarı).

Əmək Məcəlləsinin 2-ci maddəsinə görə, əmək münasibətlərində tərəflərin hüquq bərabərliyinin təmin edilməsi, mənafelərinin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması, maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi, əsasən əmək müqaviləsi (kontrakt) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması prinsiplərinə əsaslanır.

Göründüyü kimi, qanunverici əmək hüquq münasibətlərinin tənzimlənməsinin subyektlərin hüquq və maraqlarının ədalətli və ağlabatan tarazlığı əsasında həyata keçirilməli olduğunu təsbit etmişdir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, işəgötürənin təqsiri üzündən gecikdirilmiş əmək haqqına görə müvafiq dövr üçün bir faiz ödəncin verilməsi tələbinin məsələ ilə bağlı fərdi əmək mübahisəsinin yaranmış olması əsası ilə rədd olunması Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsində müəyyən olunan müddəanın məqsədinə zidd olmaqla, işçiləri gecikdirilən vaxta görə qanunla təsbit edilmiş ödənci tələb etmək hüququndan da məhrum edir. Odur ki, əmək haqqının gecikdirilməsinə görə ödəncin verilməsi qaydası fərdi əmək mübahisəsi yarandığı halda da tətbiq edilməlidir.

Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsi onu ifadə edir ki, ödənc verilməsi mübahisə yaradarsa, onun həlli Əmək Məcəlləsinin "Əmək mübahisələri" bölməsində nəzərdə tutulan qaydada həll edilir. Yəni ödəncin verilməsi barədə mübahisəyə xüsusi qaydada "Əmək mübahisələri" bölməsində müəyyən edilmiş prosedura uyğun baxılmalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, işçinin əmək haqqının gecikdirilməsinə görə ödənc barədə işəgötürənə qarşı tələbinə pul xarakterli tələb olaraq Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsində göstərilən bir illik müddət tətbiq olunmalıdır.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Əmək münasibətlərinin subyektlərin hüquq və mənafelərinin bərabərliyi prinsipi əsasında nizamlanmasını nəzərə alaraq, Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsində nəzərdə tutulmuş "hər gecikdirilmiş gün üçün işçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməlidir" müddəası fərdi əmək mübahisəsinin yarandığı hala da şamil edilir;

– Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsinə uyğun olaraq, işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən 1 il ərzində ödəncin verilməsi barədə məhkəməyə müraciət edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**Q Ə R A R A  A L D I :**

1. Əmək münasibətlərinin subyektlərin hüquq və mənafelərinin bərabərliyi prinsipi əsasında nizamlanmasını nəzərə alaraq, Azərbaycan Respublikası Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsində nəzərdə tutulmuş "hər gecikdirilmiş gün üçün işçiyə əmək haqqının azı bir faizi məbləğində ödənc verilməlidir" müddəası fərdi əmək mübahisəsinin yarandığı hala da şamil edilir.
2. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 296-cı maddəsinin 4-cü hissəsinə uyğun olaraq, işçi, hüququnun pozulduğunu aşkar etdiyi gündən 1 il ərzində ödəncin verilməsi barədə məhkəməyə müraciət edə bilər.
3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.
4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.
5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**ИМЕНЕМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

П О С Т А Н О В Л Е Н И Е
ПЛЕНУМА КОНСТИТУЦИОННОГО СУДА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## О толковании части 5 статьи 172 Трудового кодекса Азербайджанской Республики

**11 апреля 2023 года** **город Баку**

Пленум Конституционного Суда Азербайджанской Республики в составе Фархада Абдуллаева (председатель), Соны Салмановой, Умай Эфендиевой, Ровшана Исмаилова, Джейхуна Гараджаева, Рафаэля Гваладзе, Исы Наджафова и Кямрана Шафиева (судья-докладчик),

с участием секретаря суда Фараида Алиева,

в соответствии с частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 27.2 и 33 Закона Азербайджанской Республики "О Конституционном Суде" и статьей 39 Внутреннего устава Конституционного Суда Азербайджанской Республики рассмотрел в судебном заседании в порядке письменной процедуры особого конституционного судопроизводства конституционное дело на основании обращения Бакинского апелляционного суда о толковании части 5 статьи 172 Трудового кодекса Азербайджанской Республики.

Изучив и обсудив доклад судьи К.Шафиева по делу, суждения заинтересованных субъектов – Бакинского апелляционного суда и отдела социального законодательства Аппарата Милли Меджлиса Азербайджанской Республики, суждения специалистов Верховного Суда Азербайджанской Республики и Коллегии адвокатов Азербайджанской Республики, заключение эксперта − доктора юридических наук, профессора кафедры трудового и экологического права юридического факультета Бакинского государствен-

ного университета А.Гасымова и материалы дела, Пленум Конституционного Суда Азербайджанской Республики

**У С Т А Н О В И Л :**

Бакинский апелляционный суд обратился в Конституционный Суд Азербайджанской Республики (далее – Конституционный Суд) с просьбой дать толкование части 5 статьи 172 Трудового кодекса Азербайджанской Республики (далее – Трудовой кодекс).

В обращении указывается, что А.Гасанов обратился в суд с исковым заявлением против общества с ограниченной ответственностью "PROLINE" (далее – ООО "PROLINE") с требованием о правильном исчислении и выплате окончательного расчета, а также просил вынести решение о взыскании с ответчика невыплаченной заработной платы, компенсации за неиспользованные дни трудового отпуска, причиненный моральный вред и задержку выплаты заработной платы.

Решением Ясамальского районного суда города Баку от 3 августа 2022 года иск был частично удовлетворен, было вынесено решение о взыскании с ООО "PROLINE" суммы в размере 12 404,34 манатов в пользу А.Гасанова.

В апелляционной жалобе ООО "PROLINE" указало, что взыскание платежа в размере одного процента, произведенное судом первой инстанции со ссылкой на часть 5 статьи 172 Трудового кодекса, является незаконным и данная норма не должна применяться к настоящему спору.

При рассмотрении дела в Бакинском апелляционном суде было выявлено наличие различных подходов в судебной практике относительно применения части 5 статьи 172 Трудового кодекса.

Согласно одному из подходов, наличие в производстве суда аналогичного дела уже означает, что с точки зрения диспозитивных условий указанной нормы, спор считается индивидуальным трудовым спором и в этом случае исключается выплата, определяемая в процентах.

Согласно другому подходу, в каждом случае, когда выплата заработной платы задерживается по вине работодателя, за каждый день задержки работнику должна предоставляться выплата в размере не менее одного процента от заработной платы.

В обращении указывается, что необходимо прояснить следующие вопросы: порядок предоставления соответствующей выплаты при задержке заработной платы по вине работодателя в случае отсутствия индивидуального трудового спора; осуществляется ли это по инициативе самого работодателя или по требованию работника; в какие сроки работник должен потребовать выплату за задержанную заработную плату; является ли отказ в выплате сам по себе причиной индивидуального трудового спора; также какие требования работника в этом направлении могут привести к индивидуальному трудовому спору; а также возможность применения части 5 статьи 172 Трудового кодекса с точки зрения положения "если этот случай создает трудовой спор, то данный спор разрешается в порядке, предусмотренном в разделе "Трудовые споры" настоящего Кодекса" (то есть возможность взыскания судом с работодателя предусмотренной нормой 1-процентной выплаты при рассмотрении индивидуального трудового спора) и другие подобные случаи.

Бакинский апелляционный суд принял решение обратиться в Конституционный Суд с целью устранения неопределенности в правоприменительной практике, обеспечения трудовых прав работников и формирования единой практики.

В связи с обращением Пленум Конституционного Суда считает важным отметить следующее.

Согласно подпункту "а" статьи 7 Международного пакта об экономических, социальных и культурных правах, каждое государство-участник признает и обеспечивает право всех трудящихся на справедливую заработную плату.

В статье 12 Конвенции Международной организации труда "О защите заработной платы" предусматривается, что заработная плата должна выплачиваться регулярно.

Согласно части 1 статьи 154 Трудового кодекса, заработная плата – это совокупность дневной или месячной суммы, оплачиваемой работодателем в денежной или натуральной форме за выполненную работником работу (оказанную услугу), определенную трудовым договором для выполнения трудовой функции в течение соответствующего рабочего времени, а также надбавок, премий и других выплат.

Месячная заработная плата выплачивается работникам, как правило, с разделением на две части (авансом и в размере остальной части) с перерывом не более шестнадцати дней два раза в месяц. Работникам, заработная плата которых исчисляется с годовой периодичностью, она должна выплачиваться в сроки не менее одного раза в месяц. В коллективном договоре или трудовом договоре могут предусматриваться другие сроки выплаты заработной платы. При увольнении работника выплата всех причитающихся ему сумм производится полностью в день увольнения (части 1, 2 и 4 статьи 172 Трудового кодекса).

В соответствии с частью 1 статьи 178 того же Кодекса, работодатель, независимо от финансового положения, обязан выплачивать работнику в сроки, определенные статьей 172 настоящего Кодекса, установленную заработную плату за выполненную им работу. Работодатель, виновный в невыплате работнику заработной платы, должен быть привлечен к соответствующей ответственности в порядке, предусмотренном законодательством.

Таким образом, основным правом работника по трудовому договору является получение заработной платы не ниже минимального размера, установленного законодательством. Поэтому должно быть обеспечено своевременное, в полном размере и справедливое получение работниками заработной платы. Одним из условий трудового договора является своевременная выплата работнику заработной платы. Это условие вытекает из возмездного характера трудового договора, при заключении трудового договора стороны договариваются о том, какой объем работы определенного вида и квалификации должен выполнить работник и какую заработную плату должен выплатить работодатель за эту работу.

Когда лицо своевременно получает свою заработную плату, он имеет возможность вовремя выполнять свои заранее запланированные или возникшие обязательства (погашение долгов и т.д.). Невозможность своевременного выполнения своих обязательств может привести к дополнительным убыткам для лица (например, штрафы за просроченные кредитные платежи и т. д.).

Поэтому вопросы о своевременной выплате работнику заработной платы регулируются законодательством и предусматривается ответственность за неисполнение или ненадлежащее исполнение этого обязательства.

В практике Европейского суда по правам человека при рассмотрении споров об оплате труда делается ссылка на статью 1 Протокола №1 к "Конвенции о защите прав человека и основных свобод", обеспечивающую защиту права собственности. Рассмотрение дела судом основывается на том, что выплата заработной платы составляет "законное ожидание" получения собственности. При этом оспариваемая выплата должна быть установлена договором или нормативным актом, и у работодателя должны возникнуть соответствующие обязательства.

Согласно части 5 статьи 172 Трудового кодекса, в случае задержки выплаты заработной платы по вине работодателя и при отсутствии индивидуального трудового спора, работнику за каждый день задержки должна предоставляться выплата в размере не менее одного процента от заработной платы. При возникновении в этом случае трудового спора этот спор разрешается в порядке, предусмотренном в разделе "Трудовые споры" того же Кодекса.

Согласно "Примечанию" к той же статье, под "задержкой по вине работодателя" следует понимать невыплату работникам заработной платы в определенные сроки в результате неначисления заработной платы в определенный срок, неполучения ее от уполномоченного банка, несвоевременного проведения финансовых и бухгалтерских операций, а также в случаях, непосредственно зависящих от воли и возможностей работодателя.

В указанной норме, установлено предоставление дополнительной выплаты, закреплены дополнительные гарантии защиты права работника на заработную плату, предусмотренные в пункте "д" статьи 9 и статье 54 Трудового кодекса. Указанное положение не только обязывает работодателя соблюдать дисциплину в вопросах своевременной выплаты заработной платы, но и носит компенсационный характер в качестве возмещения за нарушение права работника.

Как видно из содержания указанных норм, законодатель установил два условия для выплаты работнику суммы в размере не менее одного процента заработной платы. В первую очередь должна быть задержка выплаты заработной платы, и эта задержка должна произойти по вине работодателя.

Вопрос, создающий неопределенность при применении данной статьи, заключается в том, должна ли предоставляться выплата в

случае, если задержка выплаты заработной платы стала причиной индивидуального трудового спора.

В части 16 статьи 3 и статье 287 Трудового кодекса индивидуальные трудовые споры определяются как разногласия между работодателем и работником, возникающие при применении условий трудового договора, коллективного договора, а также трудового законодательства и других нормативных правовых актов, разрешаемое на основе принципов равенства сторон и верховенства закона в порядке, способами и на условиях, определенных настоящим Кодексом.

Согласно пункту д) статьи 288 того же Кодекса, предметом индивидуального трудового спора выступает определение, начисление, либо выдача заработной платы, а также других выплат.

В соответствии с частью 1 статьи 294 Трудового кодекса, все индивидуальные трудовые споры рассматриваются непосредственно судами, за исключением случаев, предусмотренных во второй части настоящей статьи.

Согласно части 1 статьи 292 Трудового кодекса, если работник обнаружит, что его права и законные интересы были нарушены в связи с вопросами, перечисленными в статье 288 настоящего Кодекса, он может требовать восстановления своих нарушенных прав, обратившись в органы, разрешающие в предусмотренном настоящим Кодексом порядке индивидуальные трудовые споры.

Как указано, компенсация за задержку заработной платы в рамках трудовых отношений выступает как мера воздействия, применяемая для надлежащего исполнения обязанностей работодателем.

С другой стороны, данная выплата выступает как вид материальной ответственности работодателя перед работником, выполняя восстановительную функцию. Также, исходя из требований трудового законодательства, эта выплата выступает как дополнительная гарантия защиты трудовых прав работника, и это право ни при каких обстоятельствах не должно быть связано с наличием или отсутствием спора между сторонами.

В соответствии с требованием второго предложения части 5 статьи 172 Трудового кодекса, в случае отказа работодателя от предоставления выплаты работник вынужден разрешать возникший спор в судебном порядке. С этой точки зрения иное толкование содержания нормы, предполагающее, что предоставление выплаты

только в случае отсутствия индивидуального трудового спора, не только не соответствует правовой логике, но и приводит к освобождению работодателя от ответственности за нарушение права работника на заработную плату, являющегося основой вступления работника в трудовые отношения. В то же время это свело бы на нет смысл обращения работника в суд с требованием об удовлетворении предусмотренной законодательством выплаты, возникающей вследствие нарушения его права на заработную плату. В таком случае применение указанной статьи становится невозможным, превращая ее в несущественную норму, и это фактически лишает работника права требовать соответствующую выплату.

Однако законодатель в части 1 статьи 178 Трудового кодекса установил, что работодатель, независимо от финансового положения, обязан выплачивать работнику в сроки, определенные статьей 172 настоящего Кодекса, установленную заработную плату за выполненную им работу.

Пленум Конституционного Суда также отмечает, что непредоставление выплаты в случае наличия индивидуального трудового спора создаст неравное положение между работниками. Так, в этом случае по отношению к лицам, находящимся в одинаковом правовом положении, то есть к работникам, заработная плата которых была задержана работодателем и которые по этой причине обратились в суд с требованием предоставления выплат, проявляется различный подход, противоречащий принципам трудового законодательства.

Принцип равенства, являющийся конституционным принципом, при равных условиях, подразумевает нахождение правовых субъектов в равном положении и, самое главное, запрещает применение дискриминации к лицам из одной и той же категории без какого-либо объективного и разумного объяснения (Постановление Пленума Конституционного Суда "О толковании некоторых положений Закона Азербайджанской Республики "Об государственном обязательном личном страховании военнослужащих"" от 28 января 2014 года).

В соответствии со статьей 2 Трудового кодекса, трудовые отношения основываются на принципах обеспечения равноправия сторон, защиты интересов путем обеспечения справедливости и верховенства закона, обеспечения свободного использования ими



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

своих умственных, физических и финансовых возможностей в целях удовлетворения материальных, моральных, социальных, экономических и других жизненных потребностей, создания правовой гарантии исполнения обязательств на основании трудового договора (контракта) сторонами трудовых отношений.

Как видно, законодатель установил, что регулирование трудовых правоотношений должно основываться на обеспечении справедливого и разумного баланса прав и интересов субъектов.

Таким образом, Пленум Конституционного Суда считает, что отказ в удовлетворении требования о выплате одного процента за соответствующий период в связи с задержкой заработной платы по вине работодателя на основании возникновения индивидуального трудового спора противоречит цели положения, установленного в части 5 статьи 172 Трудового кодекса, и лишает работников права требовать установленную законом выплату за период задержки. Следовательно, порядок предоставления выплаты за задержку заработной платы должен применяться и в случае возникновения индивидуального трудового спора.

Второе предложение части 5 статьи 172 Трудового кодекса устанавливает, что в случае возникновения спора о предоставлении выплаты его разрешение осуществляется в порядке, предусмотренном разделом "Трудовые споры" Трудового кодекса. То есть, спор о предоставлении выплаты должен рассматриваться в особом порядке в соответствии с процедурой, установленной разделом "Трудовые споры".

Пленум Конституционного Суда также отмечает, что к требованию работника о выплате за задержку заработной платы, предъявляемому работодателю, как к денежному требованию, должен применяться годичный срок, указанный в части 4 статьи 296 Трудового кодекса.

На основании изложенного Пленум Конституционного Суда приходит к следующим выводам:

– с учетом регулирования трудовых отношений на основе принципа равенства прав и интересов субъектов, положение "работнику за каждый день задержки должна быть выплачена сумма в размере не менее одного процента заработной платы", предусмотренное частью 5 статьи 172 Трудового кодекса, применяется также в случаях возникновения индивидуального трудового спора;

– в соответствии с частью 4 статьи 296 Трудового кодекса, работник может обратиться в суд с требованием о предоставлении выплаты в течение 1 года со дня, когда ему стало известно о нарушении его права.

Руководствуясь частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 60, 62, 63, 65-67 и 69 Закона Азербайджанской Республики "О Конституционном Суде", Пленум Конституционного Суда Азербайджанской Республики

## ПОСТАНОВИЛ:

1. С учетом регулирования трудовых отношений на основе принципа равенства прав и интересов субъектов, положение "работнику за каждый день задержки должна быть выплачена сумма в размере не менее одного процента заработной платы", предусмотренное частью 5 статьи 172 Трудового кодекса Азербайджанской Республики, применяется также в случаях возникновения индивидуального трудового спора.

2. В соответствии с частью 4 статьи 296 Трудового кодекса Азербайджанской Республики, работник может обратиться в суд с требованием о предоставлении выплаты в течение 1 года со дня, когда ему стало известно о нарушении его права.

3. Постановление вступает в силу со дня опубликования.

4. Постановление опубликовать в официальных государственных газетах Азербайджанской Республики и «Вестнике Конституционного Суда Азербайджанской Республики», а также разместить на официальном сайте Конституционного Суда Азербайджанской Республики.

5. Постановление является окончательным и не может быть отменено, изменено или официально истолковано ни одним органом или лицом.



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN
Q Ə R A R I

## "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinin həmin Qanunun 10.2, 13.1, 13.2, 52.1 və 58.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**14 aprel 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinin həmin Qanunun 10.2, 13.1, 13.2, 52.1 və 58.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim K.Şəfiyevin məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsinin və Azərbaycan Respublikası Milli Məclisi Aparatının İqtisadi qanunvericilik şöbəsinin mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının və İcbari Sığorta Bürosunun mütəxəssis mülahizələrini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## M Ü Ə Y Y Ə N  E T D İ :

Bakı Apellyasiya Məhkəməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) müraciət edərək "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – "İcbari sığortalar haqqında" Qanun) 56-cı maddəsinin həmin Qanunun 3.1.2, 4.1, 10.2, 13.1, 13.2, 50.1, 52.1 və 58.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir. Müraciətdən görünür ki, T.Nəsibova idarə etdiyi nəqliyyat vasitəsi ilə S.Hüseynlinin idarə etdiyi avtomobili vuraraq yol-nəqliyyat hadisəsi törətmiş, nəticədə zərbənin təsirindən S.Hüseynlinin avtomobili parklanma vəziyyətində olan digər avtomobilə toxunmuşdur. T.Nəsibova yol-nəqliyyat hadisəsini törətdikdən sonra hadisə yerindən yayınmışdır.

Hadisə ilə bağlı Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin əməkdaşı tərəfindən T.Nəsibova barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 327.2 və 327.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətaları törətməsinə dair protokol tərtib edilmişdir.

T.Nəsibovanın icbari sığorta müqaviləsi üzrə sığorta şirkətinə müraciəti əsasında hadisə ilə bağlı sığorta aktı tərtib edilmiş, S.Hüseynliyə dəymiş ziyanın məbləğinin 4 090 manat olduğu qeyd edilsə də, ona 2 312,83 manat ödənilməsi qərara alınmışdır. Dəymiş ziyanın sığorta şirkəti tərəfindən tam şəkildə ödənilməməsi hadisə nəticəsində ikinci avtomobilə də zərər vurulması, sığorta şirkətinin onun da zərərini ödəyəcəyi və qanunvericiliklə müəyyən edilmiş zərərin qarşılanma limitinin olması ilə əsaslandırılmışdır.

S.Hüseynli zərərin qarşılanma həddinin olması və zərərin məbləği ilə razılaşmamış, özü mütəxəssislərə müraciət etmiş, nəticədə onun avtomobilinə 5 770 manat məbləğində zərər vurulduğu müəyyən olunmuşdur. Həmin məbləğin 2 312 manat hissəsi "Xalq Sığorta" Açıq Səhmdar Cəmiyyəti (bundan sonra – "Xalq Sığorta" ASC) tərəfindən ödənilsə də, qalan 3 458 manat zərər sığorta şirkəti və təqsirkar tərəfindən ödənilmədiyindən məhkəməyə müraciət edilmişdir.

Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 14 sentyabr 2022-ci il tarixli qətnaməsi ilə iddia qismən təmin edilmiş, "Xalq Sığorta" ASC-dən vurulmuş maddi ziyana görə 2 227,17 manat məbləğində pul vəsaitinin tutularaq iddiaçıya ödənilməsi qət edilmişdir.

"Xalq Sığorta" ASC qətnamədən apellyasiya şikayəti verərək qeyd etmişdir ki, "İcbari sığortalar haqqında" Qanunun 56.1.2-ci maddəsinə

görə, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə sığorta məbləğləri üçüncü şəxslərin əmlakına dəyən zərər üzrə 5 000 manat məbləğində müəyyən edilmişdir. Sığorta şirkəti olaraq onlar tərəfindən mütənasib qaydada iddiaçıya məxsus avtomobilə dəymiş zərərə görə 2 312,83 manat, hadisə nəticəsində digər zərərçəkmiş avtomobilin sahibinə isə 2 687,17 manat ödənilmişdir ki, bu ödənişlərin cəmi qanunla bir sığorta hadisəsi üçün sığorta məbləği kimi müəyyən olunmuş 5 000 manat təşkil edir. Sığortaçı olaraq onların məsuliyyətinin həddi qanunla konkret olaraq 5 000 manat müəyyənləşdirilmiş və yalnız həmin məbləğ həddində məsuliyyət daşıyırlar.

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası tərəfindən işə baxılarkən icbari sığorta münasibətləri zamanı sığorta hadisəsinə səbəb olan bir yol-nəqliyyat hadisəsi nəticəsində birdən artıq üçüncü şəxslərin əmlakına zərər vurulduğu halda, həmin üçüncü şəxslərə sığorta ödənişinin hansı məbləğdə ödənilməsinə dair fərqli yanaşmaların olduğu müəyyən edilmişdir.

Mövcud yanaşmalardan birinə görə, icbari sığorta münasibətlərində bir yol-nəqliyyat hadisəsi nəticəsində hansı sayda şəxsin əmlakına zərər vurulmasından asılı olmayaraq, sığorta məbləğinin son həddi olan 5 000 manat vəsait vurulmuş zərərə mütənasib olaraq zərərçəkənlər arasında bölüşdürülməlidir.

Digər yanaşmaya görə isə icbari sığorta münasibətlərində bir yol-nəqliyyat hadisəsi zamanı birdən artıq şəxsin əmlakına zərər vurulması halında, bu, hər bir zərərçəkənə münasibətdə ayrı sığorta hadisəsi hesab edilməli və sığorta məbləğinin son həddi kimi müəyyən edilmiş 5 000 manat hər bir zərərçəkənə münasibətdə tətbiq olunmalıdır.

Müraciətdə qeyd olunan qanunvericilik normalarının tətbiqi ilə bağlı məhkəmələr tərəfindən fərqli təcrübənin formalaşdırılmasının qarşısının alınması və mövcud qeyri-müəyyənliyin aradan qaldırılması məqsədi ilə Bakı Apellyasiya Məhkəməsi Konstitusiya Məhkəməsinə müraciət olunması qənaətinə gəlmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətlə bağlı aşağıdakıların qeyd edilməsini vacib hesab edir.

İcbari sığorta qanunvericilik əsasında həyata keçirilməklə, cəmiyyətin mənafelərinin təmin edilməsi üçün hüquqi və fiziki şəxslərin sığorta maraqlarının məcburi qaydada sığorta edilməsidir.

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası mexaniki avtonəqliyyat vasitələrinin Azərbaycan Respub-

likasının ərazisində istifadəsi nəticəsində fiziki şəxslərin sağlamlığına, həmçinin fiziki və hüquqi şəxslərin əmlakına vurduğu zərərlərin əvəzinin ödənilməsi məqsədi ilə tətbiq edilir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra – Mülki Məcəllə) 922.1-ci maddəsində qeyd edilmişdir ki, sığorta hadisəsi icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan haldır.

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.19-cu maddəsinə əsasən, sığorta hadisəsi – icbari sığorta üzrə icbari sığorta qanunlarına, könüllü sığorta üzrə sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan haldır.

Eyni zamanda "İcbari sığortalar haqqında" Qanunun 13.1 və 13.2-ci maddələrində qeyd edilmişdir ki, icbari sığorta növlərində sığorta hadisəsi müvafiq icbari sığorta müqaviləsində göstərilmiş əmlakın istismarı və ya fəaliyyətin həyata keçirilməsi nəticəsində sığorta olunana və ya üçüncü şəxsə dəyən zərərin əvəzinin ödənilməsi üçün əsas olan, həmin müqavilənin qüvvədə olduğu müddət ərzində baş verən, bu Qanunun Xüsusi bölməsində nəzərdə tutulmuş hadisələr və hallardır. Mülki məsuliyyətin icbari sığortasında müvafiq sığorta şəhadətnaməsində göstərilən əmlakın (binanın, tikilinin, avtonəqliyyat vasitəsinin, cihazın, qurğunun, avadanlığın və s.) sığorta olunan tərəfindən istismar edilməsi nəticəsində üçüncü şəxslərin sağlamlığına və (və ya) əmlakına vurulmuş zərərin əvəzinin ödənilməsi üzrə sığortalının və ya sığorta olunanın mülki məsuliyyətinin yaranması faktı sığorta hadisəsi sayılır.

Həmin Qanunun 52.1-ci maddəsinə görə, avtonəqliyyat vasitəsinin Azərbaycan Respublikasının ərazisində istifadəsi nəticəsində zərərçəkən üçüncü şəxslərin sağlamlığına və (və ya) əmlakına dəymiş zərərin əvəzinin ödənilməsi üzrə mülki məsuliyyətin yaranması faktı sığorta hadisəsi hesab olunur.

Beləliklə, sığorta hadisəsi sığorta təminatı altına alınmış riskin reallaşmasıdır ki, onun baş verməsi ilə sığorta ödənişini tələb etmək hüququ yaranır. Sığorta hadisəsi konkret bir hadisədir, haldır, lakin onun baş verməsi nəticəsində bir və ya daha çox zərərçəkmiş

(nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası zamanı üçüncü şəxslər) ola bilər.

"İcbari sığortalar haqqında" Qanunun 20.4-cü maddəsinə uyğun olaraq, mülki məsuliyyətin sığortasında sığorta olunanın bir sığorta hadisəsi nəticəsində iki və ya daha artıq üçüncü şəxsin əmlakına vurduğu zərərə görə məsuliyyətinin məbləği müvafiq sığorta məbləğini aşarsa, sığorta ödənişi üçüncü şəxslərə həmin sığorta məbləğinin hər bir üçüncü şəxsə dəymiş zərərə mütənasib olan həcmdə verilir.

Həmin Qanunun 58.3-cü maddəsinə müvafiq olaraq, bir sığorta hadisəsi nəticəsində bir neçə üçüncü şəxsə dəyən zərərə görə sığortaçının zərərçəkənlərin hər birinə münasibətdə ayrı-ayrılıqda hesablanan öhdəliyinin ümumi həcmi bu Qanunla müəyyən edilmiş sığorta məbləğlərini aşarsa, hər bir zərərçəkənə verilən sığorta ödənişi bir sığorta hadisəsi üzrə müəyyən edilmiş ümumi sığorta məbləğinin ona dəymiş zərərə mütənasib hissəsində həyata keçirilir.

Bundan başqa, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 23 sentyabr 2014-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Fiziki şəxslərə təqdim edilən avtomobil nəqliyyatı vasitələrinin tam sığortası üzrə sığorta qaydaları"nın 40.4-cü bəndində qeyd olunmuşdur ki, eyni sığorta hadisəsi nəticəsində bir neçə şəxsin əmlakına və ya həyat və sağlamlığına dəyən zərərin ümumi məbləği avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə müəyyən olunmuş sığorta məbləğindən artıq olduqda sığortaçı hər bir zərərçəkənə ona vurulan zərər məbləğinə mütənasib məbləğdə sığorta ödənişi verir. Bu halda zərərçəkənlərin hamısına verilən sığorta ödənişinin ümumi məbləği avtomobil sahiblərinin mülki məsuliyyətinin sığortası üzrə müəyyən olunmuş sığorta məbləğinə bərabər olmalıdır.

Mülki Məcəllənin 926-cı maddəsində qeyd olunur ki, sığorta ödənişi sığorta hadisəsi baş verdikdə icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır. Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

Həmçinin "İcbari sığortalar haqqında" Qanunun 10-cu maddəsinə əsasən, sığorta məbləği bu Qanuna uyğun olaraq sığorta obyektinin sığortalandığı və sığortaçının öhdəliklərinin bu Qanunla müəyyənləşdirilmiş məbləğdə ifadə olunan son həddidir. İcbari sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortaçının bir sığorta hadisəsinə görə verdiyi sığorta ödənişlərinin ümumi məbləği icbari sığorta məbləğindən artıq ola bilməz.

Həmin Qanunun 56.1.2-ci maddəsi ilə sığortaçının bir sığorta hadisəsinə görə üçüncü şəxslərin əmlakına dəyən zərər üzrə sığorta ödənişinin son həddi 5 000 manat məbləğində müəyyən edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu xüsusi olaraq qeyd edir ki, bir neçə üçüncü şəxsin əmlakına zərər vurulmasının bir sığorta hadisəsinin nəticəsi kimi qiymətləndirilməsi üçün baş vermiş yol-nəqliyyat hadisəsinin faktiki halları araşdırılmalı və müvafiq nəticəyə gəlinməlidir.

Məzmunu açıqlanan normalardan göründüyü kimi, bir yol-nəqliyyat hadisəsi nəticəsində iki və daha çox üçüncü şəxslərə zərər vurulması ilə hər bir üçüncü şəxsə münasibətdə ayrı-ayrılıqda sığorta hadisəsi baş vermiş hesab edilmir və bu hal bir sığorta hadisəsi nəticəsində iki və daha çox üçüncü şəxsə zərərin vurulması kimi çıxış edir.

Beləliklə, Konstitusiya Məhkəməsinin Plenumu yuxarıda göstərilən qanunvericilik aktlarını təhlil edərək belə qənaətə gəlir ki, mövcud qanunvericiliyə görə icbari sığorta münasibətlərində bir yol-nəqliyyat hadisəsi nəticəsində bir neçə üçüncü şəxsə zərər vurulması faktı bir sığorta hadisəsi hesab edilir.

Konstitusiya Məhkəməsinin Plenumu onu da vurğulayır ki, zərərçəkən zərərin sığorta ödənişi ilə əhatə olunmayan hissəsinin ödənilməsi ilə bağlı zərərvurana qarşı qanunvericiliklə müəyyən edilmiş qaydada delikt hüququ üzrə tələb irəli sürməkdə haqlıdır.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– “İcbari sığortalar haqqında" Qanunun 58.3-cü maddəsinin mənasına görə, bir yol-nəqliyyat hadisəsi nəticəsində bir neçə üçüncü şəxsin əmlakına zərər vurulması faktı bir sığorta hadisəsi hesab edilir;

– “İcbari sığortalar haqqında” Qanunun 10, 20.4, 56 və 58.3-cü maddələrinə əsasən, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortaçının bir sığorta hadisəsinə görə verdiyi sığorta ödənişlərinin ümumi məbləği icbari sığorta məbləğindən artıq ola bilməz.

Bir sığorta hadisəsi nəticəsində bir neçə üçüncü şəxsə dəyən zərərə görə sığortaçının zərərçəkənlərin hər birinə münasibətdə ayrı-ayrılıqda hesablanan öhdəliyinin ümumi həcmi müəyyən edilmiş sığorta məbləğini aşarsa, hər bir zərərçəkənə verilən sığorta ödənişi bir sığorta hadisəsi üzrə müəyyən edilmiş ümumi sığorta məbləğinin ona dəymiş zərərə mütənasib hissəsində həyata keçirilir;

– sığorta hadisəsi nəticəsində dəymiş zərərin məbləği icbari sığorta üzrə sığorta ödənişini aşdığı halda zərərçəkən zərərin sığorta

ödənişindən artıq olan hissəsinin ödənilməsini zərərvurandan tələb edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**Q Ə R A R A   A L D I :**

1. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 58.3-cü maddəsinin mənasına görə, bir yol-nəqliyyat hadisəsi nəticəsində bir neçə üçüncü şəxsin əmlakına zərər vurulması faktı bir sığorta hadisəsi hesab edilir.

2. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 10, 20.4, 56 və 58.3-cü maddələrinə əsasən, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortaçının bir sığorta hadisəsinə görə verdiyi sığorta ödənişlərinin ümumi məbləği icbari sığorta məbləğindən artıq ola bilməz.

Bir sığorta hadisəsi nəticəsində bir neçə üçüncü şəxsə dəyən zərərə görə sığortaçının zərərçəkənlərin hər birinə münasibətdə ayrı-ayrılıqda hesablanan öhdəliyinin ümumi həcmi müəyyən edilmiş sığorta məbləğini aşarsa, hər bir zərərçəkənə verilən sığorta ödənişi bir sığorta hadisəsi üzrə müəyyən edilmiş ümumi sığorta məbləğinin ona dəymiş zərərə mütənasib hissəsində həyata keçirilir.

3. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin məbləği icbari sığorta üzrə sığorta ödənişini aşdığı halda zərərçəkən zərərin sığorta ödənişindən artıq olan hissəsinin ödənilməsini zərərvurandan tələb edə bilər.

4. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

5. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

6. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**ИМЕНЕМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

# П О С Т А Н О В Л Е Н И Е
# ПЛЕНУМА КОНСТИТУЦИОННОГО СУДА
# АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

## О толковании статьи 56 Закона Азербайджанской Республики "Об обязательном страховании" во взаимосвязи со статьями 10.2, 13.1, 13.2, 52.1 и 58.3 того же Закона

**14 апреля 2023 года** **город Баку**

Пленум Конституционного Суда Азербайджанской Республики в составе Фархада Абдуллаева (председатель), Соны Салмановой, Умай Эфендиевой, Ровшана Исмаилова, Джейхуна Гараджаева, Рафаэля Гваладзе, Исы Наджафова и Кямрана Шафиева (судья-докладчик),

с участием секретаря суда Фараида Алиева,

в соответствии с частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 27.2 и 33 Закона Азербайджанской Республики "О Конституционном Суде" и статьей 39 Внутреннего устава Конституционного Суда Азербайджанской Республики рассмотрел в судебном заседании в порядке письменной процедуры особого конституционного судопроизводства конституционное дело на основании обращения Бакинского апелляционного суда о толковании статьи 56 Закона Азербайджанской Республики "Об обязательном страховании" во взаимосвязи со статьями 10.2, 13.1, 13.2, 52.1 и 58.3 того же Закона.

Изучив и обсудив доклад судьи К.Шафиева, суждения заинтересованных субъектов − Бакинского апелляционного суда и отдела экономического законодательства Аппарата Милли Меджлиса Азербайджанской Республики, суждения специалистов Гражданской коллегии Верховного Суда Азербайджанской Республики, Коллегии адвокатов Азербайджанской Республики и Бюро обяза-

тельного страхования и материалы дела, Пленум Конституционного Суда Азербайджанской Республики

## УСТАНОВИЛ:

Бакинский апелляционный суд обратился в Конституционный Суд Азербайджанской Республики (далее – Конституционный Суд) с просьбой дать толкование статье 56 Закона Азербайджанской Республики "Об обязательном страховании" (далее – Закон "Об обязательном страховании") во взаимосвязи со статьями 3.1.2, 4.1, 10.2, 13.1, 13.2, 50.1, 52.1 и 58.3 того же Закона. Из обращения следует, что Т.Насибова, управляя транспортным средством, совершила дорожно-транспортное происшествие, столкнувшись с автомобилем под управлением С.Гусейнли, в результате которого автомобиль С.Гусейнли от силы удара задел другой припаркованный автомобиль. После совершения дорожно-транспортного происшествия Т.Насибова скрылась с места происшествия.

В связи с происшествием сотрудником Управления государственной дорожной полиции города Баку был составлен протокол в отношении Т.Насибовой за совершение административных проступков, предусмотренных статьями 327.2 и 327.6 Кодекса Азербайджанской Республики об административных проступках.

На основании обращения Т.Насибовой в страховую компанию по договору обязательного страхования был составлен страховой акт по происшествию, и, хотя сумма ущерба, причиненного С.Гусейнли была указана в размере 4 090 манатов, было принято решение выплатить ему 2312,83 манатов. Неполная выплата страховой компанией причиненного ущерба была обоснована тем, что в результате происшествия был также поврежден второй автомобиль, страховая компания должна возместить и его ущерб, а также наличием лимита возмещения ущерба, установленного законодательством.

С.Гусейнли не согласился с лимитом возмещения ущерба и суммой ущерба, обратился к экспертам, в результате чего было установлено, что его автомобилю причинен ущерб в размере 5 770 манатов. Часть этой суммы в размере 2 312 манатов была возмещена открытым акционерным обществом "Халг Сыгорта" (далее – ОАО "Халг Сыгорта"), оставшийся ущерб в размере 3 458 мана-



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

тов не был возмещен страховой компанией и виновником происшествия, в связи с чем он обратился в суд.

Решением Ясамальского районного суда города Баку от 14 сентября 2022 года иск был частично удовлетворен, было решено взыскать с ОАО "Халг Сыгорта" в пользу истца денежные средства в размере 2 227,17 манатов за причиненный материальный ущерб.

ОАО "Халг Сыгорта" подало апелляционную жалобу на решение, указав, что согласно статье 56.1.2 Закона "Об обязательном страховании", страховые суммы по обязательному страхованию гражданской ответственности владельцев автотранспортных средств установлены в размере 5 000 манатов за ущерб, причиненный имуществу третьих лиц. Будучи страховой компанией, они выплатили пропорционально 2312,83 манатов за ущерб, причиненный автомобилю, принадлежащему истцу, а владельцу другого поврежденного автомобиля − 2687,17 манатов и общая сумма этих выплат составляет 5000 манатов, что соответствует установленной законом страховой сумме по одному страховому случаю. Предел их ответственности как страховщика конкретно установлен законом в 5 000 манатов, и они несут ответственность только в пределах этой суммы.

При рассмотрении дела Гражданской коллегией Бакинского апелляционного суда было установлено, что в отношениях обязательного страхования существуют различные подходы к определению размера страховых выплат третьим лицам в случаях, когда в результате одного дорожно-транспортного происшествия, являющегося страховым случаем ущерб был причинен имуществу нескольких третьих лиц.

Согласно одному из существующих подходов, в отношениях обязательного страхования, независимо от того, какому числу лиц был причинен ущерб в результате дорожно-транспортного происшествия, предельный размер страхового возмещения, составляющий 5 000 манатов, должен быть распределён между потерпевшими пропорционально причинённому ущербу.

Согласно другому подходу, в отношениях обязательного страхования в случае причинения ущерба имуществу нескольких лиц в результате одного дорожно-транспортного происшествия − это должно рассматриваться как отдельное страховое событие в отношении каждого потерпевшего, и установленный предел страхового



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

возмещения в размере 5 000 манатов должен применяться в отношении каждого потерпевшего.

С целью предотвращения формирования различной практики судами при применении указанных в обращении законодательных норм и устранения существующей неопределенности, Бакинский апелляционный суд пришел к выводу о необходимости обращения в Конституционный Суд.

В связи с обращением Пленум Конституционного Суда считает важным отметить следующее.

Обязательное страхование осуществляется на основе законодательства и представляет собой обязательное страхование страховых интересов юридических и физических лиц в целях обеспечения интересов общества.

Обязательное страхование гражданской ответственности владельцев автотранспортных средств применяется с целью возмещения ущерба, причиненного здоровью физических лиц, а также имуществу физических и юридических лиц в результате использования механических транспортных средств на территории Азербайджанской Республики.

В статье 922.1 Гражданского кодекса Азербайджанской Республики (далее – Гражданский кодекс) указано, что страховой случай – это случай или обстоятельство, произошедшее или возникшее в течение срока действия договора страхования и в соответствии с законами об обязательном страховании или договору страхования, являющееся основанием для выплаты страхового возмещения страхователю, застрахованному или другому выгодоприобретателю.

Согласно статье 1.1.19 Закона Азербайджанской Республики "О страховой деятельности", страховой случай – это случай или обстоятельство, произошедшее или возникшее в течение срока действия договора страхования и в соответствии с законами об обязательном страховании или договору добровольного страхования, являющееся основанием для выплаты страхового возмещения страхователю, застрахованному или другому выгодоприобретателю.

В то же время в статьях 13.1 и 13.2 Закона "Об обязательном страховании" указано, что страховой случай по видам обязательного страхования – это предусмотренные Особенным разделом настоящего Закона случаи и обстоятельства, которые наступают в

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

течение срока действия данного договора и являются основанием для компенсации ущерба, причиненного застрахованному или третьему лицу в результате эксплуатации имущества или осуществления деятельности, указанного в соответствующем договоре обязательного страхования. В обязательном страховании гражданской ответственности страховым случаем признается факт возникновения гражданской ответственности страхователя или застрахованного по компенсации ущерба, причиненного здоровью и (или) имуществу третьих лиц в результате эксплуатации застрахованного имущества (здания, строения, автотранспортного средства, прибора, установки, оборудования и пр.), указанного в соответствующем страховом свидетельстве.

Согласно статье 52.1 данного Закона, страховым случаем признается факт возникновения гражданской ответственности по возмещению ущерба, причиненного здоровью и (или) имуществу третьих лиц, пострадавших в результате использования автотранспортного средства на территории Азербайджанской Республики.

Таким образом, страховой случай – это реализация риска, покрытого страхованием, в результате наступления которого возникает право на требование страхового возмещения. Страховой случай является конкретным случаем или обстоятельством, однако в результате его наступления может быть один или несколько потерпевших (в обязательном страховании гражданской ответственности владельцев транспортных средств – третьи лица).

В соответствии со статьей 20.4 Закона "Об обязательном страховании", если при страховании гражданской ответственности сумма ответственности за ущерб, причиненный застрахованному имуществу двух или более третьих лиц в результате одного страхового случая, превысит соответствующую страховую сумму, то страховое возмещение выдается третьим лицам в размере соотношения данной страховой суммы к ущербу, причиненному каждому третьему лицу.

В соответствии со статьей 58.3 того же Закона, если общий объем ответственности страховщика по ущербу, причиненному в результате страхового случая нескольким третьим лицам, рассчитанный в отдельности в отношении каждого потерпевшего, превысит страховые суммы, установленные настоящим Законом, страховое возмещение каждому потерпевшему выдается сораз-

мерно соотношению общей страховой суммы, установленной по одному страховому случаю, и причиненного ему ущерба.

Кроме того, в пункте 40.4 "Правил полного страхования автотранспортных средств, предоставляемых физическим лицам", утвержденных постановлением Коллегии Министерства финансов Азербайджанской Республики от 23 сентября 2014 года, указано, что если общая сумма ущерба, причиненного имуществу или жизни и здоровью нескольких лиц в результате одного и того же страхового случая, превышает установленную страховую сумму по страхованию гражданской ответственности владельцев автотранспортных средств, страховщик выплачивает каждому потерпевшему страховое возмещение пропорционально сумме причиненного ему ущерба. В этом случае общая сумма страховых выплат всем потерпевшим должна быть равна установленной страховой сумме по страхованию гражданской ответственности владельцев автотранспортных средств.

В статье 926 Гражданского кодекса указывается, что страховое возмещение – это финансовая компенсация, выплачиваемая страховщиком в соответствии с законами об обязательном страховании или договором страхования при наступлении страхового случая. Страховщик производит выплату страхового возмещения в пределах страховой суммы.

Также согласно статье 10 Закона "Об обязательном страховании", страховая сумма − окончательный предел обязательств страховщика, выраженный в установленной настоящим Законом сумме, на которую застрахован объект страхования. Общая сумма страховых возмещений, выданных страховщиком по одному страховому случаю в течение срока действия договора обязательного страхования, не может превышать сумму обязательного страхования.

Статьей 56.1.2 данного Закона предельный размер страховой выплаты страховщика за ущерб, причиненный имуществу третьих лиц по одному страховому случаю, установлен в размере 5 000 манатов.

Пленум Конституционного Суда особо отмечает, что для оценки ущерба, причиненного имуществу нескольких третьих лиц, как результат одного страхового случая, должны быть исследованы фактические обстоятельства произошедшего дорожно-транспортного происшествия и сделаны соответствующие выводы.

Как следует из содержания изложенных норм, причинение ущерба двум и более третьим лицам в результате одного дорожно-транспортного происшествия рассматривается не как наступление отдельных страховых случаев в отношении каждого третьего лица, а как причинение ущерба нескольким третьим лицам в результате одного страхового случая.

Таким образом, Пленум Конституционного Суда, проанализировав вышеуказанные законодательные акты, приходит к выводу, что согласно действующему законодательству, в правоотношениях по обязательному страхованию факт причинения ущерба нескольким третьим лицам в результате одного дорожно-транспортного происшествия признается одним страховым случаем.

Пленум Конституционного Суда также подчеркивает, что потерпевший вправе в установленном законодательством порядке предъявить к причинителю ущерба требование в рамках деликтного права о возмещении той части ущерба, которая не покрыта страховой выплатой.

На основании изложенного Пленум Конституционного Суда приходит к следующим выводам:

– по смыслу статьи 58.3 Закона "Об обязательном страховании", факт причинения ущерба имуществу нескольких третьих лиц в результате одного дорожно-транспортного происшествия признается одним страховым случаем;

– в соответствии со статьями 10, 20.4, 56 и 58.3 Закона "Об обязательном страховании", общая сумма страховых выплат, производимых страховщиком по одному страховому случаю в течение срока действия договора страхования, не может превышать сумму обязательного страхования.

Если общий объем обязательств страховщика, рассчитанных отдельно в отношении каждого потерпевшего за ущерб, причиненный нескольким третьим лицам в результате одного страхового случая, превышает установленную страховую сумму, страховое возмещение каждому потерпевшему осуществляется в части общей страховой суммы, предусмотренной за один страховой случай, соразмерно причиненному ему ущербу;

– в случае, если сумма ущерба, причиненного в результате страхового случая, превышает страховую выплату по обязательному страхованию, потерпевший вправе требовать от причинителя



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

ущерба возмещения той части ущерба, которая превышает страховую выплату.

Руководствуясь частью VI статьи 130 Конституции Азербайджанской Республики, статьями 60, 62, 63, 65-67 и 69 Закона Азербайджанской Республики "О Конституционном Суде", Пленум Конституционного Суда Азербайджанской Республики

**П О С Т А Н О В И Л :**

1. По смыслу статьи 58.3 Закона Азербайджанской Республики "Об обязательном страховании", факт причинения ущерба имуществу нескольких третьих лиц в результате одного дорожно-транспортного происшествия признается одним страховым случаем.

2. В соответствии со статьями 10, 20.4, 56 и 58.3 Закона Азербайджанской Республики "Об обязательном страховании", общая сумма страховых выплат, производимых страховщиком по одному страховому случаю в течение срока действия договора страхования, не может превышать сумму обязательного страхования.

Если общий объем обязательств страховщика, рассчитанных отдельно в отношении каждого потерпевшего за ущерб, причиненный нескольким третьим лицам в результате одного страхового случая, превышает установленную страховую сумму, страховое возмещение каждому потерпевшему осуществляется в части общей страховой суммы, предусмотренной за один страховой случай, соразмерно причиненному ему ущербу.

3. В случае, если сумма ущерба, причиненного в результате страхового случая, превышает страховую выплату по обязательному страхованию, потерпевший вправе требовать от причинителя ущерба возмещения той части ущерба, которая превышает страховую выплату.

4. Постановление вступает в силу со дня опубликования.

5. Постановление опубликовать в официальных государственных газетах Азербайджанской Республики и «Вестнике Конституционного Суда Азербайджанской Республики», а также разместить на официальном сайте Конституционного Суда Азербайджанской Республики.

6. Постановление является окончательным и не может быть отменено, изменено или официально истолковано ни одним органом или лицом.

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**

AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN
Q Ə R A R I

## Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.4 və 236-cı maddələrinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 428.10-cu maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair

**14 iyul 2023-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova, Humay Əfəndiyeva, Rövşən İsmayılov (məruzəçi-hakim), Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən ibarət tərkibdə,

məhkəmə katibi Fəraid Əliyevin iştirakı ilə,

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.4 və 236-cı maddələrinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 428.10-cu maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxdı.

İş üzrə hakim R.İsmayılovun məruzəsini, maraqlı subyektlərin nümayəndələri Azərbaycan Respublikasının Baş Prokurorluğu və Azərbaycan Respublikası Milli Məclisi Aparatının mülahizələrini, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının, Gəncə Apellyasiya Məhkəməsinin, Şirvan Apellyasiya Məhkəməsinin, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin mütəxəssis

mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru S.Əliyevin rəyini və iş materiallarını araşdırıb müzakirə edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**M Ü Ə Y Y Ə N E T D İ :**

Azərbaycan Respublikasının Prokurorluğu (bundan sonra – Prokurorluq) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə (bundan sonra – Konstitusiya Məhkəməsi) sorğu ilə müraciət edərək narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi zamanı sosial şəbəkələrdən fərdi rabitə vasitəsi kimi istifadə edilməsi hallarında əməlin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 234.4.4-cü maddəsi ilə tövsif edilməsinin, eləcə də internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakının təşviqinin həmin Məcəllənin 236-cı maddəsində nəzərdə tutulan narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə cinayətinin tərkibini və ya Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində nəzərdə tutulan cinayət əməlinə hazırlığı, yaxud da Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 428.10-cu maddəsində nəzərdə tutulan inzibati xətanın tərkibini yaratmasının müəyyən edilməsi üçün həmin maddələrin əlaqəli şəkildə şərh edilməsini xahiş etmişdir.

Sorğuda göstərilmişdir ki, Baş Prokurorluqda aparılmış təhlillər zamanı müəyyən edilmişdir ki, son dövrlərdə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı istintaqı aparılan cinayət işləri üzrə şəxslər tərəfindən “Whatsapp”, “İnstagram”, “Facebook”, “Zoom”, “Skype” və digər sosial şəbəkələrdən, internet informasiya ehtiyatlarından istifadə edilməklə narkotik vasitələrin və psixotrop maddələrin çoxsaylı şəxslərə satışının və əlçatanlığının təmin edilməsi, onların reklamının təşkil edilməsi, istifadəsinin həvəsləndirilməsi və bu kimi digər əməllərin törədilməsi, bəzən isə yalnız narkotik vasitələrin və ya psixotrop maddələrin bir-birinə çatdırılması üçün fərdi rabitə vasitəsi kimi istifadə edilməsi hallarına tez-tez rast gəlinir.

Lakin təcrübədə narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar sosial şəbəkələrdən yalnız fərdi rabitə vasitəsi kimi istifadə edilməsi zamanı əməlin Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində nəzərdə tutulan cinayət tərkibini yaratması və ya qeyd olunan vasitələrdən istifadə edilməklə qeyri-müəyyən şəxslərə ünvanlanmış narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakını tərifləyən videoçarxların yayımlanması, onların reklamının təşkil edilməsi və bu kimi hallarda əməlin Cinayət Məcəlləsinin 236-cı maddəsində nəzərdə tutulan – narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə cinayətinin tərkibini yaratması ilə bağlı fərqli yanaşmaların olması bir sıra hallarda şəxslərin əsassız olaraq daha ağır cinayət əməlini törətməkdə təqsirli bilinərək məsuliyyətə cəlb olunmalarına, bəzən isə cinayət məsuliyyətindən kənarda qalmalarına səbəb ola bilər.

Sorğuda qeyd olunur ki, Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsinin dispozisiyasında nəzərdə tutulan əməlin narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi zamanı sosial şəbəkələrdən məhz fərdi rabitə vasitəsi kimi istifadə edilməsi halını da ehtiva etməsi məsələsi mübahisəlidir.

Belə ki, Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsinin dispozisiyasında bu Məcəllənin 234.2, 234.3 və 234.3-1-ci maddəsində nəzərdə tutulmuş əməllərin kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədilməsinə görə cinayət məsuliyyəti müəyyən edilir. Yəni maddənin dispozisiyasında istifadə edilən “internet informasiya ehtiyatları və ya informasiya-telekommunikasiya şəbəkələri” ifadələri “o cümlədən” bağlayıcısı ilə “kütləvi informasiya vasitələri” ifadəsi ilə əlaqələndirilmişdir.

Sorğuverənin qənaətinə görə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə edilməklə törədilməsi dedikdə, qanunverici orqan Cinayət Məcəlləsinin 234.2, 234.3 və 234.3-1-ci maddələrində nəzərdə tutulan əməllərin törədilməsi zamanı narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsinin həyata keçirilməsinin asanlaşdırılması üçün bununla əlaqədar məlumatların qeyri-məhdud sayda şəxslərə çatdırılması, onların çoxsaylı şəxslərə əlçatanlığının təmin edilməsi və digər bu kimi məqsədlər ilə internet informasiya ehtiyatlarından və ya



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

informasiya-telekommunikasiya şəbəkələrindən istifadə edilməsini nəzərdə tutur.

Sorğuda həmçinin qeyd olunur ki, narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə cinayət əməlinin cəhətləri, internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə (onlardan istifadə qaydaları, təsiri, habelə onlardan istifadə ilə bağlı mahnıların bəstələnməsi və ya yayılması və s.) narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakının təşviqi zamanı əməldə Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində nəzərdə tutulan cinayət əməlinə hazırlığın, yoxsa həmin Məcəllənin 236.1-ci maddəsində nəzərdə tutulan cinayət əməlinin olması ilə bağlı fikir ayrılıqları vardır. Habelə təcrübədə qeyd olunan hallarda əməlin İnzibati Xətalar Məcəlləsinin 428.10-cu (Reklam haqqında qanunvericiliyin pozulması) maddəsi ilə inzibati məsuliyyətə səbəb olması da istisna edilmir.

Göstərilənlərə əsasən, Prokurorluq hüquq tətbiqetmə təcrübəsində mövcud qeyri-müəyyənliyin aradan qaldırılması və vahid təcrübənin formalaşdırılması məqsədi ilə Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək qərarına gəlmişdir.

Qeyd edilməlidir ki, hazırkı sorğu Konstitusiya Məhkəməsinə verildikdən sonra 17 fevral 2023-cü il tarixli 807-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində "kütləvi informasiya vasitələrindən" sözləri "mediadan" sözü ilə əvəz edilmişdir.

Bu dəyişiklik "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun (bundan sonra – "Media haqqında" Qanun) icrası ilə əlaqədar həyata keçirilmişdir. Həmin Qanunun 78.6-cı maddəsinə müvafiq olaraq, bu Qanun qüvvəyə mindiyi gündən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu ləğv edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə əlaqədar aşağıdakıların qeyd edilməsini zəruri hesab edir.

Məsuliyyətin yaranması hüquqi, eləcə də cinayət-hüquqi nəticələr törətdiyi üçün buna səbəb olan hansı hərəkətin (və ya hərəkətsizliyin) edilməsi, o cümlədən məhz hansı vəzifənin yerinə yetirilməməsi hüquqi müəyyənlik prinsipinə uyğun olaraq, qanunda dəqiq və aydın göstərilməlidir. Eyni zamanda, cinayət qanunvericiliyi sahəsində hüquqi müəyyənlik prinsipi Azərbaycan Respublikası Konsti-

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

tusiyasının 71-ci maddəsinin VIII hissəsindən və "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın 7-ci maddəsindən irəli gəlir. Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindəki müddəa Əsas Qanunda qanunçuluq prinsipini ifadə edərək, cinayət və cəzanın qanuna əsaslanmasını tələb etməklə yanaşı (nullum crimen sine lege və nulla poena sine lege prinsipləri), cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsi (lex stricta) və cinayət qanunvericiliyinin aydın və müəyyən olmasını da (lex certa) tələb edir (Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 264-cü maddəsinin şərh edilməsinə dair" 2012-ci il 10 aprel tarixli Qərarı).

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) Böyük Palatasının Korbely Macarıstana qarşı iş üzrə 2008-ci il 19 sentyabr tarixli Qərarında (§70) göstərilmişdir ki, Konvensiyanın 7-ci maddəsi ittiham olunan şəxsin maraqlarının ziyanına cinayət-hüquqi normaların geriyə qüvvəsi ilə məhdudlaşmır. Bununla bərabər, həmin maddə özündə daha ümumi prinsipləri ehtiva edir. Həmin prinsiplərə əsasən, yalnız qanun cinayətin tərkibini və buna görə cəzanı müəyyən edə bilər (nullum crimen, nulla poena sine lege), o cümlədən ittiham olunan şəxsin ziyanına, məsələn, analogiya üzrə, cinayət hüquq normalarının genişləndirici şərh olunması qadağan edilir. Bu prinsiplərin mahiyyətindən aydın olur ki, milli qanunvericilik cinayətin tərkibini dəqiq müəyyən etməlidir.

Eyni zamanda Avropa Məhkəməsinin Böyük Palatası Del Rio Prada İspaniyaya qarşı iş üzrə 2013-cü il 21 oktyabr tarixli Qərarında (§92-93) qeyd etmişdir ki, hüquq normasının istənilən hüquq sahəsində, o cümlədən cinayət hüququnda nə qədər aydın şəkildə tərtib olunmasına baxmayaraq, məhkəmə təfsiri elementi qaçılmazdır. Lakin ağlabatan şəkildə öngörülə bilən məhkəmənin təfsirinin olmaması təqsirləndirilən şəxsin Konvensiyanın 7-ci maddəsində nəzərdə tutulmuş hüquqlarının pozulmasına gətirib çıxara bilər. Əks təqdirdə həmin müddəanın məqsəd və vəzifələri (heç kim özbaşına cinayət təqibinə, məhkum edilməyə və ya cəzaya məruz qalmamalıdır) yerinə yetirilməmiş olur.

Sorğuda qaldırılan birinci məsələ Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsinin dispozisiyasında əks olunmuş əməlin narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi zamanı internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya

şəbəkələrindən, yəni nəticə etibarilə sosial şəbəkələrdən fərdi rabitə vasitəsi kimi istifadə olunması hallarını da ehtiva edib-etməməsi məsələsidir.

Bununla bağlı, ilk növbədə, qeyd etmək lazımdır ki, sosial şəbəkələrin mahiyyətinə aid olan əsas xüsusiyyətlərindən biri onların eyni vaxtda qeyri-məhdud sayda insanla əlaqənin yaradılmasına imkan yaratmasından, onların köməkliyi ilə qeyri-məhdud sayda insanın istənilən məlumatı əldə etməsi və qeyri-məhdud sayda insanlar arasında yayılmasından ibarətdir. Lakin bu, sosial şəbəkələrdən fərdi ünsiyyət vasitəsi kimi istifadə imkanını da istisna etmir. Bu zaman sosial şəbəkələrdən fərdi rabitə vasitəsi kimi istifadə olunması dedikdə, məsələn cinayət əməlini törədən şəxslərin həmin şəbəkə vasitəsilə fərdi qaydada bir-biri ilə əlaqəsinin təmin edilməsi halları başa düşülməlidir. Sosial şəbəkələrdən bu cür istifadə halları iki şəxsin təkbətək ünsiyyəti üçün mobil və ya kabel telefon rabitəsindən istifadəsi halları ilə mahiyyət etibarı ilə eynidir.

Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində isə bu Məcəllənin 234.2, 234.3 və 234.3-1-ci maddəsində nəzərdə tutulmuş əməllərin məhz mediadan, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədilməsi halları kriminallaşdırılır. Cinayət Məcəlləsinin müvafiq maddəsində yer alan "media" anlayışının tərifi "Media haqqında" Qanunun 1.1.2-ci maddəsində verilmişdir. Həmin Qanuna uyğun olaraq, media – kütləvi informasiyanın dövri və ya müntəzəm olaraq dərc olunmasını və (və ya) yayımlanmasını həyata keçirmək üçün istifadə olunan alət və vasitələr, habelə onlar vasitəsilə formalaşan informasiya mühitidir. Həmin Qanunun 1.1.1-ci maddəsinə əsasən isə kütləvi informasiya – əldə olunması, ötürülməsi, istehsalı və yayımı Azərbaycan Respublikasının qanunları ilə məhdudlaşdırılmayan, qeyri-məhdud sayda şəxslərə çatdırmaq məqsədilə media subyektləri tərəfindən dərc olunan və (və ya) yayımlanan məlumatlardır.

Beləliklə, Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsinin dispozisiyasının konstruksiyasında əsas yer məhz kütləvilik əlamətinə verilir. Burada qanunvericinin başlıca məqsədi Cinayət Məcəlləsinin 234.2, 234.3, 234.3-1-ci maddələrində göstərilən əməllərin kütləvi auditoriyaya, qeyri-müəyyən sayda insanlara münasibətdə törədilməsinin, yəni narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı məlumatların qeyri-müəyyən sayda şəxslərə təqdi-

matı vasitəsilə satışının kriminallaşdırılmasından ibarətdir. Qanunverici, narkotik vasitələrin və ya psixotrop maddələrin satışına dair təkliflərin internet informasiya ehtiyatları və ya informasiya-telekommunikasiya şəbəkələri vasitəsilə qeyri-məhdud şəxslər dairəsinə ünvanlanmasına, həmin məlumatların çoxlu sayda şəxslər üçün əlçatan olmasına, bununla da narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən şəxslərin (istehsalçıların, satıcıların, ticarət vasitəçilərinin, istehlakçıların və s.), mütəşəkkil cinayətkar birliklərin sayının hədsiz genişlənməsinə şərait yaratdığı üçün Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsindəki əməllərin daha böyük ictimai təhlükə kəsb etdiyini nəzərə alaraq həmin əməllərə görə daha ağır cinayət məsuliyyətini də müəyyən etmişdir.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı əməllərin internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən fərdi rabitə vasitəsi kimi istifadə etməklə, yəni sosial şəbəkələrdən yalnız satıcı ilə alıcı arasındakı fərdi rabitə əlaqəsi kimi istifadə edilməklə törədilməsi Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsi ilə deyil, işin hallarından asılı olaraq Cinayət Məcəlləsinin 234.2, 234.3, 234.3-1, 234.4.1, 234.4.2 və ya 234.4.3-cü maddələrinə əsasən tövsif olunmalıdır.

Bununla belə, sosial şəbəkələrin yuxarıda göstərilən əsas xüsusiyyəti nəzərə alınaraq qeyd olunmalıdır ki, narkotik vasitələrin və ya psixotrop maddələrin satış məqsədi ilə qanunsuz dövriyyəsi zamanı həmin şəbəkələrdən istifadə kütləvilik əlamətini ehtiva etdiyi halda Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində nəzərdə tutulmuş cinayət tərkibi yaranır.

Burada bir daha qeyd olunmalıdır ki, qanunverici məsuliyyətə cəlb etmənin şərtlərini elə konkret şəkildə təsbit etməlidir ki, cinayət tərkibinin əlamətləri maddənin birbaşa məzmunundan və ya məhkəmə təfsiri vasitəsi ilə müəyyən edilə bilinsin. Qanunda əks olunan mətnin məzmunu mümkün məhkəmə təfsirinin son hədlərini müəyyənləşdirir.

Bu mənada Konstitusiya Məhkəməsinin Plenumu məsələyə dair xarici ölkələrin konstitusiya mühakimə orqanlarının mövqelərini diqqətəlayiq hesab edir. Belə ki, Almaniya Federal Konstitusiya Məhkəməsinin Birinci Senatı 1995-ci il 10 yanvar tarixli Qərarında əməlin cinayət hesab olunmasını və ona müvafiq cəzanın təyin

edilməsini qanunvericinin müstəsna səlahiyyətləri kimi tanıyaraq və məhkəmələrin həmin səlahiyyətlərə müdaxiləsini yolverilməz hesab edərək, eyni zamanda onu da vurğulamışdı ki, cinayət qanununun hərfi mənasından kənara çıxan təfsiri nəticəsində məhkum olunmuş şəxs bəraət almalıdır. Bu, ilk baxışdan cinayət qanunu ilə cəzalana biləcəyi kimi görünən, lakin əslində həmin qanunun şamil olunmadığı ayrı-ayrı konkret hallara da aiddir. Belə vəziyyətdə boşluğun doldurulması məsələsi qanunvericinin özü tərəfindən həll edilməlidir.

Sorğuda həmçinin sosial şəbəkələrdən istifadə edilməklə qeyri-müəyyən şəxslərə ünvanlanmış narkotik vasitələrin və psixotrop maddələrin istehlakını tərifləyən videoçarxların ayrı-ayrı şəxslər tərəfindən yayımlanması, onların reklamının təşkil edilməsi və bu kimi hallarda əməldə Cinayət Məcəlləsinin 236-cı maddəsində nəzərdə tutulan – narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə cinayət tərkibinin və ya Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində nəzərdə tutulmuş cinayət əməlinə hazırlığın yaxud İnzibati Xətalar Məcəlləsinin 428.10-cu maddəsində nəzərdə tutulan – reklam haqqında qanunvericiliyin pozulması inzibati xəta tərkibinin olması ilə bağlı fərqli yanaşmaların mövcud olduğu bildirilir.

Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində nəzərdə tutulmuş cinayət əməlinin obyektiv cəhətini təşkil edən elementlərdən biri məhz mediadan, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə satış məqsədi ilə qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə və ya saxlama, hazırlama, istehsal etmə, emal etmə, daşıma, göndərmə, yaxud qanunsuz olaraq narkotik vasitələri və ya psixotrop maddələri satmada ifadə olunur. Bu cinayət əməlinin törədilməsində məqsəd narkotik vasitələri və psixotrop maddələri mümkün qədər çox insana satmaqla bundan maddi gəlir əldə etməkdir.

Narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakını tərifləyən videoçarxların satış məqsədi olmadan sadəcə yayımlanması isə Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində nəzərdə tutulmuş cinayət tərkibinin əlamətlərini əks etdirmədiyinə görə bu əməl Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsində nəzərdə tutulmuş cinayət əməlinə hazırlıq kimi qiymətləndirilə bilməz.

Cinayət Məcəlləsinin 236-cı maddəsində nəzərdə tutulmuş cinayət əməlinin obyektiv cəhəti isə narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə hərəkətində ifadə olunur.

Cinayət Məcəlləsinin 236-cı maddəsində nəzərdə tutulmuş cinayət əməli subyektiv cəhətdən birbaşa qəsd formasında, zərərçəkmiş şəxsi narkotik vasitədən və ya psixotrop maddədən istifadə etməyə təhrik etmə məqsədilə törədilir. Belə ki, təqsirkar bu hərəkətlərin zərərçəkmiş şəxsin sağlamlığına zərər vura biləcəyini dərk edir, onun narkotik aludəçisi ola biləcəyini qabaqcadan görür və bunu arzu edir. Burada məqsəd (narkotik vasitədən və ya psixotrop maddədən istifadə etməyə təhrik etmə) cinayət tərkibinin zəruri əlamətidir və həmin əməlin törədilməsində belə məqsəd olmazsa, bu, Cinayət Məcəlləsinin 236-cı maddəsində nəzərdə tutulmuş cinayət tərkibini yaratmaz.

İşin konstitusiya icraatı qaydasında araşdırılması zamanı müxtəlif mütəxəssis rəylərindən müəyyən olunmuşdur ki, məhkəmə təcrübəsində təhrik konkret şəxsə qarşı yönəlmiş hərəkət kimi qəbul olunur.

Təhrik etmənin bu cür qəbul olunması həmçinin onunla bağlıdır ki, hüquq ədəbiyyatında narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə təhrikçiliyin xüsusi forması kimi dəyərləndirilir, yəni başqa şəxsə bu və ya digər formada edilən təsir onu cinayət və ya digər hüquqazidd hərəkəti etməyə qətiyyətləndirir.

Cinayət Məcəlləsinin 32.4-cü maddəsinə əsasən, ələ alma, sövdələşmə, hədə-qorxu gəlmə və ya digər üsullarla başqa şəxsi cinayət törətməyə sövq edən şəxs təhrikçi sayılır.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd edir ki, narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakına təhrik etmə şəxsi bu maddələri istehlak etmək üçün dilə tutma, təklif etmə, məsləhət vermə, bu maddələri qəbul etdikdən sonra yaranan hislər barədə həvəs və arzu yaratmada ifadə olunur və bu cür təhrik etmə ümumi insan kütləsinə deyil, konkret şəxsə və ya şəxslərə ünvanlanmalıdır. Əks yanaşma, yəni, təhrik olunanın fərdiləşdirilməməsi cinayət qanununun genişləndirici təfsirinə gətirib çıxarardı ki, bu da qanunçuluq prinsipi ilə uzlaşmır.

Bir sıra ölkələrin məhkəmə təcrübəsinə nəzər yetirdikdə həmin məsələyə münasibətdə eyni yanaşmanın mövcud olduğu müəyyən edilmişdir (məsələn, Qazaxıstan Respublikası Ali Məhkəməsinin “Narkotik vasitələrin, psixotrop maddələrin, onların analoqlarının və prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı işlər üzrə qanunvericiliyin tətbiqi haqqında” 1998-ci il 14 may tarixli 3 nömrəli normativ qərarı və "Narkotik vasitələr, psixotrop, güclü təsir göstərən və zəhərli maddələrlə əlaqəli cinayətlərə dair işlər üzrə məhkəmə təcrübəsi



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

haqqında" Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun 2006-cı il 15 iyun tarixli 14 nömrəli qərarı).

Göstərilənlərə əsasən qeyd olunmalıdır ki, sosial şəbəkələrdə narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakını tərifləyən videoçarxlar qeyri-müəyyən insan kütləsinə ünvanlandığından, həmin əməl Cinayət Məcəlləsinin 236-cı maddəsində nəzərdə tutmuş cinayət tərkibini yaratmır.

O da göstərilməlidir ki, "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.1-ci maddəsinə əsasən, reklam – reklam istehlakçısının diqqətini reklam obyektinə müxtəlif vasitə və üsullardan istifadə olunmaqla istənilən formada cəlb etmək, marağını formalaşdırmaq və saxlamaq, əmtəəni bazarda tanıtmaq və satışını stimullaşdırmaq məqsədi ilə yayımlanan məlumatdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 408.2-ci maddəsinə müvafiq olaraq, şəxslərin qeyri-müəyyən dairəsinə ünvanlanmış təklifdə (o cümlədən reklamda) bilavasitə ayrı qayda göstərilməyibsə, bu təklif ofertaya dəvət sayılır.

Sadalanan normalardan da aydın olur ki, reklam qeyri-müəyyən insan kütləsinə ünvanlanmış məlumatdır.

İnternet informasiya ehtiyatlarından və ya informasiya telekommunikasiya şəbəkələrindən istifadə etməklə narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakının təşviqi (onlardan istifadə qaydaları, təsiri, habelə onlardan istifadə ilə bağlı mahnıların bəstələnməsi və yayılması və s.) zamanı əməldə inzibati xəta tərkibinin olub-olmaması ilə əlaqədar qeyd olunmalıdır ki, İnzibati Xətalar Məcəlləsinin 3-cü maddəsinə görə, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş inzibati xətanın törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur.

İnzibati Xətalar Məcəlləsinin 428.10-cu (Reklam haqqında qanunvericiliyin pozulması) maddəsində nəzərdə tutulmuş inzibati xətanın subyekti qismində yalnız vəzifəli şəxslər və hüquqi şəxslər çıxış etdiyindən, narkotik vasitələrin və ya psixotrop maddələrin istehlakını tərifləyən videoçarxların fiziki şəxslər tərəfindən yayımlanması inzibati xətalar qanunvericiliyi ilə nəzərdə tutulmuş inzibati məsuliyyətə də səbəb olmayacaqdır.

Bununla yanaşı Konstitusiya Məhkəməsinin Plenumu qeyd etməyi vacib bilir ki, Azərbaycan Respublikası Milli Məclisinin 1992-ci il

28 oktyabr tarixli Qərarı ilə qoşulduğu Birləşmiş Millətlər Təşkilatının 1988-ci il tarixli "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Konvensiyasının 3-cü maddəsinin 1-ci bəndinin (c) yarımbəndinin (iii) abzasına uyğun olaraq hər bir tərəf, özünün konstitusiya müddəalarını və öz hüquq sisteminin əsas prinsiplərini nəzərə almaqla, qəsdən törədildiyi hallarda, istənilən vasitələrlə başqalarını bu maddədə nəzərdə tutulmuş hüquqpozmaların törədilməsinə, yaxud narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz istifadəsinə açıq (publik) təhrik etmə, yaxud vadar etmə hərəkətlərinin öz qanunvericiliyinə müvafiq olaraq cinayət kimi tanınması üçün tələb oluna biləcək tədbirlər görür.

Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasının 1993/42 saylı Qətnaməsinə əsasən hazırlanan həmin Konvensiyanın şərhinə uyğun olaraq, yuxarıda adı çəkilən hüquqi müddəa narkotiklərdən istifadəni tərifləyən və narkotik mədəniyyətini təbliğ edən jurnal və film materialları ilə bağlı narahatlıqlardan qaynaqlanır. Vaxtilə Konvensiya hazırlanıb qəbul edilərkən narkotik vasitələrdən sui-istifadənin reklamı və təşviqi üçün elektron media vasitələrinin, xüsusən də internetin istifadəsi halları məlum olmasa da, hazırda reklam və təşviqat zamanı bu cür vasitələrdən istifadə Konvensiyanın müvafiq maddəsində yer almış "istənilən vasitələrlə" sözləri ilə əhatə olunur.

Odur ki, Konstitusiya Məhkəməsinin Plenumu hesab edir ki, Konstitusiya norma və prinsiplərinin tələblərinə riayət edilməklə Cinayət Məcəlləsində narkotik vasitələrin və ya psixotrop maddələrin təşviqinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi məqsədəmüvafiqdir.

Konstitusiya Məhkəməsinin Plenumu həmçinin qeyd edir ki, narkotik vasitələrin və ya psixotrop maddələrin təşviqinin kriminallaşdırılmasının konstitusion əsaslarının mövcudluğu da istisna olunmamalıdır.

Belə ki, ən yüksək hüquqi qüvvəyə malik olan Konstitusiya (147-ci maddənin I hissəsi), o cümlədən, cinayət hüququ sahəsində də dövlətlə fərd arasındakı münasibətlərin əsas prinsiplərini təsbit edir. Məhz həmin prinsiplərə uyğun olaraq, dövlət, geniş yayılması səbəbindən konstitusiya dəyərlərinə əhəmiyyətli zərər vuran və qarşısı digər hüquqi vasitələrlə alına bilinməyən ictimai təhlükəli əməllərə görə cinayət məsuliyyətini müəyyən etmək səlahiyyətinə malikdir.

Bu baxımdan narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsi, eləcə də narkotik vasitələrin qanunsuz istehlakı hallarının

son illər geniş yayıldığını nəzərə alaraq, əhalinin sağlamlığının, o cümlədən gənc nəslin fiziki və mənəvi sağlamlığının qorunması məqsədilə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə şərait yaradan bir əməl kimi narkotik vasitələrin və ya psixotrop maddələrin təşviqinin kriminallaşdırılmasının mümkünlüyü Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 17-ci bəndinə uyğun olaraq qanunverici tərəfindən nəzərdən keçirilə bilər.

Göstərilənlərə əsasən Konstitusiya Məhkəməsinin Plenumu aşağıdakı nəticələrə gəlir:

– Konstitusiyanın 71-ci maddəsinin VIII hissəsindən irəli gələn cinayət qanununun genişləndirici təfsirinin qadağan edilməsi prinsipinin tələbləri baxımından Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsinin məzmununa uyğun olaraq, narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı əməllərin internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən yalnız satıcı ilə alıcı arasındakı fərdi rabitə əlaqəsi kimi istifadə edilməklə törədilməsi kütləvilik əlamətini ehtiva etmədiyindən, həmin maddədə nəzərdə tutulmuş cinayət tərkibini deyil, işin hallarından asılı olaraq həmin Məcəllənin 234.2, 234.3, 234.3-1, 234.4.1, 234.4.2 və ya 234.4.3-cü maddələri ilə nəzərdə tutulmuş cinayət tərkibini yaradır;

– Konstitusiyanın norma və prinsiplərini nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatının “Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında” 1988-ci il tarixli Konvensiyasının (3-cü maddəsinin 1-ci bəndinin (c) yarımbəndinin (iii) abzasının) tələblərinə riayət edilməklə, narkotik vasitələrin və ya psixotrop maddələrin təşviqinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi Azərbaycan Respublikasının Milli Məclisə tövsiyə edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsini, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 60, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin VIII hissəsindən irəli gələn cinayət qanununun genişləndirici təfsirinin

qadağan edilməsi prinsipinin tələbləri baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.4-cü maddəsinin məzmununa uyğun olaraq, narkotik vasitələrin, psixotrop maddələrin və ya onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı əməllərin internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən yalnız satıcı ilə alıcı arasındakı fərdi rabitə əlaqəsi kimi istifadə edilməklə törədilməsi kütləvilik əlamətini ehtiva etmədiyindən, həmin maddədə nəzərdə tutulmuş cinayət tərkibini deyil, işin hallarından asılı olaraq həmin Məcəllənin 234.2, 234.3, 234.3-1, 234.4.1, 234.4.2 və ya 234.4.3-cü maddələri ilə nəzərdə tutulmuş cinayət tərkibini yaradır.

2. Azərbaycan Respublikası Konstitusiyasının norma və prinsiplərini nəzərə alaraq Birləşmiş Millətlər Təşkilatının "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" 1988-ci il tarixli Konvensiyasının (3-cü maddəsinin 1-ci bəndinin (c) yarımbəndinin (iii) abzasının) tələblərinə riayət edilməklə, narkotik vasitələrin və ya psixotrop maddələrin təşviqinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**ИМЕНЕМ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

П О С Т А Н О В Л Е Н И Е
ПЛЕНУМА КОНСТИТУЦИОННОГО СУДА
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

# О толковании статей 234.4.4 и 236 Уголовного кодекса Азербайджанской Республики во взаимосвязи со статьей 428.10 Кодекса Азербайджанской Республики об административных проступках

**14 июля 2023 года** **город Баку**

Пленум Конституционного Суда Азербайджанской Республики в составе Фархада Абдуллаева (председатель), Соны Салмановой, Умай Эфендиевой, Ровшана Исмаилова (судья-докладчик), Джейхуна Гараджаева, Рафаэля Гваладзе, Исы Наджафова и Кямрана Шафиева,

с участием секретаря суда Фараида Алиева,

в соответствии с частью IV статьи 130 Конституции Азербайджанской Республики, статьями 27.2 и 32 Закона Азербайджанской Республики "О Конституционном Суде" и статьей 39 Внутреннего устава Конституционного Суда Азербайджанской Республики рассмотрел в судебном заседании в порядке письменной процедуры особого конституционного судопроизводства конституционное дело на основании запроса Прокуратуры Азербайджанской Республики о толковании статей 234.4.4 и 236 Уголовного кодекса Азербайджанской Республики во взаимосвязи со статьей 428.10 Кодекса Азербайджанской Республики об административных проступках.

Изучив и обсудив доклад судьи Р.Исмаилова по делу, суждения представителей заинтересованных субъектов – Генеральной прокуратуры Азербайджанской Республики и Аппарата Милли Меджлиса Азербайджанской Республики, суждения специалистов Уголовной коллегии Верховного Суда Азербайджанской Республики, Гянджинского апелляционного суда, Ширванского апелля-

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

ционного суда, Президиума Коллегии адвокатов Азербайджанской Республики, Министерства внутренних дел Азербайджанской Республики и Министерства цифрового развития и транспорта Азербайджанской Республики, заключение эксперта − профессора кафедры конституционного права юридического факультета Бакинского государственного университета, доктора юридических наук С.Алиева и материалы дела, Пленум Конституционного Суда Азербайджанской Республики

**У С Т А Н О В И Л :**

Прокуратура Азербайджанской Республики (далее − Прокуратура) обратилась с запросом в Конституционный Суд Азербайджанской Республики (далее − Конституционный Суд) с просьбой о толковании статей во взаимосвязи для определения: квалификации деяния по статье 234.4.4 Уголовного кодекса Азербайджанской Республики (далее − Уголовный кодекс) в случаях использования социальных сетей как средства индивидуальной связи при незаконном обороте наркотических средств и психотропных веществ, а также того, образует ли пропаганда потребления наркотических средств или психотропных веществ с использованием интернет-ресурсов или информационно-телекоммуникационных сетей состав преступления, предусмотренного статьей 236 того же Кодекса о склонении к потреблению наркотических средств или психотропных веществ, или подготовку к преступному деянию, предусмотренному статьей 234.4.4 Уголовного кодекса, либо состав административного проступка, предусмотренного статьей 428.10 Кодекса Азербайджанской Республики об административных проступках (далее − Кодекс об административных проступках).

В запросе отмечается, что в ходе проведенного в Генеральной прокуратуре анализа было установлено, что в последнее время при расследовании уголовных дел, связанных с незаконным оборотом наркотических средств и психотропных веществ участились случаи, когда лица, проходящие по уголовным делам, использовали "WhatsApp", "Instagram", "Facebook", "Zoom", "Skype" и другие социальные сети для обеспечения продажи и доступности наркотических средств и психотропных веществ множеству лиц, для

организации их рекламы, стимулирования их использования и совершения других подобных действий, а иногда встречаются случаи их использования только как средства индивидуальной связи для передачи наркотических средств или психотропных веществ друг другу.

Однако существование на практике различных подходов при использовании социальных сетей только как средства индивидуальной связи в связи с незаконным оборотом наркотических средств или психотропных веществ возникает вопрос о наличии состава преступления, предусмотренного статьей 234.4.4 Уголовного кодекса, либо в случаях распространения с использованием указанных средств видеороликов, восхваляющих потребление наркотических средств или психотропных веществ, организации их рекламы и тому подобных действий, адресованных неопределенному кругу лиц состава преступления, предусмотренного статьей 236 Уголовного кодекса (склонение к потреблению наркотических средств и психотропных веществ) в ряде случаев может привести к тому, что лица необоснованно могут быть признаны виновными в совершении более тяжкого преступления и привлечены к ответственности, а иногда остаться вне уголовной ответственности.

В запросе отмечается, что спорным является вопрос о том, охватывает ли диспозиция статьи 234.4.4 Уголовного кодекса случаи использования социальных сетей именно как средства индивидуальной связи при незаконном обороте наркотических средств или психотропных веществ.

Так, в диспозиции статьи 234.4.4 Уголовного кодекса устанавливается уголовная ответственность за деяния, предусмотренные статьями 234.2, 234.3 и 234.3-1 данного Кодекса, совершенные с использованием средств массовой информации, в том числе интернет-информационных ресурсов или информационно-телекоммуникационных сетей. То есть используемые в диспозиции статьи выражения "интернет-информационные ресурсы или информационно-телекоммуникационные сети" связаны с выражением "средства массовой информации" через союз "в том числе".

По мнению заявителя, под незаконным оборотом наркотических средств и психотропных веществ с использованием интернет-информационных ресурсов или информационно-телекоммуникационных сетей законодательный орган подразумевает использование интер-

нет-информационных ресурсов или информационно-телекоммуникационных сетей для облегчения осуществления незаконного оборота наркотических средств или психотропных веществ при совершении деяний, предусмотренных статьями 234.2, 234.3 и 234.3-1 Уголовного кодекса, путем передачи соответствующей информации неограниченному кругу лиц, обеспечения их доступности для множества лиц и других подобных целей.

В запросе также отмечается, что существуют разногласия относительно того, являются ли признаки преступления склонения к потреблению наркотических средств или психотропных веществ с использованием интернет-ресурсов или информационно-телекоммуникационных сетей (правила их использования, воздействие, а также сочинение или распространение песен, связанных с их потреблением и т.д.) подготовкой к преступлению, предусмотренному статьей 234.4.4 Уголовного кодекса, или преступлением, предусмотренным статьей 236.1 того же Кодекса. Не исключено также, что в указанных на практике случаях данное деяние может повлечь и административную ответственность по статье 428.10 (Нарушение законодательства о рекламе) Кодекса об административных проступках.

На основании изложенного, Прокуратура обратилась с запросом в Конституционный Суд с целью устранения существующей неопределенности в правоприменительной практике и формирования единой практики.

Следует отметить, что после подачи настоящего запроса в Конституционный Суд, Законом Азербайджанской Республики от 17 февраля 2023 года № 807-VIQD в статье 234.4.4 Уголовного кодекса слова "средства массовой информации" были заменены словом "медиа".

Это изменение было произведено в связи с исполнением Закона Азербайджанской Республики "О медиа" от 30 декабря 2021 года № 471-VIQ (далее – Закон "О медиа"). В соответствии со статьей 78.6 этого Закона, со дня вступления в силу данного Закона утратил силу Закон Азербайджанской Республики "О средствах массовой информации".

В связи с запросом Пленум Конституционного Суда считает необходимым отметить следующее.

Поскольку возникновение ответственности влечет за собой правовые, а также уголовно-правовые последствия, обусловленные



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

совершением какого-либо действия (или бездействия), в том числе неисполнением конкретной обязанности, то в соответствии с принципом правовой определенности это должно быть четко и ясно указано в законе. В то же время принцип правовой определенности в сфере уголовного законодательства вытекает из части VIII статьи 71 Конституции Азербайджанской Республики и статьи 7 Конвенции "О защите прав человека и основных свобод". Положение части VIII статьи 71 Конституции, выражающая в Основном Законе принцип законности, не только требует, чтобы преступление и наказание основывались на законе (принципы nullum crimen sine lege и nulla poena sine lege), но также предусматривает запрет расширительного толкования уголовного закона (lex stricta) (Постановление Пленума Конституционного Суда "О толковании статьи 264 Уголовного кодекса Азербайджанской Республики" от 10 апреля 2012 года).

В Постановлении Большой палаты Европейского суда по правам человека (далее – Европейский суд) от 19 сентября 2008 года по делу Корбей против Венгрии (§70) указано, что статья 7 Конвенции не ограничивается запретом обратной силы уголовно-правовых норм в ущерб обвиняемого. Наряду с этим, данная статья содержит более общие принципы. Согласно этим принципам, только закон может определять состав преступления и соответствующее наказание (nullum crimen, nulla poena sine lege), в том числе запрещается расширительное толкование уголовно-правовых норм в ущерб обвиняемого, например, по аналогии. Из сущности этих принципов следует, что национальное законодательство должно четко определять состав преступления.

В то же время Большая палата Европейского суда в своем Постановлении по делу Дель Рио Прада против Испании от 21 октября 2013 года (§92-93) отметила, что независимо от того, насколько четко сформулирована правовая норма в любой области права, в том числе в уголовном праве, элемент судебного толкования неизбежен. Однако отсутствие разумно предсказуемого судебного толкования может привести к нарушению прав обвиняемого, предусмотренных статьей 7 Конвенции. В противном случае цели и задачи данного положения (никто не должен подвергаться произвольному уголовному преследованию, осуждению или наказанию) остаются невыполненными.

Первый вопрос, поднятый в запросе, касается того, охватывает ли диспозиция статьи 234.4.4 Уголовного кодекса случаи использования интернет-информационных ресурсов или информационно-телекоммуникационных сетей, а в итоге социальных сетей, в качестве средства индивидуальной связи при незаконном обороте наркотических средств или психотропных веществ.

В связи с этим, в первую очередь, следует отметить, что одной из основных характеристик, присущих сущности социальных сетей, является их способность дать возможность одновременно устанавливать связь с неограниченным количеством людей, позволяя неограниченному числу людей получать любую информацию и распространять её среди неограниченного числа людей. Однако это не исключает возможности использования социальных сетей как средства индивидуального общения. В данном случае под использованием социальных сетей как средства индивидуальной связи следует понимать, например, случаи обеспечения индивидуальной связи между лицами, совершающими преступные деяния, через эту сеть. Такое использование социальных сетей по своей сути идентично случаям использования мобильной или кабельной телефонной связи для личного общения между двумя лицами.

В статье 234.4.4 Уголовного кодекса криминализируются деяния, предусмотренные статьями 234.2, 234.3 и 234.3-1 того же Кодекса, совершенные именно с использованием медиа, в том числе интернет-ресурсов и информационно-телекоммуникационных сетей. Определение понятия "медиа", содержащегося в соответствующей статье Уголовного кодекса, дано в статье 1.1.2 Закона "О медиа". Согласно этому Закону, медиа – это инструменты и средства, используемые для осуществления периодической или регулярной публикации и (или) распространения массовой информации, а также формируемая через них информационная среда. Согласно статье 1.1.1 того же Закона, массовая информация – это информация, публикуемая и (или) распространяемая медиа-субъектами в целях доведения до неограниченного числа лиц, получение, передача, производство и распространение которой не ограничиваются законами Азербайджанской Республики.

Таким образом, в конструкции диспозиции статьи 234.4.4 Уголовного кодекса основное место отводится именно признаку мас-



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

совости. Здесь главная цель законодателя заключается в криминализации совершения деяний, предусмотренных статьями 234.2, 234.3, 234.3-1 Уголовного кодекса, в отношении массовой аудитории, неопределенного круга лиц, то есть продажи путем предоставления информации, связанной с незаконным оборотом наркотических средств или психотропных веществ, неопределенному кругу лиц. Законодатель установил более строгую уголовную ответственность за деяния, предусмотренные статьей 234.4.4 Уголовного кодекса, учитывая, что предложения о продаже наркотических средств или психотропных веществ через интернет-информационные ресурсы или информационно-телекоммуникационные сети, адресованные неограниченному кругу лиц, доступность этой информации для большого числа лиц создают условия для безграничного расширения числа лиц, участвующих в незаконном обороте наркотических средств, психотропных веществ (производителей, продавцов, торговых посредников, потребителей и др.), организованных преступных сообществ, что представляет большую общественную опасность.

Учитывая вышеизложенное, Пленум Конституционного Суда считает, что деяния, связанные с незаконным оборотом наркотических средств, психотропных веществ или их прекурсоров, совершенные с использованием интернет-информационных ресурсов или информационно-телекоммуникационных сетей в качестве средства индивидуальной связи, то есть при использовании социальных сетей только как средства индивидуальной связи между продавцом и покупателем, должны квалифицироваться не по статье 234.4.4 Уголовного кодекса, а в зависимости от обстоятельств дела – по статьям 234.2, 234.3, 234.3-1, 234.4.1, 234.4.2 или 234.4.3 Уголовного кодекса.

Однако с учетом указанной выше основной особенности социальных сетей следует отметить, что только наличие признака массовости при использовании этих сетей для незаконного оборота наркотических средств или психотропных веществ с целью их сбыта, образует состав преступления, предусмотренный статьей 234.4.4 Уголовного кодекса.

Здесь следует еще раз отметить, что законодатель должен конкретно установить условия привлечения к ответственности таким образом, чтобы признаки состава преступления могли быть опре-

делены непосредственно из содержания статьи или посредством судебного толкования. Содержание текста, отраженного в законе, определяет предельные границы возможного судебного толкования.

В этом смысле Пленум Конституционного Суда считает заслуживающими внимания позиции органов конституционного правосудия зарубежных стран по данному вопросу. Так, Первый Сенат Федерального Конституционного Суда Германии в своем Постановлении от 10 января 1995 года, признавая исключительные полномочия законодателя в определении деяния как преступного и назначении соответствующего наказания, и считая недопустимым вмешательство судов в эти полномочия, одновременно подчеркнул, что лицо, осужденное в результате толкования уголовного закона, выходящего за рамки его буквального смысла, должно быть оправдано. Это относится и к отдельным конкретным случаям, которые на первый взгляд могут показаться наказуемыми по уголовному закону, но на самом деле не подпадают под его действие. В такой ситуации вопрос восполнения пробела должен решаться самим законодателем.

В запросе также указывается на наличие различных подходов к квалификации деяний в случаях распространения отдельными лицами через социальные сети видеороликов, восхваляющих потребление наркотических средств и психотропных веществ, а также организации их рекламы и в подобных случаях, адресованных неопределенному кругу лиц, относительно того содержат ли такие действия состав преступления, предусмотренного статьей 236 Уголовного кодекса – склонение к потреблению наркотических средств или психотропных веществ, или подготовку к преступлению, предусмотренному статьей 234.4.4 Уголовного кодекса, либо состав административного проступка, предусмотренного статьей 428.10 Кодекса об административных проступках – нарушение законодательства о рекламе.

Одним из элементов, составляющих объективную сторону преступного деяния, предусмотренного статьей 234.4.4 Уголовного кодекса, является незаконное приобретение или хранение, изготовление, производство, переработка, перевозка, пересылка наркотических средств или психотропных веществ с целью сбыта с использованием медиа, в том числе интернет-информационных ре-

сурсов и информационно-телекоммуникационных сетей, либо незаконный сбыт наркотических средств или психотропных веществ. Целью совершения данного преступного деяния является получение материальной выгоды путем продажи наркотических средств и психотропных веществ максимально возможному числу людей.

Распространение видеороликов, восхваляющих потребление наркотических средств или психотропных веществ, без цели сбыта не может рассматриваться как приготовление к преступлению, предусмотренному статьей 234.4.4 Уголовного кодекса, поскольку не отражает признаков состава преступления, предусмотренного статьей 234.4.4 Уголовного кодекса.

Объективная сторона преступления, предусмотренного статьей 236 Уголовного кодекса, выражается в действиях по склонению к потреблению наркотических средств или психотропных веществ.

С субъективной стороны преступление, предусмотренное статьей 236 Уголовного кодекса, совершается с прямым умыслом с целью склонения потерпевшего к потреблению наркотических средств или психотропных веществ. Так, виновный осознает, что эти действия могут причинить вред здоровью потерпевшего, предвидит возможность того, что он может стать наркозависимым, и желает этого. В данном случае цель (склонение к потреблению наркотических средств или психотропных веществ) является обязательным признаком состава преступления, и при отсутствии такой цели деяние не образует состава преступления, предусмотренного статьей 236 Уголовного кодекса.

При рассмотрении дела в порядке конституционного судопроизводства из заключений различных специалистов было установлено, что в судебной практике склонение рассматривается как действие, направленное против конкретного лица.

Такое понимание склонения также связано с тем, что в юридической литературе склонение к потреблению наркотических средств или психотропных веществ рассматривается как особая форма подстрекательства, то есть воздействие на другое лицо в той или иной форме, побуждающее его к совершению преступления или иного противоправного действия.

Согласно статье 32.4 Уголовного кодекса, подстрекателем признается лицо, склонившее другое лицо к совершению преступления путем уговора, подкупа, угрозы или другим способом.

Пленум Конституционного Суда отмечает, что склонение к потреблению наркотических средств или психотропных веществ выражается в уговорах, предложениях, советах по потреблению этих веществ, создании желания и стремления к ощущениям, возникающим после приема этих веществ, и такое склонение должно быть адресовано не к общей массе людей, а к конкретному лицу или лицам. Противоположный подход, то есть отсутствие индивидуализации склоняемого лица, привел бы к расширительному толкованию уголовного закона, что несовместимо с принципом законности.

При рассмотрении судебной практики ряда стран установлено наличие аналогичного подхода к данному вопросу (например, нормативное постановление Верховного Суда Республики Казахстан №3 от 14 мая 1998 года "О применении законодательства по делам о незаконном обороте наркотических средств, психотропных веществ, их аналогов и прекурсоров" и постановление Пленума Верховного Суда Российской Федерации №14 от 15 июня 2006 года "О судебной практике по делам о преступлениях, связанных с наркотическими средствами, психотропными, сильнодействующими и ядовитыми веществами").

На основании изложенного следует отметить, что видеоролики в социальных сетях, восхваляющие потребление наркотических средств или психотропных веществ, не образуют состава преступления, предусмотренного статьей 236 Уголовного кодекса, поскольку они адресованы неопределенному кругу лиц.

Также следует указать, что согласно статье 2.0.1 Закона Азербайджанской Республики "О рекламе", реклама – это информация, распространяющаяся для привлечения внимания потребителя рекламы к объекту рекламирования, формирования и поддержания интереса, обеспечения узнаваемости товара на рынке и стимулирования его продаж, используя различные средства и методы.

В соответствии со статьей 408.2 Гражданского кодекса Азербайджанской Республики, предложение, адресованное неопределенному кругу лиц (в том числе, реклама), признается приглашением к оферте, если в нем прямо не указано иное.

Из перечисленных норм также становится ясно, что реклама – это информация, адресованная неопределенному кругу лиц.



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

Относительно наличия состава административного проступка при пропаганде потребления наркотических средств или психотропных веществ (способы их использования, воздействие, а также сочинение и распространение песен об их потреблении и т.д.) с использованием интернет-ресурсов или информационно-телекоммуникационных сетей следует отметить, что согласно статье 3 Кодекса об административных проступках, к административной ответственности привлекается только лицо, признанное виновным в совершении административного проступка, предусмотренного этим же Кодексом, и совершившее деяние (действие или бездействие), содержащее все другие признаки состава административного проступка.

Поскольку субъектами административного проступка, предусмотренного статьей 428.10 (Нарушение законодательства о рекламе) Кодекса об административных проступках, выступают только должностные лица и юридические лица, распространение со стороны физических лиц видеороликов, восхваляющих потребление наркотических средств или психотропных веществ, не повлечет административную ответственность, предусмотренную законодательством об административных проступках.

Наряду с этим Пленум Конституционного Суда считает важным отметить, что в соответствии с абзацем (iii) подпункта (c) пункта 1 статьи 3 Конвенции Организации Объединенных Наций "О борьбе против незаконного оборота наркотических средств и психотропных веществ" 1988 года, к которой Азербайджанская Республика присоединилась Постановлением Милли Меджлиса от 28 октября 1992 года, каждая Сторона, учитывая свои конституционные положения и основные принципы своей правовой системы, принимает такие меры, которые могут потребоваться для признания в соответствии со своим законодательством преступлением, в случаях совершения умышленно, открытого подстрекательства или побуждение других любыми средствами к совершению любого из правонарушений, признанных таковыми в соответствии с настоящей статьей, или к незаконному использованию наркотических средств или психотропных веществ.

Согласно комментарию к этой Конвенции, подготовленному на основании Резолюции 1993/42 Экономического и Социального Совета Организации Объединенных Наций, вышеупомянутое право-

вое положение вытекает из озабоченности в связи с журнальными и кинематографическими материалами, восхваляющими потребление наркотиков и пропагандирующими наркотическую культуру. Во время разработки и принятия Конвенции не были известны случаи использования электронных медиа средств, особенно интернета, для рекламы и пропаганды злоупотребления наркотическими средствами, однако использование в настоящее время таких средств при рекламе и пропаганде охватывается словами "любыми средствами", содержащимися в соответствующей статье Конвенции.

Таким образом, Пленум Конституционного Суда считает, целесообразным установление уголовной ответственности за пропаганду наркотических средств или психотропных веществ в Уголовном кодексе с соблюдением требований конституционных норм и принципов.

Пленум Конституционного Суда также отмечает, что не следует исключать наличие конституционных оснований для криминализации пропаганды наркотических средств или психотропных веществ.

Так, Конституция, обладающая высшей юридической силой (часть I статьи 147), устанавливает основные принципы отношений между государством и личностью, в том числе в сфере уголовного права. Именно в соответствии с указанными принципами государство обладает полномочием устанавливать уголовную ответственность за общественно опасные деяния, которые вследствие широкого распространения наносят существенный вред конституционным ценностям и предотвращение которых невозможно другими правовыми средствами.

В связи с этим, учитывая широкое распространение в последние годы незаконного оборота наркотических средств, психотропных веществ, случаев незаконного потребления наркотических средств, а также в целях защиты здоровья населения, в том числе физического и нравственного здоровья молодого поколения, законодатель в соответствии с пунктом 17 части I статьи 94 Конституции может рассмотреть возможность криминализации пропаганды наркотических средств как деяния, создающего условия для незаконного оборота наркотических средств и психотропных веществ.



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

На основании изложенного Пленум Конституционного Суда приходит к следующим выводам:

– с учетом требований принципа запрета расширительного толкования уголовного закона, вытекающего из части VIII статьи 71 Конституции, следует отметить, что в соответствии с содержанием статьи 234.4.4 Уголовного кодекса, совершение деяний, связанных с незаконным оборотом наркотических средств, психотропных веществ или их прекурсоров посредством использования интернет-информационных ресурсов или информационно-телекоммуникационных сетей только в качестве средства индивидуальной связи между продавцом и покупателем, не содержит признака массовости, и поэтому не образует состава преступления, предусмотренного этой статьей, а в зависимости от обстоятельств дела образует состав преступления, предусмотренный статьями 234.2, 234.3, 234.3-1, 234.4.1, 234.4.2 или 234.4.3 того же Кодекса;

– с учетом норм и принципов Конституции, следует рекомендовать Милли Меджлису Азербайджанской Республики установить уголовную ответственность за пропаганду наркотических средств или психотропных веществ с соблюдением требований Конвенции Организации Объединенных Наций "О борьбе против незаконного оборота наркотических средств и психотропных веществ" 1988 года (абзац (iii) подпункта (c) пункта 1 статьи 3).

Руководствуясь частью IV статьи 130 Конституции Азербайджанской Республики, статьями 60, 62, 63, 65-67 и 69 Закона Азербайджанской Республики "О Конституционном Суде", Пленум Конституционного Суда Азербайджанской Республики

**ПОСТАНОВИЛ:**

1. С учетом требований принципа запрета расширительного толкования уголовного закона, вытекающего из части VIII статьи 71 Конституции Азербайджанской Республики, следует отметить, что в соответствии с содержанием статьи 234.4.4 Уголовного кодекса Азербайджанской Республики, совершение деяний, связанных с незаконным оборотом наркотических средств, психотропных веществ или их прекурсоров посредством использования интернет-информационных ресурсов или информационно-телекоммуникационных сетей только в качестве средства индивидуальной

связи между продавцом и покупателем, не содержит признака массовости, и поэтому не образует состава преступления, предусмотренного этой статьей, а в зависимости от обстоятельств дела образует состав преступления, предусмотренный статьями 234.2, 234.3, 234.3-1, 234.4.1, 234.4.2 или 234.4.3 того же Кодекса.

2. С учетом норм и принципов Конституции Азербайджанской Республики, рекомендовать Милли Меджлису Азербайджанской Республики установить уголовную ответственность за пропаганду наркотических средств или психотропных веществ с соблюдением требований Конвенции Организации Объединенных Наций "О борьбе против незаконного оборота наркотических средств и психотропных веществ" 1988 года (абзац (iii) подпункта (c) пункта 1 статьи 3).

3. Постановление вступает в силу со дня опубликования.

4. Постановление опубликовать в официальных государственных газетах Азербайджанской Республики и «Вестнике Конституционного Суда Азербайджанской Республики», а также разместить на официальном сайте Конституционного Суда Азербайджанской Республики.

5. Постановление является окончательным и не может быть отменено, изменено или официально истолковано ни одним органом или лицом.



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**Azərbaycan Respublikasında 2025-ci ilin**
**“Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında**
**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN**
**SƏRƏNCAMI**

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 28 dekabr 2024-cü il,*
*№ 432*

**“Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə” mövzusunda təşkil olunan beynəlxalq konfransın iştirakçılarına**



Hörmətli konfrans iştirakçıları,

Sizi Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunmuş “Konstitusiya və qanunun aliliyi müasir hüquqi sistemlərdə” mövzusunda beynəlxalq konfransda səmimi-qəlbdən salamlayıram.

Düz 30 il əvvəl bu gün – 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrinin davamı olaraq, ümumxalq səsverməsi – referendum yolu ilə suveren Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etmişdir. Müstəqilliyinin yeni qazanıldığı, ərazilərinin hərbi təcavüzə məruz qaldığı, daxili gərginliyin hökm sürdüyü bir şəraitdə bu ali hüquqi sənədin qəbulu ölkə tarixi üçün çox

mühüm ictimai-siyasi hadisə olmaqla, Azərbaycanın dövlət quruculuğunda yeni bir səhifənin başlanğıcını qoymuşdur.

Layihəsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin birbaşa rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış, ümumbəşəri dəyərlərə, dünyanın qabaqcıl demokratik dövlətlərinin konstitusion təcrübəsinə əsaslanan Konstitusiya müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaş cəmiyyətinin bərqərar olmasının və demokratik ənənələrin təşəkkülünün qarantı rolunu oynamışdır.

Əsas Qanunda Azərbaycan xalqı dövlət hakimiyyətinin yeganə mənbəyi olaraq bəyan edilmiş, hakimiyyətlərin bölgüsü prinsipinə uyğun qaydada, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında qarşılıqlı balans və səlahiyyət çərçivəsi müəyyən edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit edilmişdir. Məhkəmə hakimiyyətinin müstəqilliyinin təmini, siyasi plüralizmin dəstəklənməsi, yerli özünüidarəetmənin fundamental əsaslarının formalaşdırılması da Konstitusiyada yer tutan əsas məsələlərdəndir.

Qəbulundan keçən dövr ərzində Konstitusiya ölkə daxilində aparılan çoxşaxəli islahatlar və qloballaşan dünyaya inteqrasiya üçün özül qismində çıxış etmiş, cəmiyyətdə qanunun aliliyinin təmini, azad sahibkarlığın və bazar iqtisadiyyatının inkişafı, xalqın tarixi, milli-mədəni irsinin qorunması istiqamətində əvəzsiz rola malik olduğunu və sağlam təməllər üzərində qurulduğunu sübut etmişdir.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafı, regionun qabaqcıl dövləti kimi layiqli yer tutması və cəmiyyətdə baş verən ictimai-siyasi proseslər Konstitusiyanın da dövrün çağırışlarına uyğunlaşdırılmasını zəruri etmişdir. Bu məqsədlə müxtəlif illərdə Konstitusiyaya edilən əlavə və dəyişikliklər insan hüquq və azadlıqlarının təminatı mexanizmlərinin gücləndirilməsi, vətəndaş cəmiyyətinin əsaslarının dərinləşdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsi yönündə bir çox əhəmiyyətli məsələləri ehtiva etmişdir.

Bu il biz həm də işğala məruz qalmış torpaqlarımızın azad edilməsi uğrunda apardığımız 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin beşinci ildönümünü böyük qürur hissi ilə qeyd edirik. Ölkənin ərazi bütövlüyünün və dövlətin suverenliyinin bərpası Azər-

baycanın inkişafında yeni bir tarixi mərhələnin əsasını qoymuş, həmçinin iqtisadi, sosial və mədəni sahələrlə yanaşı, hüquqi sahədə də islahatlar aparılmasını zəruri etmişdir. Bu baxımdan, əminəm ki, konfransda konstitusiya quruculuğu sahəsində tanınmış mütəxəssislərin iştirakı ilə müxtəlif aktual mövzularda aparılacaq müzakirələr, əldə olunacaq nəticələr Konstitusiyanın aliliyinin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi istiqamətində öz töhfəsini vermiş olacaqdır.

Bir daha Sizi Bakıda ürəkdən salamlayır və konfransın işinə uğurlar arzulayıram.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 12 noyabr 2025-ci il*

**"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2025, № 2, maddə 104, № 5, maddə 442, № 6, maddə 533) 2-ci maddəsinə "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyi" yubiley medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin: "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" yubiley medalı;".

**Maddə 2.** "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 10 oktyabr 2025-ci il,*
*№ 264-VIIQD*

**“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında**

**Ə S A S N A M Ə**

**Maddə 1.** Təltif edilən şəxslər

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikası Konstitusiyasının hazırlanmasına, təkmilləşdirilməsinə və təbliğinə, qanunvericilik və hüquq sisteminin inkişafına, Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə, dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, Konstitusiya ilə təsbit olunmuş əsas insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə, konstitusion ideya və prinsiplərin formalaşdırılması və inkişafına töhfələr vermiş, habelə Azərbaycan dövləti qarşısında xüsusi xidmətləri olan şəxslər təltif edilirlər.

**Maddə 2.** Təltif edən orqan

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3.** Taxılma qaydası

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

**“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)” Azərbaycan Respublikasının yubiley medalının təsviri**

**Maddə 1.** Medalın ümumi təsviri

“Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 40 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2.** Medalın ön tərəfi

2.1. Medalın ön tərəfində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmişdir.

2.2. Xarici və daxili konturların arasında yuxarı qövs boyunca "AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI" sözləri, aşağı qövs boyunca sol tərəfdə "1995", sağ tərəfdə "2025" rəqəmləri və rəqəmlərin arasında mərkəzdə səkkizguşəli ulduz, habelə kompozisiyanı tamamlayan xətlər təsvir olunmuşdur.

2.3. Daxili çevrənin içərisində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, ondan aşağıda "30" rəqəmləri və "il" sözü və Azərbaycan Respublikasının Dövlət Bayrağını təsvir edən simvollar həkk edilmişdir.

2.4. Bütün yazılar, rəqəmlər və simvollar qızılı rəngdədir, qabarıqdır.

**Maddə 3.** Medalın arxa tərəfi

Medalın arxa tərəfi hamar səthlidir, aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4.** Medalın elementləri

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 50 mm x 37 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin yuxarı hissəsinə üzərində ikiqatlı lent və səkkizguşəli ulduz təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.3. Xara lentin mərkəzində 11 mm enində tünd yaşıl rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq 2,5 mm enində qızılı rəngli, 2 mm enində göy rəngli, 3,5 mm enində qızılı rəngli, 3,5 mm enində tünd yaşıl rəngli, 1,5 mm enində qızılı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

**"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)"**
**Azərbaycan Respublikasının yubiley medalı**









# Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 30 il keçir

***“Bu Konstitusiya layihəsinin ən əsas mahiyyəti ondan ibarətdir ki, Azərbaycan Respublikasının tam müstəqilliyini təmin edir, ölkəmizin ərazi bütövlüyünü təmin edir, Azərbaycan xalqının hüquqlarının toxunulmazlığını təmin edir, vətəndaşlarımızın hər birinin hüquqlarının qorunmasını təmin edir və Azərbaycan xalqının, respublikamızın bölünməzliyini, hakimiyyətin heç bir qüvvə tərəfindən mənimsənilə bilməzliyini təmin edir”.***

**Heydər ƏLİYEV,**
**Azərbaycan xalqının Ümummilli Lideri**

***“Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər”.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**



Bu il Azərbaycanın dövlətçilik tarixində olduqca mühüm əhəmiyyətə malik iki əsas hadisənin – İkinci Qarabağ müharibəsində tarixi Zəfərin beşinci və müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü tamam olur. Azərbaycan Respublikasının Konstitusiyası ilə bəyan edilmiş niyyətlərdən biri kimi ölkənin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir.

Dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən imzalanan bu Sərəncam müasir dövlətçilik tariximizdə əldə edilən parlaq Zəfərin hüquqi-siyasi təsdiqidir.

Bu sənədin imzalanması dövlətçilik ənənələrinin gücləndirilməsi, hüquqi dövlət quruculuğunun daha da təkmilləşdirilməsi, həmçinin konstitusiya dəyərlərinin qorunması, inkişaf etdirilməsi və təbliği istiqamətində atılan vacib addımlardandır.

Eyni zamanda, cari ilin "Konstitusiya və Suverenlik İli" elan olunması tarixi yaddaşla gələcəyə baxışın vəhdətini əks etdirməklə, milli birliyin möhkəmləndirilməsi və gələcək prioritetlərin müəyyən edilməsi üçün əlverişli şərait yaradır.

Suverenlik istənilən xalqın ən böyük arzusu, niyyətidir. Belə ki, milli dövlətçilik milli özünüdərkin ifadəsidir. Hər bir xalqın müstəqil dövlət quruculuğu yolunu bir sıra mühüm faktorlar müəyyən edir. Bizim tariximiz azadlıq, müstəqillik uğrunda çətin və eyni zamanda şərəfli mübarizə yolu ilə zəngindir. Azərbaycan xalqı müstəqillik uğrunda əzmlə mübarizə aparmış və bu yolda bir çox çətinliklərlə üzləşmişdir.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etsə də, bu illərdə ölkəmiz ciddi siyasi böhran, iqtisadi tənəzzül və çətinliklərlə üzləşdi. Müstəqilliyin ilk illəri Azərbaycan üçün ağır sınaqlar dövrü idi. Ölkəmizə qarşı hərbi təcavüz və torpaqlarımızın işğalı, digər tərəfdən ölkədaxili siyasi qeyri-sabitlik və idarəetmə böhranı Azərbaycan dövlətçiliyi üçün ciddi təhlükə yaratmışdı. O dövrdə ölkəmizdə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, həmçinin ölkəmizin müstəqilliyi üçün təhdidlərin meydana çıxması, vətəndaş qarşıdurmasının güclənməsi onu göstərdi ki, ölkəni yaranmış ağır vəziyyətdən

yalnız Ümummilli Lider Heydər Əliyev kimi prinsipial, güclü və iradəli lider xilas edə bilər.

Məhz Ulu Öndər Heydər Əliyevin o böhranlı günlərdə xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışından sonra bu mürəkkəb vəziyyətin qarşısını almaq mümkün oldu. Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas edən dahi şəxsiyyət Heydər Əliyev tərəfindən müstəqilliyin qorunması istiqamətində həlledici addımlar atıldı, ölkədə mövcud olan xaosun, özbaşınalığın qarşısı alındı, cəmiyyətdə ictimai-siyasi sabitlik təmin edildi, müasir dövlət quruculuğu üçün etibarlı zəmin formalaşdırıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin dövlətimiz və xalqımız üçün həlledici məqamlarda böyük liderlik nümayiş etdirərək həyata keçirdiyi xilaskarlıq missiyası haqqında demişdir: “Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı. Sovet dönəmində və müstəqillik dövründə Azərbaycan üçün, xalqımız üçün ən həlledici anlarda Heydər Əliyevin liderlik keyfiyyətləri, onun müdrikliyi, düşünülmüş siyasəti və cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas etmişdir. Xalq ona inanırdı, onu sevirdi və bütün dövrlərdə ona arxa-dayaq olmuşdur.”.

Məlumdur ki, 1991-ci il oktyabrın 18-də qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında ölkənin yeni Konstitusiyasının hazırlanması nəzərdə tutulsa da, ölkədə mövcud olan ictimai-siyasi qeyri-sabitlik, hakimiyyət uğrunda mübarizə, həmçinin vahid siyasi iradənin olmaması Əsas Qanunun hazırlanaraq qəbul edilməsini mümkünsüz etmişdir.

Xüsusilə vurğulanmalıdır ki, Əsas Qanunun qəbulu ideyasının irəli sürülməsində, eyni zamanda onun layihəsinin hazırlanmasında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yeni Konstitusiyanın hazırlanaraq qəbul edilməsi məsələsi ön plana çəkilmişdir. 1995-ci il mayın 2-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın tərkibi təsdiq edildi.

Ümummilli Lider Heydər Əliyev yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın fəaliyyəti zamanı Əsas Qanunun layihəsinə dair öz dəyərli tövsiyələrini vermiş, Konstitusiyanın hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, layihənin açıq müzakirələrini təşkil etməklə onun ən təkmil şəkildə qəbul edilməsini təmin etmək üçün böyük əmək sərf etmişdir.

Yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın 1995-ci il oktyabrın 3-də keçirilən iclasında Komissiyanın sədri Heydər Əliyev qeyd etmişdir: "Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir. Bir sözlə, biz elan etmişik və mən bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik, hüquqi, sivilizasiyalı, dünyəvi dövlət qururuq.".

Eyni zamanda, 1995-ci il 24 noyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında nitqi zamanı Ulu Öndər Heydər Əliyev Konstitusiyanın bəzi cəhətlərini xüsusilə vurğulamışdır: "Yeni qəbul olunmuş Konstitusiya Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü təmin edən Konstitusiyadır və əminəm ki, bu, daimi olacaqdır, xalqımız bu Konstitusiyanın müddəalarından daim istifadə edərək Azərbaycanın dövlət müstəqilliyini əbədi edəcəkdir. Yeni Konstitusiya Azərbaycanda demokratik hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsasları yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir.".

Ulu Öndər Heydər Əliyevin qeyd etdiyi bu vacib əsaslar mahiyyət etibarilə ölkəmizdə hüquqi dövlət quruculuğu prosesində ilkin təməl rolunu oynadı.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası preambula, 5 bölmə, 12 fəsil, 158 maddə və keçid müddəalarından ibarət olmaqla

12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-də isə qüvvəyə minmişdir. Bu tarixi hadisə ölkəmizdə yeni konstitusionalizm nəzəriyyəsi və təcrübəsinin formalaşmasının əsasını qoydu.

O da qeyd edilməlidir ki, hər il noyabrın 12-də qeyd edilən Konstitusiya Günü hüquqi dövlətçilik ənənələrinin təbliği, hüquq mədəniyyətinin gücləndirilməsi və milli müstəqillik ideyalarının möhkəmləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edir.

Əsas Qanunun qəbulu müasir Azərbaycanın müstəqillik tarixində ən mühüm hadisələrdən biri olmaqla yanaşı, dövlətçiliyin möhkəmləndirilməsi baxımından çox vacib ictimai-siyasi hadisə oldu. Konstitusiya dövlətin və xalqın milli maraqlarını, həmçinin ölkəmizin özünəməxsus xüsusiyyətlərini özündə əks etdirməklə, dövrün çağırışlarına və tələblərinə tam cavab verən mükəmməl sənəd olaraq qəbul edildi. Gərgin əməyin məhsulu olan Konstitusiya dolğunluğu ilə seçilərək, ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin inkişafı üçün hərtərəfli zəmin yaratdı.

Konstitusiya ən mühüm, ali hüquqi sənəddir və ölkənin siyasi, iqtisadi və hüquqi inkişafını istiqamətləndirən əsas qaydaları müəyyən edir. Konstitusiyanın qəbul edilməsi ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi olmaqla, gələcək nailiyyətlərin hüquqi bazası qismində çıxış etdi. Bu mühüm məqam ilə bağlı Dövlət başçısı cənab İlham Əliyev tərəfindən imzalanan 2024-cü il 28 dekabr tarixli Sərəncamda qeyd edilmişdir: “Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.”

Konstitusiya, suverenlik və dövlətçilik bir-birini tamamlayan anlayışlar olmaqla, dövlət quruculuğunun ayrılmaz dəyərləridir. Konstitusiya dövlətin hüquqi təməlini formalaşdırır, suverenlik və dövlətçilik amili isə dövlətin siyasi-hüquqi və siyasi-ideoloji əsaslarını, həmçinin

milli kimliyini və birliyini ifadə edir. Suverenlik və dövlətçilik müstəqil dövlətin mövcudluğunu və tərəqqisini təmin edən mühüm prinsiplərdir.

Konstitusiyada öz əksini tapan prinsiplər, müddəalar dövlət və xalq birliyinin iradəsinin təcəssümüdür. Dövlətin qanunvericilik sisteminin bünövrəsini, əsasını təşkil edən, Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya eyni zamanda ölkədə ictimai-siyasi sabitliyin, milli birliyin təminatı kimi çıxış edir. Bu Ali Qanun xalq hakimiyyəti, dövlətin əsasları, əsas insan və vətəndaş hüquqları və azadlıqları, vətəndaşların əsas vəzifələri, hakimiyyətlərin bölünməsi, hakimiyyət orqanlarının təşkili, səlahiyyətləri və fəaliyyət qaydalarını və digər bir sıra mühüm müddəaları ehtiva edir.

Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Konstitusiyamızın preambulasında bəyan olunan ülvi niyyətlərdir. Burada əksini tapan müddəalar ümumilikdə Konstitusiyanın mütərəqqi dəyərlərini, gələcəklə bağlı niyyət və hədəfləri əks etdirir.

Konstitusiyada insan və vətəndaş hüquqlarının və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi olaraq müəyyənləşdirilməsi, dövlətin hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verməsi ilə bağlı müddəalar xüsusi əhəmiyyət kəsb edir.

Konstitusiyada dövlət və cəmiyyətin əsas inkişaf istiqamətlərini müəyyən edən prinsiplər geniş şəkildə təsbit edilir. Əsas Qanun xalq hakimiyyətini bəyan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi kimi Azərbaycan xalqını elan edir, sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. Həmçinin Konstitusiya Azərbaycan dövlətini demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edir, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla,

xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edir.

Vurğulanmalıdır ki, hüquqi dövlətdə insan hüquq və azadlıqlarının təminatı mexanizmlərinin mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Konstitusiyada həmin hüquqlar və azadlıqlar hər kəsin doğulduğu andan malik olduğu ali dəyərlər kimi ifadə edilir və onlar toxunulmaz, pozulmaz və ayrılmaz elan olunur. İnsan və vətəndaş hüquq və azadlıqlarına etibarlı və davamlı təminat yaradan Konstitusiyanın ən böyük fəslində əsas hüquq və azadlıqlar, onların həyata keçirilməsi mexanizmləri, habelə ayrı-ayrı hüquqların qanuni məhdudlaşdırılmasının yol verilən hədləri ehtiva edilmişdir.

Əsas Qanunda, həmçinin Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi, dövlətin bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaratması, azad sahibkarlığa təminat verilməsi və digər bir sıra mühüm müddəalar öz əksini tapmışdır.

Məlum olduğu kimi, konstitusiyaların əsas hüquqi əlamətlərindən biri onların stabilliyidir. Konstitusiyanın stabilliyi ölkədə qanunçuluq rejiminin sabitliyinin, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsi sahəsində şəxs, dövlət və cəmiyyət arasındakı münasibətlərin əsas şərtlərindəndir. Bununla belə, konstitusiyaların qəbulu zamanı onların tənzimetmə predmetini təşkil edən münasibətlər və hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişir, cəmiyyət elmin və texnologiyaların inkişafı baxımından keyfiyyətcə yeni dövrə qədəm qoyur. Bu baxımdan, konstitusiyaların zərurət yarandığı təqdirdə təkmilləşdirilməsi, onlara müəyyən əlavə və dəyişikliklərin edilməsi labüd olur.

Ötən illər ərzində dəyişilən sosial-siyasi reallıq səbəbindən 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumlar nəticəsində Əsas Qanunun mətninə müvafiq əlavələr və dəyişikliklər edilmişdir. Konstitusiyaya edilmiş bu mühüm əlavə və dəyişikliklər hüquqi dövlət prinsip və dəyərlərinin bərqərar olmasının, insan hüquq və azadlıqlarının müdafiəsi və təminatına ən yüksək səviyyədə göstərilən diqqətin təzahürü olmaqla, ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin gücləndirilməsi, bütövlükdə dövlət idarəetmə sisteminin daha da təkmilləşdirilməsi və müasirləşdirilməsi məqsədlərinə xidmət etmişdir.

Qeyd edilməlidir ki, 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın mütərəqqi xüsusiyyətlərindən biri ali konstitusiya ədalət mühakiməsi orqanı – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılması olmuşdur. Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə yaradılan və artıq 27 ildir fəaliyyət göstərən Konstitusiya Məhkəməsinin əsas məqsədləri Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir.

Qeyd edilməlidir ki, konstitusiya ədalət mühakiməsi hüququn aliliyinin təmin olunmasının səmərəli mexanizmlərindən biri olmaqla, həmçinin hüquqi dövlətin mühüm institutlarından biri olaraq qəbul edilir.

Fəaliyyət göstərdiyi müddət ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ümumilikdə 604 qərar və 182 qərardad qəbul edilib. Bu qərar və qərardadlarda formalaşdırılan hüquqi mövqelər dövlətin Əsas Qanununun aliliyinin təmin olunmasına, həmçinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edir. Bu qərarlardan və orada əks olunmuş hüquqi mövqelərdən bəziləri xüsusilə qeyd edilməlidir.

Belə ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) sorğusu əsasında qəbul edilən “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.2.23-cü, 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.2.24-cü və 2022-ci il 9 mart tarixli 72 nömrəli Qərarı ilə təsdiq edilmiş “Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası”nın 3.2.25-ci yarımbəndlərinin Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, lll–V hissələrinə, 41-ci maddəsinin I hissəsinə, 42-ci maddəsinin I hissəsinə, 71-ci maddəsinin l və ll hissələrinə və 149-cu maddəsinin I, III və V hissələrinə uyğunluğunun yoxlanılmasına dair” 2025-ci il 22 sentyabr tarixli Qərarında Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, yalnız bilik əldə etmək imkanı ilə məhdudlaşmayaraq şəxsin cəmiyyətdə layiqli mövqe tutmasına şərait yaradan, fərdi inkişafı, eləcə də cəmiyyətin sosial-iqtisadi tərəqqisini təmin edən

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

əsas vasitə kimi təhsil hüququnun qorunması və təmin edilməsi hüquqi dövlətin mühüm göstəricisidir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, dərslərdə iştirak etməmənin üzrlü səbəblərdən də baş verə biləcəyinin mümkünlüyü nəzərə alınaraq "Təhsil haqqında" Qanunun 32.5.1-1-ci maddəsi ilə məhz üzrsüz səbəblərdən dərsdənyayınma hallarına yol verilməməsi təhsilalanların vəzifəsi kimi müəyyən olunmuşdur.

Bu baxımdan Konstitusiya Məhkəməsinin Plenumu hesab etmişdir ki, üzrlü səbəbdən auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbədən fənni yenidən dinləməsi üçün ödəniş alınması Konstitusiyanın 42-ci maddəsinin I hissəsində təsbit edilən təhsil almaq hüququnun qeyri-mütənasib şəkildə məhdudlaşdırılmasına səbəb olur.

Qeyd edilmişdir ki, üzrlü səbəbə görə fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbənin təhsil hüququnun təmin olunması məqsədilə Qərarda sadalanan Qaydalarda qeyd edilən məsələlərin aydın şəkildə və ətraflı tənzimlənməsi Konstitusiyadan irəli gələn tələblərə cavab vermiş olardı.

Həmçinin Qərarda əks olunmuşdur ki, milli yığma komandaların üzvləri olan idmançı-tələbələr beynəlxalq miqyaslı yarışlarda ölkəni təmsil etməklə idmanın inkişafında əhəmiyyətli rol oynayırlar. Bu baxımdan, idman yarışlarında iştirak edən tələbələrə dərslərə davamiyyətlə bağlı güzəştlərin tətbiq edilməsi fərdi imtiyazın müəyyən olunmasına deyil, ictimai əhəmiyyətli məqsədlərə xidmət edir.

Göstərilənlər belə qənaətə gəlməyə əsas verir ki, fərqli rəftar (milli yığma komandaların üzvləri olan idmançı-tələbələrə güzəştin müəyyən edilməsi) ilə qarşıya qoyulan qanuni məqsəd (yüksək dərəcəli idmançıların beynəlxalq miqyaslı yarışlarda ölkəni şərəflə təmsil etməsi üçün lazımi şəraitin yaradılması) arasında ağlabatan mütənasiblik olmaqla, həmin rəftar ayrı-seçkilik xarakteri daşımır.

Bu Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticələrə gəlmişdir ki, 2013-cü il 24 dekabr tarixli Qaydaların 3.2.23-cü, 2013-cü il 26 dekabr tarixli Qaydaların 3.2.24-cü və 2022-ci il 9 mart Qaydanın 3.2.25-ci yarımbəndləri Konstitusiyanın 25-ci maddəsinin I, lll–V hissələri, 41-ci maddəsinin I hissəsi, 42-ci maddəsinin I hissəsi, 71-ci maddəsinin l və ll hissələri və 149-cu maddəsinin I, III və V hissələri ilə ziddiyyət yaratmır.

Həmçinin, Konstitusiyanın 42-ci maddəsinin I, IV hissələrinin və 149-cu maddəsinin I hissəsinin tələblərinə və Konstitusiya Məhkəməsi

Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, orta ixtisas və peşə təhsili müəssisələrində üzrlü səbəblərə görə fənn üzrə ayrılmış auditoriya saatlarının 25 faizindən çoxunda iştirak etməyən tələbələrin təhsil hüquqlarının təmin edilməsi üçün yuxarıda qeyd olunan Qaydaların təkmilləşdirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tövsiyə edilməlidir.

Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikasının Prokurorluğunun sorğusu əsasında qəbul edilən "Azərbaycan Respublikası Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri və 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 12.1 və 12.5-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair" 2025-ci il 30 sentyabr tarixli digər Qərarında qeyd edilmişdir ki, cinayət qanunvericiliyində Azərbaycan Respublikasının vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin xarici ölkədə törətmiş olduqları cinayətlərə görə məhkum edilərkən cəzanın yuxarı həddinin cinayətin törədildiyi ölkənin cinayət qanunu ilə nəzərdə tutulmuş cəzanın yuxarı həddi ilə məhdudlaşdırılması cinayətə görə məsuliyyətin, cəzanın məhz əməlin ictimai münasibətlərə vurduğu zərərə, bununla da ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq müəyyənləşdirilməsindən irəli gəlir.

Əks yanaşma, yəni şəxsin, əməlinin baş verdiyi ölkədə ictimai təhlükəlilik dərəcəsinə uyğun olaraq nəzərdə tutulmuş məsuliyyət həddindən artıq məsuliyyətə cəlb edilməsi cəzanın mahiyyət və məqsədlərinə uyğun olmazdı.

Bu Qərarda Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 8 və 58-ci maddələrinə istinad edərək qeyd etmişdir ki, cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır. Törədilmiş cinayətə görə nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya həddi cəzanın məqsədlərini təmin edə bilmir. Cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağır-

laşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır.

Həmçinin qeyd edilmişdir ki, törədilmiş əmələ görə təyin edilən cəza ilə həmin əməlin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, onu törədən şəxsin şəxsiyyəti arasında gözlənilən proporsionallıq cəzanın ədalətlilik meyarı kimi çıxış edir. Odur ki, ədalətin bərpası təyin edilmiş cəzanın cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, təqsirkarın şəxsiyyətinə, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallara uyğun olduğu təqdirdə mümkündür.

Adıçəkilən Qərarda Konstitusiya Məhkəməsinin Plenumu Cinayət Məcəlləsinin 62-ci maddəsinə istinad edərək göstərmişdir ki, cəzanın aşağı həddinin, habelə daha yüngül cəzanın təyin edilməsi cəzanın məqsədlərinə nail olmağa imkan verdiyi və şəxsin islah olunmasına kifayət etdiyi hallarda onun tətbiqi ədalətli cəza kimi müəyyən edilmişdir.

Qərarda Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, Konstitusiyanın 71-ci maddəsinin I və X hissələrinə və 80-ci maddəsinə, qanunçuluq və hüquqi müəyyənlik prinsiplərinə, Cinayət Məcəlləsinin 5.1 və 12.5-ci maddələrinə, habelə Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən həmin Məcəllənin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə xarici ölkənin ərazisində törətdikləri cinayətə görə cəzanın aşağı həddi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələri ilə müəyyən edilməlidir.

Bu gün bir çox digər sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemi qarşısında yeni çağırışlar və tələblər dayanır. Müasir dövrdə məhkəmə-hüquq sisteminin, o cümlədən ədalət mühakiməsinin inkişafı hüquqi islahatlarla yanaşı, həm də texnoloji inkişafdan çox asılıdır. Ədalət mühakiməsinin həyata keçirilməsində peşəkarlığın artırılması, eyni zamanda innovativ texnologiyaların tətbiqi müasir dövrün tələbidir. Bununla bağlı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Beynəlxalq Hakimlər Assosiasiyasının 67-ci illik iclasının iştirakçılarına müraciətində qarşıda duran vəzifələr və hədəflər barədə müvafiq fəaliyyət istiqamətləri müəyyən edilmişdir: “Müasir dövrün çağırışları, qlobal miqyasda baş verən sosial-iqtisadi transformasiya, sürətlə inkişaf edən rəqəmsallaşma, yeni texnologiyaların, xüsusilə də süni intellektin tətbiqi məhkəmə sistemlərindən daim adaptasiya olunmağı, yeni yanaşmaları tətbiq etməyi tələb edir”.

Qeyd edilməlidir ki, konstitusiya ədalət mühakiməsi orqanları qarşısında da duran mühüm vəzifələrdən biri bu sahədəki mütərəqqi milli təcrübə ilə yanaşı, müasir inkişaf meyillərinin davamlı olaraq izlənilməsi, təhlili və fəaliyyətdə tətbiq edilməsidir. Öz növbəsində, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi yarandığı gündən xarici ölkələrin Konstitusiya Məhkəmələri və bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrinin qurulmasına və bu əlaqələrin inkişaf etdirilməsinə xüsusi diqqət yetirir. Vurğulanmalıdır ki, həyata keçirilən beynəlxalq əməkdaşlıq informasiya mübadiləsinin genişləndirilməsi, hüquqi bilik və təcrübənin paylaşılması baxımından əhəmiyyətli rol oynayır.

Bu sahədə mötəbər beynəlxalq tədbirlərdən biri cari ilin 28-30 oktyabr tarixlərində Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatının "Gələcək nəsillərin insan hüquqları" mövzusunda İspaniyanın Madrid şəhərində keçirilmiş VI Konqresi oldu. Konqresin işi "Təbii ehtiyatların və ətraf mühitin qorunması, "Bəşəriyyətin mədəni irsinin qorunması", "Elmi biliklərə və yeni texnologiyalara əlçatanlıq", "Konstitusiya Məhkəmələrinin müstəqilliyi" adlı dörd sessiyadan ibarət olmuş, tədbir çərçivəsində bir sıra mühüm və aktual mövzular ətrafında fikir mübadiləsi aparılmış, məruzələr dinlənilmişdir.

Beynəlxalq məhkəmə-hüquq əməkdaşlığı çərçivəsində bu cür tədbirlərin keçirilməsi konstitusiya ədalət mühakiməsi sahəsində qabaqcıl təcrübənin öyrənilməsi baxımından əlverişli imkanlar yaradır, həmçinin yeni əməkdaşlıq münasibətlərinin qurulması üçün mühüm platforma qismində çıxış edir.

Hər bir xalqın tarixində elə vacib əhəmiyyət kəsb edən hadisələr olur ki, onlar həmin xalqın, dövlətin gələcək müqəddəratını müəyyən edən mühüm başlanğıcların əsasını qoyur. Bir daha vurğulanmalıdır ki, 2025-ci il bizim hər birimiz üçün ikiqat əlamətdardır. 1995-ci il Konstitusiyasının qəbulunun 30-cu və İkinci Qarabağ müharibəsində parlaq Qələbənin 5-ci ildönümü bu ili olduqca əlamətdar edir. Əminliklə demək olar ki, 2025-ci il hüquqi dövlət quruculuğunun mühüm mərhələsini simvolizə edir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı hərbi-siyasi Zəfər müasir tariximizin ən mühüm hadisəsidir. 44 gün davam edən və 30 ilə yaxın işğal altında olan tor-

paqlarımızın azad edilməsi ilə nəticələnən İkinci Qarabağ müharibəsində Azərbaycan Respublikasının Silahlı Qüvvələri dövlətimizin ərazi bütövlüyü uğrunda cəsarət və şərəflə mübarizə apararaq tarixi Qələbə qazandı, xalqımızı Zəfərə qovuşduran Vətən müharibəsi tariximizə qızıl hərflərlə yazıldı.

44 günlük Vətən müharibəsində qazanılan Zəfərin davamı olaraq, 2023-cü ilin sentyabrında 24 saatdan az müddətdə davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi. Bununla da, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad olunan bütün ərazilərimizdə bərqərar oldu. 2023-cü il sentyabrın 20-də ölkəmizin bütün ərazisində qanunun aliliyinin təmin olunduğu və dövlət suverenliyinin bərpa edildiyi nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 sentyabr 2024-cü il tarixli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edildi.

2023-cü il oktyabrın 15-də Dövlət başçısı cənab İlham Əliyevin Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltması müasir dövlətçilik tariximizin dönüş nöqtəsi oldu. Bu addım yalnız siyasi-ideoloji mahiyyət kəsb etməməklə, eyni zamanda, suverenliyin bütün ölkə ərazisində bərpa olunduğunu hüquqi-siyasi müstəvidə təsdiq etdi. Uzun illər ərzində işğal altında olan ərazilərimizdə Konstitusiyada təsbit edilən hüquqların tətbiqi mümkün deyildi. 2023-cü ildə ərazi bütövlüyünün və suverenliyin tam bərpa edilməsi nəticəsində respublikamızın ərazisi ilə bağlı bir sıra mühüm konstitusiya müddəalarının yerinə yetirilməsi tam şəkildə təmin olundu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2025-ci il 14 sentyabr tarixində Xocavənd rayonunun Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşü zamanı qeyd etmişdir: “Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır. 44 gün və bir gün – heç bir ölkə son 80 il

ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmamışdır. Bununla fəxr edirik."

Qazanılan Qələbə dövlətimizin başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin prinsipial mövqeyi, uzaqgörən siyasəti, o cümlədən əsgər və zabitlərimizin qəhrəmanlığı, mübarizə əzmi, xalqımızın birliyi, milli ruhu və Vətən sevgisi nəticəsində mümkün oldu.

Hazırda Cənubi Qafqaz regionu yeni tarixi inkişaf mərhələsindədir. Cənubi Qafqaz sülh və əməkdaşlıq regionuna çevrilir. Cari ilin avqustunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ABŞ-yə rəsmi səfəri ölkə diplomatiyası tarixində mühüm hadisə oldu. Vaşinqtonda keçirilən yüksək səviyyəli görüşlər, imzalanan əhəmiyyətli sənədlər və əldə olunan razılaşmalar sadəcə region üçün deyil, eyni zamanda qlobal geosiyasi müstəvidə dövlətimiz üçün mühüm üstünlüklər yaratdı.

Vaşinqton görüşünün mühüm nəticələrindən biri də regional bağlantıları möhkəmləndirəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"dur (TRIPP). Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Orta Dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusunda 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına müraciətində TRIPP marşrutunun əhəmiyyətini vurğulayaraq qeyd etmişdir: "...Orta Dəhlizin növbəti mühüm seqmentinə çevriləcək TRIPP Asiyanı Avropa ilə birləşdirən, beynəlxalq yükdaşımalarının tranzit imkanlarının genişlənməsinə, region ölkələrinin rifahına və onların qlobal təchizat zəncirlərinə inteqrasiyasına xidmət edən vacib nəqliyyat əlaqəsi olacaqdır. TRIPP, eyni zamanda gələcəkdə enerji resurslarının daşınması, elektrik enerjisinin, xüsusilə də bərpa olunan enerjinin ixracı, o cümlədən fiber-optik xətlərin çəkilməsi üçün də geniş imkanlar təqdim edərək regionun beynəlxalq ticarət və rəqəmsal kommunikasiya habına çevrilməsinə təkan verə bilər...".

Qeyd edilməlidir ki, Vaşinqton razılaşmaları, əldə olunan tarixi nəticələr müasir tariximizin mühüm siyasi hadisələrindən biri kimi nəzərdən keçirilir. Bu razılaşmalar dövlətçiliyimizin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qətiyyətli diplomatiyasının və müdrik liderliyinin ən bariz göstəricisidir. Bu səfər həm ikitərəfli münasibətlərin inkişafı, həm də regional sabitliyin təmin olunması baxımından xüsusi əhəmiyyətə malikdir.

Vaşinqtonda əldə edilən razılaşmalar dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılan mühüm tarixi nailiyyətlərdən biridir və onun məhz “Konstitusiya və Suverenlik İli”nə təsadüf etməsi dərin rəmzi xarakter daşıyır.

Bu gün dövlətimiz bir çox sahələrdə yeni inkişaf tarixinə qədəm qoyub. Azərbaycanın dövlət suverenliyi tam, ərazisi bütöv, sərhədləri isə toxunulmazdır. Hazırda qarşıda duran ən önəmli məsələlərdən biri işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsidir.

Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri bütövlükdə regionun iqtisadi və sosial inkişafında yeni mərhələnin əsasını qoyub. Bu ərazilər bütün əsas infrastruktur, yollar, elektrik, su, rabitə və digər zəruri xidmətlərlə təmin edilir. Qarabağın zəngin təbiəti, əlverişli iqlimi, kənd təsərrüfatı üçün geniş imkanları, turizm və sənaye sahələrində böyük potensialı bu əraziləri investisiya baxımından cəlbedici məkana çevirir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq prosesi sayəsində Qarabağ və Şərqi Zəngəzurda qabaqcıl texnologiyalara əsaslanan yeni inkişaf modeli reallaşdırılır. Bu prosesin ayrılmaz hissəsi kimi, yüzlərlə kilometr avtomobil və dəmir yolları salınır, yeni tunellər, körpülər inşa olunur, “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, beynəlxalq hava limanları inşa olunaraq istifadəyə verilir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur eyni zamanda “yaşıl enerji zonası” elan edilərək, burada günəş, külək və hidroenerji layihələri sürətlə icra olunur.

Mühüm məqamlardan biri də işğaldan azad edilmiş ərazilərdə tarixi, dini və mədəni abidələrimizin bərpa edilməsidir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi ilə görülən işlər bu ərazilərin dirçəlişinə, inkişafına, eyni zamanda milli yaddaşımızın bərpasına mühüm töhfədir.

Həmçinin bölgədəki mədəni tədbirlərin keçirilməsi ənənələri bərpa edilir. Şuşa şəhərinin 2024-cü il üçün İslam dünyasının mədəniyyət paytaxtı, Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan olunması, “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalının və Vaqif Poeziya Günlərinin bərpa edilməsi, bu il “Mədəniyyət rüzgarı” adı altında silsilə və digər bir sıra tədbirlərin keçirilməsi işğaldan azad

edilmiş torpaqlarda həyatın bərpası, mədəniyyətin yenidən canlandırılması işinin mühüm hissəsidir.

İşğaldan azad edilmiş ərazilərdə sürətli bərpa və quruculuq işlərinin aparılması ilə bərabər, bu torpaqlara yerli əhalinin qayıtması, burada əhalinin dayanıqlı məskunlaşması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Dövlət Proqramı çərçivəsində keçmiş məcburi köçkünlər uzun illər boyu həsrətini çəkdikləri doğma yurd-yuvalarına qayıdır. Artıq minlərlə insan doğma torpaqlarına qayıdıb, yaşayış üçün zəruri olan sosial xidmət və kommunikasiya infrastrukturu ilə təmin olunub.

Bu gün Azərbaycan gələcəyə doğru inamla addımlayır. Regionun lideri olan ölkəmiz beynəlxalq müstəvidə də söz sahibi olan dövlətlər sırasına daxildir. Vətən müharibəsindən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional, eyni zamanda beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmləndirilməsini şərtləndirdi. Dövlət başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir".

Ölkəmiz regiondakı iqtisadi-siyasi proseslərin əsas iştirakçısıdır. Məhz Azərbaycanın təşəbbüsü və iştirakı ilə uğurla həyata keçirilən bütün irimiqyaslı layihələr ümumilikdə regionun təhlükəsizliyinə, iqtisadi inkişafına öz mühüm töhfəsini verir. Dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl və uzaqgörən siyasət nəticəsində beynəlxalq aləmdə nüfuzu daha da artan ölkəmizlə əlaqələr yaratmaq və bu əlaqələri inkişaf etdirmək istəyində olan ölkələrin sayı da getdikcə artır.

Azərbaycan bir sıra mötəbər beynəlxalq tədbirlərin, qlobal forumların, konfransların keçirildiyi unikal məkana çevrilib. Ölkəmizin mühüm tədbirlərə ev sahibliyi etməsi baxımından bir nümunə olduğunu deyə bilərik. Bu cür beynəlxalq əhəmiyyətli tədbirlərdən biri bu il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycanda keçirilən III MDB Oyunları oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Düşənbədə MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə keçirilən iclasında çıxışında qeyd etmişdir ki, bu qəbildən tədbirlər MDB məkanında və onun hüdudlarından kənarda dostluğu, əməkdaşlığı möhkəmləndirir, bərabərhüquqlu, qarşılıqlı maraqlara və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin güclənməsinə kömək edir.

Əminliklə demək olar ki, son beş ildə Azərbaycan öz inkişafının tamamilə yeni mərhələsinə daxil olmuşdur. Tarixi Zəfər qazanmaqla ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən dövlətimiz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında gündən-günə daha da güclənərək özünün qüdrətli dövrünü yaşayır.

Dünya nizamının özünün çətin dövrünü yaşadığı, beynəlxalq müstəvidə mürəkkəb proseslərin baş verdiyi zamanda, Azərbaycan əlaqələrini davamlı şəkildə şaxələndirir, dünya ölkələri sırasında tərəfdaşlarının sayını artırır. Ölkəmiz beynəlxalq miqyasda siyasi dialoqun, əməkdaşlığın və strateji tərəfdaşlığın fəal iştirakçısı və eyni zamanda təşəbbüskarıdır.

Bütövlükdə 2025-ci ilin bir sıra mühüm siyasi hadisələri bir daha göstərdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dövlətçilik prinsiplərinə sadiq lider olmaqla, milli maraqlara əsaslanaraq həyata keçirdiyi xarici siyasət, diplomatiya və strateji baxışlar sayəsində Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaşa çevrilib.

Vətən müharibəsinin regionda yaratdığı yeni geosiyasi reallıqlar dövründə ölkəmizin çoxvektorlu xarici siyasət kursunda Türk dünyası ilə əməkdaşlıq, həmçinin Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyət prioritet istiqamətlərdən biri kimi müəyyən edilib. Böyük coğrafiyanı əhatə edən Türk dövlətləri və xalqları ümumi tarixi köklər, ortaq zəngin mədəni irs, ədəbiyyat, adət-ənənə, milli-mənəvi dəyərlər ilə bir-birinə sıx bağlıdır. Ortaq tarixi və etnik köklər, dəyərlər, ənənələr üzərində təşəkkül tapmış bu dostluq və qardaşlıq münasibətləri dünyada bənzəri olmayan həmrəylik nümunəsidir.

Türk dövlətlər arasında müxtəlif sahələri əhatə edən əlaqələr ildən-ilə daha da genişlənir və möhkəmlənir. Bu əlaqələrinin genişləndirilməsində Türk Dövlətləri Təşkilatının rolu olduqca böyükdür. Ölkəmiz təməli 2009-cu ildə Naxçıvan Muxtar Respublikasında qoyulan Türk Dövlətləri Təşkilatı ilə əlaqələrin daha da inkişaf etdirilməsinə xüsusi diqqətlə yanaşır və bu Təşkilatı üzv və müşahidəçi ölkələrlə səmərəli əməkdaşlıq üçün mühüm platforma olaraq qəbul edir.

Dövlətimizin başçısı cənab İlham Əliyev cari ilin oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündəki çıxışında Təşkilatın beynəlxalq səviyyədə nüfuzunun artmasının məmnunluq doğurduğunu qeyd edərək, bu gün Türk Dövlətləri Təşkilatının, sadəcə, əməkdaşlıq plat-

forması deyil, ciddi geosiyasi mərkəzlərdən biri kimi formalaşdığını vurğulamışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmçinin qeyd etmişdir ki, daxili siyasi və iqtisadi sabitlik, əhəmiyyətli geostrateji mövqe, müsbət demoqrafiya və gənc əhali, nəqliyyat-logistika sahəsində böyük imkanlar, təbii resurslar, habelə hərbi və hərbi-texniki sahədə artan potensial TDT-ni qlobal arenada vacib aktora çevirir.

Qəbələ Zirvə görüşündə gələcək illər üçün əməkdaşlıq prioritetlərini, strateji hədəfləri müəyyən edən Qəbələ Bəyannaməsinin imzalanması, həmçinin “TDT+” formatının təsis edilməsi, Beynəlxalq Türksoy Təşkilatının gücləndirilməsi qərarı xüsusi əhəmiyyət kəsb etdi.

Qeyd edilməlidir ki, Azərbaycan dövlətinin dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Bir çox xarici dövlətlərlə, mötəbər beynəlxalq təşkilatlarla milli maraqları qorumaqla qarşılıqlı hörmət və ehtiram əsasında qurulan əməkdaşlıq münasibətləri ölkəmizə etibarlı tərəfdaş imicini qazandırıb. Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv dövlət kimi təmsil olunmur, eyni zamanda, bir sıra mühüm əhəmiyyət kəsb edən qərarların qəbulunda və icrasında yaxından iştirak edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə cari ilin avqustun sonu – sentyabrın əvvəlində Çin Xalq Respublikasına işgüzar səfəri, keçirdiyi görüşlər, “ŞƏT plyus” formatında Zirvə toplantısında, həmçinin Çinin xarici hərbi müdaxilə və faşizm üzərində qələbəsinin 80 illiyi münasibətilə keçirilən təntənəli tədbirlərdə və hərbi paradda iştirakı bir daha onu göstərdi ki, Dövlət başçısı cənab İlham Əliyev beynəlxalq miqyasda böyük ehtiramla qarşılanan siyasi lider, Azərbaycan isə yüksək nüfuza malik dövlətdir.

Həmçinin, Dövlət başçısı cənab İlham Əliyev cari ilin oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısında iştirak edib. Dövlətimizin başçısı sammit çərçivəsində bir sıra dövlət, hökumət başçıları, həmçinin Avropa İttifaqı Şurasının Prezidenti və Avropa Komissiyasının Prezidenti ilə görüşlər keçirdi. Mühüm məqamlardan biri odur ki, keçirilən görüşlər qarşı tərəflərin təşəbbüsü ilə həyata keçirilib. Bu ölkəmizin artan geosiyasi əhəmiyyətinin, Avropa liderlərinin Azərbaycana olan

marağının, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəxsi nüfuzuna, həyata keçirdiyi siyasətə etimadın və ehtiramın bariz nümunəsidir.

Ölkəmiz ədalətə və beynəlxalq hüquqa söykənən mövqeyi ilə hər zaman ən yüksək tribunalardan ikili standartlara əsaslanan siyasətin yaratdığı problemləri vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasındakı çıxışı mühüm əhəmiyyətə malikdir. Dövlətimizin başçısı çıxışında bu reallığı da qeyd edib ki, son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışında qlobal təhlükəsizliklə bağlı beynəlxalq ictimaiyyətə mühüm çağırışları səsləndirərək xüsusilə vurğuladı: "Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq".

Bir daha qeyd edilməlidir ki, 2025-ci il dövlətçilik tariximizdə "Konstitusiya və Suverenlik İli" kimi xüsusi əhəmiyyət və məna daşıyır. Bu il ölkənin milli müstəqilliyi, ərazi bütövlüyü və qanunvericilik prinsiplərinin gücləndirilməsi baxımından yeni mərhələnin başlanğıcıdır. Ölkəmizdə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətçiliyimizin möhkəmlənməsinə, milli suverenliyimizin bərqərar olmasına verilən xüsusi önəmin göstəricisidir. Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı xalqımızın birliyi və həmrəyliyinin ifadəsi, yüzilliklərin dövlətçilik ənənələrinin məntiqi davamı olmaqla, milli şüurun, milli dəyərlərin qorunmasına xidmət edir. Möhtərəm cənab Prezidentin bu Sərəncamı eyni zamanda hüquqi dövlətə sadiq qalmaq, ölkə Konstitusiyasına hörmətlə yanaşmaq, onun müddəalarını həyata keçirməklə bağlı gələcək nəsillərə ünvanlanmış bir çağırışdır.

Olduqca qürurverici haldır ki, bizim qədim tarixə, zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətənimiz var. Xalqımız bu gün öz müstəqil və suveren dövlətinə sahibdir, mübarizə ilə əldə edilən suverenlik onun milli sərvətinə çevrilmişdir. Hər bir azərbaycanlı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ölkənin ərazi bütövlüyünün və suveren-

liyinin bərpa edilməsinin, ölkənin bütün ərazilərində Konstitusiyanın hüquqi qüvvəsinin tam bərqərar olunmasının sonsuz sevincini, qürurunu yaşayır. Bu böyük Qələbə hər birimizi yeni nailiyyətlərə ruhlandırır.

Tam əminliklə bildirmək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütöv və suveren dövlətimiz tarixi uğurlara imza atmaqda davam edəcək, növbəti dövrdə də inkişafının mühüm mərhələsini yaşayacaq. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi də öz növbəsində, müəllifi Ulu Öndər Heydər Əliyev olan Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsi, hüquqi dövlət quruculuğu istiqamətində dövlət başçısı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu fəaliyyətə dəstək olaraq, üzərinə düşən məsuliyyətli vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaq.

Fürsətdən istifadə edərək, Azərbaycan xalqını bu il beşinci ildönümünü qeyd etdiyimiz 8 Noyabr – Zəfər Günü, həmçinin 9 Noyabr – Dövlət Bayrağı Günü və 12 Noyabr – Konstitusiya Günü münasibətilə Konstitusiya Məhkəməsi adından təbrik edir, xalqımıza xoşbəxt və firavan həyat arzulayırıq.

**Fərhad ABDULLAYEV,**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsinin sədri**

## Suverenlik: Müasir, Qüdrətli və Qalib Azərbaycan reallığı




Qurub-yaratmaq Ulu Öndər Heydər Əliyevin alın yazısı idi. O, Azərbaycan xalqının tarixini yaradırdı. Yaratdığı ən böyük əsərin adı isə "Müasir Azərbaycan" idi.

Liderlər üçün qalibiyyətin alternativi yoxdur. Onlar qələbə yolunu əvvəlcədən görür, düzgün siyasət yürütməklə qoyulan hədəflərə doğru irəliləyirlər. Ümummilli Lider Heydər Əliyevin bütün həyatı böyük məktəbdir. Ulu Öndər dünyanın qəbul etdiyi, sevgisini qazandığı siyasətçi kimi zirvəyə aparan yolun başlanğıcında tək özü idi, Azərbaycan sevgisi və xalqına həsr etdiyi əzmkar ömür bu yoldan keçdi.

Ulu Öndər öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində müasir dövlətin qurulmasına və xalqının müstəqillik arzusunun reallaşmasına nail olub. Məhz Heydər Əliyevin yorulmaz əməyi sayəsində Azərbaycan dünya ölkələrinin strateji tərəfdaşına çevrildi və dünyanın dinamik inkişaf edən ölkələri sırasına daxil oldu. Bugünkü reallıqlar bir daha sübut edir ki, əldə edilən uğurlar məhz Heydər Əliyevin Azərbaycanın hərtərəfli inkişafı və tərəqqisi yolunda misilsiz xidmətlərinin nəticəsidir. Dahi şəxsiyyət Heydər Əliyevin ömür yolu hər birimiz üçün vətənə xidmət etməyin simvoluna çevrildi.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu isə işğal altında olan Azərbaycan torpaqlarının azad olunması idi. Ulu Öndər 2003-cü il oktyabrın 1-də Prezident seçkiləri ərəfəsində xalqa müraciəti zamanı fikirlərini belə tamamlamışdı: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizinköməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli Liderin sağlığında axıra çatdıra bilmədiyi əsas taleyüklü məsələ Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsi idi. Heydər Əliyev dərin fəhmi, gələcəyə əminlik duyğusu ilə hər zaman inanırdı ki, bu məsələ əvvəl-axır öz həllini tapacaq, tarixi ədalət bərpa olunacaq, xalqımız torpaqlarımızı hansı yolla olur-olsun işğaldan azad edəcək, məcburi köçkünlərimiz öz doğma torpaqlarına qayıdacaq və soydaşlarımız əzəli yurdlarında əbədi yaşayacaqlar. Ulu Öndər Heydər Əliyev bu ağır məsuliyyətli məsələnin həllini özündən sonra xalqının Lideri, müzəffər sərkərdəsi olacaq, özünün siyasi kursunun layiqli davamçısı kimi yetişdirdiyi oğlu möhtərəm cənab Prezident İlham Əliyevə vəsiyyət etmişdir.

Şuşaya, Qarabağa aparacaq müqəddəs yolun ilk daşını da Ulu Öndər özü qoymuşdur. Nizamlı ordu qurmuş, ordunun əsasını təşkil edən ürəyi Vətən, millət, bayraq sevgisi ilə dolu, dövrün tələblərinə uyğun cəsur hərbçiləri yetişdirmək üçün Ali Hərbi Məktəb yaratmış, gəncləri xaricdə təhsil almağa göndərmişdir. O, gənclər bu gün Qarabağ fatehləridir, torpaqlarımızı işğaldan azad edən Ordumuzun qəhrəman komandirləridir.

Heydər Əliyevin qurduğu ordu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə o qədər gücləndi ki, nəhayət, 2020-ci ildə "dəmir yumruq"la 30 ilə yaxın işğala son qoydu, xalqın torpaq həsrəti bitdi və Ulu Öndərin vəsiyyəti yerinə yetirildi.

Azərbaycan xalqı o vəsiyyəti yalnız yerinə yetdikdən sonra öyrəndi. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev xalqa müraciətində açıqladı: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik". Amma əvvəlcə səssizcə atası ilə paylaşmışdır. Əlbəttə ki, ilk olaraq ona verəcəkdi müjdəni. Yəqin ki, ürəyində qürurla, bəlkə də övlad sevinci ilə "vəsiyyətini yerinə yetirdim Ata" demişdir, onun ruhunu şad etmişdir. General-mayor Heydər Əliyevə raport vermiş, müəllimindən ən yüksək qiyməti almışdır.

Qarabağ Zəfərinin davamı olaraq 2023-cü il sentyabrın 19-20-də cəmi 23 saat 43 dəqiqəyə ordumuzun apardığı lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi. Bəlkə də tarixdə belə bir qələbəyə kimsə nail olmayıb. Müzəffər Ali Baş Komandanın 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Bayrağını qaldırarkən dediyi sözlər yüzilliklər boyu azərbaycanlı qanı daşıyan hər kəsin dillər əzbəri olacaq. "Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!".

2023-cü ilin noyabrında Xankəndidə keçirilən Zəfər paradı ölkəmizin gücünün və Ordumuzun qüdrətinin daha bir parlaq nümayişi kimi tarixə yazıldı. İndi Ümummilli Lider Heydər Əliyevin bizə qoyduğu mirasa hamılıqla sahib çıxır, yeni həyat veririk və o torpaqlarda atdığımız hər addımda, gördüyümüz hər işdə dahi şəxsiyyət Heydər Əliyevin ruhu bizimlədir. Ulu Öndərin xatirəsini daim əziz tutan xalqımız onun ideyalarına sadiq qalaraq, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında böyük uğurlara imza atır.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi də məhz həmin uğurların davamıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bununla bağlı Sərəncamını bu il Konstitusiyanın qəbul edilməsinin 30-cu və 44 günlük Vətən müharibəsində Qələbənin 5-ci ildönümü olduğunu nəzərə alaraq imzalayıb. O müharibə ki, ölkəmizin ərazi bütövlüyü və suverenliyimizin tam bərpa olunması ilə nəticələnib. "Konstitusiya və Suverenlik İli" təşəbbüsü isə dövlətimizin hüquqi əsaslarının daha da möhkəmləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə suverenliyimizin gücləndirilməsi məqsədini daşıyır.

Azərbaycan xalqı ötən əsrin sonlarında dövlət müstəqilliyini bərpa edib. Bundan bir neçə il sonra ümumxalq səsverməsi-referendum yolu ilə ölkənin Konstitusiyası qəbul edilib. Bu sənədin dövlət idarəetməsi və vətəndaş hüquqlarının qorunması sahəsindəki əhəmiyyəti respublikamızın son illər keçdiyi tarixi proseslər fonunda daha da aktuallaşıb.

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da Konstitusiya dövlətin müstəqilliyini və suverenliyini təmin etmək üçün əsas sənəddir. Həm ictimai-siyasi, həm də sosial-iqtisadi sistemlərin əsasını təşkil edir, vətəndaşların hüquq və azadlıqlarına təminat verir. Bu baxımdan, "Konstitusiya və Suverenlik İli" təşəbbüsü hüquqi bazanın daha da

möhkəmləndirilməsinə, dövlət idarəetməsində şəffaflığı artırmağa yönəlmiş strateji addım kimi qiymətləndirilməlidir.

Konstitusiyada təsbit edilmiş hüquqların işğaldan azad edilmiş ərazilərdə tətbiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu, həmin ərazilərdə Azərbaycan qanunlarının işləməsi, dövlət qurumlarının fəaliyyətinin təşkil olunması ilə həyata keçirilir. Dövlətin bərpa etdiyi hüquqi çərçivə əhalinin hüquq və azadlıqlarının qorunması, insanların sosial xidmətlərlə təmin olunması və iqtisadi inkişafı üçün hüquqi şərait yaradır. İşğaldan azad edilmiş ərazilərdə vətəndaşların öz konstitusion hüquqlarından istifadə edə bilməsi dövlət idarəetməsinə inamın artmasına səbəb olur. Qarabağ və Şərqi Zəngəzurda dövlət idarəetmə strukturlarının formalaşdırılması, o cümlədən məhkəmələrin və hüquq-mühafizə orqanlarının fəaliyyətə başlaması, yerli özünüidarəetmə sisteminin yaradılması, insanların hüquq və azadlıqlarının qorunması üçün əsaslı addımlardır.

Azərbaycan hökuməti işğaldan azad olunmuş ərazilərə böyük yatırımlar edərək potensial investorlar üçün stimullaşdırıcı addımlar atır, vergi və digər güzəştlər edir, bununla da həmin bölgələrdə sosial, iqtisadi inkişafı sürətləndirir. Bu da həmin ərazilərdə uzunmüddətli sabitliyi təmin etmək üçün vacibdir.

Konstitusiyanın Qarabağ və Şərqi Zəngəzurda tətbiqi həm də əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına və sosial xidmətlərin əlçatanlığının artırılmasına töhfə verir. Beləliklə, Konstitusiyaya əsaslanan hüquqi çərçivənin işğaldan azad olunmuş ərazilərdə tətbiqi dövlətin suveren hüquqlarının tam mənada təşviq edilməsi və həmin ərazilərin inkişafına dəstək verilməsi baxımından mühüm rol oynayır. Bu yanaşma Azərbaycanın gələcək inkişafında və dövlətçilik ənənələrinin möhkəmləndirilməsində xüsusi əhəmiyyət kəsb edir.

Konstitusiya hüquqi dövlət quruculuğunun və idarəetmə mexanizmlərinin əsasını təşkil edərək ölkəmizin müstəqilliyini, ərazi bütövlüyünü və suverenliyini təmin edir və xalqın siyasi iradəsinin ifadəsidir.

Azərbaycan vətəndaşları hər kəsin firavanlığını arzulamaqla ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar olunmasını istəməklə gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq suveren hüququndan istifadə etməklə Konstitusiyanı qəbul edib.

Suverenlik anlayışı dövlətin daxili və xarici siyasətini müstəqil şəkildə həyata keçirmək, heç bir xarici təsir olmadan müstəqil qərar qəbul etmək hüququnu nəzərdə tutur. Konstitusiya isə məhz dövlətin

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

suverenliyini qorumaq, onu inkişaf etdirmək üçün zəruri hüquqi çərçivəni təmin edir. Konstitusiyada göstərilən prinsiplər dövlət hakimiyyətinin hər üç qolunun – qanunverici, icra və məhkəmə orqanlarının fəaliyyətini tənzimləyir və onların müstəqilliyini təmin edir.

Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə suveren hüquqlardan istifadə aktuallaşıb. Bunun üçün hüquqi baza məhz Konstitusiyadır. Konstitusiya həmin ərazilərdə qanunların tətbiqində, hüquqi sistemin yaradılmasında, dövlət qurumlarının fəaliyyətinin bərpa olunmasında əsas rol oynayır. Suveren hüquqların təmin olunması ilə bağlı proseslər məhz Konstitusiyanın aliliyinə əsaslanır və işğaldan azad edilmiş ərazilərdə hüquqa əsaslanan inkişafı təmin edir.

Konstitusiyada təsbit olunan hüquq və vəzifələr suverenliyə əsaslanan idarəetmə mexanizmlərinin işləkliyini göstərir, bu idarəetmə mexanizmləri dövlətin hüquqi əsaslarının gücləndirilməsinə, həmin bölgələrdə sülhə və sabitliyə öz töhfəsini verir.

Qanunun aliliyinin təmin olunması məhz Konstitusiyanın tələblərinə uyğun olaraq həyata keçirilir. Bu proseslər dövlətçilik ənənələrinin gücləndirilməsinə, siyasi sabitliyin qorunmasına xidmət edir. Beləliklə, Konstitusiyanın tətbiqi yalnız hüquqi sənədin həyata keçirilməsi deyil, həm də dövlətin suveren hüquqlarının bərqərar olunmasına və əhalinin rifahının yaxşılaşdırılmasına yönəlmiş strateji bir addımdır.

Qarabağ və Şərqi Zəngəzurda dövlətin suveren hüquqlarının tətbiqi Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün gücləndirilməsində mühüm rol oynayır. Həmin ərazilərdə dövlət suverenliyinin tam təmin edilməsi üçün hüquqi və inzibati strukturların formalaşdırılması əsas hədəflərdən biridir.

İşğaldan azad edilmiş ərazilərdə sosial inkişaf məsələləri də diqqət mərkəzindədir. Hökumət bu bölgələrdə infrastruktur layihələri həyata keçirərək əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına çalışır. Yeni yol infrastrukturunun yaradılması, elektrik enerjisi, su və digər kommunal xidmətlərin təchizatının bərpası, məktəb və xəstəxanaların inşası, həmin ərazilərdə sənaye zonalarının yaradılması, sahibkarların bölgəyə cəlb olunması iqtisadi inkişafın təməlini qoyur.

Qarabağ və Şərqi Zəngəzurda hüquqi idarəetmə sisteminin bərpası və Konstitusiya hüquqlarının tətbiqi, həmçinin seçki hüququnun təmin edilməsi yerli əhalinin idarəetmə prosesinə cəlb olunmasına imkan yaradır. Konstitusiya hüquqlarının tətbiqi həm də həmin ərazilərin iqti-

sadi potensialından istifadə olunmasını, bölgənin iqtisadi baxımdan inkişafını təmin edir. Hökumət sahibkarlığın təşviqi, yeni iş yerlərinin yaradılması və iqtisadi layihələrin həyata keçirilməsi üçün tədbirlər görür, hüquqi mühitin möhkəmləndirilməsi sahibkarlar və investorlar üçün əlverişli şərait yaradır. Son nəticədə iqtisadi inkişafa və əhalinin sosial rifahının yüksəlməsinə töhfə verilir. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurda konstitusiya hüquqlarının tətbiqi demokratik prinsiplərin bərqərar olmasını və sosial-iqtisadi inkişafı sürətləndirir. Bu tədbirlər dövlətin ərazi bütövlüyünü qorumaqla yanaşı, həmin bölgələrdə hüquqi sosial və iqtisadi sabitliyin göstəricisidir.

Dövlətin suverenliyi anlayışı müstəqil siyasət həyata keçirmək hüququnu ifadə edir və sərhədlərin qorunması ilə məhdudlaşmır. Bu həm də ölkə vətəndaşlarının hüquq və azadlıqlarının təmin olunması deməkdir, yəni suveren olmayan dövlətin vətəndaşları öz hüquqlarından istifadə edə, azad ola bilməz. Bu məsələlər isə məhz Konstitusiya ilə təsbit edilir. Azərbaycan hökuməti Konstitusiyaya uyğun olaraq, vətəndaşların hüquqlarını qorumaq üçün hüquqi mexanizmlərdən istifadə edir, eyni zamanda sosial rifah proqramlarını həyata keçirərək əhalinin həyat səviyyəsini yüksəltməyi hədəfləyir. İşğaldan azad edilmiş ərazilərdə təhsil müəssisələrinin bərpası, səhiyyə xidmətlərinin əlçatan olması və sosial təminat sisteminin qurulması vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində atılan əsas addımlardır. Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı yenidənqurma layihələri həyata keçirilməsi, bu ərazilərin inkişaf etdirilməsi və iqtisadi potensialından istifadə olunması dövlətin strateji məqsədlərindən biridir.

Konstitusiya hüquqlarının tətbiqi bu ərazilərdə iqtisadi layihələrin həyata keçirilməsini, iş yerlərinin yaradılmasını və infrastrukturun bərpasını sürətləndirir. Bu baxımdan, iqtisadi inkişafın əsas istiqamətlərindən biri sahibkarlığın dəstəklənməsidir. Hökumət bu bölgələrdə sahibkarlar üçün əlverişli şəraitin yaradılması istiqamətində mühüm addımlar atır. Vergi güzəştləri, investisiya dəstəyi və digər təşviqedici tədbirlər bölgədə iqtisadi fəallığın artmasına səbəb olur, əhalinin gəlirlərinin artmasını təmin edir. Beləliklə, Konstitusiyaya əsaslanan hüquqi çərçivənin tətbiqi ilə iqtisadi və sosial inkişaf təmin edilir, dövlətin suverenliyi daha da gücləndirilir. Azərbaycan Respublikası işğaldan azad edilmiş ərazilərdə konstitusiya hüquqlarının bərpası və sosial-iqtisadi inkişafın təmin olunması ilə yeni reallıqlar

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

yaradır. Bu siyasət yalnız hüquqi və iqtisadi sistemin gücləndirilməsi ilə məhdudlaşmır, eyni zamanda sabitlik və tərəqqiyə əsaslanan gələcək qurur.

Azərbaycan dövləti milli maraqlara əsaslanan müstəqil siyasəti ilə yeni strateji hədəflərə doğru inamla irəliləyir, görülən tədbirlər gələcəkdə ölkənin beynəlxalq nüfuzunun daha da artacağına, bölgədə sülh və əməkdaşlığın güclənəcəyinə zəmanət verir.

Bu gün xalqımız özünün yeni inkişaf tarixinə qədəm qoyub, indi dövlət suverenliyi tamdır, ərazilərimiz bütövdür, sərhədlərimiz isə toxunulmazdır. Dövlətimiz öz müstəqilliyini möhkəmləndirmək və dünyada mövqeyini daha da rəşadətlə qorumaq istiqamətində öz gücünü daim davam etdirəcək. Bunun üçün tələb olunan bütün resurslar mövcuddur: müdrik xarici siyasət, güclü iqtisadiyyat, xalqın dövləti ilə birliyi və qətiyyətli Lider. Möhtərəm Prezident cənab İlham Əliyevin dediyi kimi, "dövlətlər zəif olmur, onların rəhbərləri zəif olur". Qələbə qazanmaq bacarığı isə yalnız güclü lideri olan dövlətlərə və xalqlara nəsib ola bilər.

**Həcər QURBANOVA,**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsi Aparatının**
**Hüquqi təminat və informasiya-kommunikasiya**
**texnologiyalarının tətbiqi şöbəsinin müdir müavini**

## Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquqlarının müdafiəsinin hüquqi vasitələri




Üçüncü minillikdə biz müasir dünyanın mənzərəsinin köklü dəyişikliklərə məruz qaldığının şahidi oluruq. Bu gün demokratiya, hüququn aliliyi və insan hüquqlarına hörmət ayrılıqda hər bir dövlətdə, bütövlükdə isə beynəlxalq münasibətlərdə müəyyənedici amillər kimi çıxış edir.

Müasir dünyanın demokratik inkişafının başlıca meyarlarından birini insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması vəziyyəti təşkil edir. Bu hüquq və azadlıqlar bəşəriyyətin mənəvi-hüquqi və siyasi ideallarının ali təzahürünə çevrilməklə vətəndaş cəmiyyətinin əsas prioriteti olmuşdur.

İstənilən demokratik cəmiyyətin əsasını insan hüquq və azadlıqlarının tanınması və onların səmərəli təminat mexanizmlərinin mövcudluğu formalaşdırır. Cəmiyyətin inkişafı, onun maddi və mənəvi çiçəklənməsi, vətəndaş sülhü yalnız insanın ali dəyər, onun hüquq və azadlıqlarının təmin edilməsinin isə dövlətin başlıca vəzifəsi və əsas təyinatı kimi qəbul edildiyi şəraitdə mümkündür.

Bu məqsəd əsas götürülərək 12 noyabr 1995-ci il tarixdə Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin birbaşa rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası hazırlanaraq ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilmişdir. Konstitusiyanın qəbulu ölkəmizdə köklü dəyişikliklərə müsbət təsir göstərməklə dövlətçiliyimizin hüquqi əsaslarının müəyyən edilməsi və ölkəmizin dünya birliyinə inteqrasiyası baxımından çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir. Bu Konstitusiya hüquqi dövlət quruculuğu prosesinin ümumi istiqamətini müəyyən etməklə qanunçuluqda möhkəm özülün yaradılması işində mühüm addım olmuşdur.

Ümumxalq səsverməsi yolu ilə Əsas Qanun qəbul edildikdən sonra respublikamızda hüquqi islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının ardıcıl həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə 1996-cı ildə Hüquqi İslahatlar Komissiyası, 1998-ci ildə isə Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üçün Dövlət Komissiyası yaradılmışdır.

Hüquqi İslahatlar Komissiyası tərəfindən hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Prokurorluq haqqında" qanunların, demokratik cəmiyyətin tələblərinə cavab verən, beynəlxalq standartlara uyğun yeni məcəllələrin və digər normativ-hüquqi aktların qəbulu hüquqi islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində mühüm rol oynamışdır.

Yeni Konstitusiya ilə müəyyən edilmiş normaların üçdə biri məhz insan hüquq və azadlıqlarından bəhs edir. Belə ki, insan hüquqları və azadlıqları ilə bağlı müasir tendensiyalar nəzərə alınaraq, Azərbaycan Respublikasının Konstitusiyasında insan və vətəndaş hüquqları və azadlıqları, habelə onların reallaşdırılması mexanizmləri geniş təsbit edilmişdir. Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsil əsas insan

və vətəndaş hüquqları və azadlıqlarına həsr edilmiş, həmin fəsildə demokratik və hüquqi dövlətdə təmin edilməsi zəruri olan hüquqlar və azadlıqlar, onların reallaşdırılması mexanizmləri, habelə bu hüquqların qanuni məhdudlaşdırılmasının yol verilən hədləri beynəlxalq standartlar nəzərə alınmaqla dəqiq şəkildə təsbit edilmişdir.

Məlum olduğu kimi, ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və qətiyyəti sayəsində Əsas Qanunun layihəsinə daxil edilməklə ümumxalq səsverməsi nəticəsində qəbul edilmiş 1995-ci il Konstitusiyasına əsasən ölüm hökmü ləğv edilmişdir. O zamankı mühit və dövr nəzərə alınarsa, bunun qəbul edilməsi siyasi-hüquqi baxımdan nə dərəcədə mühüm və çətin bir qərar olduğu hər kəs tərəfindən başa düşüləndir.

Konstitusiya müddəalarının təhlili onu deməyə əsas verir ki, Azərbaycan ümumbəşəri dəyərlərə sadiqliyin, hamılıqla qəbul olunmuş hüquq normalarına hörmətin ifadəsi kimi beynəlxalq hüquq normalarının tanınması məsələsində müstəsna olaraq monistik yanaşmadan çıxış edərək Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri ölkənin hüquq sisteminin ayrılmaz tərkib hissəsi kimi nəzərdən keçirir və Konvensiyanın müddəalarının milli məhkəmələr tərəfindən birbaşa tətbiqi üçün dövlətdaxili aktın qəbul edilməsini tələb etmir. Belə ki, Konstitusiyamızın 148-ci maddəsinə əsasən "Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir". Konstitusiyanın 151-ci maddəsi isə nəzərdə tutur ki, "Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir".

Lakin qeyd etmək lazımdır ki, Əsas Qanun beynəlxalq hüquq normalarının milli hüquq normaları üzərində üstünlüyünü qəbul etsə də, Konstitusiya və referendum yolu ilə qəbul edilən aktlar istisna təşkil edir. Belə ki, Azərbaycanın beynəlxalq müqavilələrindən irəli gələn öhdəlikləri ilə Konstitusiya, habelə referendum yolu ilə qəbul olunmuş aktlar arasında ziddiyyət yaranarsa, sonuncular üstün hüquqi qüvvəyə malik olacaqdır. Lakin bu halda Konstitusiya Azərbaycanın insan hüquqları sahəsində öhdəliklərini qeyd olunan siyahıdan istisna etməklə mütərəqqi mövqe nümayiş etdirir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində təsbit olunmuşdur ki,

Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Hesab edirik ki, Konstitusiya səviyyəsində belə bir normanın müəyyən edilməsi dövlətimiz tərəfindən insan hüquqlarına verilən yüksək təminatın təzahürüdür.

Yeni Konstitusiyanın qəbulu ölkəmizin insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış yeni təsisatların yaradılması baxımından da mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, 1995-ci il Konstitusiyasının milli hüquq sistemimizə gətirdiyi mühüm yeniliklərdən biri də Əsas Qanunun ehtiva etdiyi dəyərlərin müdafiəsinin və dövlətin hüquqa bağlılığının təmin edilməsinin mühüm vasitələrindən biri kimi Konstitusiya Məhkəməsinin yaradılması olmuşdur.

Konstitusiya Məhkəməsi fəaliyyəti ərzində ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmiş, qəbul etdiyi qərarları ilə hər kəsin Konstitusiyamıza, qanunlara hörmət və ehtiramının, demokratiyanın və hüquqi mədəniyyətin inkişafına öz dəyərli töhfəsini vermişdir. Qəbul etdiyi qərarlarda konkret məsələlərə dair Konstitusiyanın konsepsiyasından, məzmun və mahiyyətindən irəli gələn hüquqi mövqeyini ifadə etməklə Konstitusiya Məhkəməsi hüquq yaradıcılığı prosesində aktiv iştirak edir və hüquq tətbiqetmə təcrübəsinə müsbət təsir göstərir.

Ali konstitusiya ədalət mühakiməsi orqanı kimi hakimiyyət sistemində özünəməxsus yer tutan Konstitusiya Məhkəməsi hakimiyyət orqanları arasında səlahiyyət bölgüsü ilə bağlı mübahisələri həll etməklə özünün spesifik xarakteri ilə seçilir. Belə ki, Konstitusiya Məhkəməsi dövlət hakimiyyətinin subyektləri arasında mübahisələri həll etməklə cəmiyyətdə və dövlətdə hüquqi sabitliyin qarantı kimi çıxış edir.

İnsan hüquq və azadlıqlarının təsirli hüquqi müdafiə vasitələrindən biri kimi çıxış edən Konstitusiya Məhkəməsinin yaradılması ilə konstitusiya ədalət mühakiməsi ölkəmizdə məhkəmə hakimiyyətinin yeni fəaliyyət istiqaməti kimi ortaya çıxmışdır. Ötən dövr ərzində Konstitusiya Məhkəməsi dövlət və ictimai həyatdakı, habelə məhkəmə-hüquq sistemindəki rolunun və yerinin qəbul edilməsi və möhkəmlənməsi, eləcə də məhkəmənin özünün səlahiyyətlərinin konstitusiya islahatları nəticəsində genişlənməsi ilə bağlı bir sıra inkişaf mərhələlərini arxada qoymuşdur.

Konstitusiya Məhkəməsi səlahiyyətlərinə aid edilmiş məsələlərin həlli zamanı öz mövqeyini müəyyənləşdirərkən beynəlxalq hüquq normalarına və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna istinadlar edir. Bu, ilk növbədə qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi müvafiq beynəlxalq müqavilələrin tətbiqinin zəruriliyindən irəli gəlir. Digər tərəfdən isə şübhəsiz ki, bu, daha keyfiyyətli qərarların qəbul edilməsinə, həmçinin Məhkəmənin mövqeyinin zənginləşdirilməsinə və düzgün əsaslandırılmasına xidmət edir.

İnsan hüquq və azadlıqlarının müdafiəsi sayəsində ümummilli lider Heydər Əliyev tərəfindən həyata keçirilən kompleks siyasi və hüquqi islahatlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, dövlət başçısının rəhbərliyi ilə insan hüquqlarının qorunması istiqamətində bir sıra yeni qanunlar qəbul edilmiş və məhkəmə-hüquq sistemi modernləşdirilmişdir.

Bütün bunlar onu göstərir ki, insan hüquqlarının qorunmasını dövlətin ali məqsədlərindən biri kimi təsbit edən Konstitusiyamız bu hüquqların müdafiəsini dövlət siyasətinin əsas atributlarından birinə çevirmişdir.

Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Konstitusiya ilə təmin altına alınmış bu hüquqların həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Bu baxımdan Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideologiyasının tərkib hissəsi olmuşdur.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusunun bölmələri tərəfindən Vətən müharibəsində əldə edilmiş tarixi Qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir. Bununla da Konstitusiyanın hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərimizdə bərqərar olmuşdur.

44 günlük Vətən müharibəsi və ondan sonrakı antiterror əməliyyatları zamanı Azərbaycan beynəlxalq hüquqa əsaslanaraq öz suveren hüquqlarını qorumuş və ərazi bütövlüyünü bərpa etmişdir. Bu dövrdə

mülki əhalinin hüquqlarının təmin edilməsi və beynəlxalq humanitar hüquq prinsiplərinin tətbiqi prioritet istiqamətlərdən biri olmuşdur.

Konstitusiyamızın preambulasında bəyan edilmiş niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması, Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümü nəzərə alınaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən, 2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Bu il çərçivəsində yerli və beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsi, hüquqi maarifləndirmə proqramları vasitəsi ilə vətəndaşların Konstitusiya hüquqları barədə məlumatlılığın artırılması, Azərbaycan Respublikasının dövlət suverenliyinin və ərazi bütövlüyünün bərpası uğrunda şəhid olmuş şəxslərin ailələrinin və müharibə veteranlarının sosial məsələlərinin həlli istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Bu tədbirlər dövlətçiliyin hüquqi əsaslarını daha da möhkəmləndirəcək, vətəndaşların hüquq və vəzifələri haqqında məlumatlılığını artıracaq, dövlət suverenliyinin qorunmasına xidmət edəcəkdir. Bu təşəbbüs respublikamızın hüquqi dövlət quruculuğunda mühüm bir addım olmaqla milli inkişafın əsas istiqamətlərindən birini təşkil edəcək.

Əminik ki, Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə və prinsipiallıqla davam etdirərək, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanan strateji hədəflərə doğru inamla irəliləyəcəkdir.

**İntiqam EYVAZOV,**
**Konstitusiya Məhkəməsi Aparatının**
**Vətəndaşların qəbulu və şikayətlər**
**şöbəsinin müdir müavini, hüquq üzrə fəlsəfə doktoru**



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

## Konstitusiya ilə bəyan edilmiş əsas prinsip və dəyərlər




Azərbaycan xalqının Vətən müharibəsində qələbəsinin 5-ci ildönümü, müstəqil dövlət üçün əsas şərtlərdən olan suverenliyin bərpa edilməsi, 30 il əvvəl ilk Konstitusiyanın qəbulunun ölkənin müstəqillik tarixinin mühüm hadisələrindən biri kimi müstəsna əhəmiyyəti nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edildi.

Xalq olaraq biz bu əlamətdar tarixləri ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti, Ali Baş Komandanın güclü iradəsi və qəhrəman Ordumuzun şücaəti sayəsində yaşayırıq.

1995-ci ildə Konstitusiya layihəsi hazırlanmasına bilavasitə rəhbərlik edən ulu öndər Heydər Əliyev vurğulamışdı ki, "biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun". 30 il bundan öncə Azərbaycanın çoxəsrlik dövlətçilik ənənələrinə sadiqlik, suveren, demokratik, dünyəvi, hüquqi dövlət qurmaq, vətəndaş cəmiyyətini bərqərar etmək kimi ülvi niyyətlər bəyan edilməklə ölkənin Əsas Qanunu – Konstitusiyası ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildi. Konstitusiya bir əsrə yaxın dövrdən sonra yenidən müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin ictimai-siyasi, hüquqi quruluşunu, gələcək inkişaf istiqamətini müəyyən etdi.

Digər ölkələrin də konstitusiyalarına nəzər salsaq, əksəriyyətində məhz giriş hissənin həmin Konstitusiyanın qəbuluna gətirib çıxaran hadisələri, keçmişi və qarşıya qoyulan hədəfləri, arzuları əks etdirdiyini görmək olar. Bununla bağlı hüquq nəzəriyyəsində belə bir ifadə var ki, konstitusiyaların giriş hissəsi keçmişin qürurunu, gələcəyə olan ümidi ifadə edər. Ölkəmizin Konstitusiyasının preambulasında da Azərbaycan xalqının çoxəsrlik dövlətçilik ənənələrindən dolayı qüruru və bu ənənələrin davam etdirilməsi niyyəti vurğulanaraq gələcəklə bağlı arzu və hədəfləri ifadə edilmişdir. Bununla əslində həm də cəmiyyətdə ortaq kimlik, bütövlük, ümumi ali hədəflər formalaşdırılmış oldu.

Şübhəsiz ki, Konstitusiyada dövlətçilik ənənəsi dedikdə, ilk növbədə, müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin iki il ərzində formalaşdırdığı zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoyması, respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlaması nəzərə alınmışdır. Eləcə də ötən əsrin 60-cı illərinin sonunda ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra yaradılmış iqtisadi potensial müstəqillik illərində çox mühüm rol oynadı. Həmin dövrdə həyata keçirilmiş düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli şüurun, özünüdərkin inkişafı istiqamətində də vacib addımlar atıldı ki, bu da müstəqil Azərbaycan dövlətçiliyinin qurulmasında əhəmiyyətli oldu.

Müstəqil dövlətin əsas şərtlərindən biri isə suverenlikdir ki, o da dövlətin və xalqın suverenliyi olaraq fərqləndirilir. Dövlətin suveren-



Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

liyi dövlət hakimiyyətinin vahidliyində və aliliyində, onun orqanlarının hüquqi aktlarının bütün hüquqi və fiziki şəxslər üçün məcburi xarakter daşımasında ifadə olunur. Lakin dövlətin suverenliyi də hədsiz deyil, o, xarici münasibətlərdə beynəlxalq hüququn hamılıqla tanınmış norma və qaydaları, daxili münasibətlərdə isə qanunlarla məhdudlaşır. Konstitusiyanın "Azərbaycan dövləti" adlanan 7-ci maddəsinin I hissəsində də qeyd olunmuşdur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Xalqın suverenliyi isə Konstitusiyamızın 1-ci maddəsində qeyd olunduğu kimi, hakimiyyətin mənbəyinin xalqa məxsusluğu prinsipindən irəli gələrək öz təzahürünü xalqın referendumda və seçkilərdə iştirakı və bu yolla hakimiyyəti təşkil etməsində tapır.

Mütləqiyyətə, onun hakimiyyətə olan qeyri-məhdud imkanlarına qarşı yaranmış olan hakimiyyətin mənbəyinin xalqa məxsusluğu ideyasına əsasən xalq özü ona məxsus hakimiyyəti realizə etməlidir. Odur ki, bu ideyanı qəbul edən Əsas Qanunumuzun 2-ci maddəsində sərbəst və müstəqil müqəddəratını həll etməyin və öz idarəetmə formasını müəyyənləşdirməyin Azərbaycan xalqının suveren hüququ olduğu bəyan edilmiş, bu hüququn bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirildiyi müəyyən olunmuşdur.

Məlum olduğu kimi, 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlanmışdır. Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində növbəti parlaq Qələbə əldə edilərək Azərbaycan Respublikasının suverenliyi tam bərpa olunmuşdur. Suverenliyin bərpasının və bununla da Azərbaycan Respublikasının bütün ərazisində qanunun aliliyinin təmin olunmasının müstəsna əhəmiyyəti nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2024-cü il tarixli Sərəncamı ilə sentyabrın 20-nin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi qeyd edilməsi qərara alınmışdır.

Təbii ki, Əsas Qanunla bəyan edilmiş prinsip və dəyərlərin qorunmasında ölkənin ali konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsinin qərarlarının rolu və əhəmiyyətindən danışmaq zəruridir.

Belə ki, ilk növbədə Konstitusiya və qanunvericilik aktlarının şərhinin, hüquq normalarının Əsas Qanuna uyğunluğuna nəzarətin, bununla da əsas insan hüquq və azadlıqlarının ən yüksək səviyyədə təmin edilməsinə səlahiyyətləndirilmiş Konstitusiya Məhkəməsi bu səlahiyyətləri məhz Konstitusiyada bəyan olunan təməl prinsip və ideyalar, dəyərlər nöqteyi-nəzərdən həyata keçirir.

Nümunə olaraq göstərə bilərik ki, Konstitusiya Məhkəməsi Plenumunun son qərarlarından olan 2024-cü il 25 noyabr tarixli Qərarında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunmuş "mənzil" anlayışı məhz Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququ baxımından şərh edilmiş, Əsas Qanunla təminat verilmiş bu hüququn mahiyyətinə aydınlıq gətirilmişdir. Qərarda vurğulanmışdır ki, mənzil toxunulmazlığı şəxsi hüquq və azadlıqlardan biri kimi hüquqi dövlətin və demokratik cəmiyyət quruluşunun ən mühüm elementlərindən olmaqla, ilk növbədə, şəxsin azadlığının, şəxsi və ailə həyatının məxfiliyinin və təhlükəsizliyinin qorunmasını nəzərdə tutur. Şəxsi və ailə həyatının toxunulmazlığının təmin olunmasında mənzil toxunulmazlığının əhəmiyyəti və rolu nəzərə alınmaqla bu hüquq Əsas Qanunda təsbit olunmuş və pozulmasına görə Cinayət Məcəlləsinin "İnsan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə olan cinayətlər" adlı 21-ci fəslinin 157-ci maddəsində cinayət məsuliyyəti müəyyən edilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu qeyd etmişdir ki, Cinayət Məcəlləsinin göstərilən maddəsi ilə mühafizə altına alınan münasibətlər məhz şəxsin mənzilində təhlükəsiz, özünün müəyyən etdiyi kimi yaşaya bilməsi ilə bağlı ictimai münasibətlərdir (cinayət tərkibinin obyekti). Yəni bu cinayət əməli ilə konkret mənzilə deyil, insanın yaşadığı mənzildə şəxsi və ailə həyatının toxunulmazlığı ilə bağlı ictimai münasibətlərə qəsd edilmiş olunur. Qərarda belə nəticəyə gəlinmişdir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsi baxımından "mənzil" dedikdə, daimi və ya müvəqqəti yaşanmasından və mülkiyyət formasından asılı olmayaraq, bir və ya bir neçə şəxs tərəfindən yaşamaq üçün istifadə edilən, şəxsi həyatı (onun məx-

filiyini) təmin edən və digər sahələrdən təcrid olunan yaşayış yeri başa düşülür. Müvafiq olaraq, həyətyanı torpaq sahəsi, eləcə də təyinatı yaşayış sahəsi olmasa da yaşayış üçün uyğunlaşdırılmış sahələr də şəxsi və ailə həyatının yaşandığı yer kimi istifadə edildiyi halda, həmin sahəyə şəxsin iradəsi ziddinə daxil olmanın da Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsi üzrə cinayət məsuliyyətinə səbəb olacağı qərara alınmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu məhz Azərbaycan Respublikası Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququnun mahiyyəti və təyinatından, bu norma ilə qorunan dəyərlər baxımından göstərilən qənaətə gəlmişdir ki, bu da Əsas Qanunla bəyan edilmiş müddəaların realizəsinin təmin olunmasına, konstitusiya normalarının işlək normalar olmasına xidmət edir.

Zənnimizcə, düşüncə tariximizdə dönüş nöqtəsi olan Vətən müharibəsində qələbədən, suverenliyin tam bərqərar edilməsindən sonra 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması əslində suverenlik, ərazi bütövlüyü və Əsas Qanunda nəzərdə tutulan prinsipləri fərd olaraq hər birimizin daha dərindən dərk etməsi, bu dəyərlər uğrunda şücaət göstərmiş, mübarizə aparmış şəxslərin xatırlanması və bu dəyərlərin qorunması üçün üzərimizə düşən öhdəlikləri layiqincə yerinə yetirmək məqsədilə verilmiş göstəriş kimi qəbul edilməlidir.

Əminik ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçiriləcək tədbirlər cəmiyyətimizdə həmrəyliyi daha da artıracaq, yeni hüquqi, iqtisadi prioritetlərin dəqiqləşdirilməsi, konstitusion dəyərlərin yeni qlobal çağırışlar əsasında realizəsinin təmin edilməsi baxımından faydalı olacaqdır.

**Rəna ABBASOVA,**
**Azərbaycan Respublikasının**
**Konstitusiya Məhkəməsi Aparatının Konstitusiya**
**hüququ şöbəsinin müdiri.**

# Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təməli kimi



Dünya tarixinin müxtəlif dövrlərində, eləcə də həyat səviyyəsinin və informasiya texnologiyasının inkişaf etmiş hazırkı mərhələsində gedən proseslər təsdiq edir ki, hər bir ölkənin ictimai-siyasi həyatında baş verən müsbət və ya mənfi dəyişikliklər əksər hallarda ölkəsini təmsil edən lider şəxsin idarəçilik sahəsində hansı səviyyədə bilik və bacarığa malik olmasından daha çox onun xalqına, vətəninə, torpağına bağlılığından, sevgisindən asılıdır.

Hər bir xalqın tarixində elə şəxsiyyətlər var ki, onlar mənsub olduğu ölkənin ən çətin dövrlərində belə milli-mədəni dəyərlərin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsində müstəsna rol oynamışdır. Həyatını xalqının azadlığı, qüdrətlənməsi uğrunda mübarizəyə həsr etmiş belə şəxsiyyətlər nəsillər dəyişdikcə əbədiyaşarlıq qazanırlar.

Müstəqil və suveren dövlətə sahib olmaq, haqq-ədalətin və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq əsrlər boyu Azərbaycan xalqının əvəzolunmaz və əlçatmaz arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə

baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, ideallarına həmişə sadiq qalmış və nəhayət, XX əsrin sonlarında sovet rejiminin süqutundan sonra dövlət müstəqilliyini bərpa etmişdir.

Ulu Öndər Heydər Əliyevin iti zəkası, dərin siyasəti, prinsipial qətiyyəti, polad iradəsi, yenilməz cəsarəti, eyni zamanda xalqına, vətəninə, torpağına hədsiz bağlılığı və sevgisi sayəsində xalqının səadəti yollarında qarşılaşdığı gərgin mübarizələrdən, çətin sınaqlardan qalibiyyətlə çıxmış və ölkəmizin hazırda nail olduğu və bundan sonra da əldə edəcəyi uğurların sarsılmaz təməlini təşkil edən güclü praktiki və ideoloji məktəb, tükənməz xəzinə yaratmışdır.

Azərbaycanı müstəqilliyə aparan yolun konkret tarixi mərhələləri və özünəməxsus xüsusiyyətləri vardır. Heydər Əliyev hələ Sovet Azərbaycanına rəhbərliyinin birinci dönəmində (1969-1982-ci illər) qurucu Lider kimi xalqının böyük rəğbətini qazanmışdı. Azərbaycan hələ o dövrdə məhz Heydər Əliyevin fədakarlığı və prinsipial mövqeyi sayəsində İttifaqa daxil olan müttəfiq ölkələr içərisində elmi-texniki tərəqqinin geniş şəkildə tətbiq olunduğu respublikaya, yüksək mədəniyyəti və incəsənəti ilə dünyada tanınan diyara çevrilmişdi. 1978-ci ildə qəbul olunmuş Konstitusiyada Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması, azərbaycançılıq ideologiyasının formalaşması, ixtisaslı milli kadrların, peşəkar hərbiçilərin hazırlanması kimi strateji sahələrə xüsusi diqqət yetirilməsi istiqamətində atılan cəsarətli addımlar Heydər Əliyevin müstəqilliyə istiqamətlənmiş uzaqgörən və məqsədyönlü siyasətinin tərkib hissəsi idi. Sonralar həmin dövrdə həyata keçirilmiş tədbirlərdən danışan Ulu Öndər demişdir: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun, hər şeydən əvvəl, iqtisadi cəhətdən, çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur".

1991-1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində İttifaq dövrünün son beş ilindən miras qalmış böhranın son həddə kəskinləşməsinə, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmışdı. Müstəqilliyinin bərpasının ilk illərində ölkəmizdə mürəkkəb şərait yaranmışdı. Torpaqlarımızın işğalı, ölkə rəhbərliyinin səriştəsizliyi, daxili çəkişmələr, iqtisadi və siyasi böhran ölkəni bürümüşdü. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edilsə də, bu müstəqillik, əslində ilk dövrdə formal xarakter daşıyır, onun itirilməsi təhlükəsi, saxlanması ümidindən qat-qat üstünlük təşkil

edirdi. Həmin illərdə Azərbaycanda hakimiyyətdə xalqın etimad göstərə biləcəyi siyasi qüvvələrin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneəyə çevrilməklə yanaşı, daxili böhran, vətəndaş qarşıdurması, xaos və özbaşınalığa rəvac vermiş, qanunvericilik və hüquq qaydalarının faktiki olaraq mövcud olmaması ciddi problemlər yaratmışdı. Bu şəraitdə vətəndaşın azad, təhlükəsiz yaşamaq, ictimai-siyasi hüquqlarını əks etdirən normaların pozulması adi hala çevrilmişdi.

1993-cü ilin may-iyun aylarında ölkənin parçalanması və müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşən xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı qətiyyətlə alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində qanunçuluq və hüquq qaydası bərpa edildi. O zaman mövcud ictimai-sosial vəziyyət, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri olan Azərbaycan Respublikasının milli qanunvericilik sisteminin inkişafı konsepsiyasını və müstəqil Azərbaycanın ilk Konstitusiyanın hazırlanmasını diktə edirdi. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını qoydu. Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı.

Qəbul olunan Əsas Qanun bir sıra təməl prinsipləri əks etdirərək müasir hüquqi dövlət və sivil cəmiyyətin əsas istiqamətlərini müəyyənləşdirən ideya və dəyərləri özündə cəmləşdirir. Konstitusiya Azərbaycan Respublikasında xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olduğunu, öz idarəetmə formasını müəyyən etməyi xalqın suveren hüququ kimi təsbit edir. Həmçinin Əsas Qanun dövlətin demokratik, hüquqi, dünyəvi, unitar respublika olduğunu, dövlət hakimiyyətinin daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən

irəli gələn müddəalarla məhdudlaşdığını bəyan edərək, insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi olduğunu ifadə edir.

Ulu Öndər layihənin hazırlanması zamanı onun hər bir müddəasına respublikamızın demokratik inkişafı və imici baxımından xüsusi həssaslıqla yanaşmışdı. "Biz elə bir layihə hazırlamalı və nəhayət elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır". Tariximizə "Heydər Əliyev Konstitusiyası" kimi daxil olan Əsas Qanunun qəbul edilməsi respublikamızın həyatında yeni dəyişikliklərə yol açaraq müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım oldu.

Konstitusiyanın qəbulu dövrümüzün ən mühüm nailiyyətlərindən biri kimi ölkəmizin inkişafı baxımından yeni mərhələyə qədəm qoyduğunu göstərir. Azərbaycan Respublikasının Konstitusiyası demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun əsaslarını təsbit edərək, insan hüquq və azadlıqlarının müdafiəsinə xüsusi önəm verir. Bu hüquq və azadlıqlar dövlət tərəfindən verilən xüsusi imtiyaz olaraq deyil, məhz hər kəsin doğulduğu andan malik olduğu toxunulmaz, pozulmaz və ayrılmaz ali dəyərlər kimi təsbit olunur.

Qeyd etmək lazımdır ki, azərbaycançılıq ideologiyasına söykənərək qəbul edilən ilk Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mütərəqqi sənəd olmaqla yanaşı, ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə yol açmışdır. Əsas Qanunda müasir cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən ideya və dəyərlər geniş şəkildə əks olunmuşdur. Belə ki, Konstitusiyada dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşdırılması, insan şəxsiyyətinə və ləyaqətinə hörmət, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, siyasi sistemdə plüralizmə təminat verilməsi, ümumbəşəri dəyərlərə sadiqlik və digər müddəalar öz əksini tapmışdır.

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə misilsiz və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Ümummilli Lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız tarix yaradan şəxsiyyətdir. Bütün ömrünü dövlətimizin möhkəmlənməsinə, gələcək inkişafına sərf etmiş Ulu Öndər əməlləri ilə xalqın sonsuz məhəbbətini qazanmış, müstəqil, müasir, azad və firavan Azərbaycanın qurucusu olmuşdur. Ümumdünya miqyaslı şəxsiyyət, dövlət xadimi, böyük siyasət ustası, qətiyyətli lider, müasir müstəqil dövlətimizin memarı və qurucusu kimi xalqımızın milli yaddaşına əbədi həkk olunmuş, milli qürur və iftixar mənbəyidir. İki fərqli dövrdə Azərbaycana rəhbərlik edən Heydər Əliyevin bütün həyat amalı və fəaliyyətinin məqsədi xalqımızın dünyanın qabaqcıl xalqları arasında layiqli yer tutmasına xidmət etmək idi və o, buna nail oldu.

Torpaqlarımızı işğal edən Ermənistan yüz minlərlə vətəndaşımızın doğma yurdlarında yaşamaq, azadlıq, mülkiyyət, mənzil toxunulmazlığı və digər konstitusion hüquqlarını pozmuşdu. Şəhər və kəndlərimizin işğaldan azad edilməsindən sonra qarşılaşdığımız acınacaqlı mənzərələr, evlərin daşlarına qədər sökülməsi və qarət edilməsi, dini məbədlərimizin, mədəniyyət abidələrinin və təbii sərvətlərimizin talan edilməsi xalqımızın maddi, mənəvi, siyasi hüquqlarının pozulmasının bariz nümunələridir.

Konstitusiyamızda yer alan niyyətlərdən biri də Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasıdır. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Konstitusiyanın hüquqi qüvvəsi Azərbaycanın bütün ərazisində bərqərar olmuşdur.

Vətən müharibəsində əldə edilən tarixi Zəfər hüquqi və siyasi baxımdan suverenlik dəyərlərinin möhkəmləndirilməsi anlamına gəlir. Artıq 5 ildir ki, xalqımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün, dövlət suverenliyinin və ölkənin bütün ərazilərində Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsinin tam bərpasının qürurverici təntənəsini yaşayır. Postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma və bərpa işləri, məcburi

köçkünlərin doğma torpaqlarına qaytarılması və iqtisadi inteqrasiya layihələri suveren dövlət anlayışının real təcəssümü olmuşdur. Konstitusiyanın işğaldan azad edilmiş ərazilərdə tətbiqi həm də əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına və sosial xidmətlərin əlçatanlılığının artırılmasına töhfə verir. Beləliklə, Konstitusiyaya əsaslanan hüquqi çərçivənin işğaldan azad olunmuş torpaqlarda tətbiqi dövlətin suveren hüquqlarının tam mənada təmin edilməsi və həmin ərazilərin inkişafına dəstək verilməsi baxımından mühüm rol oynayır, Azərbaycanın gələcək inkişafında və dövlətçilik ənənələrinin möhkəmləndirilməsində xüsusi əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq strateji hədəflərə doğru inamla irəliləyir. Həm regional, həm də qlobal miqyasda suverenlik və dövlət müstəqilliyi prinsiplərinin təbliğində mühüm faktor olaraq çıxış edir. Qarabağ münaqişəsinin həlli və bölgədə yeni reallıqların formalaşdığı şəraitdə ölkəmizin beynəlxalq hüquq prinsiplərinə əsaslanan siyasətinin nümayişi xüsusi önəm daşıyır.

2025-ci il dövlətimiz və cəmiyyətimiz üçün mühüm olan yubiley tarixləri ilə əlamətdardır. Bu il müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunmasının 30 ili, eyni zamanda torpaqlarımızın azad edilməsi nəticəsində Konstitusiyamızın bütün Azərbaycan ərazisində hüququnun bərpa edilməsinin 5 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müasir Azərbaycan dövlətçiliyinin inkişafında mühüm hadisə olmaqla, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Sərəncam həm də gələcəyə yönələn strateji yanaşmaları özündə əks etdirir. Suverenlik və dövlətçilik müstəqil dövlətlərin varlığını və inkişafını təmin edən əsas amillərdir. Bu anlayışlar təkcə dövlətin hüquqi və siyasi əsaslarını deyil, həm də milli kimliyini və birliyini ifadə edir. Ölkəmizdə suverenlik və dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi müasir dövlət quruculuğu və xalqın rifahı üçün zəmin yaradır. Tam əminliklə qeyd etmək olar ki, 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi dövlətçilik tariximizin yeni baxış bucağından öyrənilməsinə,

cəmiyyət və müxtəlif ictimai təsisatlar arasında milli dövlətçilik şüurunun daha da möhkəmlənməsinə, dünya azərbaycanlılarının bir hədəf və amal ətrafında daha sıx birləşməsinə şərait yaradacaq. Bu tarixi qərar xalqın birliyinin gücləndirilməsinə, dövlətin hüquqi bazasının təkmilləşdirilməsinə və Azərbaycanın beynəlxalq imicinin daha da möhkəmləndirilməsinə xidmət edir. Bu il ərzində həyata keçiriləcək tədbirlər ölkənin gələcək inkişafında mühüm rol oynayacaq, eyni zamanda Azərbaycan xalqının milli qürurunu, azadlıq mübarizəsində qazandığı nailiyyətləri bir daha nümayiş etdirmək üçün tarixi imkan olacaqdır.

Konstitusiyanın qəbulundan sonra ötən illərin mənzərəsi təsdiq edir ki, Ulu Öndər Heydər Əliyevin başladığı, Prezident cənab İlham Əliyevin davam etdirdiyi siyasi kurs Konstitusiyamızda yer alan demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətini inkişaf etdirmək xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi mənəvi dəyərləri ehtiva edir.

Fərəh hissi ilə qeyd edilməlidir ki, Azərbaycan dövləti inkişafının keyfiyyətcə yeni daha yüksək mərhələsinə qədəm qoyub. Ölkə iqtisadiyyatı dinamik inkişaf edir, infrastruktur və sosialyönümlü layihələr uğurla həyata keçirilir, insan kapitalı inkişaf etdirilir, xalqımızın rifahı yüksəlir. Ölkəmiz dünyamiqyaslı tədbirlərə uğurla ev sahibliyi etməklə regionun lider dövləti kimi beynəlxalq miqyasda söz sahibinə çevrilir. Dünya birliyi Azərbaycanı sivil, tolerant, demokratik və açıq cəmiyyətə malik dövlət kimi tanıyır. Respublikamız ümumbəşəri və multikultural dəyərlərə, hüquqi dövlət ideallarına, ədalət və humanizm prinsiplərinə sadiqliyini, insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq əzmini daim nümayiş etdirir. Bu gün dünyada qeyri-sabitliyin vüsət aldığı bir dönəmdə, ölkəmizdə aparılan geniş quruculuq işlərinin, iqtisadi, siyasi, mədəni və beynəlxalq sahədə əldə olunan uğurların, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yorulmaz və əzmkar fəaliyyətinin nəticəsi olduğu danılmazdır.

Azərbaycan xalqı gələcək inkişafını yalnız Heydər Əliyev siyasi kursunun davam etməsində və Müzəffər Ali Baş Komandan cənab

İlham Əliyevin parlaq fəaliyyətində görür. Son illərin misli-bərabəri olmayan uğurları, şərəfli məqamları bu həqiqəti aydın şəkildə isbat edir. Beynəlxalq aləmdə nüfuzlu Lider kimi qəbul olunan Prezidentimizin gərgin iş rejimi, polad iradəsi, yenilməz cəsarəti, qətiyyətli addımları, eləcə də ən etibarlı silahdaşı hörmətli Mehriban xanımın şəhid ailələrinə, tibbi yardıma ehtiyacı olan qazilərimizə, eyni zamanda milli-mədəni dəyərlərimizin, adət və ənənələrimizin, həmçinin müasirliyin əxlaqi və dəyərli nümunələrinin qorunmasına, inkişafına göstərdiyi misilsiz diqqət və qayğı ölkəmizin əldə olunan nailiyyətlərini təmin edən mühüm amillərdir. Müstəqil Azərbaycanın dünya ölkələri sırasında layiqli yer tutması, söz sahibi olması, daim artan nüfuzu ilk növbədə bu bənzərsiz fəaliyyətin nəticəsidir. Bu gün ölkəmiz dünyaya müasir və sivil yeni nəsil dövlət modeli təqdim edir, beynəlxalq səviyyədə gedən proseslərdə vacib aktor kimi mütərəqqi təşəbbüslərlə çıxış edir.

Xalqımız bütün milli bayramlarını, əlamətdar tarixlərini və son illərdə həm də möhtəşəm Qələbə günlərini böyük sevinc hissi ilə qeyd edir. Artıq Bayrağımız torpaqlarımızın hər bucağında dalğalanır, Konstitusiyamızın normaları bütöv və bölünməz Vətənimizin bütün ərazisində qüvvədədir.

İnanıram ki, Ümummilli Lider Heydər Əliyevin dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün möhkəmlənməsinə istiqamətlənən tükənməz ideyalarının tərkib hissəsini təşkil edən müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası bundan sonra da ölkəmizin və xalqımızın gələcək inkişafının sarsılmaz təməli və uğurlarımızın rəhni olacaqdır.

**Sona SALMANOVA,**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsinin sədr müavini.**

## Azərbaycan Konstitusiyası dövlət hüquq sisteminin əsası kimi




Azərbaycan xalqı tarix boyu qədim və güclü dövlətçilik ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi istiqamətində səy göstərib, vətəndaş-dövlət münasibətlərində həmrəylik və humanizm prinsiplərini əsas götürüb. Bu prinsiplər dövlətçilik tarixində qanunların əsas olduğu cəmiyyətin formalaşdırılması üçün də baza rolunu oynayıb.

Zaman keçdikcə müstəqil dövlət kimi qarşısına qoyduğu əsas vəzifələrə – vətəndaşları üçün qanunun aliliyinin təmin edildiyi, milli-mənəvi dəyərlərə, ədalət prinsipinə, vətəndaşyönümlü siyasətə əsaslanan inkişaf etmiş cəmiyyət yaratmaq istiqamətində böyük uğurlar əldə edilib. Azərbaycan dövlətçilik tarixinin qədim əsrlərdən

başlayan fərqli mərhələlərində bütün çətinliklərə baxmayaraq, qarşıya qoyulan bu vəzifəyə daim əməl edilib və bütün bu prinsiplərin qorunması sonrakı dövrlər üçün təməl hesab olunub. Məhz bu yanaşmadan çıxış edərək xalqın çoxəsrlik dövlətçilik ənənəsinə, hüququn aliliyinə əsaslanan müstəqil, suveren Azərbaycan dövlətini yaratmaq, qoruyub saxlamaq və inkişaf etdirmək mümkün olub. İnsan hüquq və azadlıqlarının, qanunun aliliyi prinsipinin ən yüksək səviyyədə müdafiə edildiyi və qorunduğu dövlətlərdən biri Azərbaycan Respublikasıdır.

1918-ci il mayın 28-də Azərbaycanın timsalında Şərqdə ilk sivil və demokratik dövlət – Azərbaycan Xalq Cümhuriyyəti yarandı. İndiki Azərbaycan Respublikasının varisi olduğu bu cümhuriyyətdə 1918-ci ildə ilk hüquqi sənəd – "Misaqi-Milli" adlanan İstiqlaliyyət Bəyannaməsi qəbul edildi. Sənəd demokratik idarə və parlamentli respublika rejimini möhkəmləndirdi, daxili və xarici, eyni zamanda milli siyasətin, vətəndaşların hüquqi statusunun əsaslarını özündə əks etdirirdi. Lakin həmin dövr üçün bütün mütərəqqi ideyaları özündə əks etdirməsinə baxmayaraq, bu sənəd Konstitusiyanı tam əvəz edə bilməzdi. Çünki Konstitusiya hər bir dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını müəyyənləşdirir, vətəndaşların hüquq və azadlıqlarını təmin edir. Bu baxımdan, Azərbaycanda Ali Qanunun qəbulu hüquqi əhəmiyyətlə yanaşı, həm də tarixi məsuliyyət idi. Bir sıra ilklərlə tarixə adını yazdırmış Azərbaycan Xalq Cümhuriyyəti bütün bu təməl psinsipləri özündə əks etdirən Konstitusiyası ilə də nümunə ola bilərdi. Buna görə də bu tarixi funksiyanın öhdəsindən layiqincə gəlmək üçün parlament tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin Konstitusiyasının qəbul edilməsi nəzərdə tutulurdu. 1918-ci ildə bu istiqamətdə iş başlasa da, 1920-ci il 28 aprel işğalı Konstitusiya qəbuluna yönəlmiş bütün prosesi dayandırdı. 1921-ci il mayın 6-da çağırılan Müvəqqəti Hökumətin qurultayında Azərbaycanın Konstitusiya layihəsi müzakirə edildi və mayın 19-da keçirilən iclasda yekdilliklə qəbul olundu. Ona görə də Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi məhz bu dövrdən hesablanır. Bu Konstitusiyanın SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də qəbul olundu. 1927-ci il martın 26-da V Ümum-Azərbaycan Sovetlər Qurultayında Azərbaycan SSR-in növbəti Konstitusiyası təsdiqləndi. 1936-cı ildə SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar 1937-ci il martın 14-də IX

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

Ümum-Azərbaycan Sovetlər Qurultayının qərarı ilə Azərbaycan SSR-in yeni Konstitusiyası qüvvəyə mindi. SSRİ dönəmində sonuncu dəfə Azərbaycan Konstitusiyası 1978-ci ilin 21 aprelində qəbul edildi. Məhz bu Konstitusiya mətni həmin dövr üçün mühüm əhəmiyyətə malik olduğu kimi, həm də gələcək müstəqil dövlətçilik tarixi üçün maraqlı və zəruri maddə ilə diqqəti cəlb edirdi. Belə ki, həmin Konstitusiyanın mətninin müzakirəsi zamanı, aprelin 2-də Azərbaycan SSR Ali Sovetində məruzə ilə çıxış edən ulu öndər Heydər Əliyevin təklifi ilə 73-cü maddə aşağıdakı redaksiyada verildi: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Beləliklə, həmin dövr üçün olduqca çətin bir məsələnin həlli, Ana Qanunda Azərbaycan dilinə rəsmən dövlət dili statusunun verilməsi ümummilli lider Heydər Əliyevin xalq və dövlət qarşısında əvəzsiz xidmətlərindən biri idi və sonrakı müstəqillik dövrü üçün tarixi əsaslardan biri hesab olunurdu. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra yeni Konstitusiyanın qəbulu da məhz ulu öndər Heydər Əliyevin birbaşa səyi nəticəsində mümkün oldu.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, ozamankı hakimiyyətin yarıtmaz fəaliyyətinin səbəb olduğu böhran, Ermənistanın işğalçılıq siyasəti müstəqil Azərbaycanın yeni Konstitusiyasının qəbuluna imkan vermirdi. SSRİ-dən miras qalmış hüquq sistemində köklü dəyişikliyə ehtiyac vardı, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi, qanunun aliliyinin bərpası yeni qanunvericilik bazasının formalaşdırılmasını tələb edirdi. Belə çətin dövrdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev çıxışlarında ölkəni düşdüyü ağır siyasi-iqtisadi böhrandan çıxarmaqla yanaşı, yeni Konstitusiyanın hazırlanması zəruriliyini də vurğulayırdı. Hər iki prosesi paralel şəkildə aparan ulu öndər Heydər Əliyev bilirdi ki, sabit, təhdidlərdən uzaq vətəndaşların hüquq və azadlıqlarının təmin edildiyi ölkədə qanunun aliliyi əsasdır və bu yeni Konstitusiya ilə təsbit edilməlidir.

Beləliklə, 1995-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yeni Konstitusiya layihəsi üzərində iş başladı. 1995-ci il mayın 2-də Milli Məclisin qərarına əsasən ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə komissiya yaradıldı. Yeni sənəd çox böyük ictimai maraqla qarşılandı, noyabrın 4-dək layihə barədə komissiyaya 2450 təklif daxil oldu.

Ümummilli lider Heydər Əliyev bu barədə deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun".

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi və onların 91,9 faizi Konstitusiyanın lehinə səs verdi. Həmin il noyabrın 27-də qüvvəyə minən, 5 bölmə, 12 fəsil, 158 maddə, preambula və keçid müddəalarından ibarət Ali Qanun müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixə düşdü. Yeni Konstitusiyada Azərbaycan respublika idarəetmə formasına malik, unitar, demokratik, hüquqi və dünyəvi dövlət kimi təsbit olunurdu. Sonrakı mərhələlərdə Konstitusiyanın daha da təkmilləşdirilməsi zərurəti ortaya çıxdı. Bununla bağlı, 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilən referendumlarda Konstitusiyaya əlavə və dəyişikliklər edildi. Həmin dövrdən etibarən ölkəmizdə aparılan genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını da məhz Konstitusiya təşkil etdi. Ana Qanunda Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlər əksini tapırdı. 2003-cü ildə cənab İlham Əliyevin Prezident seçilməsindən sonra ölkədə həyata keçirilən mühüm islahatlar üçün də əsas qanunvericilik bazası rolunu məhz Azərbaycan Konstitusiyası oynadı.

Əsas Qanun Azərbaycanın dövlət quruculuğunun hüquqi əsaslarını müəyyən edir. Konstitusiya hüququ sistemi bu hüquq sahəsinin konstitusiya hüququ normaları ilə tənzimlənən ictimai münasibətlərin mövcud vəziyyəti ilə şərtlənən daxili strukturudur. Konstitusiya ilk növbədə dövlətin qanuna tabe olmasını təmin etməsi ilə xarakterizə olunur. Bu Ali Qanuna əsasən Azərbaycan demokratik dövlət kimi insan hüquqlarının prioritetini və hakimiyyətlər bölgüsünü müəyyən edir. Dövlətin əsaslarını müəyyən edərkən Konstitusiya ilk növbədə hər bir demokratik dövlətin ayrılmaz atributları olan təsisatlara xüsusi yer ayırır. Bunların içərisində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi olması,

mülkiyyətin toxunulmazlığına təminat, vətəndaşların sosial müdafiəsinin prioritet təşkil etməsi mühüm yer tutur. Məhz bunlara vurğu edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev deyib: "Respublikamızın Ali Qanununun müddəaları dövlətimizin müstəqilliyinin əsaslarını və xalqımızın iradəsini əks etdirərək ölkəmizin demokratik və hüquqi dövlət quruculuğu istiqamətində inamla irəliləməsi üçün zəmindir". Prezident cənab İlham Əliyevin də dediyi kimi, Konstitusiya ölkəmizdə hüquqi dövlət quruculuğu üçün tələb olunan bütün müddəaları özündə əks etdirir, demokratik, hüquqi, dünyəvi, unitar dövlət kimi ölkəmizdə bərqərar olan hüquq sistemi, idarəçilik forması, insan və vətəndaş azadlıqları ilə bağlı ilkin təəssürat yaradır. Hüququn aliliyinin təmin olunduğu Azərbaycan dövlətində vətəndaş cəmiyyətinin qurulması istiqamətində çoxşaxəli fəaliyyət göstərilir, dövlət təsisatları bu sahədə hüququn yaratdığı bütün imkanların vətəndaşların lehinə səfərbər edilməsi üçün tələb olunan qanunvericilik bazasına sahibdir.

Zaman-zaman hüquqi qanunvericilik bazası daha mütərəqqi formada təkmilləşdirilir, vətəndaş-dövlət münasibətlərinin formalaşması üçün tələb olunan əlavə və dəyişikliklər edilir, dünya təcrübəsində bu sahədə ən yaxşı nümunələr diqqətlə nəzərdən keçirilir, vətəndaşyönümlü və insanyönümlü hüquqi bazanın yaradılması üçün möhkəm zəmin hazırlanır. Eyni zamanda ölkəmizdə insan və şəxsiyyət azadlığı qorunur, din dövlətdən ayrıdır, dinlərə qarşı münasibətdə ayrı-seçkilik yoxdur, Azərbaycan multikultural ölkə kimi bütün dünyada azsaylı nümunələrdən birini ortaya qoyur. İdarəetmə sistemindəki tamlıq, vahidlik, qurumlararası əlaqə hüququn tələblərinə və dövlətçilik ənənəsinə əsasən qanunlarla tənzimlənir. Bu isə son nəticədə vətəndaşın hüquq və azadlıqlarının qorunmasına Əsas Qanun çərçivəsində verilən təminata əsaslanır.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra qarşısına qoyduğu strateji hədəf də məhz buna – Ali Qanunumuzun müddəalarının bütün ölkə ərazisində təmininə yönəlmişdir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2003-cü ildə ali vəzifəyə seçildiyi dövrdən başlayaraq sistemli şəkildə məhz bu strateji hədəfə yönəlmiş məqsədyönlü fəaliyyəti və 44 günlük Vətən müharibəsində rəşadətli Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar tarixi Zəfərimizi, Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və dövlətimizin ərazi bütövlüyünün, suverenliyinin bərpasını, ölkəmizin son-

rakı inkişafının bütün aspektlərini şərtləndirdi. Çünki Ermənistanın təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan vermirdi. Halbuki Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdi.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də uğurlu antiterror əməliyyatı bu strateji hədəfin təminində Prezident-Ordu-Xalq həmrəyliyinin ən yaxşı nümunəsini ortaya qoydu. 44 günlük Vətən müharibəsi və ardınca antiterror əməliyyatı ilə Azərbaycan bütün ərazisində suverenliyini tam bərpa etdi. Bunun məntiqi nəticəsi olaraq, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən sentyabrın 20-si Azərbaycanda Dövlət Suverenliyi Günü elan edildi. 2024-cü ilin 7 fevralında müstəqilliyin bərpasından sonra bütöv, suveren Azərbaycanda ilk dəfə bütün ölkə ərazisində Prezident seçkisi baş tutdu və xalq Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevi yenidən Prezident seçdi. 28 iyun 2024-cü ildə ölkə tarixində ilk dəfə suveren Azərbaycan ərazilərində növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı qərar verildi. Ötən il sentyabrın 1-də keçirilən seçki də ilk dəfə bütün suveren ərazilərimizdə baş tutdu. Beləliklə, suveren və müstəqil Azərbaycanın bütün ərazisində Ali Qanunun – Konstitusiyanın hüquqi qüvvəsi tam təmin edildi.

Suverenliyini və ərazi bütövlüyünü təmin edən Azərbaycan Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq strateji hədəflərə doğru inamla irəliləyir. Buna 2020-ci ilin noyabrında Ermənistanın kapitulyasiyasından və antiterror əməliyyatından sonra suveren Azərbaycanın bölgədə yaratdığı yeni geosiyasi reallıq da zəmin yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı çıxışını bu baxımdan dəqiq və kamil strategiyaya əsaslanan bütöv konsepsiya adlandırmaq olar. Bu çıxışda qarşıya qoyulan hədəflər, vəzifələr, onların təmini yolları dəqiqliklə göstərilib: "Ölkə qarşısında böyük vəzifələr durur. Birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək vəzifəsi var. Bizə qarşı bu çirkin oyun hələ bitməyib.

Bizim qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Növbəti önəmli vəzifə sərhədlərimizin qorunması ilə bağlıdır. Biz şərti sərhəddə möhkəmlənirik, çünki hər an Ermənistandan istənilən təxribat gözləmək olar".

Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitliyimiz bütün dünya üçün nümunə ola bilər: "Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır. Digər vacib vəzifələr ideoloji təhlükəsizliklə bağlıdır və burada da biz daim diqqətli olmalıyıq. Çünki bizə qarşı ideoloji təxribatlar davam edir. Gənc nəslin milli ruhda böyüməsi sadəcə olaraq sözlər deyil. Bu, Azərbaycanın gələcək inkişafının əsas təminatçısıdır, çünki ölkələri insanlar idarə edir. Tarixi Zəfərimizdən sonra biz xarici siyasətimizdə daha sərbəstik, müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib".

Dövlət başçısı cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Konstitusiyada təsbit edilən bütün müddəalar təmin olunur. Müstəqil, suveren Azərbaycanda hüququn aliliyinin qarantı olan Konstitusiya dünyada ən nümunəvi qanunlardan biri hesab edilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Qanunun aliliyi, insan hüquq və azadlıqlarının müdafiəsi hər bir hüquqi dövlətin ali məqsədini təşkil edir".

**Rüstəm SƏLİMOV,**
**Azərbaycan Respublikasının**
**Konstitusiya Məhkəməsi Aparatının**
**Vətəndaşların qəbulu və şikayətlər şöbəsinin müdiri.**

# Konstitusiyamızın 30 illik yolu və Suverenliyin bərpası: Tarix, Hüquq, Qürur




Konstitusiya ilk növbədə, hüquqi iyerarxiyanın ən yüksək pilləsində yerləşən, dövlət həyatının ən mühüm prinsiplərini təsbit edən əsas qanundur. Konstitusiya tənzimlədiyi ictimai münasibətlərin əhəmiyyətlilik dərəcəsinə görə qanunlardan və digər normativ hüquqi aktlardan fərqlənir. Konstitusiya dövlətin əsas institutlarını, vətəndaşların statusunu müəyyən edir, bütün hüquqi fəaliyyətin məzmununa təsir göstərir.

Müasir demokratik dövlətdə suverenliyin daşıyıcısı və hakimiyyətin yeganə mənbəyi xalq olduğu üçün konstitusiyalar da xalq tərəfindən, yaxud xalqın adından qəbul edilir. Demokratik hüquqi dövlətdə Konstitusiya nəinki dövlətin, habelə xalqın dövlətçilik iradəsini, ifadə edən əsas qanundur.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 12 noyabr 1995-ci il

tarixdə ümumxalq səsverməsi ilə (referendumda) qəbul olunmuş, bununla da ölkəmizdə demokratik, hüquqi dövlətin möhkəm təməli qoyulmuşdur. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbulu dövlətçilik tarixində mühüm hadisə olmuş, ölkəmizdə müasir dövlət və vətəndaş cəmiyyəti quruculuğu üçün böyük yol açmış, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə zəmin yaratmaqla ölkə həyatının bütün sahələrinin inkişafına təkan vermişdir. Sənəd, sözün əsl mənasında, ölkənin Əsas Qanununa çevrilərək dövlət və cəmiyyət həyatının bütün sahələrini əhatə edən genişmiqyaslı qanunvericilik və institusional islahatların əsası kimi çıxış etmişdir.

Ulu Öndər Heydər Əliyev demişdir: "Bizim Konstitusiyamız Azərbaycan Respublikasının tarixi ənənələrini, xüsusiyyətlərini əks etdirir. O, Azərbaycan Respublikasında demokratik hüquqi dövlətin qurulmasını, ölkəmizdə olan bütün vətəndaşların hüquq və azadlıqlarını təmin edəcəkdir. Bu bizim özümüzün Konstitusiyamızdır, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.

Yeni Konstitusiya Azərbaycanda demokratik hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".

Ümummilli Lider, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi və gərgin əməyi sayəsində hazırlanmış yeni Konstitusiya çoxəsrlik dövlətçilik ənənələrimizə və qabaqcıl dünya təcrübəsinə əsaslanmaqla yanaşı, milli və ümumbəşəri dəyərləri də özündə əks etdirərək ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğuna, ictimai-siyasi, iqtisadi və mədəni həyatın inkişafına güclü təkan vermişdir.

Yeni Konstitusiyanın hazırlanması və qəbul edilməsi Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz tarixi xidmətlərindən biri olmuşdur. Dahi lider Konstitusiya layihəsinin hazırlanması ilə məşğul olan komissiyanın sonuncu iclasında demişdir: "Bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam. Onun bu gün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin

altına imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bəyan edirəm".

Azərbaycan Respublikasının Konstitusiyasında müasir sivil cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmış, insan hüquq və azadlıqlarının təminatı müəyyən edilmişdir. Ümumiyyətlə, ölkə Konstitusiyasında dövlətin cəmiyyətdə və ictimai münasibətlər sistemində rolu ilə əlaqədar yeni, Azərbaycanın əvvəlki Konstitusiyalarından tamamilə fərqli konseptual yanaşma əksini tapmışdır. Belə ki, Azərbaycanın da uzun illər ərzində daxil olduğu sovet siyasi sistemində dövlətin cəmiyyət həyatındakı rolu fövqəladə xarakter daşıyırdı və dövlət maraqları ilə şəxsiyyətin maraqları arasında yaranan münasibətlərdə üstünlük birmənalı olaraq birinciyə verilirdi. Bu isə liberal demokratiyalarda mühüm əhəmiyyət kəsb edən insan hüquq və əsas azadlıqların müdafiəsinin arxa plana keçməsinə səbəb olurdu.

Ölkə Konstitusiyasının preambulasında Azərbaycan xalqının Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək kimi ülvi niyyətlər bəyan edilmişdir.

Konstitusiyanın 147-ci maddəsi birmənalı şəkildə təsbit edir ki, Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir və qanunvericilik sisteminin əsasını təşkil edir. Bu baxımdan, əgər ölkədə qüvvədə olan çoxsaylı hüquqi aktları bir-biri ilə əlaqəli vahid sistem kimi qəbul etsək, onda Konstitusiyanı hüquqi inkişafın əsası, mənbəyi adlandırmaq olar. Konstitusiya dövlət quruluşunu, seçki sistemini, dövlət hakimiyyəti orqanlarının təşkili və fəaliyyətinin prinsiplərini müəyyənləşdirmək və qanunvericilik sisteminin əsasını təşkil etməklə yanaşı, vətəndaşların hüquq və azadlıqlarının əsas təminatçısı qismində çıxış edir.

Azərbaycan Respublikasının Konstitusiyası demokratik, hüquqi və dünyəvi dövlətin qurulması yolunda əhəmiyyətli mərhələ olub və indiyədək bu sənəd ölkəmizdə hüquqi islahatların aparılması, insan hüquq və azadlıqlarının təmin olunması, dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində bünövrə rolunu oynayıb. Ulu Öndər Heydər Əliyevin rəhbərliyə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur. Ümummilli Liderin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Onun fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatına keçid, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi prioritet sahələr olmuşdur.

Ulu Öndər Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yürüdərək ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır. Ümummilli Lider 1995-ci il mayın 27-də Respublika Günü münasibətilə keçirilən təntənəli yığıncaqda demişdir: "Ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhval-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir". Azərbaycan Respublikası Konstitusiyasının "Xalqın suverenliyi" başlıqlı 2-ci maddəsində deyilir: "Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur. Azərbaycan xalqı öz suveren hüququnu bilavasitə ümumxalq səsverməsi – referendum və ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, gizli və şəxsi səsvermə yolu ilə seçilmiş nümayəndələri vasitəsilə həyata keçirir".

Elmi ədəbiyyatlarda "suverenlik" anlayışına əsasən iki mövqedən yanaşılır: xalqın suverenliyi və dövlət suverenliyi. Xalqın suverenliyi prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 2-ci maddəsində açıqlanmışdır. Müəyyən şəraitlərdə dövlətin suverenliyi xalqın suverenliyi ilə üst-üstə düşür. Xalqın suverenliyi xalqın aliliyini, öz taleyini, dövlət və ictimai inkişafın köklü məsələlərini özünün həll etməsi, öz dövlətinin siyasətinin istiqamətini, orqanlarının tərkibini for-

malaşdırmaq, dövlət hakimiyyətinin fəaliyyətinə nəzarət etmək hüququnu bildirir. Əhalinin geniş dairələrini dövlətin idarə olunması prosesinə cəlb etmək cəmiyyətdə demokratik dəyişikliklərin həyata keçirilməsinin zəruri şərtlərindəndir. Məhz bu məqsədlə yerli idarəetmə orqanlarının – bələdiyyələrin yaradılması 12 noyabr 1995-ci il tarixli Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuşdur. Əsas Qanunun dördüncü bölməsi tamamilə bələdiyyələrə həsr olunmuşdur. Bu bölmədə yerli özünüidarənin təşkilinin əsas prinsipləri müəyyənləşdirilmiş, bələdiyyələrin fəaliyyətinin normativ hüquqi əsasını yaradan mühüm qanunlar qəbul edilmişdir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası hüquqi dövlət quruculuğunun təməlini qoymaqla yanaşı, ölkədə konstitusiya nəzarəti institutunun – Konstitusiya Məhkəməsinin təsis edilməsinə də əsas yaratdı. Bu ali hüquqi sənədin qəbulundan sonra, qanunvericilik prosesində konstitusiya prinsiplərinin qorunması və vətəndaşların əsas hüquq və azadlıqlarının təminat altına alınması baxımından Konstitusiya Məhkəməsinin yaradılması əlamətdar hadisə olmuşdur. Məhkəmə 1998-ci ildən fəaliyyətə başlayaraq Azərbaycanın hüquqi sistemində mühüm boşluğu doldurmuş, hüququn aliliyini təmin edən əsas institutlardan birinə çevrilmişdir.

Konstitusiya Məhkəməsi dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə qolları arasında balansın qorunmasında, normativ hüquqi aktların Konstitusiyaya uyğunluğunun yoxlanılmasında, eləcə də vətəndaşların konstitusion hüquqlarının müdafiəsində mühüm rol oynayır. Həmçinin qanunların və digər normativ aktların Konstitusiyaya zidd olan hissələrinin hüquqi qüvvədən düşməsi barədə qərarlar qəbul etməklə, normativ sabitliyin və hüquqi müəyyənliyin qorunmasına xidmət edir. Bu baxımdan, Konstitusiya Məhkəməsi yalnız hüquqi nəzarət orqanı deyil, eyni zamanda hüquqi mədəniyyətin formalaşmasında, konstitusion düşüncənin inkişafında və hüquq islahatlarının istiqamətinin müəyyənləşdirilməsində strateji mövqe tutur.

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın ruhuna və prinsiplərinə sadiq qalan Konstitusiya Məhkəməsi ötən illər ərzində bir çox fundamental qərarları ilə vətəndaşların hüquqi müdafiəsini təmin etmiş, dövlət orqanlarının fəaliyyətində konstitusion normaların tətbiqinə nəzarət etmişdir. Bu institut həm hüquqi sabitliyin təmin olunmasında, həm də Azərbaycanın demokratik inkişafında əsas dayaqlardan biri olmuşdur.

Ümummilli Lider Heydər Əliyev şərəfli dövlətçilik fəaliyyəti müddətində yalnız Azərbaycanı düşündü, onun müasirləşməsinə, qüdrətlənməsinə, çiçəklənməsinə çalışdı. Dahi Öndər Azərbaycanı daim gözəl və müasir görmək istəyirdi. Elə bu məramla da xalqın gələcək taleyinə biganə qalmadı. Müasirləşmə siyasətini özündən sonra layiqincə davam etdirəcək modern düşüncəli, yüksək idarəetmə və təşkilatçılıq qabiliyyətinə malik novator ruhlu lider yetişdirdi. Əgər Ulu Öndər Heydər Əliyevin müasirləşmə siyasəti ötən əsrin 70-ci illərində Azərbaycanı keçmiş SSRİ-nin ən qabaqcıl respublikası səviyyəsinə gətirib çıxardısa, 90-cı illərdə xoas və tərəqqidən inkişafa doğru keçidin mükəmməl strategiyasını təmin etdisə, onun layiqli davamçısı Prezident İlham Əliyevin modernləşmə kursu respublikamızı dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevirdi. Başqa sözlə, Ümummilli Lider Heydər Əliyevin başladığı müasirləşmə kursu möhtərəm Prezident İlham Əliyevin modernləşmə siyasəti ilə inamla davam etdirilir.

Azərbaycan Respublikasının Konstitusiyası dinamik, inkişafda olan cəmiyyətin və dövlətin ehtiyaclarına cavab verən, dəyişən, ictimai-siyasi reallıqlara uyğunlaşdırıla bilən bir sənəd kimi tarix boyu bir neçə dəfə təkmilləşdirilmişdir. Konstitusiyaya edilən dəyişikliklər və əlavələr ilk növbədə hüquqi bazanın daha da gücləndirilməsinə, dövlət idarəçiliyinin çevikliyinin və səmərəliliyinin artırılmasına, eləcə də vətəndaşların hüquq və azadlıqlarının daha dolğun şəkildə təmin edilməsinə xidmət göstərmişdir. Bu dəyişikliklər Azərbaycan xalqının iradəsinin ifadəsi olaraq ümumxalq səsvermələri – referendumlar vasitəsilə həyata keçirilmiş və dövlətin legitimliyini daha da möhkəmləndirmişdir.

Belə ki, 2002, 2009 və 2016-cı illərdə keçirilmiş referendumlar nəticəsində Konstitusiyanın bir sıra maddələrində mühüm dəyişikliklər edilmişdir. Bu dəyişikliklər dövlət institutlarının fəaliyyətinin daha səmərəli təşkilinə, vətəndaşların idarəetmədə iştirak imkanlarının genişləndirilməsinə və hüquqi islahatların dərinləşdirilməsinə yönəlmişdir. Eyni zamanda, dövlət suverenliyinin gücləndirilməsi, müasir çağırışlara çevik cavab verə biləcək idarəetmə modelinin qurulması baxımından bu dəyişikliklər mühüm əhəmiyyət kəsb etmişdir. Konstitusiyanın davamlı olaraq təkmilləşdirilməsi hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunan uğurların qorunmasına

və daha dayanıqlı gələcək üçün möhkəm təməl yaradılmasına xidmət edir.

Azərbaycan Respublikasının Konstitusiyası hüquqi əsasları müəyyən etməklə, eyni zamanda milli birliyin, dövlət suverenliyinin və ərazi bütövlüyünün hüquqi təminatçısı kimi çıxış edir. Bu ali sənəd hər bir vətəndaşın dövlətə bağlılığının, dövlətin isə vətəndaş qarşısında məsuliyyətinin bərqərar olunmasında mühüm rol oynayır. Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və ardıcıl siyasi kurs sayəsində dövlətçilik ənənələrimiz möhkəmlənmiş, hüquqi sabitlik və idarəetmə dayanıqlılığı təmin edilmişdir. Bütün bu hüquqi və siyasi təməl, Azərbaycanın suveren hüquqlarını qorumağa və xüsusilə də 44 günlük Vətən müharibəsi zamanı öz ərazi bütövlüyünü təmin etmək üçün qətiyyətli addımlar atmağa imkan yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasəti, qətiyyəti və ordumuzun gücü sayəsində torpaqlarımız erməni işğalından azad edilmiş, suverenliyimiz tam təmin edilmişdir.

2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində dövlətçilik tariximizin parlaq səhifələri yazıldı, düşmən üzərində möhtəşəm qələbə qazanıldı. Noyabrın 10-da Ermənistan təslim olduğunu rəsmən elan etdi və kaputilyasiya aktını imzaladı. Bir ay sonra – dekabrın 10-da Bakıda Azadlıq meydanında Zəfər paradı keçirən Azərbaycan möhtəşəm Qələbəsini bütün dünyaya nümayiş etdirdi. Bununla da, Azərbaycan XXI əsrdə ilk Zəfər paradı keçirən dövlət kimi dünya tarixinə düşdü.

Vətən müharibəsində xalqımız həmrəylik nümayiş etdirdi, vahid amal uğrunda birləşdi. 44 gün davam edən bu savaş xalq-iqtidar birliyindən güc alan Azərbaycanın qüdrətinin, milli birliyinin sarsılmazlığının göstəricisi oldu. Eyni zamanda Azərbaycan xalqının qazandığı zəfərin möhtəşəmliyi ölkə başçısı İlham Əliyevin mümkünsüzü mümkünə çevirmək qüdrətindən bəhrələndi. Hər bir Azərbaycan vətəndaşı bu qürurverici tarixi günləri yaşamaqdan xoşbəxt olduğunu dilə gətirir. Azərbaycan xalqı bu möhtəşəm Qələbə xəbərini səbirsizliklə gözləyirdi. Qürurverici haldır ki, heç bir beynəlxalq ədalətsizlik xalqımızın qələbəyə inamını sarsıtmadı, dövlət başçısının iradəsinə təsir etmədi. Hər ötən gün xalqımız Prezident İlham Əliyevin ətrafında getdikcə daha sıx birləşir, birliyimiz hər gün daha da güclənir. Bütün qələbələrin əsasında Prezident İlham Əliyevin mükəmməl diplomatik

bacarıqları, dövlət maraqlarının təmin olunmasına istiqamətlənmiş xarici siyasət kursu dayanır.

44 günlük Vətən müharibəsi, 23 saatlıq antiterror tədbirləri, erməni işğalçılarının ayaqlarının torpaqlarımızdan kəsilməsi dünyaya sübut etdi ki, Azərbaycan Prezidenti İlham Əliyev müdrik və uzaqgörən siyasətçidir. Ona görə ki, dövlət başçısı cənab İlham Əliyevin tutduğu yol Ümummilli Lider Heydər Əliyev yoludur, ona qüvvət verən Ulu Öndərin ideyaları, arzuları və Azərbaycan xalqının sevgisidir.

Müzəffər Ali Baş Komandanın 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Bayrağını qaldırarkən dediyi sözlər yüzilliklər boyu azərbaycanlı qanı daşıyan hər kəsin dillər əzbəri olacaq: "Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım Bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!". 2023-cü ilin noyabr ayında Xankəndidə keçirilən Zəfər paradı ölkəmizin gücünün, qüdrətinin daha bir parlaq nümunəsi kimi tarix səhifələrinə yazıldı.

Ermənistan silahlı qüvvələrinin qalıqlarına və qeyri-qanuni erməni silahlı dəstələrinə qarşı həyata keçirilmiş antiterror əməliyyatını zəruri edən bir neçə amil var idi. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata baxmayaraq, Ermənistan silahlı birləşmələri Qarabağdan tam çıxarılmamışdı və qarşı tərəf qeyri-qanuni erməni silahlı dəstələrinin tərk-silah edilməsi, ərazidən çıxarılması ilə bağlı tədbir görmürdü. Əksinə, Ermənistan dövləti tərəfindən qanunsuz silahlı dəstələrin təminatı məsələləri həyata keçirilir, Qarabağa hərbi sursat və silah daşınırdı. Digər tərəfdən, Azərbaycan Ordusunun mövqeləri ilə üzbəüz yerlərdə fəal mühəndis-istehkam işləri aparılır, kəşfiyyat-diversiya qruplarının aktivliyi artır, ərazi və yollar yenidən minalanırdı. Prezident İlham Əliyev antiterror tədbirlərinin strateji əhəmiyyətini tam dəqiqliyi ilə bu cür ifadə etmişdir: "Antiterror əməliyyatı çox uğurla, peşəkarlıqla keçirilmişdir, hərbçilərimiz böyük qəhrəmanlıq göstərmişdilər. Deyirlər ki, əməliyyat 23 saat neçə dəqiqə çəkmişdir, amma əslində, daha qısa müddət ərzində tamamlanmışdır. Biz bütün nəzərdə tutduğumuz mövqelərə çıxdıq, bütün kommunikasiyalara sahib olduq, bütün təpələri götürdük və faktiki olaraq separatçıların təslim olmaları qaçılmaz idi, labüd idi, çünki təslim olmasaydılar məhv olacaqdılar. Əməliyyat hərb elmi nöqteyi-nəzərindən də çox uğurlu idi. Şuşa əməliyyatına oxşar bir əməliyyat

idi. Əlbəttə, Şuşa əməliyyatı xüsusi peşəkarlıq tələb edən əməliyyat idi, amma bu da çox uğurlu idi. Yəni, bütün vəzifələr yerinə yetirildi və beləliklə, separatçılığa son qoyuldu".

Bu gün üçrəngli bayrağımız qürur yerimiz olan Qarabağın və Şərqi Zəngəzurun hər guşəsində – Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Şuşada, Hadrutda, Laçında, Əsgəranda, Xocavənddə, Ağdərədə, Xocalıda və Xankəndidə dalğalanır. Antiterror tədbirlərindən sonra ölkəmizin təkcə coğrafi xəritəsində deyil, sosial və quruculuq sahəsində də çox böyük dəyişiklik baş vermişdir. Az qala hər gün yeni bir ünvanın, yeni bir infrastruktur obyektinin bünövrəsi qoyulur, yeni bir ocaqda işıq yanır. Vaxtilə erməni quldur birləşmələrinin xaraba qoyduğu Qarabağ və Şərqi Zəngəzurun yaşayış məskənlərində abad və yaraşıqlı şəhər və kəndlər salınır.

İşğaldan azad edilmiş ərazilərdə vətəndaşların öz konstitusion hüquqlarından istifadə edə bilməsi dövlət idarəetməsinə inam artıb. Qarabağ və Şərqi Zəngəzurda dövlət idarəetmə strukturlarının formalaşdırılması, o cümlədən məhkəmələrin, hüquq-mühafizə orqanlarının fəaliyyətə başlaması, yerli özünüidarəetmə sisteminin yaradılması, insanların hüquq və azadlıqlarının qorunması üçün əsaslı addımlardır.

Prezident cənab İlham Əliyevin yolu aydın məqsədlərə, nəcib amillərə, sülhə, dostluğa söykəndiyi üçün həmişə uğurlu olub. Dövlət başçısının ölkənin sosial-iqtisadi həyatındakı uğurları, beynəlxalq aləmdəki qazandığı nüfuz, xalqın rifahı, təhlükəsizlik sahəsində həyata keçirdiyi tədbirlər, ona xalqımız arasında sonsuz məhəbbət qazandırmışdır. Möhtərəm Prezident İlham Əliyev qeyd etmişdir: "Dövlətlər zəif olmur, onların rəhbərləri zəif olur. Qələbə qazanmaq bacarığı isə yalnız güclü lideri olan dövlətlərə və xalqlara nəsib ola bilər".

Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-nin Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü və 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi müasir hüquqi dövlət quruculuğu modelinin təkmilləşdirilməsi, suverenlik və təhlükəsizlik konsepsiyalarının daha da möhkəmləndirilməsi istiqamətində atılan məqsədyönlü addımların bariz nümunəsidir.

28 dekabr 2024-cü il tarixli Sərəncam 2025-ci ilin Konstitusiyanın qəbul edilməsinin 30-cu və 44 günlük Vətən müharibəsində Qələbənin 5-ci ildönümü nəzərə alınaraq imzalanmışdır. "Konstitusiya və Suverenlik İli" təşəbbüsü isə dövlətimizin hüquqi əsaslarının daha da möhkəmləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə suverenliyimizin gücləndirilməsi məqsədi daşıyır.

Konstitusiya dövlətin müstəqilliyini və suverenliyini təmin etmək üçün əsas sənəddir. Bu baxımdan, "Konstitusiya və Suverenlik İli" təşəbbüsü hüquqi bazanın daha da möhkəmləndirilməsinə, dövlət idarəetməsində şəffaflığın artırılmasına yönəlmiş strateji addım kimi qiymətləndirilməlidir.

**Orxan RZAYEV,**
**Konstitusiya Məhkəməsi Aparatının baş məsləhətçisi.**

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

## Yanvarın 17-də Konstitusiya Məhkəməsində 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib

Tədbirin əvvəlində respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin və müharibə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan sədr Fərhad Abdullayev bildirdi ki, 20 Yanvar faciəsi xalqımızın qürur mənbəyi, milli birlik və vətənpərvəliyimizin simvolu kimi Azərbaycan tarixinə həkk olunub. Bu hadisə ümumxalq faciə olmaqla yanaşı, tariximizin mühüm dönüş nöqtəsi, müstəqillik uğrunda mübarizəmizin başlanğıcı kimi dəyərləndirilməlidir. 20 Yanvar faciəsi tarixi yaddaşımızda hüzn günü kimi yadda qalsa da, Azərbaycan xalqının taleyinin və tarixinin fədakarlıq, eləcə də qəhrəmanlıq səhifəsidir. XX yüzilliyin sonunda müxtəlif faciələrlə üzləşən xalqımız müstəsna iradə və cəsurluq göstərərək, milli ruhun sarsılmazlığı ilə müşayiət olunan tarix yazmışdır.

Sədr çıxışında qeyd etdi ki, dinc əhaliyə qarşı törədilmiş bu ağır cinayətlə 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozuldu.

Fərhad Abdullayev bildirdi ki, 1990-cı ilin 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət ilk dəfə Ulu Öndər Heydər Əliyevin qətiyyəti sayəsində verildi.  Faciənin növbəti günü Ümummilli Lider onun layiqli davamçısı və ən yaxın silahdaşı cənab İlham Əliyevlə birgə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək, verdiyi cəsarətli bəyanatı ilə faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Heydər Əliyevin 1993-cü ildə xalqın arzusu və təkidi ilə hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması istiqamətində dövlət səviyyəsində mühüm addımlar atıldı. Məhz onun təşəbbüsü və göstərişi ilə Milli Məclisin “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” Qərarı qəbul edildi. Bu Qərarla baş vermiş faciə hərbi təcavüz və cinayət kimi qiymətləndirilərək, 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi.

Sədr çıxışında bildirdi ki, bu gün Ulu Öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 20 Yanvar faciəsində qətlə yetirilənlərin, müharibə veteranlarının, şəhid ailələrinin, əlillərin problemlərinin həllini dövlətin mühüm vəzifələrdən biri kimi müəyyənləşdirməklə, bu istiqamətdə böyük tədbirlərin həyata keçirilməsinə nail olub. Dövlət başçısının 2006-cı il yanvarın 19-da 20 Yanvar şəhidlərinin ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi ilə bağlı Fərmanı şəhidlərin xatirəsinə xüsusi diqqətin təzahürüdür.

Qeyd olundu ki, tarixin müxtəlif dövrlərində xalqımıza qarşı törədilən cinayətlər onun öz müstəqilliyi, azadlığı uğrunda, mübarizə əzmini qıra bilmədi. 20 Yanvar şəhidlərinin qəhrəmanlıq salnaməsi, müqəddəs amal uğrunda mübarizələri 44 günlük Vətən müharibəsi iştirakçıları tərəfindən də şücaətlə davam etdirildi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun torpaqlarımızı işğaldan azad etməsi respublikamızın suverenliyinin, ərazi bütövlüyünün tam bərpasına və xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrildi.

Sədr çıxışında Dövlət Başçısının 7 yanvar 2025-ci il tarixində yerli televiziya kanallarına verdiyi müsahibəsinə toxunaraq, qeyd etmişdir ki, cənab Prezident çox dəqiqliklə beynəlxalq vəziyyəti, yaranmış reallıqları ictimaiyyətin diqqətinə çatdırdı. Bu reallıqlar ondan ibarətdir ki, Azərbaycan beynəlxalq proseslərdə getdikcə mühüm rol oynayan, öz maraqlarını bu çətin tarixi mərhələdə bacarıqla və məharətlə müdafiə edən dövlətə çevrilib. Ölkə Başçısı vurğuladı ki, İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri Ermənistanda çox ciddi qəbul edilməlidir və Ermənistan silahlanma yarışında Azərbaycanla rəqabət apara bilməz. Çünki dünya tarixində ərazi bütövlüyünü öz gücü ilə bərpa edən ikinci ölkə olmayıb. Dövlət Başçısı sülh müqaviləsinə toxunaraq ümidvar olduğunu bildirdi ki, sülh müqaviləsi ilə bağlı Azərbaycanın bütün şərtləri də qəbul edilməlidir.

Tədbirin sonunda Sədr vurğuladı ki, 20 Yanvar faciəsi xalqımızın azadlıq və suverenlik uğrunda apardığı mübarizənin dönməzliyini bütün dünyaya nümayiş etdirdi, milli azadlıq hərəkatının müstəqilliyə doğru irəliləməsində ciddi dönüş nöqtəsi oldu. Tariximizin milli qürur günü sayılan 1990-cı ilin 20 Yanvar hadisəsi ilə Azərbaycan xalqı azadlığı, suverenliyi və müstəqilliyi uğrunda mübarizəsini dünyaya sübut etdi. 20 Yanvar şəhidlərinin əziz xatirəsi millətimizin yaddaşında daim yaşayacaq və ehtiramla yad ediləcək.

**Konstitusiya Məhkəməsinin kollektivi**
**Şəhidlər xiyabanını ziyarət etmişdir**




20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Konstitusiya Məhkəməsinin kollektivi Şəhidlər xiyabanını ziyarət etmişdir.

Ölkəmizin azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin məzarları üzərinə tər qərənfillər düzülmüş, onların xatirəsi ehtiramla yad olunmuşdur.



## Konstitusiya Məhkəməsi Aparatının 2024-cü il üzrə hesabat iclası keçirilib

Yanvarın 28-də Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Aparatının 2024-cü ilin yekunlarına həsr olunmuş hesabat iclası keçirilib.

İclası açan Fərhad Abdullayev bildirib ki, bu gün banisi Ulu Öndər Heydər Əliyev olan müasir Azərbaycan dövləti ən yüksək inkişaf mərhələsini yaşayır. Tarixin ən mühüm və taleyüklü məsələsi Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun parlaq Qələbəsi və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün tam bərpa edilməsi oldu. Bu gün azad edilmiş ərazilərdə dövlətimizin Əsas Qanunu olan – Konstitusiyanın hüquqi qüvvəsi bərpa olunub.

Dövlət başçısı İlham Əliyevin rəhbərliyi və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə böyük müvəffəqiyyətlə icra olunan bərpa-quruculuq işləri Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi ilə bağlı konstitusiya prinsipinin təmin edilməsinin daha bir əyani göstəricisidir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Prezidentinin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib. Qeyd edilib ki, bu Sərəncamı rəhbər tutaraq Konstitusiya Məhkəməsi bu il bir sıra tədbirlərin keçirilməsini nəzərdə tutur.

Bildirilib ki, Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən ötən il daxil olmuş Ali Məhkəmənin, Baş Prokurorluğun və İnsan hüquqları üzrə müvəkkilin (ombudsman) sorğuları, məhkəmələrin müraciətləri və vətəndaşların konstitusiya şikayətləri ilə bağlı bir sıra mühüm qərarlar qəbul edilmişdir. Konstitusiya Məhkəməsinə hesabat ili ərzində ümumilikdə 2049 ərizə və konstitusiya şikayəti, onlardan 859 ərizə və konstitusiya şikayəti onlayn müraciət vasitəsilə daxil olub. Plenum tərəfindən baxılmış konstitusiya işləri ilə əlaqədar mühüm əhəmiyyətli bir sıra qərar və qərardadlar qəbul edilib. Həmin qərarlarda Konstitusiya Məhkəməsinin Plenumu cinayət və cinayət prosessual qanunvericiliyin, mülki və mülki prosessual qanunvericiliyin, habelə əmək, inzibati xətalar və digər bir sıra qanunların normalarına rəsmi şərh vermiş, qərardadlarda isə tətbiqedici orqanlar üçün praktiki izahlar vermişdir. Digər məsələlər üzrə konstitusiya şikayətləri mü-

vafiq açıqlamalarla aidiyyəti orqanlara göndərilmiş və ya Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid olmadığına görə imtina edilmişdir.

Vurğulanıb ki, 2024-cü ilin mühüm hadisələrindən biri fevralın 7-də növbədənkənar Prezident seçkilərinin keçirilməsi olub. Bununla bağlı fevralın 13-də Konstitusiya Məhkəməsində növbədənkənar Prezident seçkilərinin nəticələrinin rəsmən elan olunmasına dair Konstitusiya Məhkəməsi Plenumunun iclası keçirilib.

Sədr qeyd edib ki, Konstitusiya Məhkəməsinin Plenumu ötən ilin iyunun 27-də Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il 21 iyun tarixli "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinə müraciət edilməsi barədə" Qərarı əsasında Azərbaycan Respublikası Milli Məclisinin buraxılmasının və növbədənkənar seçkilər təyin edilməsinin Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğuna dair sorğusuna baxıb. Daha sonra sentyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə keçirilmiş növbədənkənar seçkilərin nəticələri Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən təsdiqlənib.

Bildirilib ki, 2024-cü ilin oktyabr ayında Konstitusiya Məhkəməsi Elm və Təhsil, Gənclər və İdman nazirlikləri ilə birlikdə Xankəndi şəhərində yerləşən Qarabağ Universitetinin tələbələri, habelə Xankəndi və Şuşa şəhərləri, Füzuli, Laçın, Zəngilan və Xocalı rayonlarının orta təhsil müəssisələrinin yuxarı sinif şagirdləri arasında "Zəfər çalmış dövlətin Əsas Qanunu" mövzusunda hüquq olimpiadası təşkil edib və qaliblər mükafatlandırılıb.

Diqqətə çatdırılıb ki, ötən il ölkəmiz dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29), eyni zamanda, Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasına və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasına ev sahibliyi edib.

Konstitusiya Məhkəməsinin nümayəndələri COP29 çərçivəsində keçirilmiş konfrans və seminarlarda iştirak ediblər. Ötən il sentyabrın 18-20-də Asiya Konstitusiya Məhkəmələrinin və Ekvivalent İnstitutlar Assosiasiyasının 6-cı Konqresində Konstitusiya Məhkəməsinin nümayəndə heyəti iştirak edib. Konqresin yekununda qəbul edilən Banqkok Bəyannaməsində Asiya ölkələrinin Konstitusiya Məhkəmələri Bakı şəhərində keçirilən COP29 tədbirinə öz dəstəklərini ifadə etmişlər.

İclasda Aparat rəhbərliyinin çıxışları, Aparatın müvafiq şöbə və sektor müdirlərinin hesabatları dinlənilib. Həmçinin Konstitusiya Məhkəməsinə

daxil olan sorğu, müraciət və konstitusiya şikayətlərində toxunulan hüquqi aspektlər, məhkəmə tərəfindən qəbul edilən qərarların icrası, tərtib olunan analitik arayış və rəylər, habelə təşkilati məsələlərlə bağlı məruzələr dinlənilib.

Sədr yekun nitqi ilə çıxış edərək diqqətə çatdırdı ki, Konstitusiya Məhkəməsi müəllifi Ulu Öndər Heydər Əliyev olan Əsas Qanunun aliliyinin təmin edilməsi, demokratik, hüquqi dövlət quruculuğu prosesinin möhkəmlənməsi və qanunçuluğun qorunması istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli və mütərəqqi fəaliyyətinə dəstək olaraq üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaq.

Hesabat iclasının sonunda Fərhad Abdullayev 2024-cü ildə görülmüş işləri qənaətbəxş qiymətləndirməklə yanaşı, qurumun fəaliyyətinin səmərəliliyinin artırılması məqsədilə hakimlərin icraatında olan işlərlə bağlı tövsiyələr etmiş, cari ildə Konstitusiyanın qəbul olunmasının 30 illik yubileyi ilə bağlı beynəlxalq konfransın və digər tədbirlərin keçirilməsi ilə əlaqədar təşkilati işlərin başlanması üçün müvafiq tapşırıqlar vermişdir.

## Gələcəyə baxış: Yeni reallıqlar şəraitində suverenliyin möhkəmləndirilməsi

Cari ilin fevral ayının 21-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Yüksəliş" müsabiqəsinin iştirakçılarının təşəbbüsü ilə "Gələcəyə baxış: Yeni reallıqlar şəraitində suverenliyin möhkəmləndirilməsi" mövzusuna həsr olunan forum keçirilmişdir. Forumda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və dövlətin digər rəsmi şəxsləri iştirak etmişlər.

Konstitusiya Məhkəməsinin sədri tədbirdə çıxış edərək demişdir: "Qanunvericilik bazamız daha da təkmilləşdirilməlidir. İstənilən dövlət üçün onun suverenliyi, ərazi bütövlüyü, müstəqilliyi ən vacib şərtdir".

O bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyasının preambulasında müstəqillik, suverenlik və dövlətimizin prioritetləri öz əksini tapıb: "Bütün konstitusiyalarda tarixi irsə hörmət və gələcəyə ümid prinsipləri əks olunur. Azərbaycan Konstitusiyasında da bu qeyd edilib".

Konstitusiyanın uzunömürlü və mükəmməl hüquqi sənəd olduğunu vurğulayan Konstitusiya Məhkəməsinin sədri qeyd edib ki, onun üçdəbir hissəsi insan hüquq və azadlıqlarına həsr olunub: "Lakin Konstitusiya yalnız hüquqları deyil, vəzifələri də müəyyən edir. Qəbul edilən bütün qanunlar Konstitusiyaya əsaslanmalıdır. Mövcud reallıqlar nəzərə alınaraq, qanunvericilik bazamızın bundan sonra daha da təkmilləşdirilməsi vacibdir".

Fərhad Abdullayev məhkəmə hakimiyyətinin dürüst işləməsi üçün geniş imkanların olduğunu qeyd edib: “Zaman keçdikcə yeni çağırışlar islahatları zəruri edir. Bu baxımdan, etimad reytinqi anlayışı mühüm əhəmiyyət kəsb edir. Cəmiyyətin məhkəmə sisteminə inamı gücləndirilməlidir.

Məhkəmə prosesində iki tərəf iştirak edir və onlardan biri nəticədən narazı qala bilər. Lakin əsas məsələ odur ki, qərarlar qanun çərçivəsində və ədalətli şəkildə verilsin. Əgər bu prinsip təmin olunarsa, narazı tərəf zamanla məhkəmənin obyektivliyini anlayacaq”.

### Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar Konstitusiya Məhkəməsində anım tədbiri keçirilmişdir

Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hakimləri və Aparatın əməkdaşları faciə qurbanlarının xatirəsinə ucaldılmış Xocalı soyqırımı abidəsini ziyarət etmişlər, daha sonra Konstitusiya Məhkəməsində anım tədbiri keçirilmişdir.

Tədbirin əvvəlində soyqırımı qurbanlarının və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri açan sədr Fərhad Abdullayev Xocalı faciəsindən danışaraq qeyd etdi ki, Azərbaycan xalqına qarşı törədilmiş bu soyqırımı ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktı, insanlığa yönəldilmiş qatı cinayətdir.

Sədr bildirdi ki, Ermənistan tərəfindən Azərbaycana qarşı başlanan müharibənin səbəbləri və nəticələrinin ümumi qiymətləndirilməsi, Xocalıdakı faciənin bütün mövcud faktları qəti şəkildə sübut edir ki, bu soyqırımı sıradan və təsadüfi hərəkət deyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub.

Vurğulanıb ki, Azərbaycan Respublikasına qarşı davam edən təcavüz fonunda Ermənistan tərəfindən törədilmiş insanlıq əleyhinə cinayətlər insan hüquqları və beynəlxalq humanitar hüququn, xüsusilə 1949-cu il Cenevrə Konvensiyası və bir sıra konvensiyaların kobud şəkildə pozulmasıdır.

Qeyd olunub ki, bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımına yalnız Ümummilli Lider Heydər Əliyev hakimiyyətə yenidən qayıtdıqdan sonra siyasi-hüquqi qiymət verilərək, Xocalı həqiqətlərinin dünyaya və beynəlxalq aləmə çatdırılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılmışdır. Hazırda bu soyqırımını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müstəsna xidmətləri və gərgin əməyi nəticəsində xalqımıza qarşı törədilən deportasiyalar, soyqırımılar, terrorlar və insanlığa sığmayan vəhşiliklərlə və digər cinayətlər barədə tarixi reallıqların dünya ictimaiyyətinə çatdırılmasına, onlara beynəlxalq səviyyədə obyektiv və ədalətli münasibət bildirilməsinə müvəffəq olunmuşdur. Xocalı qətliamının dünya dövlətləri tərəfindən tanıdılması, faciə qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, onların ailə üzvlərinin və yaxınlarının sosial müdafiəsinin gücləndirilməsi daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdə gördüyü işlər olduqca təqdirəlayiqdir, onun rəhbərliyi ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünya ictimaiyyətinə ötürülməsi istiqamətində çoxsistemli və ardıcıl fəaliyyət göstərir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış “Xocalıya ədalət!” beynəlxalq kampaniyası faciənin mənəvi və siyasi-hüquqi tanınmasına yönəlməklə dünyanın bir çox ölkələrində uğurla həyata keçirilir. Bu kampaniyanın nəticəsi olaraq İslam Əməkdaşlıq Təşkilatı ermənilərin Xocalıda törətdiyi mənfur əməlləri “insanlığa qarşı kütləvi cinayət” kimi tanıyıb və üzv dövlətləri bu faciəyə lazımi siyasi-hüquqi qiymət verməyə çağırıb.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun Vətən müharibəsində böyük Qələbəsi nəticəsində işğal altındakı torpaqlarımızın azad edilməsi otuz il davam edən işğala və ədalətsizliyə son qoyuldu, respublikamızın ərazi bütövlüyü bərpa olunaraq beynəlxalq hüquq normalarının aliliyi təmin edildi.

Sədr qeyd edib ki, Azərbaycan Silahlı Qüvvələrinin Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin Qarabağda yerləşən hərbi birləşmələrindən Xocalı şəhərinin tamamilə təmizlənməsi və Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin Xocalıda Azərbaycanın üçrəngli bayrağını ucaltması soyqırımı qurbanlarının qanının yerdə qalmadığını, onların qisasının alındığını sübut etdi.

Qeyd olunub ki, hazırda Xocalıda bərpa və yenidənqurma işləri sürətlə davam etdirilir. Əzəli yurdlarına qayıdan keçmiş köçkün ailələri artıq müasir tipli evlərlə təmin olunmaqla yanaşı, şəhərin infrastrukturu da yenidən qurulur. Bir vaxtlar torpağı qanla yoğrulan bu doğma yurd yeri indi dövlətin dəstəyi ilə addım-addım, qarış-qarış yenidən dirçəlir.



Diqqətə çatdırılıb ki, fevralın 19-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb.

Bildirilib ki, Ermənistan silahlı qüvvələri tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma "Dağlıq Qarabağ respublikası" Azərbaycan xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə açıq məhkəmə iclasları keçirilir. İllər sonra Azərbaycan qanunvericiliyi ilə erməni əsilli cinayətkarların mühakiməsi hüququn və ədalətin bərpasının göstəricisidir.

Tədbirin sonunda Sədr vurğuladı ki, Azərbaycan xalqı torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəmanların, qətlə yetirilmiş yüzlərlə həmvətənlərimizin xatirəsini daim əziz tutur, onları ehtiramla yad edir.

**Konstitusiya Məhkəməsinin sədri Tiranada beynəlxalq konfransda iştirak etmişdir**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Albaniya Respublikası Kon-






stitusiya Məhkəməsinin sədri Holta Zaçayın dəvəti ilə cari ilin fevral ayının 28-də Avropa Konstitusiya Məhkəmələri Konfransı (Təşkilatına) üzv olan konstitusiya ədalət mühakiməsi orqanlarının sədrlərinin iclasında iştirak etmək üçün Tirana şəhərində səfərdə olmuşdur.

Tədbir çərçivəsində Avropa Konstitusiya Məhkəmələri Konfransının XX Konqresinin keçirilmə tarixi və mövzusu, milli hesabatların təqdim edilməsi, müşahidəçilərin Konqresə dəvət edilməsi və digər praktiki məsələlərə baxılmışdır.

Səfər zamanı bir sıra Avropa ölkələrin Konstitusiya Məhkəmələrinin sədr və hakimləri ilə məhkəmə-hüquq məsələləri müzakirə edilmişdir.

**Konstitusiya Məhkəməsi ilə Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb**



Martın 14-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Konstitusiya Məhkəməsinin birgə təşkil etdiyi "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin innovativ dövlət idarəçiliyi siyasəti: suverenliyə aparan yol" mövzusunda seminar keçirilmişdir.



Tədbirin açılışında çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev vurğulayıb ki, Konstitusiya Məhkəməsi ilə ali təhsil və elm müəssisələri arasında daima sıx əməkdaşlıq əlaqələri mövcuddur. Bu baxımdan, Konstitusiya Məhkəməsi gənclər arasında hüquqi biliklərin artırılması və gənclərin dövlətin Əsas Qanununda təsbit edilmiş dəyər və prinsiplər haqqında məlumatlandırılmasına böyük diqqət yetirir.

Daha sonra Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov geniş təqdimatla çıxış edərək bildirdi ki, ölkədə aparılan effektiv dövlət idarəçilik siyasəti nəticəsində Azərbaycan Respublikası dinamik və sürətli inkişaf edərək müasir iqtisadi və sosial cəhətdən dünyanın ən qabaqcıl ölkələri sırasında yer almışdır. Bu nailiyyətlərin əsasında ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən yeni dövlət idarəçilik siyasəti durur.

Tədbirdə Konstitusiya Məhkəməsi və Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb.

Yekun nitqi ilə çıxış edən Fərhad Abdullayev imzalanmış Memorandumun hər iki qurum arasında hüquqi əməkdaşlıq əlaqələrinin genişləndiriləcəyini bildirmişdir. Diqqətə çatdırılıb ki, Memorandumun əsas məqsədi Konstitusiya Məhkəməsi ilə Dövlət İdarəçilik Akademiyası arasında insan hüquqlarının təbliği, tədrisi və tətbiqi sahəsində əməkdaşlığın inkişaf etdirilməsidir.



Tədbirin sonunda akademik Urxan Ələkbərov qarşılıqlı əlaqələrin inkişafına verilən töhfəyə görə Konstitusiya Məhkəməsinə təşəkkürünü bildirib.

## X.R.Vəliyevin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı



Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə və 130-cu maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Xanlar Rüstəm oğlu Vəliyev Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə QAFAROVA,**
**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri**

*Bakı şəhəri, 11 aprel 2025-ci il*

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində hakim Rafael Qvaladzenin səlahiyyət müddətinin başa çatması və yeni təyin olunmuş hakim Xanlar Vəliyevin kollektivə təqdim edilməsi ilə bağlı tədbir keçirilib

Aprelin 14-də Konstitusiya Məhkəməsində hakim Rafael Qvaladzenin səlahiyyət müddətinin başa çatması və Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Milli Məclisin qərarı ilə məhkəmənin yeni təyin edilmiş hakimi Xanlar Vəliyevin kollektivə təqdim olunması ilə bağlı tədbir keçirilib. Tədbirdə Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər.

Tədbirdə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxışında ölkəmizdə hüquqi dövlət quruculuğunun Ulu Öndər Heydər Əliyevin adı ilə bağlılığını, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə məhkəmə-hüquq sahəsində həyata keçirilən mütərəqqi islahatları, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsi, hüququn aliliyinin təmin edilməsi və vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində atılan mühüm addımları xüsusilə qeyd edib.

Fərhad Abdullayev çıxışında Rafael Qvaladzenin tanınmış hüquqşünas kimi hüquqi dövlət quruculuğu, ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində uzun illər məsul vəzifələrdə uğurlu fəaliyyətindən, məhkəmə-hüquq sistemində xidmətlərindən bəhs edərək, onun Konstitusiya Məhkəməsinin hakimi kimi hər zaman yüksək peşəkarlıqla fərqləndiyini, insan hüquq və azadlıqlarının müdafiəsi, milli qanunvericiliyin Konstitusiyanın müddəaları nəzərə alınmaqla təkmilləşməsi və müx-

təlif sahələrdə hüququn tətbiqi təcrübəsinin daha da inkişaf etdirilməsi istiqamətində səylərini vurğuladı.

Sədr Fərhad Abdullayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təltif edilən Rafael Qvaladzeyə məhkəmə orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenini təqdim etdi.

Rafael Qvaladze dövlət başçısı İlham Əliyevə onun fəaliyyətini yüksək qiymətləndirdiyinə görə dərin minnətdarlığını bildirdi.

Daha sonra sədr yeni təyin olunmuş hakimi kollektivə təqdim edərək bu təyinatın rəhbərlik etdiyi qurum üçün önəmini vurğulayıb və Xanlar Vəliyevi təbrik edərək ona gələcək hakim fəaliyyətində uğurlar arzulayıb.

Sədr Fərhad Abdullayev Xanlar Vəliyevin keçdiyi yola nəzər salaraq qeyd etmişdir ki, o hüquq-mühafizə orqanlarında müxtəlif məsul vəzifələrdə həyata keçirdiyi fəaliyyəti ilə daim yüksək peşəkarlıq göstərmiş, milli dövlətçiliyimizə qarşı yönəlmiş qəsdlərin qarşısının alınmasında, ədalətin bərqərar olunması naminə görülən işlərdə hər zaman prinsipiallıq nümayiş etdirmişdir. Həmçinin Xanlar Vəliyevin Konstitusiya Məhkəməsinin hakimi kimi yüksək və məsuliyyətli vəzifədə də öz bilik və bacarığını dövlətçiliyimizin, konstitusional hüququn və insan hüquq və azadlıqlarının müdafiəsinə yönəldəcəyinə, Konstitusiya Məhkəməsinin fəaliyyətinə dəyərli töhfələr verəcəyinə əminliyi ifadə edib.

Sonda Xanlar Vəliyev ona göstərilən etimada görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin təşəkkürünü bildirib, gələcək hakim fəaliyyətində Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin 63-cü ildönümü münasibətilə "XXI əsrdə Konstitusiya Ədalət Mühakiməsinin Gələcəyi" mövzusunda keçirilmiş simpoziumda iştirak etmişdir

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Kadir Özkayanın dəvəti ilə 25-26 aprel tarixlərində Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin 63-cü




ildönümü münasibətilə “XXI əsrdə Konstitusiya Ədalət Mühakiməsinin Gələcəyi” mövzusunda keçirilmiş simpoziumda iştirak etmək üçün İstanbul şəhərində səfərdə olmuşdur.

Tədbirin rəsmi hissəsində Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan Dolmabahçe Sarayında iştirakçıları salamlamış və onlarla xatirə şəkli çəkdirmişdir.





Simpoziumun əvvəlində Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya 34 ölkənin konstitusiya nəzarəti orqanlarının sədrlərini, hakimlərini və digər qonaqları salamlayaraq açılış nitqi ilə çıxış etmişdir.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev tədbirdə çıxış edərək Türkiyə Respublikası Konstitusiya Məhkəməsini yaradılmasının 63-cü ildönümü münasibətilə təbrik etmiş, gələcək fəaliyyətlərində hüquq və ədalətin, insan hüquq və azadıqlarının müdafiəsi və konstitusiya prinsiplərinin aliliyinin təmin olunması sahəsində səylərinin davam etdirilməsində əmin olduğunu ifadə etmişdir.

Simpoziumun praktiki hissəsində XXI əsrdə konstitusiya ədalət mühakiməsinin gələcəyi, rəqəmsal dövrdə konstitusiya ədalət mühakiməsi, konstitusiya ədalət mühakiməsində yeni çağırışlar və imkanlar, eləcə də digər hüquqi məsələlər üzrə məruzələr dinlənilmiş və geniş fikir mübadiləsi aparılmışdır.

Tədbir çərçivəsində 27 aprel tarixində Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransı (TÜRK-AY) Təşkilatına üzv olan ölkələrin Konstitusiya Məhkəmələrinin iclasında Təşkilata müvəqqəti sədrlik səlahiyyətləri rəsmi olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinə verilmişdir.

Səfər çərçivəsində xarici ölkələrin konstitusiya nəzarəti orqanlarının sədrləri və hakimləri ilə məhkəmə-hüquq sahəsində fikir mübadiləsi aparılmışdır.

## “Konstitusiya və Suverenlik İli” nə həsr olunmuş hüquq olimpiadasının qalibləri mükafatlandırılıb

Aprelin 30-da Qaradağ rayonu Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birgə təşkil edilmiş “Konstitusiya və Suverenlik İli” adlı hüquq olimpiadasının qaliblərinin mükafatlandırılma mərasimi keçirilib.




Tədbirdən öncə iştirakçılar Qaradağ rayonunda Ulu Öndər Heydər Əliyevin abidəsini və muzeyini ziyarət ediblər.

Bakı şəhəri Qaradağ rayonunda yerləşən 10 orta məktəbin 200 nəfər yuxarı sinif şagirdləri arasında keçirilən hüquq olimpiadasının mükafatlandırılma mərasimində Konstitusiya Məhkəməsi Aparatının məsul əməkdaşları, Elm və Təhsil Nazirliyinin və Qaradağ rayonu İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirin əvvəlində Konstitusiya Məhkəməsinin məsul nümayəndəsi sədr Fərhad Abdullayevin hüquq olimpiadası iştirakçılarına təbrik müraciətini çatdırdı və “Konstitusiya və Suverenlik İli” nə həsr olunmuş tədbirinin yüksək səviyyədə təşkil olunmasında Elm və Təhsil Nazirliyinə və Qaradağ rayon İcra Hakimiyyətinə, iştirak edən bütün məktəblərin direktor və müəllimlərinə, şagirdlərə təşəkkürünü bildirdi.



Bildirildi ki, Konstitusiya Məhkəməsi tərəfindən gənclər arasında konstitusion dəyərlərin təbliği məqsədilə ənənəvi olaraq olimpiadalar təşkil olunur, maarifləndirmə işləri aparılır. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi gənclərin hüquqi tərbiyəsinin yüksəldilməsinə, onların hüquqi dövlət quruculuğunda fəal iştiraklarına, konstitusiya – hüquq əsaslarının və prinsiplərinin daha da dərindən öyrənmələrinə daim diqqət yetirir.

Daha sonra Elm və Təhsil Nazirliyinin və Qaradağ rayonu İcra Hakimiyyətinin nümayəndələri çıxış edərək, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan hüquqi dövlət quruculuğu və gənclərin hüquq sahəsində dünya görüşlərinin artırılmasının vacibliyini vurğulayıblar. Qeyd olundu ki, çoxəsrlik dövlətçilik ənənələrini davam etdirən Azərbaycan xalqı 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə Konstitusiyasını qəbul etmişdir. Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu ilk milli Konstitusiyanın qəbulu hüquqi dövlətin qurulmasında mühüm dönüş nöqtəsi olmuşdur.

Tədbirin sonunda yüksək nəticə əldə edən şagirdlər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təsis etdiyi müxtəlif hədiyyə və diplomlarla təltif ediliblər.

## Bakıda Konstitusiyanın dövlətçilik roluna həsr olunmuş beynəlxalq konfrans keçirilib

Mayın 1-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) və Bakı Dövlət Universitetinin (BDU) Hüquq fakültəsinin birgə təşkilatçılığı ilə "Konstitusiya – dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasında mühüm hüquqi bazadır" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransdan əvvəl Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda həyatını itirən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.

BMTM-in baş məsləhətçisi Mətin Məmmədlinin moderatorluğu ilə keçirilən konfransda çıxış edən Mərkəzin İdarə Heyətinin sədri Fərid Şəfiyev konstitusiyanın dövlətin daxili idarəçiliyini müəyyənləşdirən sənəd olmaqla yanaşı, onun beynəlxalq arenada davranışlarını formalaşdıran əsas hüquqi baza yaratdığını bildirib.

Qloballaşan dünyada dövlətlərin suverenliklərinə və daxili işlərinə təzyiqlərin artdığını deyən F.Şəfiyev hüquqi bazanın möhkəmliyinin dövlətin müdafiə mexanizmlərindən biri olaraq çıxış etdiyini diqqətə çatdırıb. Bildirib ki, dünyada baş verən proseslərə uyğun Konstitusiyaya dəyişikliklər edilə bilər. Bu, imkan verir ki, xaricdən gələn çağırışlara cavab verək. Bu çağırışlar hazırda da davam edir. Daxili siyasət və iqtisadiyyatın möhkəmləndirilməsində Konstitusiya və digər qanunvericilik aktları vacib rol oynayır.

BDU-nun Elm və İnnovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul olunmuş Konstitusiya dövlət quruculuğunda və vətəndaş cəmiyyətinin formalaşmasında əsaslı dönüş nöqtəsi olub. Onun sözlərinə görə, Konstitusiyamız əldə edilən tarixi nailiyyətlərin hüquqi əsasını təşkil edir. H.Məmmədov Ulu Öndərin Azərbaycanın intellektual potensialının formalaşmasındakı rolundan da ətraflı bəhs edib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxışında vurğulayıb ki, 1995-ci il noyabrın 12-də qəbul olunmuş Konstitusiya demokratik, hüquqi və dünyəvi dövlətin qurulması yolunda əhəmiyyətli mərhələ olub və indiyədək bu sənəd ölkəmizdə hüquqi islahatların aparılması, insan hüquq və azadlıqlarının təmin olunması, dövlət idarəçiliyinin təkmilləşdirilməsi istiqamətində bünövrə rolunu oynayıb.




Maliyyə nazirinin birinci müavini Anar Kərimov qeyd edib ki, Konstitusiya hər bir müstəqil dövlətin varlığının hüquqi əsasını təşkil edən sənəddir, o yalnız siyasi və hüquqi sistemin deyil, eyni zamanda, iqtisadi idarəçiliyin də əsaslarını müəyyənləşdirir. Onun sözlərinə görə, Azərbaycan Respublikasının Konstitusiyası dövlətin iqtisadi fəaliyyətinin hüquqi çərçivəsini dəqiq şəkildə təsbit edir və maliyyə sisteminin formalaşdırılmasında mühüm rol oynayır. A.Kərimov, həmçinin son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatların məhz Konstitusiyada müəyyən edilmiş məqsədlərə – əhalinin rifahının yüksəldilməsi, iqtisadi sabitliyin qorunması və sosial bərabərliyin təmin olunmasına xidmət etdiyini diqqətə çatdırıb.

Daha sonra Balıkesir Universitetinin rektoru Yücel Oğurlu Türkiyənin bu sahədə təcrübələrini bölüşərək, Konstitusiyanın təkcə hüquqi sənəd olmadığını, eyni zamanda, xalqın suverenliyinin, dövlətin müstəqilliyinin və milli birliyin təminatı olduğunu diqqətə çatdırıb. Y.Oğurlunun fikrincə, konstitusiyalar yalnız dövlətin daxili idarəçiliyini deyil, onun beynəlxalq münasibətlərdəki mövqeyini də formalaşdırır.

Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynov Konstitusiyanın ölkənin hüquqi portreti olduğunu bildirib. Onun sözlərinə görə Konstitusiya həm də beynəlxalq birliyə qoşulan dövlət tərəfindən təqdim

edilən bəyannamədir. Konstitusiya beynəlxalq birlikdə dövlətin yerini göstərir, bu sənəd daxili faktorlara və ümumbəşəri dəyərlərə əsaslanmalıdır.

BDU-nun Hüquq fakültəsinin dekanı Zaur Əliyev Konstitusiya və İnsan hüquqları mövzusunda geniş təqdimatla çıxış edib. Konstitusiyamızın hazırda bütün ərazimizi əhatə etdiyini deyən Z.Əliyev Azərbaycanda hüquq sahəsində ilk islahatların əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edib.

Tədbir daha sonra BDU tələbələrinin və hüquq ictimaiyyətinin nümayəndələrinin fəal iştirakı ilə interaktiv və elmi fikir mübadiləsi formasında davam etdirilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş ilk Konstitusiyamız son otuz ildə dövlətimizin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin təmin edilməsi kimi əsas məqsədlərimizin həyata keçirilməsi üçün vacib hüquqi baza rolunu oynayıb.

## Konstitusiya Məhkəməsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş konfrans keçirilib

Mayın 7-də Konstitusiya Məhkəməsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyası: müasir hüquqi dövlətçiliyinin təməli kimi" mövzusunda elmi-nəzəri konfrans keçirilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin əvəzsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq rolundan danışaraq ölkəmizdə müstəqilliyin bərpasından sonra Ümummilli Liderin xalqın təkidli tələbi nəticəsində hakimiyyətə qayıtmasının Azərbaycan dövlətçiliyini ciddi təhlükələrdən xilas etdiyini, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını, bütün sahələrdə qazanılan uğurların dahi rəhbər Heydər Əliyev siyasətinin bəhrəsi olduğunu qeyd edib.

Sədr Azərbaycan tarixinin bütöv bir mərhələsinin Ümummilli Liderin adı ilə bilavasitə bağlı olduğunu, görkəmli siyasətçi Heydər Əliyevin



Vətənin müstəqilliyi, inkişafı, xalqın milli-mənəvi tərəqqisi üçün önəmli işlər həyata keçirdiyini, Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun təməlini qoyaraq inkişaf etdirdiyini vurğulayıb.

Dahi şəxsiyyət Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinin, siyasi irsinin əhəmiyyətindən bəhs edən Fərhad Abdullayev qeyd edib ki, 1995-ci ildə Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiya ölkəmizdə dövlətçiliyin inkişafına, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyətinin yaradılmasına və hüquq sisteminin müasir tələblərə uyğun formalaşdırılmasına geniş imkanlar açıb, həmin proses çərçivəsində ölkəmizdə ilk dəfə olaraq konstitusiya ədalət mühakiməsi institutu təsis edilib.

Vurğulanıb ki, bu gün Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının azadlığının, müstəqilliyinin qorunmasına yönələn müqəddəs ideyaları onun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilir. Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları Ulu Öndər Heydər Əliyevin siyasi-hüquqi ideyalarına uyğun olaraq qanunçuluğun və Konstitusiyanın aliliyinin daha da möhkəmləndirilməsinə, hüquqi cəmiyyətin inkişafına xidmət edir.

Sədr diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan məqsədyönlü daxili və xarici siyasətin, ordu quruculuğu strate-

giyasının müasir dövrdə Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində tarixi Zəfər qazanıb, torpaqlarımızın uzun illər davam edən işğalına son qoyularaq ərazi bütövlüyümüz, tarixi ədalət və beynəlxalq hüquq bərpa edilib. Bu Qələbə regionda yeni reallıqlar yaradaraq Konstitusiyanın hüquqi qüvvəsini və vətəndaşların konstitusiya hüquqlarının bərpasını işğaldan azad edilmiş torpaqlarımızda təmin etdi.

Vurğulanıb ki, 2023-cü ilin sentyabrında Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində rəşadətli Ordumuz dövlətimizin suverenliyini onun bütün ərazisində tam təmin etmiş və xalqımızın milli ruhunun yenilməzliyini bir daha nümayiş etdirmişdir.

Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib və bununla bağlı, ölkədə bir sıra tədbirlər keçirilməkdədir. Həmçinin, Konstitusiya Məhkəməsi tərəfindən bu il bir sıra tədbirlərlə yanaşı iyul ayında Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasının 30 illiyinə həsr edilmiş beynəlxalq konfrans təşkil ediləcək.

Konfransda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva, Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Milli Aviasiya Akademiyasının, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının nümayəndələri  iştirak ediblər.

Çıxış edənlər bildirmişlər ki, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkəmizin tarixində yeni mərhələnin başlanğıcı olub. Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi dövrdə uzaqgörənliklə atılmış addımlar, Azərbaycanda əsası qoyulan güclü sosial, mədəni, iqtisadi və intellektual sərmayələr gələcəkdə Azərbaycan xalqının istiqlaliyyət qazanması üçün zəmin yaradıb.

Daha sonra Konfransın praktiki hissəsində müxtəlif  hüquqi mövzular üzrə məruzələr təqdim edilib, geniş fikir mübadiləsi aparılıb.

Tədbirə yekun vuran Fərhad Abdullayev xüsusilə qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin ölkəmizin parlaq gələcəyinə hesablanmış






uğurlu siyasəti zamanın tələblərinə uyğun olaraq, bu gün onun siyasi varisi Dövlət Başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, Azərbaycan dünyada bir çox yeni layihələrə imza ataraq məğlubedilməz və güclü dövlətə çevrilir, hərtərəfli inkişaf edərək zəfərdən-zəfərə doğru addımlayır. Konstitusiya Məhkəməsi də öz növbəsində müəllifi Ulu Öndər Heydər Əliyev olan Əsas Qanunun aliliyinin təmin edilməsi, demokratik, hüquqi dövlət quruculuğu prosesinin möhkəmlənməsi və qanunçuluğun qorunması istiqamətində Prezident cənab İlham Əliyevin həyata keçirdiyi mütərəqqi fəaliyyətinə dəstək olaraq üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaqdır.

Tədbirin sonunda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev aprelin 25-də Bakı şəhərinin Qaradağ rayonunun orta məktəblərinin yuxarı sinif şagirdləri arasında keçirilmiş “Konstitusiya və Suvenrenlik İli” hüquq olimpiadasının qaliblərinə mükafatlar təqdim edib.

## Konstitusiya Məhkəməsinin kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib



Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, hakimləri və Aparatın məsul əməkdaşları Fəxri xiyabana gələrək, Ulu Öndər Heydər Əliyevin xatirəsini böyük hörmət və ehtiramla yad edib, abidəsi önünə gül dəstələri qoyublar.

Daha sonra Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb

## "Konstitusiya: hüquqi və demokratik islahatların mənbəyi, suverenliyin hüquqi əsası" mövzusunda konfrans keçirilib

Mayın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Konstitusiya: hüquqi və demokratik isla-



hatların mənbəyi, suverenliyin hüquqi əsası" mövzusunda elmi-nəzəri konfrans keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və digər konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə tər güllər düzüblər.

Heydər Əliyev Muzeyində olan ziyarətçilərə Ümummilli Liderin irsinin dəyərli nümunələrindən ibarət eksponatlar barədə ətraflı məlumat verilib.

Heydər Əliyev Sarayında təşkil olunan rəsm və dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgiyə baxış olub. Bütöv Azərbaycan xəritəsinin əks olunduğu xalça, Ümummilli Liderimizin portretləri, tarix və mədəniyyətimizə dair digər əsərlər maraq doğurub.

Konfransda Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra müstəqil Azərbaycan Respublikası Konstitusiyasının tarixinə həsr olunmuş videoçarx təqdim edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransda çıxış edərək bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikada yeni inkişaf mərhələsinin başlanğıcını qoyub. Proqram çərçivəsində qarşıya qoyulan prioritetlərdən biri olan institusional islahatların aparılması nəticəsində muxtar respublikanın dövlət orqanları ilə Azərbaycan Respublikasının dövlət orqanları arasında əməkdaşlığın gücləndirilməsi, inteqrasiyanın aparılmasına nail olunub. Bununla yanaşı, proqramda nəqliyyat-logistika infrastrukturunun yenilənməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal idarəetmənin tətbiqi, enerji səmərəliliyinin artırılması və əhalinin rifahının yüksəldilməsi də prioritetlər kimi müəyyən olunub.

Səlahiyyətli nümayəndə qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyətli qərarları ilə vətəndaşların pozulmuş mülkiyyət hüquqlarının bərpası istiqamətində sistemli və ədalətli tədbirlər həyata keçirilir. Uzun illər ərzində müxtəlif səbəblərdən mülkiyyət hüquqları pozulmuş minlərlə vətəndaşımızın hüquqları məhkəmə və inzibati qaydada bərpa olunur, kompensasiyalar ödənilir, qanunsuz zəbt olunmuş əmlaklar qaytarılır. Muxtar respublikada artıq 642 nəfərin hüququ bərpa olunub və bu istiqamətdə işlər davam etdirilir. Bu addımlar bir daha göstərir ki, Konstitusiyada təsbit edilmiş mülkiyyət toxunulmazlığı prinsipi dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir və hər bir vətəndaşın hüququ qorunur.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxışında vurğulayıb ki, Naxçıvan tarixin hər bir dövründə Azərbaycanın ictimai-siyasi həyatında öz çəkisi ilə xüsusi olaraq seçilib. Naxçıvan Azərbaycan dövlətçiliyinin formalaşmasında, 1990-cı illərdə xalqımızın yenidən istiqlala qovuşmasında əvəzsiz xidmətlər göstərib. 1990-1993-cü illərdə Naxçıvanda siyasi fəaliyyət göstərən Ulu Öndər Heydər Əliyev dövlətimizin həqiqi müstəqilliyinin bünövrəsini məhz burada qoyub. Ümummilli Liderin fəaliyyətinin Naxçıvan mərhələsində gördüyü işlər, atdığı addımlar 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra müstəqil dövlət quruculuğunda mühüm rol oynadı. Dərin zəkaya malik olan böyük ictimai-siyasi xadim bilirdi ki, Azərbaycanın daimi müstəqilliyinin təminatı üçün yeni ruhda yazılan və azad xalq




tərəfindən qəbul edilən müasir Konstitusiyaya ehtiyac var. 1995-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyevin şah əsəri – Azərbaycan tarixində ilk müstəqil respublikanın Konstitusiyası ümumxalq səsvermə yolu ilə qəbul edildi. Konstitusionalizm quruculuğunda növbəti mərhələ isə 1998-ci il iyulun 14-də Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılması olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılmasını olduqca mühüm addım kimi dəyərləndirən Fərhad Abdullayev qeyd edib ki, bu islahat bölgədə idarəetmə üsulunun səmərəliliyinin daha da artırılmasına, həmçinin iqtisadiyyatın inkişafına öz töhfəsini verir.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, bu il Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 illiyi ilə yanaşı, dövlət suverenliyimizin tam bərpasının və ərazi bütövlüyümüzün təmin olunmasının real nəticələrini yaşadığımız dövrdür. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi təsadüfi deyil. Bu qərar müstəqil dövlətçilik

tariximizin mühüm dövrlərini əhatə etməklə yanaşı, həm də gələcəyə hesablanmış strateji bir çağırışdır.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin də çıxışı dinlənilib.

Tədbir bədii hissə ilə davam edib.

Həmin gün tədbir iştirakçıları Naxçıvan şəhərindəki "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksi ilə tanış olublar.

Tanışlıq zamanı ərazidəki XII əsr abidəsi, Əcəmi Əbubəkr oğlunun dövrümüzə çatmış ən gözəl əsəri olan Möminə Xatun türbəsi haqqında məlumat verilib. Qeyd olunub ki, Prezident İlham Əliyev dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamla orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirən Möminə Xatun türbəsi orijinal quruluşu əsasında bərpa olunacaq.

Həmçinin Ümummilli Lider Heydər Əliyevin "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksindəki büstü də ziyarət edilib.

Daha sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və onu müşayiət edən heyətlə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində görüş təşkil olunub. Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə nazirinin müavini Hüseyn Səfərov və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin sədr və hakimləri iştirak ediblər.

Görüş zamanı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi qonaqları salamlayaraq görüşün muxtar respublikanın hüquq ictimaiyyəti üçün əhəmiyyətini vurğulayıb, qonaqlara minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək görüşdən məmnunluğunu ifadə edib, ölkədə aparılan məhkəmə və hüquq islahatlarının effektivliyinin artırılması istiqamətində məhkəmələrə fəaliyyətlərində uğur arzulayıb.

Sonda xatirə hədiyyələri təqdim olunub.

### Bakıda Ombudsmanların Beynəlxalq Simpoziumu keçirilmişdir

Cari ilin iyun ayının 18-də Bakıda Ombudsmanların Beynəlxalq Simpoziumu keçirilmişdir. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev tədbirdə iştirak etmişdir.

Konstitusiya Məhkəməsi ilə Ombudsman təsisatı arasındakı qarşılıqlı münasibətlər böyük əhəmiyyət kəsb edir.

Cəmiyyətdə insan hüquqlarının müdafiəsini təmin etmədən qanunun aliliyinə nail olmaq mümkün deyil. Həmçinin qanunun aliliyi effektiv şəkildə təmin olunmadan insan hüquqlarının müdafiəsinin təmin edilməsi də mümkün olmur. Qanunun aliliyi insan hüquqlarının həyata keçirilməsi mexanizmi ilə bilavasitə bağlıdır. Qanunun aliliyinin təmin edilməsi iqtisadi, sosial və mədəni hüquqların milli konstitusiyalarda, qanunlarda ehtiva edilməsinin vacib elementidir. Müəllifi Ulu Öndər Heydər Əliyev olan Azərbaycan Respublikası Konstitusiyasının ən böyük fəsli də bütövlükdə məhz insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilib.

Bu sözləri Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Bakı şəhərində keçirilən Ombudsmanların Beynəlxalq Simpoziumunda söyləyib.

O bildirib ki, qanunun aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi bir sıra dövlət orqanlarının ümumi və ortaq məqsədidir. Bu mühüm məqsədlərə nail olmaq üçün dövlət orqanları arasında səmərəli əməkdaşlıq münasibətlərinin qurulması və bu münasibətlərin inkişaf etdirilməsi olduqca vacibdir.

Fərhad Abdullayev Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə Ombudsman təsisatı arasındakı qarşılıqlı əlaqəyə toxunaraq bildirmişdir ki, bu cür münasibətlərin və təcrübə mübadiləsinin aparılması insan hüquq və azadlıqlarının müdafiəsi baxımından böyük əhəmiyyət kəsb edir.

### Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə və 130-cu maddəsinin II hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:



1. Aşağıdakı şəxslər Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimləri təyin edilsinlər:

Qvaladze Otari Rafaelyeviç,
Tutayuk Fərhad Xaspolad oğlu,
Quliyev Rauf Rəhim oğlu,
Rzayev Rəşid Şükür oğlu.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə QAFAROVA,**
**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri**

*Bakı şəhəri, 4 iyul 2025-ci il*

## Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində yeni hakimlərinin kollektivə təqdim edilməsi ilə bağlı tədbir keçirilib

İyulun 7-də Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Milli Məclisin qərarı ilə Konstitusiya Məhkəməsinə yeni təyin edilən hakimlər Otari Qvaladze, Fərhad Tutayuk, Rauf Quliyev və Rəşid Rzayev kollektivə təqdim olunub. Tədbirdə Məhkəmənin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər.

Təqdimat mərasimində çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev qeyd edib ki, bu il müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunmasının 30 ili, eyni zamanda torpaqlarımızın azad edilməsi nəticəsində Konstitusiyamızın bütün Azərbaycan ərazisində hüququnun bərpa edilməsinin – suverenliyimizin 5 ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müasir Azərbaycan dövlətçiliyinin inkişafında mühüm hadisə olmaqla, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.




Fərhad Abdullayev çıxışında Konstitusiya Məhkəməsinin səlahiyyət müddəti başa çatmış hakimlərinin ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində uzun illər uğurlu fəaliyyətlərindən, məhkəmə-hüquq sistemində xidmətlərindən bəhs edərək, onların Konstitusiya Məhkəməsinin hakimi kimi hər zaman yüksək peşəkarlıq nümayiş etdirdiklərini, insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində səylərini vurğulayıb.

Daha sonra Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin yeni hakimlərini vəzifəyə təyin olunmaları münasibətilə təbrik edərək, gələcək



fəaliyyətlərində uğurlar arzulayıb və bu təyinatın hüquq ictimaiyyəti üçün önəmini vurğulayıb. Təyin edilən hakimlər gələcək hakimlik fəaliyyətlərində hüququn aliliyinin təmin edilməsi naminə səylərini əsirgəməyəcəklərini, yüksək hakim adını qorumaqla, onlara göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz minnətdarlığını ifadə edərək, üzərilərinə düşən məsuliyyəti layiqincə yerinə yetirməyə çalışacaqlarını bildiriblər.

Sədr ölkəmizdə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlanmış hüquqi dövlət quruculuğundan, Prezident İlham Əliyevin məhkəmə-hüquq sahəsində həyata keçirdiyi mütərəqqi islahatlardan, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsindən, Konstitusiyanın aliliyinin təmin olunması və qorunması sahəsində atılan mühüm addımlardan bəhs edib.

**Azərbaycan Respublikası Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans və TÜRK-AY-ın birinci konqresi keçirilmişdir**

İyulun 16-da Azərbaycan Respublikası Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş “Konstitusiya ədalət mühakiməsinin həyata keçiril-



məsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar” mövzusunda beynəlxalq konfrans və Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi keçirilib.

Konfransda iştirak etmək üçün ölkəmizə gələn xarici qonaqlar əvvəlcə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.

Sonra Bakıda Zəfər parkı ziyarət edilib, abidə önünə gül dəstələri düzülüb.

Konfransın açılışında Azərbaycanın Dövlət Himni səsləndirilib və tədbir üçün hazırlanmış videoçarx nümayiş olunub.

Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Şimali Kipr Türk Cümhuriyyəti, Belarus, Gürcüstan, Moldova, Serbiya, İraqın konstitusiya ədalət mühakiməsi orqanlarının nümayəndə heyətləri beynəlxalq tədbirlərdə iştirak etmək üçün Konstitusiya Məhkəməsinin dəvəti ilə Bakı şəhərinə dəvət olunublar.

Həmçinin konfransda Milli Məclisin, Ali Məhkəmənin, Baş Prokurorluğun, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Vəkillər Kollegiyasının rəhbər şəxsləri və nümayəndələri, insan hüquqları üzrə müvəkkil (ombudsman), habelə bir sıra məhkəmələrin sədr və hakimləri, tanınmış alimlər, hüquq ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev konfransı açaraq Konstitusiyamızın 30 illik yubileyinə həsr olunan tədbirin əhəmiyyətini yüksək qiymətləndirib, burada səmərəli müzakirələrin aparılacağına əminliyini bildirib.

F.Abdullayev xüsusi vurğulayıb ki, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü tamam olur. Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi müasir Azərbaycan dövlətçiliyinin inkişafında mühüm hadisə olmaqla, hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Qeyd edilib ki, Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında əvəzolunmaz xidmətlərindən biri uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olunub, bununla da ölkəmizdə hüquqi dövlət quruculuğunun möhkəm təməli qoyulub. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu dövlətçilik tarixində mühüm hadisə olmaqla, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əsaslı zəmin yaradıb.

Diqqətə çatdırılıb ki, Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən və dərin düşünülmüş siyasəti, sərkərdəlik məharəti, əsgər və zabitlərimizin qəhrəmanlığı 2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror əməliyyatında tarixi zəfərləri təmin edib. Qazanılan şanlı Qələbə sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilib, Konstitusiyamızın hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün torpaqlarımızda bərqərar olub.

Sonra Milli Məclisin sədr müavini Ziyafət Əsgərov, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov, Baş prokuror Kamran Əliyev, Ədliyyə naziri Fərid Əhmədov, insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva və Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov açılış nitqləri ilə çıxış ediblər.

Konfransın praktiki hissəsində Türkiyə Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya, Belarus Konstitusiya Məhkəməsinin sədri Pyotr Miklaşeviç, Serbiya Konstitusiya Məhkəməsinin sədri Snejana Markoviç, Azərbaycan Konstitusiya Məhkəməsinin hakimi Fikrət Məmmədov, Özbəkistan Konstitusiya Məhkəməsinin sədri Mirzə-Uluqbek Abdusalomov, Moldova Konstitusiya Məhkəməsinin sədri Domnika Manole, İraq Federal Ali





Məhkəməsinin sədri Munter İbrahim Hüseyn, Tacikistan Konstitusiya Məhkəməsinin sədri Abdulhafiz Aşurzoda, Şimali Kipr Türk Respublikası Ali Məhkəməsinin sədri Bertan Özerdağ, Qırğız Respublikası Konstitusiya Məhkəməsinin hakimi Çinarə Aydarbekova, Qazaxıstan Konstitusiya Məhkəməsinin hakimi Erkin Onqarbayev çıxış edərək, öz ölkələrində kon-

stitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsi sahəsində mövcud təcrübələrini bölüşüblər.

Məruzələrdən sonra mövzular ətrafında müzakirələr və geniş fikir mübadiləsi aparılıb.

Tədbirə yekun vuran Fərhad Abdullayev konfransın gedişatında müxtəlif aktual mövzulara toxunulduğunu və səmərəli fikir mübadiləsi aparıldığını bildirib. Qeyd edilib ki, müxtəlif hüquq sistemlərinə malik ölkələrin təcrübələrinin bölüşüldüyü konfransda maraqlı müzakirələr aparılıb, Konstitusiya məhkəmələrinin qərarlarında formalaşdırılan hüquqi mövqelər, konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi yolu ilə Konstitusiyanın aliliyinin təmin edilməsində müasir tendensiyalar ilə bağlı maraqlı fikirlər ifadə edilib.

Konfransdan sonra Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransının (TÜRK-AY) birinci konqresi işə başlayıb. Konstitusiya Məhkəməsinin sədrliyi ilə keçirilən konqresdə Təşkilatın tamhüquqlu üzvləri olan Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan Konstitusiya məhkəmələrinin nümayəndələri iştirak ediblər. Eyni zamanda, Şimali Kiprin Ali Məhkəməsi sədrinin və İraq Federal Ali Məhkəməsi sədrinin başçılıq etdiyi nümayəndə heyətləri konqresə fəxri qonaq qismində qatılıblar.

Konqresin əvvəlində Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək, bu əlamətdar tədbirin ölkəmizdə keçirilməsinin önəmini vurğulayıb.

O qeyd edib ki, türk dövlətləri arasında hüquqi əməkdaşlığın genişləndirilməsi, ortaq hüquqi dəyərlərin təşviqi baxımından TÜRK-AY platforması mühüm hüquqi əməkdaşlıq meydanına çevrilib.

Tədbirdə Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransının (Təşkilatı) 6-cı konqresi ilə əlaqədar TÜRK-AY-a üzv məhkəmələrin nümayəndələri tərəfindən milli məruzələr üzrə icmallar təqdim edilib.

İcmalların təqdimatından sonra TÜRK-AY-ın beynəlxalq təşkilatlarla əməkdaşlıq istiqamətində fəaliyyəti, bu sahədə əldə olunmuş nailiyyətlər və perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra Şimali Kiprin Ali Məhkəməsinin müraciəti müzakirə olunub və bu qurumun TÜRK-AY-a müşahidəçi statusunda qəbul olunması haqqında qərar qəbul edilib.

Konqres çərçivəsində Türk dövlətləri arasında konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edən "Bakı Bəyannaməsi" imzalanıb. Bəyannamə 2024-cü il 6 iyul tarixli "Türk



Dövlətləri Təşkilatının Zirvə görüşünün Qarabağ Bəyannaməsi"ndə əksini tapmış türk dövlətlərinin səylərinin, birliyinin vacibliyini bir daha təsdiqləyərək, türk dövlətlərinin konstitusiya ədalət mühakiməsi orqanları arasında hüquqi əməkdaşlığın vacibliyini qeyd edir.

Konqres iştirakçıları TÜRK-AY Konfransının birinci konqresinin təşkilinə görə Azərbaycana minnətdarlıqlarını bildirib, xalqımızı "Konstitusiya və Suverenlik İli" münasibətilə təbrik ediblər.

Tədbir zamanı, həmçinin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ilə Türkiyə Konstitusiya Məhkəməsi, eləcə də Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə İraq Federal Ali Məhkəməsi arasında Anlaşma memorandumları imzalanıb.

Sonda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev TÜRK-AY-ın birinci konqresinin işini yüksək qiymətləndirib və tədbirin uğurla başa çatmasından məmnunluğunu ifadə edib.

O, TÜRK-AY çərçivəsində konstitusiya ədalət mühakiməsi sahəsində əməkdaşlığın davamlı olacağına və gələcəkdə daha da dərinləşəcəyinə əminliyini ifadə edib.

İyulun 17-də Azərbaycan Dövlət Akademik Filarmoniyasında tədbirin xarici qonaqları üçün konsert proqramının təşkili nəzərdə tutulur.

Həmçinin qonaqların Azərbaycanın zəngin tarixi və mədəni irsi ilə tanışlığı üçün proqramlar təşkil edilib.

## Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Seul şəhərində beynəlxalq simpoziumda iştirak edib




Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Rauf Quliyev və Aparatın Vətəndaşların qəbulu və şikayətlər şöbəsinin müdiri Rüstəm Səlimov 26-27 avqust 2025-ci il tarixlərində keçirilən Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent İnstitutlar Assosiyasiyasının Tədqiqat və İnkişaf üzrə Katibliyinin 5-ci Beynəlxalq Simpoziumunda iştirak etmək üçün Koreya Respublikasının Seul şəhərində səfərdə olmuşlar.

Tədbirin açılışında Koreya Respublikası Konstitusiya Məhkəməsinin sədri Kim Sanghwan qonaqları salamlamışdır.

Koreya, Türkiyə, Özbəkistan, Pakistan, Qazaxıstan, Tacikistan, Rusiya, Banqladeş, İndoneziya, Filippin, Hindistan, Tailand, Malayziya və digər Asiya ölkələrinin konstitusiya ədalət mühakiməsi orqanlarının hakim və Aparat əməkdaşlarının iştirakı ilə keçirilən Simpoziumda şəxsi toxunulmazlıq hüququnun müəyyən edilməsi və həmin hüququn qanuni məhdudiyyətləri ilə bağlı konstitusiya məhkəmələrinin təcrübəsi üzrə məruzələr dinlənilmiş və geniş fikir mübadiləsi aparılmışdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Rauf Quliyev məruzə ilə çıxış edərək, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 25 noyabr 2024-cü il tarixli “Azərbaycan Respublikası




Konstitusiyasının 33-cü maddəsində nəzərdə tutulmuş mənzil toxunulmazlığı hüququ baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 157-ci maddəsində əks olunmuş "mənzil" anlayışının şərh edilməsinə dair" qərarında əks olunmuş Konstitusiya Məhkəməsinin hüquqi mövqelərini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Səfər çərçivəsində Simpozium iştirakçıları Koreya Respublikasının Konstitusiya Məhkəməsinin binasında olmuş, məhkəmənin praktiki fəaliyyəti ilə tanış olmuşlar.

**Konstitusiya Məhkəməsinin hakimi Astana şəhərində keçirilmiş beynəlxalq forumda iştirak edib**

12 sentyabr 2025-ci il tarixində Qazaxıstan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunmuş "Hüquq vasitəsilə Sülh və Gələcək" mövzusunda Beynəlxalq Forum keçirilib.

Tədbirin açılışında Qazaxıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri Elvira Azimova qonaqları salamlamışdır.

Forumda Qazaxıstan dövlət orqanlarının rəhbərləri, habelə Türkiyə, Özbəkistan, Qırğız Respublikası, Koreya, Bolqarıstan və digər ölkələrin konstitusiya ədalət mühakiməsi orqanlarının hakimləri, Avropa Şurası, ATƏT və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.




Tədbirdə "Qanun və asayişin qorunması sülhün əsası kimi: insan hüquqlarına və dövlətin sabitliyinə hörmət", "Qanunvericinin praqmatikliyi və qanunun məsuliyyətlə tətbiq edilməsi: etimadın və səmərəliliyin təmin edilməsi", "Konstitusiya kimliyi və hüquqi mühit: gələcək nəsillərin maarifləndirilməsi" mövzularında keçirilən sessiyalarda konstitusiya məhkəmələrinin təcrübəsi üzrə məruzələr dinlənilmiş, fikir mübadiləsi aparılmışdır.

Həmçinin, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Qazaxıstan Respublikasının Konstitusiyasının 30 illik yubileyi münasibətilə Konstitusiya Məhkəməsinin sədri E.Əzimovanın təqdimatı əsasında Qazaxıstan Respublikasının Prezidenti cənab Qasım-Comərd Tokayevin 28 avqust 2025-ci il tarixli, 978 nömrəli Fərmanı ilə "Qazaxıstan Respublikası Konstitusiyasının 30 illiyi" medalı ilə təltif olunub.

Səfər çərçivəsində Forum iştirakçıları Qazaxıstan Respublikası Prezidentinin Arxivinin fəaliyyəti ilə tanış olmuş və Qazaxıstan Respublikasının Konstitusiya Məhkəməsinin yeni inzibati binasında olmuşlar.

Tədbirdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsini hakim Rauf Quliyev təmsil edib.

## Milli Məclisdə Dövlət Suverenliyi Gününə həsr olunmuş konfrans keçirilmişdir

Sentyabrın 19-da Milli Məclisdə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Dövlət Suverenliyi Gününə həsr olunmuş konfrans keçirilib.

Konfransda Milli Məclisin sədr müavini Ziyafət Əsgərov Prezidentin müvafiq Sərəncamı ilə Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edildiyini nəzərə çatdırıb. O, bunun Azərbaycan Konstitusiyasının 30 illiyi və Vətən müharibəsində Qələbəmizin 5 illiyi ilə əlaqədar olduğunu




söyləyib. Bu gün Azərbaycan xalqının onun ülvi arzusu olan müstəqil, suveren dövlətə sahib olduğunu qeyd edib.

Z.Əsgərov Azərbaycanın ilk milli Konstitusiyasının 1995-ci ildə, ondan öncə – 1991-ci ildə isə “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul edildiyini və orada milli Konstitusiyanın hazırlanması ilə bağlı müddəanın əks olunduğunu bildirib. O qeyd edib ki, 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni konstitusiya layihəsini hazırlayan komissiya yaradılıb. İlk milli Konstitusiyamızın əsas qayəsini hər bir Azərbaycan vətəndaşının hüquq və azadlıqlarının təsbit olunması və müdafiəsi təşkil edir. Milli Məclisin sədr müavini, həmçinin 2002, 2008, 2016-cı illərdə Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi ilə bağlı referendumların keçirildiyini, orada təsbit olunan müddəalarda vətəndaşların hüquqlarının müdafiəsinin daha da möhkəmləndirilməsi, məhkəmə islahatları və digər zəruri məsələlərin əks olunduğunu diqqətə çatdırıb.

Konstitusiyamıza əsasən, hakimiyyətin mənbəyi və suverenliyin daşıyıcısının xalq olduğunu söyləyib.

2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsinin rəmzi məna daşıdığını deyən Ziyafət Əsgərov, 2020-ci ildə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Qələbənin qazanıldığını, lakin tam suverenliyin hələ

bərpa edilmədiyini, bəzi ərazilərimizin hələ ki, erməni separatçılarının əlində olduğunu qeyd edib. Nəhayət, 2023-cü il sentyabrın 19-20-də 23 saatlıq lokal xarakterli antiterror tədbirlərinin uğurla başa çatması nəticəsində Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini vurğulayıb.

Sonra konfransda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edib. O, Azərbaycan Respublikası Konstitusiyasının preambulasında qeyd edildiyi kimi, müstəqillik, suverenlik və ərazi bütövlüyünün Azərbaycan xalqının ülvi niyyətlərindən olduğunu söyləyib. Bildirib ki, Azərbaycan torpaqlarının 30 il ərzində işğal altında olduğuna baxmayaraq, xalqımız öz əzmini itirməyib, öz ərazi bütövlüyü və suverenliyinin bərpası istiqamətində daim addımlayıb. Ötən əsrin 90-cı illərinin əvvəlində ölkədə müşahidə edilən siyasi tənəzzül, daxili çəkişmələrin, Konstitusiyanın hüquqi cəhətdən işləmədiyi bir zamanda Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışının dövlətimiz üçün dönüş nöqtəsi olduğunu vurğulayıb.

Fərhad Abdullayev 1995-ci il noyabrın 12-də ilk milli Konstitusiyamızın qəbul edildiyini qeyd edərək bildirib ki, Ulu Öndərin dediyi kimi, Konstitusiya, əsas qanun olaraq, Azərbaycanın daxili və xarici siyasəti ilə bağlı bütün prioritet məsələləri özündə əks etdirməli, digər bütün qanunlar isə Konstitusiya əsasında və ona uyğun olaraq qəbul edilməlidir. O, ilk dəfə olaraq milli Konstitusiyamızda Konstitusiya Məhkəməsi anlayışının verildiyini və Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin fəaliyyətə başladığını nəzərə çatdırıb. Konstitusiya Məhkəməsinin əsas məqsədinin dövlətin Konstitusiyasının qorunması ilə bağlı olduğunu söyləyib. Konstitusiya Məhkəməsinin fəaliyyəti, keçdiyi inkişaf mərhələləri, səlahiyyətləri, qəbul etdiyi qərarların mahiyyəti, beynəlxalq əlaqələri barədə danışıb. O, habelə, Konstitusiya Məhkəməsi ilə Milli Məclis arasında səmərəli əməkdaşlıqdan bəhs edib.

Konfransda çıxış edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Parlamentinin müstəqilliyin ilk illərindən müasir dövrümüzə qədər bütövlükdə konstitusionalizmin inkişafına töhfə verdiyini bildirib. Dövlət suverenliyinin hüquqi tarixi aspektlərinin hər zaman Ulu Öndər Heydər Əliyevin diqqət mərkəzində olduğunu vurğulayıb. O, Suverenlik və Konstitusiya anlayışlarının bir-biri ilə sıx bağlı olduğunu deyib. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycanın suverenliyinin aktual problemləri dərindən öyrənilməyə başlandı. Güclü dövlət quruculuğu yolu seçildi, mükəmməl və müasir Konstitusiya qəbul edildi. Suverenliyin əsas əlaməti olan ərazi bütövlüyünün bərpa olunması üçün xüsusi strateji plan çəkildi.



Daha sonra çıxış edən parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib ki, bu gün Azərbaycan Respublikasının ərazi bütövlüyü tam şəkildə bərpa olunub və ölkə tam suveren şəkildə öz ərazisində idarəetməni təmin edir. Bu baxımdan, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması siyasi və hüquqi mənada mühüm əhəmiyyətə malikdir.

Komitə sədri vurğulayıb ki, 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən Konstitusiyamız Azərbaycan Respublikasının hüquqi, demokratik və dünyəvi dövlət quruculuğunun təməlini qoymuş mühüm sənəddir. O, sənədin qəbul edilməsindən 30 il keçdiyini, bu illər ərzində müxtəlif texnoloji və hüquqi çağırışların meydana gəldiyini deyərək, Konstitusiyamızın dövrün tələblərinə cavab verdiyini, eyni zamanda, müasir çağırışlara uyğun olaraq bəzi əlavə hüquqi aktların və normativ sənədlərin qəbulunun mümkünlüyünün də nəzərə alındığını söyləyib.

Konfransda Milli Məclisin komitə sədrləri Sadiq Qurbanov, Siyavuş Novruzov, Fazil Mustafa, Zahid Oruc, Hicran Hüseynova, Anar İsgəndərov, Səməd Seyidov, Azər Əmiraslanov, komitə sədrinin müavini Razi Nurullayev, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlı çıxış ediblər.

Bildirilib ki, müstəqillik xalqın azadlıq və iradəsinin ən ali ifadəsidirsə, suverenlik bu iradənin hüquqi, siyasi və praktiki təcəssümüdür. Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin böyük əzmi, strateji uzaqgörənliyi və qətiyyətli rəhbərliyi nəticəsində dövlətimizin müasir, dünya standartlarına cavab verən Konstitusiyası qəbul olunmuşdur. Bu sənəd yalnız hüquqi baza deyil, eyni zamanda Azərbaycan dövlətçiliyini möhkəmləndirən, xalqı vahid

məqsədlər ətrafında birləşdirən milli ideya nümunəsi olmuşdur. Bildirilib ki, Ulu Öndər təkcə siyasi müstəqilliyin deyil, həm də iqtisadi suverenliyin banisi kimi ölkənin gələcək inkişaf modelinin təməlini qoymuş, Azərbaycanın beynəlxalq aləmdə layiqli yer tutmasına yol açmışdır.

Konfransa yekun vuran Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov Dövlət Suverenliyi Gününə həsr olunmuş müzakirələrin səmərəli keçdiyini bildirib, çıxışlarda səslənən fikirlərin aktuallığını qeyd edib. O, Azərbaycan dövlətinin və xalqının gələcək inkişafı, müstəqilliyimizin və suverenliyimizin möhkəmləndirilməsi istiqamətində birgə səylərin önəmli olduğunu vurğulayıb.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, ölkə Prezidenti İlham Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş nəşrləri, Azərbaycan Konstitusiyasının müxtəlif illərdə dərc edilmiş nüsxələri nümayiş etdirilib.

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin kollektivi Zəfər parkını ziyarət edib**

Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusunun şanlı Qələbə qazandığı Vətən müharibəsinin beşinci ildönümündə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin kollektivi 27 sentyabr – Anım Günü münasibətilə Zəfər parkını ziyarət edərək ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərin əziz xatirəsini yad edib, xatirə abidəsinin önünə gül dəstələri qoyublar.



## Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində hakimliyə namizədlərlə görüş keçirilib



Sentyabrın 29-da Konstitusiya Məhkəməsində hakimliyə namizədlərlə görüş keçirilib.

Tədbir iştirakçılarını salamlayan Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi-referendum yolu ilə qəbul edilmiş Azərbaycanın ilk milli Konstitusiyasından bəhs edərək, hüquqi dövlətin qurulmasında Əsas Qanunun roluna toxundu.

Qeyd edildi ki, Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən vacib hadisələrindən biri olmaqla, eyni zamanda, dövlətçiliyimizin möhkəmləndirilməsi, o cümlədən ölkəmizin dünya birliyində nüfuzunun daha da artması baxımından əhəmiyyətli ictimai-siyasi hadisə idi. Ali Qanunun qəbul edilməsi dövlət siyasətinin mərkəzində insanın hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə xarakterizə olunan yeni mərhələyə qədəm qoyulmasının göstəricisi oldu.

Diqqətə çatdırıldı ki, bu il dövlətçilik tariximizin mühüm əhəmiyyətə malik iki əsas hadisəsini – Konstitusiyanın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azər-

baycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında hüquqi dövlətçilik və suverenlik dəyərlərinin möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyətə malik Sərəncam imzalamışdır. Vurğulandı ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın geri qaytarılması, ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin və işğaldan azad edilmiş torpaqlarda Konstitusiyanın hüquqi qüvvəsinin tam bərpası ilə xalqımız tarixinin qürurverici təntənəsini yaşayır.

Sədr bildirib ki, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilmiş məhkəmə-hüquq islahatlarının əsas təyinatı məhkəmə sisteminin müasirləşdirilməsi vasitəsilə ölkəmizdə qanunun aliliyinin təmin olunmasıdır. Respublikamızda ədalət mühakiməsinin səmərəliliyi, vətəndaşların məhkəmələrə inamı və etimadı bilavasitə hakimlərin fəaliyyətindən asılıdır.

Qeyd edilmişdir ki, Konstitusiya Məhkəməsi digər məhkəmələrlə qarşılıqlı əməkdaşlıq münasibətlərinin inkişafına hər zaman böyük diqqət yetirir. Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş qərarlar sırasında məhkəmələrin müraciətləri əsasında Konstitusiya və qanunların şərhinə dair çıxarılmış qərarlar xüsusi çəkiyə malikdir. Konstitusiya Məhkəməsi Plenumunun qərarlarında əksinin tapan hüquqi mövqelərin məhkəmələr tərəfindən birmənalı tətbiqi, eyni zamanda, məhkəmə təcrübəsinin stabilliyinə xidmət edir və nəticə etibarilə hüquqtətbiqetmə təcrübəsinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Fərhad Abdullayev çıxışında hakimlərin yüksək nəzəri bilik və peşə hazırlığı ilə yanaşı, ədalət, qanunçuluq, qərəzsizlik və ədalət mühakiməsinin digər prinsiplərinə dönmədən əməl olunması ilə bağlı tövsiyələrini qeyd etmiş, hər hansı qərar qəbul edərkən qanunun tələbləri və vicdan kimi insani keyfiyyətlərin rəhbər tutulmasının vacibliyini gənc hüquqşünasların diqqətinə çatdıraraq, onlara gələcək hakim peşəsində uğurlar arzulamışdır.

Görüşün sonunda hakimliyə namizədlər məhkəmə binası ilə tanış oldular və xatirə fotoşəkilləri çəkdirdilər.

Tədbirdə Konstitusiya Məhkəməsinin hakimləri, Aparatın məsul əməkdaşları iştirak etmişlər.

## Konstitusiya Məhkəməsində Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun nümayəndə heyəti ilə görüş keçirilib



Sentyabrın 30-da Konstitusiya Məhkəməsində ölkəmizdə səfərdə olan Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun (TİHEK) sədri Fahrettin Altunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Qonaqları salamlayan sədr Fərhad Abdullayev Məhkəmənin fəaliyyəti barədə ətraflı məlumat verərək, Azərbaycan – Türkiyə əlaqələrinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi "Bir millət, iki dövlət" tezisinə əsaslandığını bildirib.

Sədr vurğulayıb ki, iki qardaş ölkə arasında sarsılmaz münasibətlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri uğurlu siyasət nəticəsində durmadan inkişaf edir. Böyük geosiyasi və iqtisadi potensiala malik dövlətlərimizin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq əməkdaşlığının inkişafının daha da gücləndirilməsinə yönəlib.

Qeyd olunub ki, tarixin ən önəmli anlarında dövlətimizə dayaq olmuş qardaş Türkiyənin İkinci Qarabağ müharibəsində və Azərbaycanın konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə həyata keçirilən lokal xarak-





terli antiterror tədbirləri zamanı ölkəmizin yanında olması xalqımız tərəfindən daim yüksək qiymətləndirilir. Bu gün Əsas Qanunun hüquqi qüvvəsi suveren respublikamızda tam bərpa edilib və işğal altında olan torpaqlarımızın azad edilməsi həm də vətəndaşların Konstitusiyada təsbit olunan hüquqlarının müdafiəsinin təminatıdır.

Daha sonra Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun sədri Fahrettin Altun yüksək qonaqpərvərliyə görə Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevə minnətdarlığını ifadə edib. O bildirib ki, ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sahəsində də sıx əməkdaşlıq qarşılıqlı dəstək və anlaşma əsasında uğurla inkişaf edəcək.

Söhbət zamanı geniş fikir mübadiləsi aparılıb, insan hüquq və azadlıqlarının qorunması və digər hüquqi məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları iştirak ediblər.

Tədbirin sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar və xatirə fotoşəkilləri çəkdiriblər.

## Konstitusiya Məhkəməsində Macarıstan Konstitusiya Məhkəməsinin nümayəndə heyəti ilə görüş keçirilib



Oktyabrın 8-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev ölkəmizdə işgüzar səfərdə olan Macarıstan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Akoş Kozma və Baş katibi Vivien Kozma ilə görüş keçirib.

Qonaqları salamlayan sədr Fərhad Abdullayev bildirib ki, Azərbaycan və Macarıstan Respublikaları arasında bir çox sahələrdə olan sıx əməkdaşlıq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Macarıstanın Baş naziri cənab Viktor Orban arasında formalaşmış qarşılıqlı etimad və anlaşmaya əsaslanır və bu iki dövlət arasında olan münasibətlərin bütün sahələrdə möhkəmlənməsinə mühüm zəmin yaradır.

Qeyd olunub ki, Azərbaycan və Macarıstan arasındakı formalaşmış sıx münasibətlər məhkəmə-hüquq sahəsində də əməkdaşlığın genişlənməsinə töhfə verir. Xüsusilə, konstitusiya nəzarətinin effektivliyi, o cümlədən vətəndaşların Konstitusiyada təsbit edilmiş hüquqların təmin edilməsi mexanizmlərinin tətbiqi üzrə təcrübə mübadiləsi hər iki məhkəmənin fəaliyyəti üçün önəmlidir.

Görüş zamanı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyəti, qərar qəbuletmə proseduru, Məhkəmənin bir sıra hüquqi mövqeləri barədə ətraflı məlumat verilib, hüquqi dövlətin inkişafında Konstitusiya Məhkəmələrinin rolu, Konstitusiya Məhkəmələri arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra cənab Akoş Kozma səmimi qəbula görə təşəkkürünü bildirib, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə əməkdaşlığın faydalı olduğunu vurğulayıb.

Görüşdə, həmçinin Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı, Avropa Konstitusiya Məhkəmələri Konfransı və digər beynəlxalq konstitusiya ədalət mühakiməsi sahəsində qurumlar çərçivəsində əməkdaşlığın  inkişaf etdirilməsinin vacibliyi qeyd edilib.

Tədbirin sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar və xatirə fotoşəkilləri çəkdiriblər.

## Sumqayıt Məhkəmə Kompleksində Konstitusiya Məhkəməsinin rəhbərliyinin iştirakı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbir keçirilmişdir

Oktyabrın 17-də Sumqayıt Apellyasiya Məhkəməsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Sumqayıt Məhkəmə Kompleksində tədbir təşkil edilib.

Tədbirdə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin rəhbərlik etdiyi nümayəndə heyəti,  Ali Məhkəmənin



və Məhkəmə-Hüquq Şurasının nümayəndələri, Sumqayıt Apellyasiya Məhkəməsinin və yurisdiksiyasına daxil olan məhkəmələrin hakimləri, eləcə də gənc hüquqşünaslar iştirak ediblər.

Tədbirdən öncə iştirakçılar Sumqayıt Məhkəmə Kompleksinin binası ilə tanış olublar.

Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayev açılış nitqində qeyd edib ki, bu tədbir "Konstitusiya və Suverenlik İli" çərçivəsində dövlətçiliyimizin hüquqi əsaslarını, milli Konstitusiyamızın yaranma tarixini və bu sahədə əldə edilən nailiyyətləri bir daha nəzərdən keçirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Vurğulanıb ki, 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası dövlət müstəqilliyimizin hüquqi təminatını formalaşdıraraq ölkəmizin inkişafında dönüş nöqtəsinə çevrilib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan Zəfər sayəsində dövlət suverenliyimiz və ərazi bütövlüyümüz bərpa olunub.

Daha sonra Konstitusiyanın hazırlanması prosesi və dövlət suverenliyimizin bərpasına dair videoçarx nümayiş olunub.


"KONSTITUSIYA VƏ SUVERENLIK İLİ"
Azərbaycan Respublikasının
Konstitusiya Məhkəməsinin
hakimləri ilə görüş






Tədbirdə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev qeyd edib ki, Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasının qəbulu Ulu Öndər Heydər Əliyevin dövlətçilik iradəsinin və uzaqgörən siyasətinin təntənəsidir. Məhz Ulu Öndərin rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi ilə qəbul edilən bu ali hüquqi sənəd müstəqil dövlətçiliyimizin bünövrəsini möhkəmləndirib, insan hüquq və azadlıqlarının təminatına, demokratik cəmiyyətin qurulmasına hüquqi zəmin yaradıb. Sədr vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin ideyalar yeni inkişaf mərhələsinə yüksəlib, həyata keçirilən islahatlar, 44 günlük Vətən müharibəsində qazanılan Böyük Qələbə və suverenliyimizin tam bərpası Konstitusiyamızın dayanıqlığının, Ulu Öndərin müəyyən etdiyi yolun və milli birliyimizin parlaq təcəssümüdür.

Sədr Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyət istiqamətləri, həyata keçirilən hüquqi islahatların konstitusion əsasları, həmçinin Məhkəmənin qəbul etdiyi qərarların hüquq sisteminin inkişafında və qanunvericilik təcrübəsində rolu barədə ətraflı məlumat verib. Sədr qeyd edib ki, konstitusiya nəzarəti hüquqi dövlətin əsas atributlarından biri kimi insan hüquq və azadlıqlarının təminatı və müdafiəsində mühüm əhəmiyyət kəsb edir.

Fərhad Abdullayev, həmçinin, Sumqayıt Məhkəmə Kompleksində yaradılmış şəraitdən danışaraq bildirib ki, burada müasir məhkəmə sisteminin tələblərinə cavab verən infrastruktur qurulub, ədalət mühakiməsinin həyata keçirilməsi üçün bütün zəruri texniki və təşkilati imkanlar təmin olunub, hakim və məhkəmə personalı üçün müasir iş şəraiti yaradılıb, vətəndaşların rahatlığı, şəffaflıq və ədalət prinsipinin təmin edilməsi məqsədilə ən son innovativ həllər tətbiq olunub.

Çıxış edən digər tədbir iştirakçıları Konstitusiyanın hüquq sistemində ali qüvvəyə malik olmasını və məhkəmə fəaliyyətində konstitusion dəyərlərin tətbiqinin ədalət mühakiməsinin keyfiyyətinə birbaşa təsirini qeyd ediblər.

Tədbirdə iştirakçılar Konstitusiya Məhkəməsinin fəaliyyəti, qəbul etdiyi qərarların hüquq sistemində rolu və tətbiqi ilə bağlı suallar ünvanlayıb, mövzu ətrafında fikir mübadiləsi aparıblar.

Sonda belə görüşlərin hüquq ictimaiyyəti, o cümlədən gənc hüquqşünaslar arasında konstitusion dəyərlərin təbliği, hüquqi biliklərin artırılması və məhkəmə sistemində peşəkar yanaşmanın gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığı vurğulanıb.

## Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Madriddə keçirilən VI Konqresdə iştirak edib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti 28-30 oktyabr tarixlərində Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatına sədrlik edən İspaniya Krallığı Konstitusiya Məhkəməsinin sədri Kandido Konde-Pumpidonun və Katibliyinin fəaliyyətini təmin edən Avropa Şurasının Venesiya Komissiyasının dəvəti ilə "Gələcək nəsillərin insan hüquqları" mövzusunda keçirilmiş VI Konqresdə iştirak etmək üçün İspaniyanın Madrid şəhərində səfərdə olub.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi 2009-cu ildən fəaliyyət göstərən Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatına 2011-ci ildən tamhüquqlu üzv seçilmişdir. Konfransın müxtəlif illərdə Cənubi Afrika Respublikasının Keyp Taun, Braziliya Federativ Respublikasının Rio-de-Janeyro, Cənubi Koreya Respublikasının Seul, Litva Respublikasının Vilnüs şəhərlərində və İndoneziya Respublikasının Bali adasında konqresləri keçirilmişdir.




Tədbirdən əvvəl Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin də daxil olduğu Avropa və Asiya ölkələrinin Konstitusiya Məhkəmələrinin üzv olduqları Konstitusiya Ədalət Mühakiməsi üzrə Dünya Konfransı Təşkilatının Bürosuna daxil olan bir sıra qrupların iclasları keçirilmişdir.

Konqres çərçivəsində "Təbii ehtiyatların və ətraf mühitin qorunması", "Bəşəriyyətin mədəni irsinin qorunması", "Elmi biliklərə və yeni texnologiyalara əlçatanlıq", "Konstitusiya Məhkəmələrinin müstəqilliyi" adlı sessiyalar keçirilmişdir.

Daha sonra konqresdə səsləndirilən məruzələr üzrə müzakirələr və geniş fikir mübadiləsi aparılmış, yekun iclasda məruzəçilərin milli hesabatları dinlənilmiş və Madrid Komunikesi qəbul edilmişdir. Sənəddə sağlam ətraf mühitdə yaşamaq hüququnun mühüm insan hüquqlarından biri olduğu qeyd olunub. Həmçinin, Konstitusiya Məhkəmələri mədəni irsin qorunmasına öz töhfələrini verməli və rəqəmsal texnologiyaların tətbiqində şəxsi məlumatların mühafizəsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

Konqresin rəsmi bağlanış mərasimində İspaniya Kralı VI Felipe tədbir iştirakçılarını salamlamış və konqresin Konstitusiya Məhkəmələri arasında beynəlxalq əməkdaşlığın genişləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu bildirmişdir.








Səfər zamanı Azərbaycan nümayəndə heyəti bir sıra ölkələrin Konstitusiya Məhkəmələrinin sədr və hakimləri ilə işgüzar görüşlər keçirmiş və hüquq məsələləri müzakirə etmişlər.

**Bakıda "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda beynəlxalq konfrans keçirilib**

Noyabrın 12-də "Gülüstan" sarayında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının dəstəyi və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunan "Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransdan öncə iştirakçılar Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər. Daha sonra iştirakçılar Zəfər parkında olub, buradakı abidə önünə gül dəstələri qoyublar.

Konfransın açılışında Konstitusiyanın 30 illik yubileyinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Tədbirin açılışında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini səsləndirib.




Daha sonra F.Abdullayev açılış nitqi ilə çıxış edərək konfrans iştirakçılarının adından dövlətimizin başçısı İlham Əliyevə dərin məzmunlu müraciətinə görə minnətdarlığını bildirib. Sədr xarici ölkələrdən Bakıya gələn qonaqları, eləcə də dövlət orqanlarının, ictimai təşkilatların rəsmilərini salamlayaraq tədbir iştirakçılarını 12 noyabr – Azərbaycan Respublikasının Konstitusiyası Günü, xüsusilə dövlətimizin Əsas Qanununun 30 illik yubileyi münasibətilə təbrik edib.

F.Abdullayev bildirib ki, Prezident İlham Əliyevin 2024-cü il 28 dekabr tarixli Sərəncamı ilə 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması müstəqil dövlətçiliyimizin əsas sütunu olan Konstitusiyamızın ali dəyərini bir daha vurğulayır.

Diqqətə çatdırılıb ki, dövlətin qanunvericilik sisteminin bünövrəsini təşkil edən, ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olan Konstitusiya ölkədə ictimai-siyasi sabitliyin, milli birliyin təminatçısı kimi çıxış edir.

F.Abdullayev qeyd edib ki, Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri olan Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında ən mühüm xidmətlərindən biri ölkənin Əsas Qanununun qəbulu ilə bağlıdır. Məhz onun rəhbərliyi ilə 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının layihəsi hazırlanaraq noyabrın 12-də keçirilən ümumxalq səsverməsi – referendum yolu ilə qəbul olunub. Bu tarixi hadisə ilə respub-

likamızın demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun mühüm mərhələsi başlayıb.

Vurğulanıb ki, geridə qalan üç onillik ərzində Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyəti sistemini müəyyənləşdirən, siyasi strategiyaları və normativ əsasları tənzimləyən, həmçinin vətəndaşların hüquq və azadlıqlarını təsbit edən əsas hüquqi sənədə çevrilib. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş prinsiplər keçmişlə gələcəyin harmonik ifadəsidir.

"Yubileyini qeyd etdiyimiz Konstitusiya hər birimizin sərvətidir. Zaman ötür, nəsillər dəyişir, Konstitusiya isə alidir, dayanıqlıdır. Zamanla Əsas Qanunda müəyyən dəyişikliklər edilir, amma Konstitusiya ilə təsbit edilmiş əsas dəyərlər, prinsiplər, Konstitusiyanın fəlsəfəsi dəyişmir. Bizim vəzifəmiz bu dəyərlərdən ruhlanaraq qanunvericiliyi yeni çağırışlara cavab verə biləcək şəkildə inkişaf etdirməkdir" – deyə F.Abdullayev vurğulayıb.

Məlumat verilib ki, 1995-ci il Konstitusiyası müstəqilliyimizin hüquqi əsasını qoymuşdursa, 2020-ci ildə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı Qələbə nəticəsində Konstitusiyamızın ali qüvvəsi bütün ərazimizdə bərqərar edilib. Bu tarixi Zəfərlə Konstitusiyanın 11-ci maddəsində təsbit olunmuş "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir" prinsipi reallığa çevrilib, beynəlxalq hüquq normaları və təməl prinsiplərin aliliyi təmin edilib. Eyni zamanda, Konstitusiyanın 30 illiyi və böyük Qələbəmizin 5 illiyi təkcə bir tarix deyil, həm də məsuliyyət çağırışıdır. Qarşımızda duran vəzifə – Əsas Qanunun dəyərlərini qorumaq, həmin dəyərləri gələcək nəsillərə ötürməkdir.

Sədr F.Abdullayev qeyd edib ki, bu il "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilib. Bu medal dövlətimizin konstitusiya dəyərlərinə sadiqliyinin və müstəqil Azərbaycanın inkişaf yolunda qazandığı nailiyyətlərin rəmzi ifadəsidir.

"Konstitusiya Məhkəməsi də bu istiqamətdə üzərinə düşən öhdəlikləri layiqincə yerinə yetirəcək, qanunvericiliyin müasir sosial-siyasi reallıq baxımından Konstitusiyanın hərfi mənasına və ruhuna uyğun şəkildə inkişafına töhfəsini verəcək. Əminəm ki, tədbir zamanı bizi olduqca maraqlı, faydalı çıxış və müzakirələr gözləyir", – deyə Konstitusiya Məhkəməsinin sədri diqqətə çatdırıb.

Azərbaycanın dövlət müstəqilliyinin bərpası, demokratik dövlət kimi formalaşması və inkişafı görkəmli ictimai-siyasi və dövlət xadimi, Ulu



Öndər Heydər Əliyevin uzaqgörən siyasəti və tarixi xidmətləri ilə bağlı olduğunu deyən Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva bildirib: "Məhz Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyasında bəyan edilən niyyətlərdən biri də qanunun aliliyini təmin edən hüquqi və dünyəvi dövlətin qurulmasıdır.

Qanunun aliliyi təkcə cəmiyyətin ədalətli və dayanıqlı inkişafının təməl daşı deyil, həm də insan hüquq və azadlıqlarının ən mühüm təminatçısıdır. Bu baxımdan, Konstitusiyamızda insan hüquq və azadlıqlarının təmin edilməsinin dövlətin ali məqsədi kimi təsbit olunması insan hüquqlarına verilən ən yüksək dəyərin təzahürüdür. Təsadüfi deyildir ki, ölkəmizin Ali Qanununun ən böyük fəsli məhz insan hüquq və azadlıqlarına həsr olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu daxili və xarici siyasət, habelə həyata keçirilən ardıcıl islahatlar və qəbul edilən mühüm qərarlar müstəqil dövlətçilik tariximizin yeni mərhələsinin əsasını qoydu. Konstitusion dəyişikliklər və normativ hüquqi bazanın təkmilləşdirilməsi qanunun aliliyinin təmin olunmasına, demokratik idarəetmə və hüquqi dövlət prinsiplərinin inkişafına əlverişli şərait yaratdı.

Xüsusən də, insan hüquqları sahəsində davam etdirilən islahatlar bu sahəyə verilən yüksək dəyəri, beynəlxalq öhdəliklərə sadiqliyi nümayiş etdirməklə yanaşı, beynəlxalq tərəfdaşlıq üçün etibarlı və dayanıqlı mühit






formalaşdırdı. Təsadüfi deyildir ki, ölkəmiz son illər insan hüquqları sahəsində irimiqyaslı və nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməkdədir.






Ölkə başçısının təşəbbüsü ilə həyata keçirilən həmin hüquqi islahatlar nəticəsində insan hüquq və azadlıqlarının təmin edilməsi üzrə dövlətin ali məqsədinin həyata keçirilməsində xüsusi rolu olan Ombudsmanın mandatının beynəlxalq hüquq normalarına tam uyğunlaşdırılması ilə bağlı qa-


AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİNİN
30-cu İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ
NSTİTUSİYA VƏ QANUNUN ALİLİYİ MÜASİR
ÜQUQ SİSTEMLƏRİNDƏ" MÖVZUSUNDA
TUSİYA VƏ SUVERENLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ
BEYNƏLXALQ KONFRANS
ŞƏHƏRİ, 12 NOYABR 2025-ci İL


AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİNİN
30-cu İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ
STİTUSİYA VƏ QANUNUN ALİLİYİ MÜASİR
UQ SİSTEMLƏRİNDƏ" MÖVZUSUNDA
TUSİYA VƏ SUVERENLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ
YNƏLXALQ KONFRANS
12 NOYABR 2025-ci İL

nunvericiliyə əhəmiyyətli dəyişikliklər edildi, yeni fəaliyyət istiqamətləri müəyyən olundu".

Asiya Ombudsman Assosiasiyasının sədri, Pakistan Federal Ombudsmanı Ejaz Ahmad Qureşi Pakistanın Azərbaycanın müstəqilliyini 1991-ci ildə tanıyan ilk dövlətlərdən biri olduğunu xatırladıb: "1992-ci ildə isə iki ölkə arasında diplomatik münasibətlər qurulub. Bu gün Azərbaycan və Pakistan arasındakı əlaqələr qardaşlıq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Bu münasibətlərin inkişafında Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın göstərdiyi humanitar dəstək, diqqət və qayğı xüsusi qeyd olunmalıdır".

Pakistan Federal Ombudsmanı qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası ölkənin suverenliyini, bərabərliyini və hüquqi dövlət prinsiplərini özündə ehtiva edir. Bu ali sənəd insan hüquq və azadlıqlarını təmin edir, qanunun aliliyini əsas tutaraq cəmiyyətin demokratik inkişafına istiqamət verir.

"İnsan hüquqlarının müdafiəsi baxımından insan hüquqları müvəkkili (ombudsman) institutlarının yaradılması da böyük əhəmiyyət kəsb edir. Bu institutlar vətəndaşların hüquq və azadlıqlarının qorunmasında mühüm rol oynayır".

Ejaz Ahmad Qureşi çıxışının sonunda Vətən müharibəsində qazanılmış Zəfərin beşinci ildönümü və Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü münasibətilə Azərbaycan xalqını təbrik edib.

Avropa Hüquq İnstitutunun sədri Teresa Rodriguez de las Heras Ballell gələcək üçün öz hüquqi bazanın hazırlanması zamanı hibrid cəmiyyətlərin gələcəyinin də nəzərə alınmasının vacibliyini vurğulayıb. Onun sözlərinə görə, insan-süni intellekt-hibrid cəmiyyətləri hazırlanmalıdır: "Biz öz hüquqi bazamızı bu çağırışlara necə hazır edə bilərik? Burada cəmiyyətlərin və iqtisadiyyatların hibridləşməsi prosesindən söhbət gedir.

Konstitusiya təbəqəsində həm dövlət qulluqçuları həm də özəl sektor tərəfindən süni intellektin daha geniş istifadəsinə yol açmalıyıq. Birincisi, biz tamamilə insan hüquqları, vətəndaş azadlıqlarının təmin edilməsini davam etdirməliyik. Lakin süni intellekt bunlara əməl etsə də bu, bəs eləmir. Ola bilər ki, müəyyən qadağa və məhdudiyyətlər olsun və həm dövlət həm də özəl sektor tərəfindən süni intellektin istifadəsində tətbiq edilsin. Onlar süni intellektdən istifadə etdikdə müəyyən qadağa və məhdudlaşmalara yol açmalıdırlar. Bunu biz Avropa İttifaqında süni intellekt haqqında Aktın qəbul olunması zamanı etdik. Süni intellektlə bağlı qanuna


AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİNİN
30-cu İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ
"KONSTİTUSİYA VƏ QANUNUN ALİLİYİ MÜASİR
HÜQUQ SİSTEMLƏRİNDƏ" MÖVZUSUNDA
"KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ
BEYNƏLXALQ KONFRANS
BAKI ŞƏHƏRİ, 12 NOYABR 2025-ci İL
INTERNATIONAL CONFERENCE
DEDICATED TO THE 30th ANNIVERSARY
OF THE ADOPTION OF THE CONSTITUTION
OF THE REPUBLIC OF AZERBAIJAN
ON THE TOPIC: "CONSTITUTION AND THE RULE
OF LAW IN CONTEMPORARY LEGAL SYSTEMS"
IN THE FRAMEWORK OF
"THE YEAR OF CONSTITUTION AND SOVEREIGNTY"
BAKU, 12 NOVEMBER 2025
Mr. Muharrem Kılıç
Counselor
Ministry of Justice
Republic of Türkiye


AZƏRBAYCAN RESPUBLİKASI
KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİNİN
30-cu İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ
"KONSTİTUSİYA VƏ QANUNUN ALİLİYİ MÜASİR
HÜQUQ SİSTEMLƏRİNDƏ" MÖVZUSUNDA
"KONSTİTUSİYA VƏ SUVERENLİK İLİ" ÇƏRÇİVƏSİNDƏ
BEYNƏLXALQ KONFRANS
BAKI ŞƏHƏRİ, 12 NOYABR 2025-ci İL
INTERNATIONAL CONFERENCE
DEDICATED TO THE 30th ANNIVERSARY
OF THE ADOPTION OF THE CONSTITUTION
OF THE REPUBLIC OF AZERBAIJAN
ON THE TOPIC: "CONSTITUTION AND THE RULE
OF LAW IN CONTEMPORARY LEGAL SYSTEMS"
IN THE FRAMEWORK OF

yenidən baxmalı, hansı model hüquqları yaratmalı olduğumuz haqda fikirləşməliyik. Süni intellekt yeni risklər yaradır. Ona görə də bu sahəyə öhdəliklər ilə bağlı olan qaydaların da tətbiqi vacibdir. Birlikdə işləməli, yeni çağırışları nəzərə alaraq qanunvericilik bazasının yenilənməsi haqqında düşünməli və gələcəyin hibrid cəmiyyətlərinə hazır olmalıyıq. Gələcək cəmiyyətlərdə həm süni intellekt, həm də insanlar birlikdə yaşayacaqlar. Ona görə də elə etməliyik ki, hibrid cəmiyyətlər demokratiya, qanunun aliliyi və insan hüquqlarına əsaslansın. Əminəm ki, birlikdə buna nail olacağıq".

Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov isə öz çıxşında Konstitusiyanın hüquqi dövlətdə və müasir cəmiyyətdəki mühüm rolunu vurğulayıb: "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası olduqca çətin və məsuliyyətli bir dövrdə qəbul edilib. Həmin illərdə dövlətimiz öz müstəqilliyi və suverenliyi uğrunda mübarizə aparırdı.

Bütün bunlara baxmayaraq Konstitusiyamız milli dəyərləri, prinsipləri və dövlətçiliyin əsas standartlarını özündə ehtiva edir. Bu ali sənəd həmçinin, ümumbəşəri dəyərlərə sadiqliyi ifadə edir və dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyini əks etdirir.

Faktiki olaraq, Qarabağ torpaqları işğal altında olarkən, Konstitusiyanın bəzi müddəalarının tam şəkildə həyata keçirilməsi müəyyən məhdudiyyətlərlə üzləşmişdi. Lakin Prezident İlham Əliyevin rəhbərliyi və Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində bu müddəalar tam bərpa olunub. Azərbaycan bayrağı işğaldan azad edilmiş torpaqlarımızda ucaldılıb, dövlət sərhədlərimiz bərpa edilib. Bu, Konstitusiyanın müddəalarının real şəkildə həyata keçirilməsi və ona yeni nəfəs verilməsi deməkdir", – deyə G.Kərimov bildirib.

O əlavə edib ki, doğma yurdlarını tərk etməyə məcbur olmuş həmvətənlərimiz artıq öz torpaqlarına qayıdırlar. "Bu, həm Azərbaycan xalqının ləyaqətinin qorunması, həm də Konstitusiyanın əsas prinsiplərinin gerçək həyatda təsdiqi deməkdir. Məhz Şanlı Zəfər nəticəsində Konstitusiyamızın bütün müddəaları tam şəkildə bərpa olunub".

Tədbir Türkiyənin ədliyyə nazirinin müşaviri Muharrem Kılıçın moderatorluğu ilə "Konstitusion dəyərlər və insan hüquqları: Qlobal trendlər və çağırışlar" mövzusunda panel iclası ilə davam edib.

İclasda Gürcüstan Konstitusiya Məhkəməsinin sədri Revaz Nadaraia, Ankara Universitetinin professoru Cavid Abdullazadə, Türkiyənin Konstitusiya Məhkəməsinin hakimi Yıldız Seferinoğlu, Özbəkistanın Ali Məc-




lisinin İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Feruza Eşmatova, Qazaxıstanın İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Artur Lastayev çıxış ediblər.

Daha sonra tədbir müzakirələrlə davam edib.

Prezident Administrasiyasının Qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladovun moderatorluğu ilə keçən "Konstitusion prinsiplər: Qanunun aliliyinə aparan yol" mövzusunda ikinci panel iclasda Qırğızıstan Konstitusiya Məhkəməsinin sədri Emil Oskonbayev, Avropa Uşaq Ombudsmanları Şəbəkəsinin (ENOC) sədri, Moldovanın Uşaq Hüquqları üzrə Xalq Vəkili Vasile Koroy, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov, Bəhreyn Krallığının Müstəqil Ombudsmanı Qada Hamid Habib, Gürcüstan Xalq Müdafiəçisi (Ombudsman) Levan İoseliani məruzə ilə çıxış ediblər.

İslam Əməkdaşlıq Təşkilatı Ombudsman Assosiasiyasının Baş Katibi, Pakistan Vergi Ombudsmanının hüquq müşaviri Almas Ali Jovindahın moderatorluğu ilə keçən "Qlobal hüquqi transformasiyalar dövründə konstitusionalizm və dövlət suverenliyi" mövzusunda üçüncü panel iclasda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Fərhad Tutayuk, Türkiyə Prezident Administrasiyasının Hüquq Siyasəti Şurasının üzvü Vedat Ali Tektaş, Qırğızıstanın Ombudsmanı Cəmilə Camanbaeva, Tailandın Konstitusiya Məhkəməsinin hakimi Noppadon Teppitak, Milli

Məclis Aparatının rəhbəri, HEQT Mərkəzinin Müşahidə Şurasının üzvü Fərid Hacıyev məruzələrlə çıxış ediblər.

Çıxışçılar, o cümlədən qonaqlar tədbir iştirakçılarına Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu yubileyi münasibətilə təbriklərini çatdırıblar.

Konfransın sonunda Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev yekun nitqi ilə çıxış edib.

**Konstitusiya Məhkəməsində beynəlxalq konfransın iştirakçıları ilə görüş keçirilib**



Konstitusiya Məhkəməsində Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümünə həsr olunan “Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində” mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmək üçün Bakı şəhərində səfərdə olan Qırğızıstan Konstitusiya Məhkəməsinin sədri Emil Oskonbayev, Türkiyənin Konstitusiya Məhkəməsinin hakimi Yıldız Seferinoğlu və Tailandın Konstitusiya

Məhkəməsinin hakimi Noppadon Teppitakın sədrlik etdiyi nümayəndə heyətləri ilə görüş keçirilib.

Görüşdə sədr Fərhad Abdullayev Konstitusiya Məhkəməsinin fəaliyyəti, qərar qəbuletmə proseduru, ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar və tətbiq edilən yeniliklər barədə məlumat verib, məhkəmələr arasında əməkdaşlığın vacibliyini vurğulayıb.

Sədr qeyd edib ki, səfər çərçivəsində keçirilən görüşlərdə təcrübə və fikir mübadiləsi ölkələrimiz arasında məhkəmə sahəsində əlaqələrin daha da dərinləşməsinə, məhkəmə-hüquq əməkdaşlığının daha da möhkəmlənməsinə və gələcək əməkdaşlığın inkişafına mühüm töhfə verəcək.

Qonaqlar Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyi  münasibətilə bir daha öz təbriklərini ifadə etmiş, beynəlxalq Konfransın uğurlu və səmərəli keçdiyini vurğulamış, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi ilə qarşılıqlı əlaqələrin inkişafında maraqlı olduqlarını qeyd edərək qonaqpərvərliyə və səmimi qəbula görə bir daha minnətdarlıqlarını bildirmişlər.

Görüş zamanı geniş fikir mübadiləsi aparılıb.

Sonda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar və xatirə şəkilləri çəkdiriblər

### Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Daşkənd şəhərində beynəlxalq konfransda iştirak edib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Otari Qvaladze və Aparatın Konstitusiya hüququ şöbəsinin müdir müavini Könül Qurbanova Özbəkistan Respublikası Konstitusiya Məhkəməsinin sədri Mirza-Uluqbek Abdulsalomovun dəvəti ilə Özbəkistan Respublikası Konstitusiya Məhkəməsinin 30 illik yubileyinə həsr olunmuş "Konstitusiya islahatları və konstitusiya nəzarəti institutunun inkişafında mövcud məsələlər" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün Özbəkistanın paytaxtı Daşkənd şəhərində səfərdə olublar.

Konfransda "Konstitusiya islahatlarından konstitusiya sabitliyinə qədər", "Rəqəmsal əsrdə konstitusiya ədalətinə çıxış və əsas hüquqların qorunması", "İnsan hüquq və azadlıqlarının müdafiəsində konstitusiya şikayəti", "Konstitusiya ədalət mühakiməsinin səmərəliliyinin artırılması: açıqlıq və ictimaiyyətin iştirakı" mövzusunda məruzələr səsləndirilib, hüquqi məsələlər üzrə müzakirələr və geniş fikir mübadiləsi aparılıb.

Beynəlxalq konfrans çərçivəsində 2025-2027-ci illər üçün Asiya Konstitusiya Məhkəmələri və Ekvivalent Təsisatlar Assosiasiyasına sədrliyin Tailand Krallığı Konstitusiya Məhkəməsindən Özbəkistan Respublikası Konstitusiya Məhkəməsinə təhvil verilməsi mərasimi keçirilib.

**Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Balkan Konstitusiya Məhkəmələrinin Forumunda iştirak edib**

13-16 noyabr tarixlərində Konstitusiya Məhkəməsinin hakimləri Rəşid Rzayev, Humay Əfəndiyeva, Aparatın Beynəlxalq hüquq və beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Səbinə Mirzəyeva Balkan Konstitusiya Məhkəmələrinin Forumunun 3-cü iclasında iştirak etmək üçün Türkiyənin Antalya şəhərinə səfər ediblər.

Balkan Konstitusiya Məhkəmələrinin Forumunun 3-cü iclası çərçivəsində "İnsan hüquqlarının standartlaşması və konstitusiya ədalət mühakiməsinin rolu" mövzusunda beynəlxalq simpozium keçirilib.

Bir sıra xarici dövlətlərin konstitusiya ədalət mühakiməsi orqanlarının sədr, hakim və məsul əməkdaşlarının iştirakı ilə keçirilən simpoziumda insan hüquqlarının standartlaşması və konstitusiya ədalət mühakiməsinin rolu ilə bağlı konstitusiya məhkəmələrinin təcrübəsi üzrə məruzələr dinlənilmiş, hüquqi müstəvidə geniş fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ilə Türkiyə Cümhuriyyəti Anayasa Məhkəməsi arasında qarşılıqlı əməkdaşlıq məsələlərinə toxunulmuşdur.

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin nümayəndə heyəti beynəlxalq konfransda iştirak edib**

Konstitusiya Məhkəməsinin hakimi Fərhad Tutayuk və Aparat rəhbəri Anar Babayev Şimali Kipr Türk Cümhuriyyəti Ali Məhkəməsinin sədri Bertan Özerdağın dəvəti ilə Şimali Kipr Türk Cümhuriyyəti Ali Məhkəməsinin 60 illik yubileyi ilə əlaqədar keçirilən "Konstitusional söz azadlığı ilə sosial medianın kəsişməsi" mövzusunda beynəlxalq konfransda iştirak etmək üçün Girne şəhərinə səfər ediblər.

Tədbirdə "Avropa İnsan Hüquqları Məhkəməsi və Türkiyə Konstitusiya Məhkəməsi qərarlarına görə ailə həyatına hörmət mənasında ailə

bütövlüyü”, “Rəqəmsal dövrdə unudulma haqqı və ədalət mühakiməsinin konstituosinal dialoqu: Şimali Kipr Türkiyə Cümhuriyyətinin perspektivi”, “Konstituosinal ifadə azadlığı və sosial media” mövzularında məruzələr səsləndirilib, hüquqi məsələlər üzrə fikir mübadiləsi aparılıb.

## Konstitusiya Məhkəməsinin hakimi Türkistan şəhərində beynəlxalq simpoziumda iştirak edib

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi Rəşid Rzayev 2025-ci il 4-5 dekabr tarixlərində Qazaxıstan Respublikası Konstitusiya Məhkəməsinin və Xoca Əhməd Yəsəvi adına Beynəlxalq Qazax Türk Universitetinin birgə təşkil etdiyi “Böyük Çöl fəlsəfəsi və hüquq mədəniyyəti” mövzusunda keçirilən Beynəlxalq Simpoziumda iştirak etmək üçün Qazaxıstan Respublikasının Türkistan şəhərində səfərdə olmuşdur.

“Fəlsəfə, Ədalət və Humanistlik: Türk Sivilizasiyasının Yeni Dövrə Varisliyi” mövzusunda keçirilən Plenar İclasda Qazaxıstan Respublikası Konstitusiya Məhkəməsinin sədri Elvira Azimova və Qazaxıstan Respublikasının Parlamenti Senatının deputatı Qıdıralı Darxan açılış nitqləri ilə çıxış etmişlər.

Tədbirdə Böyük Çölün hüquqi ənənələrində türk dövlətlərinin konstitusiya quruluşunun əsasını təşkil edən prinsiplər, insanın dəyərinin tanınması, cəzanın mütənasibliyi, mübahisələrin sülh yolu ilə həllinə üstünlük verilməsi kimi mövzularda konstitusiya məhkəmələrinin təcrübəsi üzrə məruzələr dinlənilmiş və geniş fikir mübadiləsi aparılmışdır.

Konstitusiya Məhkəməsinin hakimi Rəşid Rzayev tədbirdə qısa məruzə ilə çıxış etmişdir.

Səfər zamanı Simpozium iştirakçıları Xoca Əhməd Yəsəvi türbəsini ziyarət etmiş, mədəni proqram çərçivəsində Türkistan Musiqili-Dram Teatrında Abay Kunanbayevin “Qara sözlər” musiqili tamaşasını izləmişlər.

## Konstitusiya Məhkəməsində qanvermə aksiyası keçirilib

2025-ci il dekabrın 8-də Konstitusiya Məhkəməsində “Konstitusiya və Suverenlik İli” çərçivəsində könüllü qanvermə aksiyası keçirilib.

Aksiyanın əsas məqsədi irsi qan xəstəliklərindən əziyyət çəkən vətəndaşların həyatının xilas edilməsinə, eləcə də ölkədə qan ehtiyatlarının təhlükəsiz səviyyədə saxlanmasına dəstək verməkdən ibarətdir. Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı ölkəmizdə minlərlə insanın həyatına ümid, gələcək nəsillərin sağlam böyüməsinə real təminat bəxş edir.

Təşkil olunan kütləvi qanvermə aksiyaları cəmiyyət üçün vacib sosial əhəmiyyət daşıyır və insanların həyatının xilas edilməsində mühüm rol oynayır.

Konstitusiya Məhkəməsinin və Səhiyyə Nazirliyi Respublika Qan Bankının donor proqramı ilə əməkdaşlıq şəraitində təşkil olunan qanvermə aksiyasında Məhkəmənin hakimləri və Aparatın əməkdaşları iştirak edərək, qan ehtiyatlarının artırılmasına dəstək olublar. Qanvermə prosesi tibbi standartlara uyğun şəkildə, donorların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi nəzərə alınaraq, peşəkar tibbi personal tərəfindən həyata keçirilib.

## Konstitusiya Məhkəməsində Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasının magistrantları ilə görüş keçirilib

Dekabrın 9-da Azərbaycan Respublikası Konstitusiya Məhkəməsində Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasının magistrantları ilə görüş keçirilib.

Görüş zamanı Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları tərəfindən Konstitusiya Məhkəməsinin praktiki fəaliyyəti, qərarların qəbuletmə proseduru və Plenum tərəfindən qəbul edilmiş qərarlarda əks olunmuş bəzi hüquqi mövqelər, konstitusiya ədalət mühakiməsi sahəsində beynəlxalq məhkəmə-hüquq əməkdaşlığı barədə məlumat verilib.

Qonaqlar səmimi qəbula görə Konstitusiya Məhkəməsinin kollektivinə minnətdarlığını bildirərək, Azərbaycan Respublikası Ədliyyə Akademiyasında stajkeçmə proqramını yüksək qiymətləndirmiş, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyəti ilə bağlı bir sıra suallar vermişlər.

Tədbirin sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar və xatirə fotoşəkilləri çəkdiriblər.

## Konstitusiya Məhkəməsinin sədri, hakimləri və Aparatın məsul əməkdaşları Dahi Lider Heydər Əliyevin məzarını ziyarət edib



Bu gün müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötür.

Dekabrın 12-də Ulu Öndər Heydər Əliyevin anım günündə Konstitusiya Məhkəməsinin sədri, hakimləri və Aparatın məsul əməkdaşları Fəxri xiyabana gələrək, dahi lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyublar, əziz xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Daha sonra Konstitusiya Məhkəməsində Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə sədr Fərhad Abdullayev bildirib ki, Azərbaycan dövlətçilik tarixində müstəsna xidmətləri olan dahi rəhbər öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

Qeyd olunub ki, bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müstəqil və suveren Azərbaycanın daxili və xarici siyasəti, respublikamızın dinamik inkişafı, beynəlxalq arenada sarsılmaz mövqeyi və böyük nüfuzu Ulu Öndər Heydər Əliyevin siyasi irsinin davamıdır.

Tədbirdə Konstitusiya Məhkəməsinin hakimi Fikrət Məmmədovun "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" kitabının təqdimatı olub. Kitabda dahi şəxsiyyət Heydər Əliyevin həyat yolu, dövlətçilik fəlsəfəsi və Azərbaycan tarixində həlledici rolu sistemli şəkildə təhlil edilir.

Əsərdə Heydər Əliyevin rəhbərliyinin müxtəlif mərhələləri əhatə olunmaqla onun müasir dövlətçilik quruculuğuna verdiyi töhfələr, ədliyyə siyasəti və məhkəmə sistemi sahəsində həyata keçirdiyi islahatlar geniş şəkildə işıqlandırılır. Həmçinin, Ümummili Liderin siyasi varisliyi konsepsiyası, Prezident İlham Əliyevin demoktarik, hüquqi və dünyəvi dövlət quruculuğunda əldə etdiyi nailiyyətlər, eyni zamanda 2023-cü ilin "Heydər Əliyev İli" çərçivəsində görülən mühüm işlər analitik baxımdan təqdim edilir. Kitabın ana xəttində Ulu Öndərin zəngin irsinin öyrənilməsi, qiymətləndirilməsi və gələcək nəsillər üçün əhəmiyyəti haqqında elmi əsaslandırılmış nəticələri öz əksini tapır.

## Konstitusiya Məhkəməsində "Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" adlı kitabının təqdimatı keçirilib

Dekabrın 16-da Konstitusiya Məhkəməsində hakimlərin və Aparatın məsul əməkdaşlarının iştirakı ilə hüquq üzrə fəlsəfə doktoru, Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyəti sədrinin müavini Vəfaddin İbayevin "Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" adlı kitabının təqdimatı keçirilmişdir.

Təqdim edilən kitabda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müxtəlif illərdə beynəlxalq və yerli media qurumlarına verdiyi müsahibələr, çıxışlar və bəyanatlar əsasında suverenlik ideyasının praktik reallaşması, o cümlədən 44 günlük Vətən müharibəsi və postmüharibə dövründə həyata keçirilən dövlət siyasəti elmi-analitik müstəvidə öz əksini tapıb.

Qeyd olunub ki, kitab konstitusiya hüququ, dövlətçilik və siyasi-hüquqi proseslər sahəsində aparılan elmi araşdırmalar baxımından mühüm




əhəmiyyət kəsb edir; hüquqşünaslar, tədqiqatçılar, eləcə də geniş oxucu auditoriyası üçün faydalı mənbədir.

Tədbirin sonunda müəllifə elmi fəaliyyətində uğurlar arzulanmış, kitabın hüquqi-elmi ictimaiyyət tərəfindən maraqla qarşılanacağı bildirilmişdir.

## Konstitusiya Məhkəməsində Vəkillər Kollegiyasının dəstəyi ilə keçirilən ELSA məhkəmə müsabiqəsinin qalibləri müəyyənləşib

Konstitusiya Məhkəməsində ELSA Azərbaycan tərəfindən Vəkillər Kollegiyasının dəstəyi ilə təşkil olunan Avropa İnsan Hüquqları Məhkəməsi Simulyasiyasının XI buraxılışının final mərhələsi keçirilib.

Tədbirdə Konstitusiya Məhkəməsinin Aparat rəhbərinin müavini Ziya Qasımov çıxış edərək müsabiqənin tələbələrin hüquqi bilik və praktiki bacarıqlarının formalaşmasında mühüm rol oynadığını vurğulayıb və onlara uğurlar arzulayıb.

Konstitusiya Məhkəməsinin İnsan hüquqları və analitik şöbəsinin müdiri Anar Cəfərov iştirakçılara gələcək fəaliyyətlərində uğurlar diləyib, müsabiqənin insan hüquqlarının müdafiəsi mexanizmlərinə və hüquqi düşüncə mədəniyyətinin formalaşmasına mühüm töhfə verdiyini qeyd edib.



ELSA Azərbaycanın rəhbəri Tarif Hüseynov və təşkilatın Səhnələşdirilmiş Məhkəmə Müsabiqələri üzrə vitse-prezidenti Səmayə Abbasquliyeva birgə əməkdaşlıq çərçivəsində keçirilən Avropa İnsan Hüquqları Məhkəməsi Simulyasiyasının əhəmiyyətindən danışıb, yarışın qaydaları barədə məlumat veriblər.

Sonra səhnələşdirilmiş məhkəmə prosesi keçirilib.

Final mərhələsində hakimlər qismində 9 nəfərlik tərkibdə kollegiyanın Aparat rəhbərinin müavini Səttar Məmmədov, kollegiyanın üzvləri – Sevinc Əliyeva, Şəfa Camalzadə, Sadiq Bağırov və Qəndab Fərəcova, habelə hüquqşünaslar Füzuli Cəbrayıllı, Nəzrin Əliyeva, Orxan Bəşirli və Kamil Dəmirli iştirak ediblər.

Həlledici mərhələdə "Aletheia" və "Corpus Delicti" komandaları üz-üzə gəlib. Müsabiqənin nəticələrinə əsasən, "Corpus Delicti" komandasını təmsil edən Bakı Dövlət Universitetinin (BDU) III kurs tələbələri Gülnar Mütəllibova və Zəhra Hüseynova I yerə layiq görülüb, həmçinin "Ən yaxşı memorial (cavabdeh kimi)" nominasiyası üzrə qalib elan olunublar.

"Aletheia" komandasının üzvləri, BDU-nun II kurs tələbələri Aydan Məcidli və Aytac Məmmədova II yeri tutaraq "Ən yaxşı memorial (ərizəçi kimi)" nominasiyasına layiq görülüblər. Eyni zamanda, Gülnar Mütəllibova müsabiqənin "Ən yaxşı natiqi" seçilib.

Sonda Vəkillər Kollegiyasının Aparat rəhbərinin müavini Səttar Məmmədov çıxış edərək qalib komandaları təbrik edib. Qaliblərə mükafatlar təqdim olunub.

Müsabiqədə iştirak edən hər iki komanda mükafat və sertifikatlarla, qalib komandanın üzvləri isə kuboklarla təltif edilib.

## Konstitusiya Məhkəməsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının nümayəndə heyəti ilə görüş keçirilib



Dekabrın 24-də Konstitusiya Məhkəməsində "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialının nümayəndə heyəti ilə görüş keçirilmişdir.

Tədbirdə Konstitusiya Məhkəməsinin hakimləri, Aparat rəhbərliyi və məsul əməkdaşlar, həmçinin ADPU-nun Quba filialının direktoru, müəllim və tələbə heyəti iştirak edib.

Görüş zamanı Konstitusiya Məhkəməsinin fəaliyyəti, qərar qəbuletmə proseduru, ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar və tətbiq edilən yeniliklər barədə məlumat verilib, həmçinin Konstitusiyanın rolu, suverenliyin hüquqi əsasları, hüquqi maarifləndirmənin əhəmiyyəti,



ali təhsil müəssisələri ilə məhkəmə-hüquq orqanları arasında əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Qonaqlar səmimi qəbula görə Konstitusiya Məhkəməsinin rəhbərliyinə və kollektivinə minnətdarlığını bildiriblər. Daha sonra məhkəmənin fəaliyyəti ilə bağlı bir sıra suallar cavablandırılıb.

Tədbirin sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar və xatirə fotoşəkilləri çəkdiriblər.

**M Ü N D Ə R İ C A T**

***I hissə***

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Qərarları**


Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 17, 18.2 və 18.3-cü maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair 12 yanvar 2023-cü il tarixli qərar ....................3

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 372.1, 373.1, 373.3, 551.1, 551.2.1 və 553.1.1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından şərh olunmasına dair 15 fevral 2023-cü il tarixli qərar ....................23

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 150.9-cu maddəsinin həmin Məcəllənin 38, 145.1.6 və 146.1-1-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair 28 mart 2023-cü il tarixli qərar ................48

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin şərh edilməsinə dair 11 aprel 2023-cü il tarixli qərar ...........74

"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinin həmin Qanunun 10.2, 13.1, 13.2, 52.1 və 58.3-cü maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair 14 aprel 2023-cü il tarixli qərar ....................91

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 234.4.4 və 236-cı maddələrinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 428.10-cu maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair 14 iyul 2023-cü il tarixli qərar ....................106


***II hissə***

**Rəsmi sənədlər, Müraciət**


Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ....................133

Azərbaycan Respublikası Prezidentinin müraciəti ........................135

"Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi

Konstitusiya Məhkəməsinin Məlumatı №1/2025

haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ....................................138

## *III hissə*
## Məqalələr

**Fərhad Abdullayev.** Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 30 il keçir ....................................................................142

**Həcər Qurbanova.** Suverenlik: Müasir, Qüdrətli və Qalib Azərbaycan reallığı....................................................................................................162

**İntiqam Eyvazov.** Azərbaycan Respublikasının Konstitusiyasında İnsan hüquqlarının müdafiəsinin hüquqi vasitələri.......................................169

**Rəna Abbasova.** Konstitusiya ilə bəyan edilmiş əsas prinsip və dəyərlər...................................................................................................175

**Sona Salmanova.** Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təməli kimi...........................................................................................180

**Rüstəm Səlimov.** Azərbaycan Konstitusiyası dövlət hüquq sisteminin əsası kimi ..........................................................................................188

**Orxan Rzayev.** Konstitusiyamızın 30 illik yolu və Suverenliyin bərpası: Tarix, Hüquq, Qürur ..........................................................................195

## *IV hissə*
## Tədbirlər, Görüşlər, Səfərlər

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində 20 yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib .............205

Konstitusiya Məhkəməsinin kollektivi Şəhidlər xiyabanını ziyarət edib ..........................................................................................................207

Konstitusiya Məhkəməsi Aparatının 2024-cü il üzrə hesabat iclası keçirilib......................................................................................................208

"Gələcəyə baxış: yeni reallıqlar şəraitində suverenliyin möhkəmləndirilməsi" mövzusuna həsr olunan forum keçirilib .......................210

Xocalı faciəsinin 33-cü ildönümü ilə əlaqədar Konstitusiya Məhkəməsində anım tədbiri keçirilib...................................................211

Konstitusiya Məhkəməsinin sədri Tiranada beynəlxalq konfransda iştirak edib ..................................................................................................214

Konstitusiya Məhkəməsi ilə Dövlət İdarəçilik Akademiyası arasında əməkdaşlıq haqqında Memorandum imzalanıb...................................215

X.R.Vəliyevin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı....................................................................................217
Azərbayca Respublikasının Konstitusiya Məhkəməsində hakim Rafael Qvaladzenin səlahiyyət müddətinin başa çatması və yeni təyin olunmuş hakim Xanlar Vəliyevin kollektivə təqdim edilməsi ilə bağlı tədbir keçirilib....................................................................................218
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin 63-cü ildönümü münasibətilə "XXI əsrdə Konstitusiya Ədalət Mühakiməsinin Gələcəyi" mövzusunda keçirilmiş simpoziumda iştirak edib .............................219
"Konstitusiya və Suverenlik İli" nə həsr olunmuş hüquq olimpiadasının qalibləri mükafatlandırılıb...................................................................222
Bakıda Konstitusiyanın dövlətçilik roluna həsr olunmuş beynəlxalq konfrans keçirilib....................................................................................224
Konstitusiya Məhkəməsində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr edilmiş konfrans keçirilib ...............226
Konstitusiya Məhkəməsinin kollektivi Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib ....................................................................230
Naxçıvan Muxtar Respublikasında "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Konstitusiya: hüquqi və demokratik islahatların mənbəyi, suverenliyin hüquqi əsası" mövzusunda elmi-nəzəri konfrans keçirilib....................................................................................230
Bakıda Ombudsmanların Beynəlxalq Simpoziumu keçirilib .........235
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı....235
Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində yeni hakimlərinin kollektivə təqdim edilməsi ilə bağlı tədbir keçirilib ...............236
Azərbaycan Respublikası Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq konfrans və TÜRK-AY-ın birinci konqresi keçirilmişdir....................................................................................238
Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Seul şəhərində beynəlxalq simpoziumda iştirak edib...........................................................244
Konstitusiya Məhkəməsinin hakimi Astana şəhərində keçirilmiş beynəlxalq forumda iştirak edib............................................................
Milli Məclisdə Dövlət Suverenliyi Gününə həsr olunmuş konfrans keçirilib....................................................................................246

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin kollektivi Zəfər parkını ziyarət edib ....................................................................250
Azərbaycan Respublikası Konstitusiya `Məhkəməsində hakimliyə namizədlərlə görüş keçirilib ..........................................................251
Konstitusiya Məhkəməsində Türkiyə İnsan Hüquqları və Bərabərlik Qurumunun nümayəndə heyəti ilə görüş keçirilib ................................253
Konstitusiya Məhkəməsində Macarıstan Konstitusiya Məhkəməsinin nümayəndə heyəti ilə görüş keçirilib ..............................................255
Sumqayıt Məhkəmə Kompleksində Konstitusiya Məhkəməsinin rəhbərliyinin iştirakı ilə "Konstitusiya və Suverenlik İli"çərçivəsində tədbir keçirilib.....................................................................................................256
Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Madriddə keçirilən VI Konqresdə iştirak edib ...........................................................260
"Konstitusiya və qanunun aliliyi müasir hüquq sistemlərində" mövzusunda beynəlxalq konfrans keçirilib........................................263
Konstitusiya Məhkəməsində beynəlxalq konfransın iştirakçıları ilə görüş keçirilib..........................................................................274
Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Daşkənd şəhərində beynəlxalq konfransda iştirak edib....................................................275
Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Balkan Konstitusiya Məhkəmələrinin Forumunda iştirak edib ..........................................276
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin nümayəndə heyəti beynəlxalq konfransda iştirak edib ..........................................276
Konstitusiya Məhkəməsinin hakimi Türkistan şəhərində beynəlxalq simpoziumda iştirak edib .....................................................................277
Konstitusiya Məhkəməsində qanvermə aksiyası keçirilib .............277
Konstitusiya Məhkəməsində Qazaxıstan Respublikası Ali Məhkəməsi Şurası yanında Ədliyyə Akademiyasının magistrantları ilə görüş keçirilib ..........................................................................................278
Konstitusiya Məhkəməsinin kollektivi Dahi Lider Heydər Əliyevin məzarını ziyarət edib ..................................................................279
Konstitusiya Məhkəməsində "Suverenliyin zəfər yolu: reallaşan ideyalar, hüquqi əsaslar, siyasi paralellər" adlı kitabının təqdimatı keçirilib .......280
Konstitusiya Məhkəməsində Vəkillər Kollegiyasının dəstəyi ilə ELSA məhkəmə müsabiqəsinin qalibləri müəyyənləşib...............................281
Konstitusiya Məhkəməsində Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının nümayəndələri ilə görüş keçirilib .......................283

**REDAKTORLAR:**

Murad Yusif-zadə,
Günel Kərimova,
Nigar Yusubova,
Tələt Binnətzadə,
Cəmilə Məmmədova,
Ellada Məhəmmədova

**Redaksiyanın ünvanı:**

AZ1005, Bakı şəhəri, Gənclər Meydanı, 1.
Tel.: (+99412) 492-98-49
www.constcourt.gov.az